ISSN 2410-4108

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası

Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası

ƏMƏK VƏ SOSİAL MÜNASİBƏTLƏR



ELMİ-PRAKTİKİ JURNAL

№ 1 (09) 2018

ISSN 2410-4108

AZƏRBAYCAN HƏMKARLAR İTTİFAQLARI KONFEDERASİYASI
AZƏRBAYCAN ƏMƏK VƏ SOSİAL MÜNASİBƏTLƏR AKADEMİYASI

"ƏMƏK və SOSİAL MÜNASİBƏTLƏR"

Elmi-praktiki jurnal

№ 1 (09)

BAKI - 2018

BAŞ REDAKTOR:
Hüseyn Qaraşov, *sosiologiya üzrə elmlər doktoru, professor*

BAŞ REDAKTORUN MÜAVİNİ:
Mobil Məcidov, *iqtisad üzrə fəlsəfə doktoru, dosent*

MƏSUL KATİB:
Zeynəddin Şabanov, *fəlsəfə üzrə fəlsəfə doktoru, dosent*

REDAKSİYA HEYƏTİ:

i.ü.e.d., professor Səttar Mehbalıyev - Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri

sos.ü.e.d., professor Hüseyn Qaraşov - Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının rektoru, baş redaktor

i.ü.e.d., professor Ramiz İsgəndərov - Azərbaycan Texniki Universitetinin "Sənaye iqtisadiyyatı və menecment" kafedrasının müdiri

i.ü.e.d., professor Tərbiz Əliyev - AMEA İqtisadiyyat İnstitutunun "Sahibkarlıq və inhisarçılığın tənzimlənməsi problemləri" şöbəsinin baş elmi işçisi

i.ü.e.d., professor Sadıq Salahov - Kənd Təsərrüfatının İqtisadiyyatı Elmi Tədqiqat İnstitutunun direktoru

fəl.ü.e.d., professor İlham Məmmədzadə - AMEA Fəlsəfə İnstitutunun direktoru

ped.ü.e.d., professor Fərahim Sadıqov - Bakı Elm-Təhsil Mərkəzinin direktoru

tarix ü.e.d., professor Vəkil Həsənov - Azərbaycan Dövlət İqtisad Universitetinin "Humanitar fənlər" kafedrasının müdiri

biol.ü.f.d., dosent Sirac Məmmədov - Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının Tədris işləri üzrə prorektoru

i.ü.f.d., dosent Mobil Məcidov - Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının Elmi işlər üzrə prorektoru, baş redaktorun müavini

i.ü.f.d., dosent Əsgər Əliyev - Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının "İqtisadiyyat" fakültəsinin dekanı

i.ü.f.d., dosent Hicran Mirzəyeva - Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının "Maliyyə" fakültəsinin dekanı

fəl.ü.f.d., dosent Zeynəddin Şabanov - Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının "Sosial tərəfdaşlıq, Həmkarlar ittifaqı hərəkatı və humanitar fənlər" kafedrasının müdiri, məsul katib

i.ü.f.d., dosent Raziyyə Maniyeva - Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının "Həmkarlar ittifaqları kadr və fəallarının ixtisasartırma və yenidən hazırlanması" şöbəsinin müdiri

i.ü.f.d., dosent Gülnarə Hacıyeva - Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının "Maliyyə və mühasibat uçotu" kafedrasının müdiri

i.ü.f.d. dosent Fəhrad Mehbalıyev - Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının "İqtisadiyyat və idarəetmə" kafedrasının müdiri

Azərbaycan Respublikası, Bakı şəhəri, Azadlıq pr.181, Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası
Tel.: (055)347-34-36; e-mail: jurnal@aesma.edu.az

Jurnal Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının

Elmi Şurasının qərarı ilə çap olunur. (protokol № 12, 30.06.2018)

Jurnal Ədliyyə Nazirliyində qeydiyyatdan keçmişdir. Qeydiyyat № 3883. 07.05.2014

MÜNDƏRİCAT

MÜNDƏRİCAT.....3

HƏMKARLAR İTTİFAQI HƏRƏKATI VƏ SOSİAL TƏRƏFDAŞLIQ BÖLMƏSİ

Zeynəddin Şabanov

Həmkarlar İttifaqlarının Azərbaycan Xalq Cümhuriyyəti dövrü və Cavad Bəy Məlikyeqanovun vətənpərvərliyi.....5

HUMANİTAR VƏ SOSİAL ELMLƏR BÖLMƏSİ

Faiq Ələkbərli

Məhəmməd Əmin Rəsulzadənin yaradıcılığında fəlsəfi və sosial-siyasi problemlər (mühacirət dövrü).....15

Əbülfəz Hüseynov

Hüquqi idrak və hüquqi şüur.....25

Nəzakət Salmanova

Sosial təsisat kimi ailənin spesifikliyi.....32

Həcər Abdallı

Ailə məişətində milli və dini normalar.....39

Тахмина Агакишиева

Азербайджанская Демократическая Республика – гордость азербайджанского народа.....47

Üzeyir Şəfiyev

Ailə sosial işin obyekti kimi.....53

Tamilə Həsənova

Azərbaycanın tarixi abidələri: Qubadakı Çuxur (və ya Gümbəzli) hamam.....57

Həlimə Qafarova

Azərbaycan cəmiyyyətində modern həyat tərzinə adaptasiyanın spesifik xüsusiyyətləri.....61

Nərmin Əsgərli

Dünyanı dəyişən 11 sentyabr terroru.....65

İlham Soltanov

Fəlsəfi fikir tarixində şəxsiyyətin özgələşməsi problemi.....68

İQTİSADİYYAT VƏ İDARƏETMƏ BÖLMƏSİ

Fəhrad Mehbalıyev, Nurəngiz Mikayılova

Azərbaycan Xalq Cümhuriyyətinin dövlət quruculugu sahəsində həyata keçirdiyi sosial-iqtisadi siyasətin əsas istiqamətləri.....72

Vilayət İsmayılov

Azərbaycanda turist-rekreasiya klasterinin formalaşmasının aktual problemləri.....85

Гюльнара Гаджиева

Формы промышленной политики.....91

Söhrab Məhərrəmov

Müasir internet kommunikasiyaları.....99

Təranə Vəliyeva

Müasir iqtisadiyyatda informasiya kommunikasiya texnologiyalarının rolu.....111

Müharib Zeynalov, Daşqın Adgözəlov

Ekonometrik modellərin tətbiqi ilə iqtisadi inkişafın proqnozlaşdırılması.....115

HƏMKARLAR İTTİFAQI HƏRƏKATI VƏ SOSİAL TƏRƏFDAŞLIQ BÖLMƏSİ

UOT – 316

Zeynəddin Şabanov
Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası, fəlsəfə ü.f.d., dosent

HƏMKARLAR İTTİFAQLARININ AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ DÖVRÜ VƏ CAVAD BƏY MƏLİKYEQANOVUN VƏTƏNPƏRVƏRLİYİ

Məqalədə həmkarlar ittifaqlarının Azərbaycan Xalq Cümhuriyyəti dövründə fəaliyyətinə işıq salınır, buradakı mürəkkəb vəziyyət geniş təhlil olunur. Bildirilir ki, həmin dövrdə üzvlüyündə qeyri-azərbaycanlıların, bolşeviklərin çoxluq təşkil etdiyi həmkarlar ittifaqları (Bakı Fəhlə Konfransı) milli hökumətin qərarlarını qəbul etmir, tez-tez mitinq və tətillər keçirərək yeni yaranmış hökumətə əlavə problemlər yaradır, sahibkarlara zərər yetirir, iqtisadi böhranı dərinləşdirir, Sovet Rusiyasına meyillənmiş təbliğat aparırdı. Bildirilir ki, C.Məlikyeqanovun rəhbərlik etdiyi sonradan yaranmış Həmkarlar İttifaqı Mərkəzi isə doğru yol tutaraq Milli hökumətə dəstək vermiş, fəhlələr müstəqil respublikanın güclənməsi üçün səy göstərmişlər. Məqalədə C.Məlikyeqanovun həyat yoluna nəzər salınır, onun vətənpərvərliyi və fədakarlığı geniş təhlil olunur.

Azərbaycan Xalq Cümhuriyyəti qurulduqdan sonra xalqın sərvətlərinin talan edilməsinin qarşısı alındı. Lakin bolşeviklərin həmkarlar ittifaqları təşkilatlarına güclü təsiri davam edirdi. Ümumilikdə isə Bakı fəhlələri içərisində qeyri-azərbaycanlılar üstünlük təşkil edirdi. Onların da əksəriyyəti bolşeviklərin tərəfini saxlayırdılar.

Gənc Azərbaycan hökuməti ölkədə sabitliyi saxlamaq üçün bütün diplomatik imkanlarından çevikliklə istifadə edərək, ingilis komandanlığı ilə siyasi kompromisə getməyə məcbur olmuşdu. Bu dövrdə xırda burjua liderlərinin rəhbərlik etdiyi Bakı Fəhlə Konfransının (BFK) hökumətlə barışmaz müxalifətdə olması Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyətinə pozucu çətinliklər yaradırdı. 1918-ci il dekabrın 24-də BFK məhbusların buraxılması, mətbuat azadlığı, həmkarlar ittifaqının sərbəstliyi, yığıncaqlar azadlığı şüarları altında tətil keçirdi. Bu xəyanətkar tətildə menşevik Çurayev Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin guya həmkarlar ittifaqlarının azadlığını pozduğu barədə riyakar bəyanat vermiş və qanuni Azərbaycan dövlətilə hesablaşmayaraq ingilis komandanlığından tələb etmişdi ki, neft sahibkarlarından və fəhlə konfransı nümayəndələrindən ibarət sazişçi komissiya yaradılsın və kollektiv müqavilə bərpa olunsun. BFK-nın iclasında iştirak edən M.Ə.Rəsulzadə konfransın liderlərinin separatçı mövqeyini qəti pisləmiş və xüsusilə vurğulamışdı ki, fəhlələrin iqtisadi maraqları ilə bağlı bu problemin həllində səlahiyyətli tərəf ingilis komandanlığı deyil, öz parlamentinə söykənən yeganə qanuni Azərbaycan hökumətidir [5, s.25].

Üçgünlük 1918-ci il dekabr tətili Bakı fəhlələrinin qələbəsi ilə başa çatdı. Tətilin "ibrət dərsləri" bu oldu ki, fəhlə kütləsi içərisində bolşeviklərin riyakar siması üzə çıxdı, ingilis komandanlığı isə Bakı proletariatının real gücünü hiss edərək, onun siyasi tələblərinə daha ehtiyatlı yanaşmağa başladı. Komandanlıq güzəştə gedərək məhbusları azad etməli olmuşdu. Vəziyyətin mürəkkəb xarakterini real qiymətləndirən Parlament özünün 1918-ci il 25 dekabr tarixli iclasında siyasi məhbuslara amnistiya vermək məqsədilə A.Kardaşev, A.Əfəndiyev, A.Tağıyev, A.Səfikürdski, S.Ağamalıoğlundan ibarət komissiya yaratmalı oldu. Fəhlə tətillərinin yaratdığı mürəkkəb sosial-siyasi şərait elə idi ki, həm Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin, həm BFK-nın tədbirlərində fəhlələrin əmək hüquqları gündəlikdən düşmürdü. Dekabr tətilindən sonra mütəmadi keçirilən fəhlə konfranslarında siyasi xarakterli məsələlərin müzakirəsinə daha çox yer verilirdi. Artıq 1919-cu ilin yanvarında etnik situasiya da mürəkkəbləşmişdi. Belə ki, rus fəhlələri açıq-aşkar kommunistlərə meyil göstərir, bolşeviklərin konfransında onlar daha çox çıxış edərək, fəhlələr arasında Müsavat hökumə-

tinin sosial siyasətinə qarşı böhtançı bəyannamələr yayırdılar. Həmin ilin martından kommunistlər konfransın tədbirlərində çoxluq təşkil etməyə başlayır. Artıq konfransın rəyasət heyətində təmsil olunan 10 üzvdən 7-si kommunist idi. 1919-cu il yanvarın 8-də parlament iclasında müsavatçı A.K. Kazımzadənin müsavat fraksiyasının Əmək nazirinə ünvanladığı tələbdə fəhlələrin vəziyyətinin son dərəcə ağır olduğu göstərilir, kollektiv müqavilənin ləğv edilməsi, əməkhaqqının aşağı düşməsi xüsusi vurğulanırdı. Müsavat fraksiyasının bu haqlı iradına Əmək naziri A.Səfikürdski operativ reaksiya verərək, fəhlələrin vəziyyətini yaxşılaşdırmaq üçün hökumətin bütün səyləri göstərəcəyini bəyan etmişdi. O, müttəfiqlərin, komandanlığın, neft sahibkarlarının, bank və fabrik müfəttişliyi nümayəndələrinin iştirakı ilə çağırılmış müşavirədə 1919-cu il yanvarın 1-dən fəhlə və qulluqçuların maaşını artırmaq məqsədilə müəyyən vəsaitin ayrılacağını bəyan etmişdi. Əmək nazirliyi iqtisadiyyatı inkişaf etdirmək təşəbbüsünü bolşevik hay-küyçülərinin, eləcə də menşevik-daşnak millətçilərinin öhdəsinə buraxmamaq üçün özü fəhlə məsələsi üzrə xüsusi müşavirənin təşkilinə başlamışdı. Xüsusi müşavirə əməyin mühafizəsi və fəhlələrin məişət məsələləri ilə bağlı problemləri tez bir zamanda həll etməyi planlaşdırmışdı [6, s.21]. Təəssüf ki, həm subyektiv, həm də obyektiv səbəblər, eləcə də bürokratik süründürməçilik üzündən parlament gənc respublikanın siyasi imici üçün müstəsna əhəmiyyət kəsb edən bu sənədi yalnız 1919-cu il martın 19-da təsdiq etdi. Hökumət "fəhlələr məsələsi"lə ciddi məşğul olsa da, əməkhaqqının artırılması məqsədilə mümkün daxili vəsait və imkanların axtarışlarında əlindən gələni etsə də, ölkənin iqtisadi vəziyyətində müsbət dəyişikliklərə nail ola bilməmişdi, əksinə, bolşeviklərin təxribatçı səyləri nəticəsində istehsalın tempi aşağı düşür, gündəlik tələbat məhsullarının qiyməti artırdı. Lakin artmaqda olan iqtisadi böhran hökuməti təxirəsalınmaz tədbirlər görməyə vadar etsə də, digər partiya və fraksiyaların parlamentin fəaliyyətini pozmağa yönəlmiş hərəkətləri ölkədə siyasi-iqtisadi böhranı daha da kəskinləşdirirdi. Məsələn, 1919-cu il fevralın 4-də Parlamentdə fəhlə komissiyasının əməkhaqqını artırmaq üzrə qanun layihəsi müzakirə edilərkən, sosialistlər bunun fəhlələrin maddi vəziyyətinin yaxşılaşdırılmasında heç bir faydası olmayacağını da israr etmişdilər. Bu məsələdə "İttihad" partiyası da sosialistləri dəstəkləmişdir. Layihəni yalnız "müsavat"çılar bəyənib müdafiə etmişdilər. İttihadçıların bu mövqeyi əslində hökumətə ilk etimadsızlığın təzahürü idi [4, s.32].

Buna baxmayaraq, ayrı-ayrı yerlərdə əmək adamlarının geniş yığıncaqları keçirilir və parlamenti müdafiə edən qətnamələr qəbul olunurdu. 1919-cu il yanvarın 1-də Ramanada fəhlələrin 500 nəfərlik yığıncağı bu mövqeni belə ifadə edirdi: "Biz, Ramanada yaşayan fəhlə və kəndlilər Azərbaycan parlamentini təbrik edir və ona bütün qəlbimizlə etimad göstəririk. Biz "Znamya truda", "Naşe Vremya", "Vperyod" qəzetlərində millətimizə düşmənçilik münasibətləri əks etdirən məqalələrə etirazımızı bildiririk". Hümmətçi-menşeviklər də hökumətin iqtisadi siyasətini birmənalı şəkildə qeyri-qənaətbəxş sayır, üstəlik də israr edirdilər ki, mövcüd parlament fəhlə və kəndlilərin mənafelərinin əsl müdafiəçisi deyildir. Buna görə də təsadüfi deyildir ki, ölkədə hökumət böhranı ilə müşayiət olunan ağır iqtisadi çətinliklərdən istifadə edən bolşeviklər Bakı fəhlələri və Zaqafqaziya və Şimali Qafqaz əhalisi ilə vahid cəbhə yaradıb, yerli "əksinqilabi" hökumətləri yıxıb Sovet Rusiyası ilə birləşmək taktikasını seçmişdilər. Bu taktikaya real qüvvə vermək məqsədilə Bakı bolşeviklərinin təşəbbüsü ilə Bakıda 1919-cu il aprelin 27-də Zaqafqaziya, Dağıstan və Zakaspi həmkarlar ittifaqlarının qurultayını keçirmişdilər. Qurultay "proletar diktaturası yolu ilə sosializmə çatmaq" şüarı altında keçmişdi. Beləliklə, həmkarlar ittifaqları tamamilə bolşeviklərin siyasi mübarizə alətinə çevrilmiş oldu. Ona görə də bütün tətillər siyasi şüarlar altında keçirilirdi. Tətillər bütün hallarda ölkənin siyasi sabitliyinə ciddi təsir göstərir, kapital ilə əmək arasında konfliktləri daha da kəskinləşdirirdi. Rusiya ilə ticarət əlaqələrinin kəsilməsi isə Azərbaycanı həm iqtisadi, həm də siyasi cəhətcə gücdən salırdı. Əhalinin yoxsulluğunu siyasi spekulyasiya obyektinə çevirən bolşeviklər müsavatçı həmkarlar ittifaqlarının sosial proqramını gözdən salmaq məqsədilə fəhlələri tez-tez təxribatçı tətillərə təhrik edirdilər [6, s.23]. Azərbaycan Xalq Cümhuriyyətinin antiböhran proqramının həyata keçirilməsinə hər vasitə ilə mane olan bolşeviklər bilərəkdən ümumi tətil elan etmiş, təkcə iqtisadi tələblər (kollektiv müqavilənin bərpası) deyil, həmkarlar ittifaqının funksiyalarına zidd siyasi tələblər (neft məhsullarını Sovet Həştərxanına göndərmək) irəli sürmüşdülər. Bolşevik "liderləri" ümumi Bir May siyasi tətilini keçirməyə nail olsalar da, hökumətin iqtisadi siyasəti əleyhinə aksiya keçir-

mək niyyətlərini həyata keçirə bilməmişlər. Çox önəmlidir ki, müsavat hökumətinə sadiqliyini nümayiş etdirərək, azərbaycanlılar tətilin hökumət əleyhinə çevrilməsinə mane olmuşdular. Bu bir daha azərbaycanlıların milli-siyasi şüurunun artmasından xəbər verirdi. Lakin parlament də öz növbəsində siyasi tətillərə yol verməmək məqsədilə 1919-cu il mayın 5-də elan etmişdi ki, BFK-nın keçirdiyi tətil iqtisadi tələblərdən uzaq siyasi aksiyalar olub, milli dövlətçiliyə qarşı çevrilmiş tətillərdir. Bu tipli tətillərdə iştirak edənlər həbs ediləcək və ölkə hüdudlarından qovulmaqla cəzalandırılacaqlar. Hökumət siyasi gərginliyi azaltmaq üçün Əmək nazirinə tapşırmışdı ki, sahibkarlarla fəhlələrin birgə görüşündə iqtisadi tələbləri müzakirə etsin. Hökumətin bu addımını sosial tərəfdaşlıq yolunda ilk mühüm addım kimi qiymətləndirmək olar [5, s.34].

Hökumətin qadağasına baxmayaraq, 1919-cu il mayın 6-da BFK yenidən tətil elan etdi. Azərbaycanlı fəhlələrin tətilin keçirilməsi əleyhinə qəti mübarizəsi hökumətin qətiyyəti sayəsində, eləcə də ölkədə sabitliyə maraq göstərən ingilis komandanlığı tərəfindən Azərbaycan Xalq Cümhuriyyətinin siyasətinin dəstəklənməsi dəmiryolçuların tətilini iflasa uğratdı. Hökumət mayın 9-da tətilçilərin 43 fəalını həbs etmişdi. Bunların arasında A.Mikoyan, A.Anaşkin, A.Çurayev və Qurbanov var idi. Dəmir yolu məsələsinə daha çox strateji faktor Cənubi Qafqazda müttəfiq qoşunlarının baş komandanı, general Q.F.Millin əmrində göstərilirdi ki, dəmir yollarının, rabitə yollarının, körpülərin, hərbi sursat anbarlarının tələf edilməsində iştirak edən şəxslər hərbi tribunala veriləcək, ölüm cəzasına məhkum ediləcəklər.

Əmək naziri isə sahibkarlardan fəhlələrin tətillər ərzində buraxılmış iş günlərini ödəməsini tələb etmişdi. 1919-cu il 13 may tətili tam məğlubiyyətə uğradı, baxmayaraq ki, həmin dövrdə bolşeviklərin rəhbərliyi onlara "rəğbət" bəsləyən həmkarlar ittifaqlarını "Bakı şəhəri və onun rayonlarının neft və emal sənayesi və onlara köməkçi sahələrin işçilərinin Birləşmiş ittifaqı"nda birləşdirə bilmişdilər. Maraqlıdır ki, tətilçilər içərisində müsəlman bolşevikləri iştirak etməmişdilər. Tətilin uğursuzluğunda müttəfiq qoşunların baş komandanlığının dəstəyilə yanaşı, BFK-nın daxilində birliyin olmaması da neqativ rol oynamışdır. Üstəlik, tətil başlanmazdan əvvəl gözləmə mövqeyi tutan menşevik-eserlər sonralar ona mənfi münasibət bildirmişdilər. Bu siyasi aksiyada bolşeviklər məğlub olsalar da, onlar Azərbaycan Xalq Cümhuriyyətinin sabitlik proqramını pozmaq siyasətindən heç zaman əl çəkməmişlər. Belə ki, ilk pozucu təşkilati addım olaraq, onlar BFK-nın menşevik rəhbərliyini bolşevik liderləri ilə əvəz etməyə nail olmuşdular. Bu taktiki manevr bolşeviklərə həmkarlar ittifaqını nəzarətə götürmək strategiyasını həyata keçirmək yolunda ciddi addım oldu. Etiraf edilməlidir ki, konkret şəraitdə siyasi-iqtisadi sabitsizlik obyektiv olaraq bolşeviklərin təxribatçı fəaliyyətinə işləyirdi. Cari iqtisadi problemlərin həll edilməməsi, sənaye işçiləri arasında narazılıq bolşeviklərə həmkarlar ittifaqlarından fəhlələrə psixoloji təsir aləti kimi istifadə etməyə imkan yaratmışdı. Digər tərəfdən, hökumətin həmkarlar ittifaqları ilə işləmək sahəsində çevik siyasətinin olmaması bolşeviklərin hökuməti devirməklə bağlı demoqoji təbliğatına psixoloji mühit yaratmışdı. Azərbaycan Xalq Cümhuriyyətinin sosial bazasının tükənməyə başladığı həmin dövrdə əvvəlcə çar Rusiyasını, sonralar isə öz qanuni milli dövlətlərini devirmək proqramını səylə həyata keçirməyə çalışan fəhlə komissiyalarının fəaliyyətində öz şüarları ilə həmkarlar ittifaqlarını partiyanın möhkəm dayağına çevirmək siyasətlərini yeritmişlər. Bolşeviklərin bu taktikası bir daha sübut etmişdi ki, onlar həmkarlar ittifaqlarının əsl sosial təyinatından yan keçərək, Azərbaycanın ictimai mühitilə heç bir əlaqəsi olmayan proletar inqilabı ideyalarını təbliğ etməyə, partiyanın hegemon qüvvə olması psixologiyasını kütlələrin beyninə yeritməyə üstünlük verirdilər. Siyasi şüurun çox aşağı səviyyədə olması, BFK-da xırda burjua müxalifətinin zəifləməsi, bütövlükdə iqtisadi vəziyyətdə pozitiv irəliləyişlərin olacağına inamsızlıq ona gətirib çıxardı ki, 1919-cu ilin yazında həmkarlar ittifaqları üzərində tam nəzarət bolşeviklərin əlinə keçdi. Təsadüfi deyildir ki, 1919-cu ilin aprelində keçirilmiş Azərbaycan, Dağıstan, Zakaspi Həmkarlar İttifaqlarının qurultayı bolşeviklərin tam üstünlüyü ilə keçmiş, bununla da sosialistlərin son dayağı olan Bakı Həmkarlar İttifaqları Şurasında da bolşeviklər tam hakimiyyətə nail ola bilmişdilər [4, s.38].

Bu qurultayda Azərbaycan həmkarlar ittifaqları tamamilə bolşeviklərin platformasına keçdilər. Bu dövrdən başlayaraq, bolşeviklərin təsiri altında olan Azərbaycan həmkarlar ittifaqları bolşeviklərin Rusiyaya qovuşmaq siyasətində alət rolunu oynamağa başladılar. Bolşeviklər həmkarlar it-

tifaqlarından öz ideyalarını kütlələrin beyninə yeritmək üçün leqal kütləvi tribuna kimi istifadə edir, bu sosial qurumun əsl təyinatından uzaqlaşaraq, Kommunist partiyasının əlində alətə çevrilməsinə nail olmuşdular.

Bunun qarşısını almaq üçün hökumət bolşeviklərin tam təsiri altında olan Mərkəzi Fəhlə Klubunu bağlamaq üçün dəfələrlə cəhd göstərmişdi. İlk dəfə 1919-cu il dekabrın 9-da MFK-nın binası möhürlənmişdi. Buna cavab olaraq, Fəhlə Konfransının Rəyasət Heyəti etiraz tətilinə çağırışla çıxış etmiş və hökuməti Mərkəzi Fəhlə Klubu binasını açmağa məcbur etmişdi [4, s.33].

Fəhlə sinfinin mənafeyini müdafiə etmək şüarı ilə kommunistlər milli hökumətə qarşı mübarizəni getdikcə gücləndirirdilər. Kommunist təbliğatçılar fəhlələrin öz hüquqları uğrunda mübarizəyə qarşı Daxili İşlər Nazirliyinin mane olması barədə fəhlələr içərisində kampaniya aparırdılar.

Bu vəziyyət parlamentin və hökumətin işinə çox ciddi mənfi təsir göstərirdi. 1919-cu il dekabrın 28-də Əmək və Əkinçilik Naziri Ə.Pepinov həmkarlar ittifaqı təşkilatlarının iştirakı ilə fəhlə məsələsinə dair müşavirə keçirdi. Nazir həmkarlar ittifaqının işlərinə nazirliyin qarışmayacağını bildirərək fəhlələri əmin etmişdi ki, fəhlə klubuna və fəhlə təşkilatlarına polis basqıları dayandırılacaq, yığıncaq azadlığı məhdudlaşdırılmayacaq və əməkhaqqı artırılacaqdır. Nazir fəhlələrdən ona kömək göstərmələrini xahiş etmişdi.

Respublikanın Daxili İşlər Naziri M. Vəkilov bəyanat verərək, Nazirliyin fəhlələrin öz iqtisadi və hüquqi vəziyyətini yaxşılaşdırmaq uğrunda mübarizəsinə qarışmayacağını bildirmiş, eyni zamanda qeyd etmişdi ki, dövlətə qarşı yönələn bütün çıxışları yatırmaq üçün hər vasitədən istifadə ediləcəkdir [5, s.40].

Buna baxmayaraq, kommunistlər inadkarlıqla mübarizəni davam etdirirdilər. Sovet Rusiyasının hərtərəfli müdaxiləsi isə vəziyyəti günbəgün gərginləşdirdi.

1920-ci il aprelin 27-dən 28-nə keçən gecə parlament hakimiyyəti Müvəqqəti İnqilab Komitəsinə təhvil verildi.

Bununla belə qeyd olunmalıdır ki, Azərbaycan Xalq Cümhuriyyəti dövründə həmkarlar ittifaqları milli dirçəliş mühitində Avropa tipli sosial institut kimi mümkün olan fəaliyyətini həyata keçirmişdir.

AXC dövrü həmkarlar ittifaqının lideri Cavad bəy Məlikyeqanov

Cavad bəy Rza bəy oğlu Məlikyeqanov 1878-ci ildə Şuşa qəzasının Tuğ kəndində anadan olmuşdu. İbtidai təhsilini məşhur maarifçi və tarixçi Mir Mehdi Xəzaninin ev məktəbində almış, sonra texniki məktəbi bitirmişdir. O, 1903-cü ildə, yəni 25 yaşında Bakıya gəlir və neft mədənlərində işləməyə başlayır, inqilabi hərəkatda iştirak edir, "Hümmət" təşkilatına üzvü olur.

1909-cu ildə çar hakimiyyətinə qarşı mübarizə apardığına görə general-qubernator Martınovun əmri ilə birillik həbs olunaraq Bakıdan sürgün edilir. Cəzası bitəndən sonra C.Məlikyeqanov doğma kəndinə qayıdır burada öz təhsili ilə məşğul olur, Şuşanın, Karyaginin (Füzuli), Ağdamın, Gəncənin və başqa şəhərlərin maarifçiləri ilə tanış olur. Baxşəli bəy Məlik Aslanovun qızı Rəna xanımla ailə qurur. Bu nikahdan oğlu Ənvər, qızı Tamara dünyaya gəlir. Lakin tale Cavad bəydən bir müddət "üzünü döndərir": o, ikiyaşlı oğlu Ənvəri, sonra isə gənc həyat yoldaşı Rəna xanımı itirir. Bu ayrılığa dözə bilməyən Cavad bəy tək qalmış qızını anası Mina xanımın yanında qoyub 1914-cü ildə yenidən Bakıya gəlir və burada milyonçu Şibayevin mədənlərində işləməyə başlayır [2].

1917-ci ildə M.Ə.Rəsulzadənin tövsiyəsi ilə "Müsavat" partiyasına üzv olur və partiyanın birinci qurultayında fəal iştirak edir. Partiyada fəhlə münaqişələri üzrə iş aparır. Partiyanın idrəedici orqanlarında aktiv çalşan Məlikyeqanov yüksək natiqlik qabiliyyəti ilə tezliklə böyük rəğbət qazanır. Bu dəfə o təhsilini və işini yoluna qoya bilir, texniki ixtisas üzrə eyni vaxtda iki ali təhsil alır. Rus, fars, alman, gürcü, erməni dillərini mənimsəyir.

Məlikyeqanov 1917-ci ilin oktyabrında "Müsavat" partiyasının Zaqafqaziya seyminin müsəlman fraksiyasının üzvü, növbəti il isə, Azərbaycan Milli Şurasının üzvü olur. 1918-ci il mayın 28-də Həsən Ağayev, Fətəli xan Xoyski, Nəsib Yusifbəyli, Rəhim Vəkilov, Xəlil Xasməmmədov, Şəfi Rüstəmbəyov, Nəriman Nərimanbəyov və Musa Rəfiyevlə birgə Cavad bəy Məlikyeqanov Azərbaycanın Müstəqilliyi haqqında İstiqlal Bəyannaməsinə imza atmış və Azərbaycan Cümhuriyyəti-

nin banilərindən biri olmuşdur. Tezliklə o, Azərbaycanın Zaqafqaziya seyminin nümayəndəsi təyin olur.

Məlikyeqanov Azərbaycan Parlamentinin üzvü kimi münaqişəli, məsuliyyətli bölgələrə ezam edilirdi, qayıdanda isə fəhlə kütləsi qarşısında hesabat verirdi. 1919-cu il martın 10-da Parlament tərəfindən təsdiq edilən fəhlə məsələsi üzrə xüsusi müşavirənin tərkibinə daxil edilmişdi. O, fəhlə məsələsini bolşevik ideologiyasının inhisarına verənlərdən fərqli olaraq, Azərbaycan Cümhuriyyətinin müstəqilliyi naminə çalışan fəhlələrin təmsilçisi idi. Azərbaycanın müstəqilliyinin Avropa dövlətləri tərəfindən tanınması tədbirlərində çıxış edərək demişdi: "Elan olunmuş müstəqilliyi Avropa tanımasaydı belə, fəhlələr onun uğrunda öz həyatlarını qoymağa həmişə hazır olmuşlar" [9].

1919-cu ilin oktyabrında "Müsavat" partiyasının ikinci qurultayında mandat komissiyasının üzvü olmuş, elə həmin ay partiyanın Bakı komitəsinə seçilmişdir. Məlikyeqanov Türk Fəhlə Konfransının təşkilatçılarından biri olmuş, Mərkəzi həmkarlar ittifaqlarına sədr seçilmişdi.

Cavad bəy Cümhuriyyətin ictimai-siyasi xadimləri arasında fəhlə sinfinə çox yaxın olmasıyla fərqlənirdi. Cavad bəy həm də üzvü olduğu Müsavat Partiyasının sıralarında həmişə sadə zəhmətkeş xalqın həyat və güzəranı ilə bağlı radikal çıxışların müəllifidir. Məsələn, 1919-cu il dekabr ayının 8-də başlanan Müsavatın dördüncü iclası tamamilə partiyanın aqrar siyasətinin müzakirəsinə həsr edilmişdi. Çıxış eləyənlər arasında Cəfər Cabbarlının, bir də Cavad bəy Məlikyeqanovun çıxışları daha çox diqqəti çəkmişdir. Geniş nitqlə çıxış eləyən Cavad bəy partiyanın zəhmətkeşlərin güzəranı ilə bağlı siyasətini sərt tənqid edir. Azərbaycan fəhlələrinin müstəqil Cümhuriyyətin qurulmasında və ərazi bütövlüyünün təmin olunmasında xidmətlərini xüsusi qeyd edən natiq bildirir ki, "göstərdikləri vətənpərvərliyə baxmayaraq, onlar heç də yaxşı vəziyyətdə yaşamırlar. Ancaq partiyanın arxasınca gedən, onun çağırışına hər zaman səs verən fəhlə sinfi iqtisadi durumlarının yaxşılaşacaqlarına ümid edirdilər" [3].

Müsavat partiyasından parlamentə təmsil olunanların siyahısında Cavad bəy yeddinci şəxs olaraq göstərilir. Partiya işində iştirakı fəhlə konfransının faəaliyyəti ilə əlamətdardır. Müsavat partiyasının ikinci qurultayında mandat komissiyasının üç üzvdən biri seçilən C.Məlikyeqanov fəhlələrin rifahını təmin etməyə çağırmışdır. Fəhlələrin Azərbaycanın müstəqilliyi uğrunda mübarizədəki xidmətlərindən, mart döyüşlərində tələfatından, Denikin əleyhinə mövqelərindən bəhs edərək bunun müqabilində onların güzəranı ilə bağlı hökumət qarşısında kəskin tələblə çıxış edirdi: "Fəhlələr tərəfindən belə dövlət vətənpərvərliyindən sonra onların ən vacib tələbatları təmin olunubmu? Cəsarətlə demək olar ki, yox. Fəhlələrin əməyini neftdən daha çox mənfəət götürən cənablar daha da istismar edirlər. Biz bu qurultaydan fəhlə məsələsinin fəhlələr üçün sərfəli tərzdə həll edildiyini eşitmək istərdik... fəhlələr 1200 rubl alırlar. Bu məbləğ çörəyə belə çatmır. Amma fəhlələr "Müsavat"ın ardınca gedirlər. Möhkəm inanırlar ki, "Müsavat" onların iqtisadi vəziyyətini yaxşılaşdıracaqdır. "Fəhlələr arasında müxtəlif xəstəliklərin tüğyan etməsindən, Nikolay dövrünün xəstəxanalarının belə onlar üçün bağlandığını, şüşəsiz pəncərələri olan kazarmalarda yaşayan fəhlələrin həyatının normallaşması nicatını neft sənayeçilərinin tədbir görməyəcəyi təqdirdə hökumətin üzərinə qoyurdu: "Hökumət özünün son sözünü deməli və bütün neft mədənlərini əlinə almalıdır". Mədən rayonu fəhlələrinin təmsilçisi olan Cavad bəy qurultayda dəmiryol fəhlələrinin adından da ətraflı məruzə etmişdi. Bir müddət onlarla işlədiyindən (hələ yazda bu barədə parlamentə məktub göndərmişdi. 3 aprel 1919-cu il iclasında sədr Həsən bəy Ağayev bildirmişdir: "Parlament üzvü Cavad bəy Məlikyeqanovun bir məktubu varid olmuşdur. Məlikyeqanov dəmiryol qulluğunda olduğunu bildirir") güzəranlarına yaxından bələd idi: "Dəmiryolçular çörəyin girvəngəsini 5 rubla alırlar, amma bu çörəyə o qədər küləş və qum qatırlart ki, onu yemək belə mümkün olmur" [1].

Azərbaycan parlamentində fəhlə hüququnun mövcud siyasi-iqtisadi şərtlər daxilində ardıcıl müdafiəçisi Cavad bəy olmuşdur. Parlamentin fəaliyyətinin ilk günlərində, üçüncü iclasda hökumət qulluqçularının, parlament xadimlərinin məvacib smetası müzakirə edilərkən fəhlənin dolanışığını ilk dəfə yada salan o idi: "Burada möhtərəm parlament əzası hamı artıq vermənin tərəfdarıdır. Biz də bununla şərikik. Fəqət, bunu nəzəri-etibarə almalıyız ki, bütün fəhlələr əziyyət altında yaşayırlar. Biz hökumət qulluqçularına artıq verməklə iş artmaz. Bir fəhlə komisyonu təşkil edilməlidir ki, bunların hamısının dərdlərini nəzərə alsın". Sol partiya təmsilçilərinin radikal çıxışlarına rəğmən

parlamentin fəhlə komissiyasına seçkilərin nəticəsi belə olur: "Məlikyeqanov 36, Heybətqulu 32, Məmməd Əmin Rəsulzadə 30, Qaraşov 28, Əliheydər Qarayev 27..." [7]. Əmək nazirliyinin nəzdində yaradılan və haqqındakı qanun layihəsi 1919-cu il martın 10-da Parlament tərəfindən təsdiq edilən fəhlə məsələsi üzrə Xüsusi Müşavirənin tərkibinə C.Məlikyeqanov da daxil edilmişdi.

Lakin 1919-cu ilin yayında gənc demokratik respublikanın cənub regionunda gərgin vəziyyət yarandı. Denkin dəstələri polkovnik İlyaşevin rəhbərliyi ilə Lənkəranda hakimiyyəti ələ keçirdilər və onu Rusiyaya birləşdirmək istəyirdilər.

Yerli əhali müxtəlif xarici qüvvələrin silahlı birliklərinin özbaşınalıqlarından əziyyət çəkirdilər, iş artıq qanunsuz "respublikalar" yaratmağa qədər gedib çıxmışdı. Cavad bəy rahat, hər şeyi yerində olan bölgəyə yox, Cümhuriyyət rəhbərliyi tərəfindən Azərbaycanın müstəqilliyini istəməyən müxtəlif siyasi və hərbi qüvvələrin meydan suladıqları vətən torpağının bir guşəsinə qayda-qanun yaratmağa göndərildi. Və o da əsl qurucu kimi bu şərəfli işin öhdəsindən ləyaqətlə gəldi, Azərbaycanın cənub hissəsində rus-erməni və bolşevik dəstələrin darmadağın edib burada Cümhuriyyət qanunlarını və hakimiyyətini bərqərar elədi.

Gənc Azərbaycan Cümhuriyyəti bütün bölgələrdə nəzarəti bərpa edənə qədər həm Qarabağda, həm də Lənkəran qəzasında özbaşınalıqlar olmuşdu. Qarabağdakı məsələlərin kökü aydındır. Lənkəran qəzasında isə Kolçakın, Denikinin və bolşeviklərin hərbi qüvvələri buranı talan edib, insanlara zülm verirdilər. Azərbaycan Respublikası Hərbiyyə Nazirliyinin Baş Qərargahının operativ kəşfiyyat idarəsinin məlumatında yazılır: "Lənkəranda bolşeviklərin 1200-dən 1500-dək silahlı adamı var. Bunlar əsasən Birinci dünya müharibəsində iştirak eləmiş ruslar və ermənilərdir. İkinci qüvvə isə denikinçilərdir" [8].

Bu qüvvələr Azərbaycanın ayrılmaz parçası olan Lənkəran qəzasında meydan sulayırdılar və hərəsi də bir "respublika" yaratdığını elan eləmişdilər. Bundan əziyyət çəkənlər isə təbii ki, yerli əhali idi. Cümhuriyyət ordusunun Lənkəran qəzasında qayda-qanun yaratmasına qədər bu bölgədə milli hökuməti tanımayan qüvvələr ağalıq edirdilər. Qanunsuz olaraq yaratdıqları Muğan Muxtar Respublikasına İllarion Talixadze, Timofey Ulyantsev, Nikolay Tutuşkin kimi denikinçilər, digər Talış Sovet Respublikasına isə bolşevik David Çirkin, Terentiy Suxorukin, Nikolay İlyaşeviç rəhbərlik edirdilər.

Gənc Azərbaycan Cümhuriyyəti təbii ki bu durumla barışa bilməzdi və təcili tədbirlər görülməliydi. Hərb Naziri Səməd bəy Mehmandarovun Lənkəran uyezdinin əhalisinə ünvanlanmış çağırışından oxuyuruq: "Vətəndaşlar, Azərbaycan Respublikası Hökumətinin iradəsilə mən Lənkəran uyezdində vətəndaş müharibəsinin qarşısını almaq, orda qayda-qanun yaratmaq, sizləri qatillərdən xilas eləmək üçün dəstə göndərirəm. Azərbaycan ordusu heç bir milli və dini ayrı-seçkiliyə yol vermədən Lənkəran uyezdinə qanunçuluq və ədalət gətirəcək, Silahlı qüvvələrin himayəsilə bölgədə tezliklə əmin-amanlıq bərpa olunacaq. Hər bir silahlı müqavimət ölüm hökmü ilə cəzalandırılacaq və orduya belə hallara qarşı amansız davranmaq əmri verilib. Öz növbəmdə həmçinin dəstənin rəisinə dinc əhaliyə qarşı heç bir zorakılığa yol verilməməsini tapşırmışam". Artıq 1919-cu il avqust saylarında "Azərbaycan" qəzeti məlumat verirdi ki, Lənkəran və Muğan bölgəsi Azərbaycan ölkəsinə tam tabe etdirildi: "Lənkəran avanturası qansız, sülh yolu ilə ləğv edildi" [3].

Beləliklə, general Səlimovun komandiri olduğu dəstə Lənkəran general-qubernatoru Cavad bəy Məlikyeqanovun rəhbərliyi ilə çoxdan bəri nizamsızlıqdan cana doymuş bölgəyə daxil olur və qısa müddətə həm bolşevikləri, həm də denikinçiləri buradan qovub çıxarır. 1918-20-ci illərdə Azərbaycan Milli Ordusunun görkəmli hərbçilərindən olan İsrafil bəy İsrafilbəyovun xatirələrindən oxuyuruq: "General Səlimovun komandanlığı ilə Prişibdən Lənkərana qədər təntənəylə keçid eləyən Azərbaycan ordusu yerli əhali tərəfindən "Yaşasın!" sədaları ilə qarşılanırdı".

C.Məlikyeqanovun yanında olmuş ingilis missiyasının vasitəçiliyi ilə 1919-cu il avqustun 15-də "Muğanın Azərbaycan hakimiyyətini tanıması haqqında barışıq şərtləri" imzalandı. Sənədi musavat hökumətinin təmsilçiləri simasında C.Məlikyeqanov və T.Məmmədov imzalamışdır. Lənkəran və Muğanın general-qubernatoru səlahiyyətilə Cavad bəy bütün diyarda hərbi vəziyyət elan etdi [2].

Beləliklə, Cavad bəyin general-qubernatorluğu ilə Azərbaycanın bu qədim yurd yerində də dinclik və əmin-amanlıq bərqərar olur. Həqiqətən Məlikyeqanov heç bir siyasi məqsəd güdmədən, firqəçiliyə yol vermədən həmişə haqqın və ədalətin yanında olub. Onun Lənkərana general-qubernator təyin edilməsində xarakterinin məhz bu xüsusiyyətləri rol oynamışdır. Cümhuriyyət rəhbərliyi bilirdi ki, Cavad bəy heç vaxt haqqı nahaqqın ayağına verməz və Lənkəran quberniyasında asayişin təmin olunması üçün canını belə fəda edər.

Rusiya inqilabının üçüncü ildönümü münasibətilə Müsvat partiyasının təşkil etdiyi böyük mitinqdə də Cavad bəy inqilabın ən müqəddəs şüarları olan-xalqların azad təyini-müqəddərat və müstəqil yaşamaq prinsipləri haqqında çıxış idi. Mitinqin keçirildiyi "Türk ocağı" binasında 1920-ci ilin aprelin 8-də Bakı Mədən rayonu müsəlman fəhlələrinin konfransı keçirildi. Hər 25 nəfərə bir mandat hesabı ilə bütün mədən rayonunun həmkarlar ittifaqlarının 700-dək nümayəndəsi konfransda iştirak edirdi.

Konfrans Mərkəzi həmkarlar ittifaqının sədri C.Məlikyeqanovun nitqi ilə açıldı. Cavad bəy müsəlman fəhlələrinin marağını qorumağı bacaran, xalqların öz müqəddəratını azad təyin etmə və Azərbaycan Respublikasının müstəqilliyi prinsiplərinə cavab verən ali fəhlə orqanını təşkil etməyin zəruriliyini izah edirdi. Konfransda təsis edilən Mərkəzi Həmkarlar İttifaqları Şurası Sovet Rusiyasına münasibətə dair qətnamə qəbul etmişdir: "Hər xalqın azadlığı ona əzizdir, o uzunsürən və çətin mübarizədən sonra əldə edilərsə xüsusən əzizdir...

Azərbaycan xalqına münasibətdə öz siyasətini müəyyənləşdirmək və müstəqilliyimizi tanımaq haqqında bizim sualımıza qəti cavab vermək xahişi ilə Rusiya proletariatına və Sovet hökumətinə müraciət edirik... Onların arasında qəsbkarlıq meylləri qalib gələrsə və üzərinizə hərblə gəlmək qərarı alınarsa biz öz növbəmizdə, ürək ağrısı ilə öz suveren hüquqlarımızın müdafiəsi üçün silaha sarılmağa məcbur olacağıq" [1].

Lakin 1920-ci il aprel çevrilişindən sonra C.Məlikyeqanov 1920-ci il mayın 11-də həbs edilmiş, ittiham aktı sübuta yetirilmədiyindən iyulun 19-da azad olunmuşdur. Növbəti dəfə Cavad bəy 19 sentyabr 1920-ci ildə komissar Nersesovun əmri ilə nəzarət altına alınır və bir neçə ay saxlandıqdan sonra 1921-ci ilin əvvəllərində həbsdən azad edilir. Cavad bəyin bu azadlığı da çox uzun sürməmişdir. O, 21 iyun 1923-cü il tarixdə 230 saylı orderlə növbəti dəfə həbs edilmiş və 40 gün sonra yenidən azad olunmuşdur.

Cavad bəy Rza bəy oğlu Məlikyeqanovun bu istintaq materiallarını nəzərdən keçirərkən məlum olur ki, o, Azərbaycan Fövqəladə Komissarlığı tərəfindən verilən orderə əsasən həbs edilib. Hələ növbəti həbsdən öncə bir çox şəxslər kimi Cavad bəy Məlikyeqanovun da adı xüsusi göstərişlə məhbuslar tərəfindən məcburi olaraq hallandırılır və əleyhinə sənədlər toplanırdı. Həmçinin agenturanın 09.06.1923-cü il tarixli məlumatına görə, bolşevik hökumətinin Cavad bəy Məlikyeqanovu günahlandırmaqda məqsədi onun keçmiş müsavatçı kimi 1919-cu ildə Lənkəranda general-qubernator olması idi.

Aprel işğalından sonra o, ümumiyyətlə, 6 dəfə həbs edilmişdir. Sovet hakimiyyəti illərində tikinti trestində, əmək birjasında çalışmışdır. Respublika Xalq Əmək komissarlığı qaçqınlar şöbəsinin rəsisi, 1927-28-ci illərdə neft məhsulları satışı idarəsinin rəisi vəzifələrində işləmiş, N.Nərimanov adına Bakı Sənaye Texnikumunun təsərrüfat hissəsinə başçılıq etmişdir. Gizli "Müsavat" partiyasının üzvü ittihamı ilə 1931-ci ildə həbs edilərək, 10 il müddətinə uzaq şimala sürgün edilmişdir. Sürgündən həyat yoldaşı Məryəm xanım Bayraməlibəyova-Məlikyeqanovaya göndərdiyi məktublarında yazırdı: "...Mən öz xalqımı, Azərbaycanımı çox sevirəm. Həyatımı, varlığımı onlarsız təsəvvür edə bilmirəm" [1].

M.C.Bağırov 1923-cü ildə Azərbaycan fövqaladə komissarı olanda hər dəfə Cavad bəy Məlikyeqanovu təqib etmiş və bu ailəni işgəncələrə məruz qoymuşdur. Bu azmış kimi, M.C.Bağırov respublikanın katibi təyin olunduqdan sonra da - 1937-ci ildə Cavad bəyin həyat yoldaşı Məryəm xanımı həbs etdirmiş, qardaşı Bəhram bəy isə onun "fəaliyyətinin" qurbanına çevrilmişdir. Respublika katibi M.C.Bağırov tərəfindən belə amansız təqiblərə məruz qalmasında Məlikyeqanovlar hansı suçun sahibi idi?

Azərbaycan SSR Dövlət Siyasi İdarəsinin təhlükəsizlik üzrə əməkdaşı A.Quliyev tərəfindən

təqdim olunan 10 iyun 1930-cu il tarixli qərarda bildirilir ki, Cavad bəy Rza bəy oğlu Məlikyeqanov vaxtilə qeyri-leqal antisovet qrup ilə sıx əlaqə yaratmış, həmin təşkilatla birgə fəaliyyətdə olmuşdur. Ona görə də o, Azərbaycan SSR Cinayət Məcəlləsinin müxtəlif maddələri ilə təqsirli bilinir.

Artıq 11 fevral 1930-cu ildə Azərbaycan SSR Dövlət Siyasi İdarəsi tərəfindən Cavad bəy Məlikyeqanovun evində axtarış aparılması və onun həbs edilməsi üçün 129 saylı order yazılır.

Daha sonra - 1930-cu ildə sonuncu dəfə həbs edilən Cavad bəy Məlikyeqanovun ittihamnaməsi aşağıdakı şəkildə tərtib edilir:

Dövlət Siyasi İdarəsinin Şərq şöbəsinin səlahiyyətçisinin qənaətinə görə C.Məlikyeqanov 10 iyul 1930-cu il tarixli istintaqında fikrini aşağıdakı şəkildə bildirməli olur:

"Mən özümün siyasi görüşlərimdən sonra prinsip və baxışlarımı əminliklə aşağıdakı şəkildə bölüşürəm:

1. Azərbaycan idarələrində ÜİK(b) Partiyasının XII qurultayında həyata keçməyən milli məsələlərə dair türkçülük əsas yer tutur.

2. Kənd təsərrüfatında, kollektivləşmədə metod və sürətə qarşıyam.

3. Müəyyən müddətə qədər xırda mülkiyyətçiliyin saxlanılmasına tərəfdaram.

4. Azərbaycan türk millətlərinin köçürülməsi; məsələn, aztorpaqlı Qarabağ kəndlilərini Muğana köçürtmək olar. Lakin Azərbaycan türk kəndlilərinin RSFSR-in başqa vilayətlərinə köçürülməsinin əleyhinəyəm" [3].

Uzun, cansıxıcı dindirilmələrdən, işgəncələrdən sonra C.Məlikyeqanovun işində cinayət tərkibinin kifayət qədər sübut olmadığı müəyyənləşmiş və onun 1002 saylı istintaq işi dayandırılaraq Azərbaycan Dövlət Siyasi İdarəsinin əməkdaşlarının birgə iclasında qərara alınmalı olmuşdur. C.Məlikyeqanov antisovet təbliğatına görə müqəssir bilinərək müddətinə Kareliya MSSR-ə sürgün edilmişdir [2].

Qeyd edək ki, Azərbaycanda bolşeviklərin nifrət etdiyi ən əsas partiya "Müsavat" idi ki, onun üzvləri ya güllələnir, ya Rusiyanın insan ayağı dəyməyən şaxtalı çöllərinə sürgünə göndərilir, ya da ən yaxşı halda vətəndən didərgin salınırdı.

C.Məlikyeqanov hələ Azərbaycan Xalq Cümhuriyyəti dövründə Lənkəranda işləyərkən Azərbaycanın ilk folklorşünas alimi, maarifpərvər Teymur bəy Bayraməlibəyovla tanış olur. "Müqəddəs Nina" məktəbini qızıl medalla bitirmiş, sonralar bir çox məsul vəzifələrdə çalışmış Teymur bəyin qızı Məryəm xanımla Cavad bəy 1919-cu ildə ikinci dəfə ailə həyatı qurur. Bu nikahdan 1923-cü ildə Azərə, 1926-cı ildə Taliyə, 1929-cu ildə isə Asiman adlı üç qızı dünyaya gəlir. Amma xoşbəxt günlər bu ailə üçün çox sürmür. Cavad bəy həbs ediləndən sonra nəinki həyat yoldaşı Məryəm xanım, hətta bütün ailə üzvləri təqiblərlə üzləşirlər.

Azərbaycanın ilk qadın maarifçilərindən olan Məryəm xanım 1898-ci ildə Lənkəranda anadan olub. Lənkəranda yeganə qadın pedaqoq olan Məryəm xanım savadsızlığa qarşı mübarizə aparıb, qızları, qadınları mədəni və ictimai həyatda fəal olmağa səsləyib.

Məryəm xanım Bayraməlibəyova ibtidai təhsilini 1905-ci illərdə Bakıda H.Z.Tağıyevin "Müsəlman-rus" məktəbində, orta təhsilini isə "Müqəddəs Nina" qız məktəbində alıb. Sonra oxumağa böyük maraq göstərən Məryəm xanım ali təhsil almaq üçün Moskvaya gedib tibb institutuna qəbul olunub. Lakin o dövrdə maddi vəziyyəti ağır olan bu gənc qız çox böyük çətinliklərlə qarşılaşıb. O, kömək üçün neft sahibkarı Murtuza Muxtaraova müraciət edib. Muxtarov onun müraciətini cavabsız qoymayaraq Məryəm xanıma təqaüd verməyə başlayıb. Məryəm xanım bununla xatirələrində yazır: "... Lakin Moskvada 2 aydan artıq qala bilmədim. İnqilabın başlanması ilə əlaqədar Bakıya qayıtdım. Vətənə döndükdən sonra Bakıda qalmaq üçün hər cür imkanın olmasına baxmayaraq, Məryəm xanım Lənkərana gəlir. Burada qızları çox çətinliklə bir yerə toplayıb məktəb açır. Gənc müəllim ev-ev, qapı-qapı gəzərək məktəbə 9-12 uşaq toplaya bilir. 1918-ci ildə Lənkəranda ilk qız məktəbi açılır. Məryəm xanım isə həmin məktəbin müdiri olur.

1921-ci ildə Məryəm xanım Bakıya köçür və müəllim işləməklə bərabər həmkarlar ittifaqında çalışmağa başlayır. 1921-1923-cü illərdə Bakıda Qara Şəhərdə Həmkarlar İttifaqının təcrübə məktəbində işləyir. 1921-ci ildən 1924-cü ilədək o, ayrı-ayrı məktəblərdə, seminarlarda, texnikumlarda Həmkarlar İttifaqı katibi vəzifəsində çalışır. İctimai işlərdə yaxından iştirak edən Məryəm xanım 1925-ci ildə Bakıda Azərbaycan Müəllimlərinin I Qurultayının nümayəndəsi olur.

M.Bayraməlibəyova ali təhsil almağı çox arzulayıb. Elə buna görə də o,1927-ci ildə Bakı dövlət Universitetinin hüquq fakültəsinə daxil olur, dörd ildən sonra həmin təhsil ocağını fərqlənmə diplomu ilə başa vurur [1].

M.Bədəlbəyovanın pedaqoji və ictimai fəaliyyəti 1937-ci ilə qədər davam edir. Belə ki, Cavad bəy Məlik Yeqanovun Azərbaycan Xalq Cümhuriyyəti parlamentinin üzvü olması və "xalq düşməni" damğası ilə sürgün edilməsindən sonra onu da dinc buraxmırlar. 1937-ci il noyabrın 15-də NKVD əməkdaşları Məryəm xanımı yaşadığı mənzildə həbs edirlər.

Məryəm xanım özünə və ailəsinə qarşı törədilən bu haqsızlığa dözməyərək 1937-ci ildə Mərkəzi İcraiyyə Komitəsinin sədri M.İ.Kalininə məktub yazmalı olur. Məktuba müsbət cavab gözləyən Məryəm xanım 14 noyabr 1937-ci il tarixdə Azərbaycan Dövlət Siyasi İdarəsi tərəfindən evində axtarış aparılması və həbs edilməsi ilə bağlı 2677 saylı orderlə üzləşir.

Sonradan Məryəm xanım Məlikyeqanova Arxangelskə sürgün edilir. Burada iki gözü tutulan Məryəm xanım bir müddət Moskvada məhbuslar xəstəxanasında müalicə olunduqdan sonra Qazaxıstana göndərilir. 1948-ci ildə 10 illik həbs cəzasını çəkəndən sonra isə Bakıya qayıdır. Lakin iki gözündən kor olmasına baxmayaraq, Məryəm xanımın Bakıdakı ata evində yaşamasına da icazə vermirlər və o, Gəncədə məskunlaşmaq məcburiyyətində qalır [9].

Məryəm xanımın qızı Taliyə xanım Tibb İnstitutunu bitirdikdən sonra təyinatı o zaman "qapalı şəhər" sayılan Daşkəsənə verilir. Orada Fərrux adlı bir mühəndislə tanış olan Taliyə xanım onunla ailə qurur.

Nəhayət, 1956-cı ildə Azərbaycan SSR Ali Məhkəməsi üzrə məhkəmə kollegiyasından İmanov, Quliyev, Musayev və prokuror Hacıyevin imzası ilə Məryəm xanım Bayraməlibəyova- Məlikyeqanovaya, elə həmin ildə həyat yoldaşı Cavad bəy Rza oğlu Məlikyeqanova Kareliya MSSR Ali Məhkəməsi tərəfindən bəraət verilir.

Bu bəraətdən sonra Bakıya gələn Məryəm xanım ömrünün sonuna qədər övladlarının yanında yaşayır və 1987-ci ildə 89 yaşında dünyasını dəyişir.

Cavad bəyin kiçik qızı Asiman xanım atası haqqında məlumat almaq üçün Azərbaycan SSR prokuroruna müraciət edir. Respublika prokurorunun müavini İ.İ.İsmayılov tərəfindən imzalanmış cavab məktubunda isə məhkəmənin Cavad bəyə qarşı ölüm hökmü çıxartdığı və ona 09.12.1937-ci ildə "güllələnmə" verildiyi bildirilir [8].

Bir sıra internet forumlarında və saytlarda Cavad bəyin başqa millətin nümayəndəsi olmasıyla bağlı müxtəlif fikirlər yazılır. Bunu da əsasən onun soyadındakı "Yeqanov" sonluğu ilə əlaqələndirirlər. Tədqiqatçı-jurnalist İlham Tumasın araşdırmalarına görə "Yeqanov" soyadının analizi göstərir ki, soyadın "Yeqa" hissəsi sırf türkdilli xalqlara aid bir sözdür. Bu söz Uralda keçi dərisindən kürkə deyilir. Altayda da eyni mənanı daşıyan "yeqa" sözündən, belə güman olunur ki, "Yeqanov" soyadı əmələ gəlib və yəqin ki, kürk geyən insanın ləqəbindən yaranıb. Rus adlarının ensiklopedik lüğətində də maraqlı bir məqam var. Rus müəlliflər özləri də etiraf edirlər ki, bu soyadın 50 faizi rus mənşəli olsa da, 35-40 faizi tatar, başqırd və buryat xalqlarının dilində var. Qalan faizlər isə çox kiçik olmaq şərtilə ukraynalılara, belaruslara və bolqarlara aiddir. "Yeqanov" soyadının fotosemantik analizinə gəldikdə isə onun 9 fotosemantik əlaməti daha çox nəzərə çarpır. Bunlar kişilik, cürətlilik, böyüklük, möhtəşəmlik, yaxşılıq, sadəlik, gözəllik, güclülük, nəhənglikdir [7].

Cavad bəy Məlikyeqanov zəhmətkeşliyi, xalqa yaxınlığı, ədalətliliyi seçilən ictimai-siyasi xadim, bacarıqlı rəhbər və qayğıkeş ata olmaqla bərabər həm də öz elini, Vətənini sevən alovlu bir türk oğlu, vətənpərvər şəxsiyyət idi.

Açar sözlər: Azərbaycan Xalq Cümhuriyyəti, həmkarlar, bolşevik, milli istiqlal, fəhlələrin birliyi, C.Məlikyeqanov

İstifadə edilmiş ədəbiyyat

1. Aslan K. Müstəqilliyimizə imza atanın faciəsi / "Füyuzat" jurnalı, 2014, №3(77)
2. Babayev A. Lənkəran qəzasının general-qubernatoru. "Ülfət" qəzeti, Bakı, 2017, 30 iyun
3. Əhmədova F. Böyük terrorun qurbanı. "Ülfət" qəzeti, Bakı, 2000, 25 may

4. Həsənov V.S., Mehdiyev Ə.B. Azərbaycan həmkarlar ittifaqlarının tarixi. Bakı: Azər SC, 2005, 451 s.
5. Qaraşov H.T. Həmkarlar ittifaqları hərəkatının əsasları. Bakı: Avropa, 2015, 448 s.
6. Маниева Р.С. Основы профсоюзного движения. Баку: Авропа, 2012, 244 с.
7. Tumas İ. Fəhləlikdən general-qubernatorluğa, nazirliyə, sürgünə, güllələnməyə gedən yol. http://news.lent.az/news/65469 11.05.2011
8. www.ahik.az
9. www.vikipedia.az

Зейнаддин Шабанов

ПРОФСОЮЗЫ В ПЕРИОД ПРАВЛЕНИЯ НАРОДНОЙ РЕСПУБЛИКИ И ПАТРИОТИЗМ ДЖАВАД БЕК МАЛИКЙЕГАНОВА

Резюме

В статье освещается роль профсоюзов в правлении Народной Республики, анализируется сложная ситуация. Отмечается, что в тот период профсоюзы, в составе которых преобладали большевики не принимали решения национального правительства, создавали дополнительные проблемы новому правительству, митингами наносили ущерб предпринимателям, углубляли экономический кризис, проводили советско-российскую пропаганду. Подчеркивается роль Джавад бек Маликйеганова, который руководил центром профсоюзов, поддерживая национальное правительство, рабочий класс приложил усилие для укрепления независимой республики. Здесь уделяется внимание k образу жизни, его патриотизму и самоотверженности.

Ключевые слова: Азербайджанская Демократическая Республика, профсоюзы, большевики, национальная независимость, объединение рабочих, Джавад бек Маликйеганов

Zeynaddin Shababov

TRADE UNIONS IN THE PERIOD OF AZERBAIJAN DEMOCRATIC REPUBLIC AND PATRIOTISM OF JAVAD BEY MALIKYEGANOV

Summary

The article highlights the role of trade unions in the period of Azerbaijan Democratic Republic, analyzes the difficult situation. It is noted that during the period of the trade unions, Bolsheviks did not take decisions of the national government, created additional problems for the new government, damaged to entrepreneurs with rallies, deepened the economic crisis, carried out Soviet-Russian propaganda. The article emphasizes the role of Javad bey Malikeyganov, who headed the center of trade unions, supporting the national government, it also notes that the working class made an effort to strengthen the independent republic. Attention is paid to the way of life, its patriotism and selflessness.

Keywords: Azerbaijan Democratic Republic, trade unions, bolsheviks, national independence, association of workers, Javad bey Malikyeganov

HUMANİTAR VƏ SOSİAL ELMLƏR BÖLMƏSİ

UOT – 1(09)

Faiq Ələkbərli
AMEA Fəlsəfə İnstitutu, fəlsəfə ü.f.d., dosent

MƏHƏMMƏD ƏMİN RƏSULZADƏNİN YARADICILIĞINDA FƏLSƏFİ VƏ SOSİAL-SİYASİ PROBLEMLƏR (MÜHACİRƏT DÖVRÜ)

Məqalədə göstərilir ki, XX əsrdə Azərbaycan milli fəlsəfəsinin təşəkküründə və inkişafında mühacirətdə yaşamış Azərbaycan türk mütəfəkkirləri, xüsusilə də, M.Ə.Rəsulzadə mühüm rol oynamışdır. Onun yaradıcılığı nə qədər çoxşaxəli olsa da, bütövlükdə Azərbaycan mədəniyyətinə, fəlsəfəsinə və elminə xidmət etmişdir. Məqalədə Rəsulzadənin Azərbaycan türk mədəniyyəti və fəlsəfi ilə bağlı olan Azərbaycan Milli İdeyası Yeni Turançılıq, Qafqazçılıq və Milli təsanüd (həmrəylik) ideyaları geniş şərh olunmuşdur.

1920-ci ilin aprelin 27-də Azərbaycan Cümhuriyyətinin müstəqilliyinə işğalçı Sovet Rusiyası tərəfindən son qoyulduqdan sonra bir çox vətən övladları, o cümlədən ölkənin ziyalı təbəqəsinin xeyli qismi doğma yurd-yuvalarını tərk etmək məcburiyyətində qaldılar. Beləliklə, 1920-1990-cı illərdə vətəndən kənarda Azərbaycan mühacirlərinin ziyalı təbəqəsi (M.Ə.Rəsulzadə, Ə.Ağaoğlu, Ə.Hüseynzadə, Ə.Topçubaşov, M.B.Məmmədzadə və b.) tərəfindən Azərbaycan mühacirət ictimai-siyasi və fəlsəfi ədəbiyyatı yarandı. Azərbaycanın ziyalı mühacirləri ictimai-siyasi və fəlsəfi yaradıcılıqlarını isə Türkiyə, Fransa, Almaniya, Polşa, İran və b. ölkələrdə ortaya qoymuşlar.

27 aprel işğalı Azərbaycan mühacir mütəfəkkirlərinin çiyinlərinə ikiqat ağır bir yük qoymuşdur. Onlar bir tərəfdən Azərbaycan Cümhuriyyətinin müstəqilliyi və azadlığı, digər tərəfdən Azərbaycan fəlsəfəsinin, tarixinin, mədəniyyətinin təbliği uğrunda mübarizə aparmışlar. Şübhəsiz, bu iki məsələ bir-birilə son dərəcə də bağlı idi. Azərbaycan türk ziyalılarının bu ölkənin keçmişdə ayrıca bir mədəniyyətə, fəlsəfəyə, tarixə, ədəbiyyata malik olduğunu təbliğ etməkdə başlıca məqsədləri də, Azərbaycan Cümhuriyyətinin müstəqil və azad yaşamasının təbii bir haqqı olduğunu sübuta yetirmək idi.

Mühacirətdə olan Azərbaycan mütəfəkkirlərini ictimai-siyasi və fəlsəfi irslərinə görə iki qrupa: 1) Azərbaycanın milli istiqlalı uğrunda davanı əsas məqsəd hesab edən, bu ideyanın tərkib hissəsi kimi Azərbaycan türk mədəniyyətini, tarixini, ədəbiyyatını, fəlsəfəsini tədqiqat obyektinə çevirənlərlə; 2) Azərbaycanın milli istiqlal davasından çox Türkiyə başda olmaqla ümumtürk mədəniyyətinə, ədəbiyyatına, fəlsəfəsinə xidmət edənlərə ayırmaq olar. Əslində mühacir ziyalıların ortaya qoyduqları mədəni-fəlsəfi irs, ilk növbədə ictimai-siyasi fəaliyyətin tərkib hissəsi, Azərbaycanın müstəqilliyi uğrunda aparılan mübarizənin ünsürləri olmuşdur. Ancaq bütün hallarda, mühacir ziyalılarımız Azərbaycan mədəniyyətinə, tarixinə, fəlsəfəsinə, ədəbiyyatına böyük töhfələr vermişlər. Şübhəsiz, Azərbaycan mühacirət irsinin əsas mütəfəkkiri, Azərbaycan Cümhuriyyətinin qurucusu, milli aydın Məhəmməd Əmin Rəsulzadə olmuşdur.

Azərbaycan milli ideyası və Yeni Turançılıq

M.Ə.Rəsulzadənin Azərbaycan Milli İdeyasının şüurlarda yaşadılmasına və Yeni Turançılıqla uzlaşdırılmasına həsr olunmuş "Azərbaycan Cümhuriyyəti" və "Əsrimizin Səyavuşu" Azərbaycan Cümhuriyyətinin milli ideologiyasının mahiyyətini əks etdirən, çox dəyərli tarixi-fəlsəfi əsərlərdir. O, "Azərbaycan Cümhuriyyəti" əsərində Azərbaycan Milli İdeyasının fəlsəfi-tarixi mahiyyətini açıqlamış, milli istiqlalın bir gün yenidən qazanılacağına inamını ifadə etmişdir. Ən əsası bu əsərdə "Azərbaycan məfkurəsi"nin yaranmasının, formalaşmasının və inkişafının mahiyyəti açıqlanmışdır. Ümumiyyətlə, Rəsulzadə bütün həyatını Azərbaycan milli məfkurəsinə və davasına həsr etmişdir: "Davamız, Azərbaycan davasıdır, bu tarixi və milli bir davadır!" [12, s.21]. Rəsulzadənin "Azərbaycan

Cümhuriyyəti"nə ön söz yazan Əli bəy Hüseynzadənin fikrincə də, bu kitab Azərbaycanı, Azərbaycan türklərinin məfkurəsini tanıtmaq baxımdan qiymətli bir əsərdir: "Çünki mövzusu, siyasi və iqtisadi vəziyyəti ilə beynəlxalq bir əhəmiyyət daşıyan Bakının, Azərbaycanın və dolayısıyla bütün türklüyün müqəddəs və müəzzəz istiqlalı, istiqbalı məsələlərinə təmas edir" [13, s.7-8]. Milli istiqlaliyyəti əlindən alınmış bir dövlətin təbii haqq və hüquqlarının pozulduğu halda, dünya dövlətlərinin buna göz yummasına isə təəssüf edən Ə.Hüseynzadə yazırdı ki, bu istiqlalın mücahidləri, rəhbərləri qüvvətli və səbrli olmalıdırlar [13, s.7-8].

1920-ci illərdə Türkiyədə nəşr olunan M.Ə.Rəsulzadənin "Əsrimizin Səyavuşu" əsəri də Azərbaycan milli ideyası və yeni turançılıqla bağlı bir əsərdir. Fars şairi Firdovsinin "Şahnamə" əsərini bir daha oxuyan və paralel müqayisə apararaq onun qəhrəmanlarından biri olan Səyavuşun həyatını Azərbaycan Cümhuriyyətinə oxşadan Rəsulzadənin gəldiyi nəticəyə görə, İranla Turan arasında qalan Siyavuşla, Rusiya və "İran" arasında bölüşdürülə bilməyən Azərbaycan eyni taleyi yaşayır. Belə ki, bir çox zaman azərbaycanlılar öz türklüklərini və türk soyundan gəldiklərini bilməyərək xalis iranlı kimi özlərini hiss edib, iranlı kimi düşünüb, iranlı kimi yaşayıblar. Rəsulzadənin fikrinə görə, XIX əsrin əvvəllərində Quzey Azərbaycanın çar Rusiyasının idarəsinə keçməsinin xeyri bu oldu ki, "azərbaycanlılar özlərini ictimai bir vücud, xüsusi mədəniyyət toxumlarını daşıyan bir cəmiyyət, yəni ruslardan ayrı bir millət olduqlarını hiss etməyə başladılar" [14, s.34]. Azərbaycan xalqının bir millət kimi formalaşmasında əsas rolun türklərə məxsus olmasına qətiyyən şübhə etməyən Rəsulzadənin fikrincə, onların öndərliyi ilə "Turanın mərkəzində Azərbaycan" adlı bir ölkə yaranmışdır ki, "yeni Turanın açarı" ondadır. Yeni Azərbaycan Türk ocağı, əski Türk yurdudur [14, s.35].

Azərbaycan milli ideyasını elmi dəlillərlə əsaslandırmağa çalışan M.Ə.Rəsulzadə onu da qeyd edirdi ki, azərbaycanlılar milliyyət etibarilə müxtəlif adlar daşıyan böyük türk ağacının bir qoludur. Bu mənada ümumi türkçülüyün bir qolu da Azərbaycan türkçülüyüdür-azərbaycançılıqdır. Beləliklə, M.Ə.Rəsulzadə bir tərəfdən, Azərbaycan milli ideyasını müdafiə edir, digər tərəfdən, azərbaycançılığı ümumi türkçülüyün, turançılığın ayrılmaz bir hissəsi olduğunu göstərirdi. Hələ, Azərbaycan Cümhuriyyəti qurulmamışdan öncə (1917-ci il), Rusiya tərkibindəki türk-tatar millətlərinin, o cümlədən Azərbaycan türklərinin ayrı-ayrılıqda milli-ərazi muxtariyyətini tələb etməklə yanaşı, Rəsulzadə gələcək muxtar türk dövlətlərinin nümayəndələrindən ibarət Milli Şuranın formalaşdırılmasını təklif etmişdi [1, s.61]. Mühacirət dövründə bu ideyanı inkişaf etdirən Rəsulzadə xatırladırdı ki, Azərbaycan Cümhuriyyəti dövründə (1918-1920) də "Müsavat" partiyasının 1919-cu ildə Bakıda keçirilən 2-ci qurultayında qəbul etdiyi proqramının girişində "bugünkü durumu ilə dağınıq olan geniş türk dünyasının bir gün gəlib də əlbir və dost bir türk aləmi oluşduracağına inanırıq və bu imanla getdiyimiz əməl yolunun çatacağı son yeri belə bir bağlılığın gerçəkləşməsində görürük" deyilmişdir [15, s.74].

Bu baxımdan Rəsulzadə hesab edirdi ki, müstəqil türk dövlətlərinin yaranması turançılıq, türkçülük məfkurəsinə kölgə salmamış, bir sözlə Türk-Turan birliyini parçalamamışdır: "Turançılıq, türkçülük ədəbi məsləki Türkiyə ilə Azərbaycanı bir-birinə bağlayan ən davamlı bir bağ, mətanətli bir ip idi. Turançılıq məfkurəsi doğulunca millət beynəlmiləl islamiyyətçilik və federasiyon formullarını çıxarmış, sosiologiyada da "Türkləşmək, İslamlaşmaq və Müasirləşmək" kimi üçayaqlı bir şüar ortaya atmışdı. İstanbul yurdçuları bu şüarları nəzəri şəkildə yaymaqda ikən, Azərbaycan turançıları bunu siyasi bir fəlsəfə kimi qəbul edərək qurduqları milli siyasi partiyanın prinsipi elan etdilər" [14, s.35-36].

Yeni turançılıq ideyasına görə, bütün müsəlmanları "İslam birliyi" altında birləşdirmək mümkün deyilsə, ancaq bütün türklər öz aralarında böyük dünya federasiyasına nümunə olmaq üzrə bir federasiya yarada bilərlər: "Yeni Turan, mədəni birlik üzərində təsis edilib ancaq gələcək birər Türk hökumətlərinin federasyonu şəklində təsəvvür oluna bilər. Azərbaycan da bu gələcək Turan silsiləsinin mühüm bir halqasıdır" [14, s.36]. Deməli, M.Ə.Rəsulzadə 27 aprel işğalından az sonra Azərbaycan milli ideyasının yaşaması üçün, mədəni ruhlu "Yeni Turançılıq" ideyasını müdafiə etmişdi. "Yeni Turançılıq" ideyası isə Rusiya əsarətində yaşayan bütün türklərin, o cümlədən Azərbaycan türklərinin əsas hədəflərindən biri olmalı, Z.Gökalpın təbirincə, Rusiyanın dağılıb viran, Türkiyənin

böyüyüb Turan olmasına yönəlməli idi [14, s.37]. Z.Gökalpın və M.Ə.Rəsulzadənin bu fikirləri, yəni Turanın Türk hökumətlərinin federasiyası şəklində gerçəkləşə bilməsi, o dövr üçün bir qədər romantik xarakter daşısa da, hazırda digər müstəqil türk dövlətləri (Qazaxıstan, Qırğızıstan, Özbəkistan və b.) ilə birlikdə belə bir federasiyanın yarana biləcəyi baxımından inandırıcı olan tərəfləri də az deyildir.

Şübhəsiz, indi olduğu kimi, həmin dönəmdə də türkçü-turançı mütəfəkkirlərin bu mülahizələri rus, erməni və başqa millətlərin ideoloqları tərəfindən birmənalı qarşılana bilməzdi. Bu baxımdan 1920-1930-cu illərdə bəzi əcənəbi müəlliflər, o cümlədən Hondkaryan, A.Kerenski, Zarevand, Mandelştam və başqaları panturanizm, panturkizm təhlükəsindən bəhs edən əsərlər ("Türkiyənin qulluğunda", "Rus milləti üzərində diktatura", "Türkiyə. Panturanizm") yazırdılar. Onların fikrincə, SSRİ-ni dağıtmaq istəyən panturançılar Turan imperiyası yaratmaq niyyəti güdürdülər. Tədqiqatçı Rafail Əhmədli bu məsələ ilə bağlı doğru qeyd edir ki, "əzilməyə məhkum edilmiş türk xalqlarını əsarətdən xilas etmək məqsədi ilə ortaya çıxan türkçülük ideologiyası türk düşmənləri tərəifndən "pantürkizm" və "panturanizm" kimi qələmə verilmiş, türklərin yenidən tarix səhnəsində söz sahibi olmasının qarşısı alınmağa çalışılmışdı" [3, s.195].

M.Ə.Rəsulzadə həmin dövrdə bir sıra məqalələrində, o cümlədən "pantürkizm", "panturanizm"lə bağlı ən məşhur əsəri "Panturanizm. Qafqaz problemi"ndə (1930) antitürkçülərə cavab olaraq yazırdı ki, bu məsələdən bəhs edənlər türkçülüyün, turançılığın tarixini, o cümlədən bu ideyaların müəlliflərinin fikirlərini təhrif edirlər. Belə ki, "pantürkizm", "panturanizm" panslavyanizm kimi ideologiyalardan fərqli olaraq xalqın içindən yaranan bir məfkurə olmuşdur. O yazırdı: "Pantürkizm məsələsinə gəlincə, fürsətdən istifadə edən yanıltmaçıların aldatmaq istədikləri zümrəyə birdəfəlik anladaq ki, slavyan millətlərində olduğu kimi, türk irqinə mənsub millətlərdə dəxi, bir birlik məfkurəsi doğmuş və bu doğuş müəyyən bir zaman romantik bir dövr yaşayaraq, o vaxta qədər, İslam dini düşünüş alışqanlığında olan siyasi türk-tatar fikri üzərində daha əsri və tərəqqi sevərcəsinə bir təsir yapmışdır. Fəqət panslavyanizmdən daha az real şərait və imkana malik olan panturanizm panslavyanizmin çatdığı nəticəyə nisbətən daha az bir zamanda gəlmiş və bu gün ən qatı panturanistlər belə sadə bir kültür birliyini mümkün mərtəbə mühafizəyə qeyrət etməklə kifayətlənmişlər" [16, s.50-51].

Çağdaş dövrdə yeni türkçülük və yaxud da yeni turançılıq ideyası ondan ibarət idi ki, vahid türk milləti deyil, vahid türk irqi vardır. Türk irqinə aid hər bir türk millətinin də ayrı-ayrı müstəqil türk dövlətləri yaratması məntiqə uyğundur. Bu baxımdan "panrusizm" vahid "slavyan" dövlətinin yaranmasına çalışdığı halda, yeni turançılıq ideologiyası ayrı-ayrı türk dövlətlərinin yaranmasını müdafiə edir. Bunu nəzərə alaraq Rəsulzadə yazır: "Varlığı ilə Sovet İttifaqında türk ellərinin ulusal, doğal axınlarını yaxşı yöndə etkiləyən çağdaş, gerçəkçi "türkizm", sözsüz "panrusizmin" yağısıdır" [17, s.27].

O yazırdı ki, XX əsrin əvvəllərindəki siyasi türkçülərdən fərqli olaraq, çağdaş türkçülər artıq vahid Turan dövləti ideyası ilə yaşamırlar. Xüsusilə də, yeni türkçülər Türkiyənin-Osmanlının timsalında türklərin böyük imperatorluğunu yaratmaq deyil, hər bir türk millətinin ayrıca istiqlalı uğrunda mücadilə edirlər. M.Ə.Rəsulzadə yazır: "Eyni irqə yaxınlıq nəticəsində bir-birinə yaxın mədəniyyət məhsullarına malik olan türk ellərindəki müştərək qiymətləri mühafizə etməklə bərabər, ayrı-ayrı türk millətlərinin ayrıca bir dövlət və cümhuriyyət halında istiqlal qazanmaq yolundakı hərəkatlarını şübhə altına alanlar ancaq rus imperalizminin könüllüləri və yaxud kölələri ola bilirlər! Azərbaycan istiqlalçılığının türk birliyi fikrindən əzəmi surətdə mülhəm olduğunu inkar etməməklə bərabər, siyasətdə realizm tərəfdarı olan Azərbaycan milliyyətçiləri üçün bu fikrin sadə mədəniyyət sahəsində qəbulu tətbiq olacağı aşkardır" [16, s.52]. O, açıq şəkildə qeyd edirdi ki, panturanizm ideyası adı altında Azərbaycanın Türkiyə ilə birləşmək niyyəti yoxdur. Çünki mədəniyyət birliyi sahəsinə çəkilən siyasi panturanistlər artıq mövqeyini türk millətləri reallığına tərk etmişdir [16, s.53].

Rəsulzadə yazırdı ki, yeni turançılığn əvvəlki "panturanizmlə" eyni anlamı daşımadığı ortada olduğu halda, özəlliklə, Zarevandın "Türkiyə. Panturanizm" əsərində irəli sürdüyü antitürkçü, antiturançı müddəaları qəbul etmək mümkün deyildir. Belə ki, Zarevand və onun kitabına ön söz yazan Mandelştam bilərəkdən türkçülüyün tarixini və mahiyyətini saxtalaşdırmış, ona tamam başqa siyasi

rəng verməyə çalışmışlar. Məsələn, Zarevand ən çox türkçülüyün ideoloqları Z.Gökalp, Y.Akçura, eləcə də Atatürkü tənqid hədəfi götürmüş və onları panutrançılıqda, pantürkizmdə ittiham etmişdir. Zarevanda görə guya, "panturanizm" ideyasını türkçülüyün ideoloqları Z.Gökalp, "panturançıların Marksı" Y.Akçura irəli sürmüşdür ki, çağımızın "panturanizm"ini isə Mustafa Kamal (Atatürk) həyata keçirir, çünki kamalçıların da əsas bayrağı pantürkizm, panturanizmdir.

Rəsulzadə öncə antitürkçü ideoloqların diqqətinə çatdırırdı ki, Z.Gökalp turançılıq məfkurəsindən, yəni vahid Türk dövlətindən bəhs etsə də, bunu Leninin kommunizmi kimi utopiya [14, s.38] adlandırmış və daha sonra onu mədəni birlik kimi dərk etmişdir. Bu mənada Gökalpın ideyalarına söykənən Atatürkün "panturanizm"i də türklərin mədəni birliyidir. Belə ki, Atatürk bu dövrdəki (1920-1930-cu illər) çıxışlarında siyasi anlamda panturanizm ideyalarının indiyə qədər heç bir uğur əldə etməməsindən bəhs etmişdir. Atatürkün fikrincə, tək gerçək siyasət milli-ulusal siyasətdir ki, bu mənada "dünyanın bütün türklərini içinə alacaq bir dövlət yaratmaq amacı da gerçəkləşməz düşüncədir" [17, s.40].

Atatürkün "panturanizm"ə bu cür mövqeyinin nəticəsi idi ki, həmin dövrdə bəzi türk ideoloqlar (X.Müşkrim və b.) ilk türkçülərdən və turançılardan fərqli olaraq, milləti ancaq soy, dil göstəriciləriylə bəlirləməyib, ona ayrı-ayrı tarixi, sosial, mədəni təsirlərinin qarşılıqlı məhsulu kimi baxırdılar. Onlar təklif edirdilər ki, "türk millətçiliyi"ndən "türk beynəlmiləlçiliyi"nə keçilsin: "Bu sistemin yolçuları başda tanımış tarixçi Xəlil bəy Müşkrim olmaqla, türk anlayışının ulus yox, irq göstərdiyini deyən "anadoluçular" adlı məktəb də yaratmışdılar. "Anadoluçular" tək bir türk ulusunun yox, ayrı-ayrı türk uluslarının olduğunu deyirlər. Onlar bu düşüncələrini gəlişdirərək Türkiyəni Anadolu adlandırmağı da irəli sürdülər. Onlara görə, "anadolu" sözü ulusal kimliyinə "türk" sözündən daha uyğundur" [17, s.19].

Bizcə, türk aydınlarının və liderlərinin yeni turançılığa münasibətdə ehtiyatlı mövqe tutmasına əsas səbəblərdən biri həmin dövrdə türk ismiylə tanınan millətlərin, o cümlədən Türkiyə türklərinin dünya müstəvisində istənilən gücə sahib olmamaları idi. Belə ki, türklərin sahib olduğu ən böyük imperiya – Osmanlı İmperiyası dağılmış, digər türk dövlətləri isə Sovet Rusiyası tərəfindən işğal olunmuşdur. Belə bir vəziyyətdə Z.Gökalpın, M.Ə.Rəsulzadənin, Atatürkün və başqa türk böyüklərinin yeni turançılığı daha çox mənəvi bir ülkü-məfkurə kimi qəbul etmələri təbii idi. Bu, onların tamamilə turançılıqdan imtina etmələri deyil, Atatürkün də qeyd etdiyi kimi, zamanın tələblərinə və türk millətinin gücünə görə siyasət yürütmək idi. Bu baxımdan çağdaş Türkiyə alimi A.Gökdəmirin aşağıdakı fikirlərinə tamamilə qatılırıq ki, Z.Gökalp, Ə.Hüseynzadə, Ə.Ağaoğlu, Y.Akçuraoğlu kimi türk milliyətçiliyinə, turançılığa öncüllük və xidmət verən aydınların Türkiyənin sərhədlərinin xaricində qalan türk elləri ilə bağlı heç bir tələbdə bulunmamaları ağlabatan deyildir: "Burada əsəf ediləcək şey, aydınların turançı olması deyil, Türkiyənin də, Türk dünyasının da yetəri qədər güclü olmaması və qalib gəlməməsidir" [5, s.245].

Bu baxımdan 1920-1930-cu illərdə Rəsulzadənin turançılığa yeni bir açıdan baxması, Şərqdəki milli axınlardan olan panturanizmlə Qərbdəki şovinist cərəyanları bir-birindən fərqləndirməsi başa düşüləndir. Çünki Rəsulzadənin fikrincə, Qərbdəki şovinizm-nasionalizm siyasi saldırıcı, sosial tutucu ideologiya olduğu halda, Şərqdəki millətçilik isə siyasi qoruyucu, sosial yenilikçi olaydır [17, s.42]. Başqa sözlə, ilk dövrlərdə romantik vahid Turan dövləti birliyinə qapılan türkçülər, artıq Türk irqindən ayrı-ayrı millətlərin və onların da öz müstəqil dövlətlərinin yaranmasına inanırlar. Rəsulzadə yazır: "Daha romantik, siyasi panturanizm yoxdur, ancaq ulus istəklərini güdən türkçülük vardır… Türk ellərinin özünüanlaması, irq ideologiyasından ulus ideologiyasına keçir, bu da saldırıcılığı ideoloji-qurama baxımından da aradan qaldırır" [17, s.62].

Rəsulzadənin yolunu izləyən M.B.Məmmədzadə də "Milli Azərbaycan hərəkatı" (1938) əsərində Azərbaycan türkçülüyü ideyasının yaranması və təkamülü ilə yanaşı, mühacirət dövründə türkçülük və turançılığın türk xalqları üçün hansı: siyasi, yoxsa mədəni birlik mənası daşıması ilə bağlı mövcud olan fikirləri dəyərləndirməyə və bu məsələdə tutduğu mövqeyi ifadə etməyə çalışmışdı. O yazırdı ki, hələ çar Rusiyasının dağılması ərəfəsində türkçülər və turançılar vahid türk dövlətinin qurulması istəyində bulunsalar da, bunun imkansız olduğunu anlamışdılar: "Rusiyanın xarabalıqları üzərində vahid deyil, ayrı-ayrı türk dövlətləri qurulur və yaxud qurulmaq istənir. Dünya

türklərinin geopolitik vəziyyəti, coğrafi vəziyyət etibarilə dağınıq və bir-birilərindən uzaq olmaları, onları ayrı-ayrı dövlətlər qurmağa sövq etmişdi. Doğrudur, "Müsavat" firqəsi bu vəziyyəti nəzərə almış və bu milli dövlət prinsipini dilə gətirərkən bir gün bu dövlətlərin federasiya yaradacaqlarını təsəvvür etmişdi. Fəqət o "bir gün" uzaq, bu gün isə yaxın idi. Türk dünyasının geopolitik vəziyyəti, mədəniyyət və kültür xüsusunda eyni məfkurə, qayə və taktikaya sahib müxtəlif türk ellərini siyasi-dövlətçilik sahəsində məhəlli yurdçuluq-vətənçilik yoluna sövq etmişdi" [8, s.201-202]. Onun fikrincə, bir bütün halda başlayan türk milli hərəkatının ayrı-ayrı yurdçuluq və milli dövlətçilik halına gəlməsində siyasi, coğrafi, iqtisadi və strateji səbəblər mühüm rol oynamışdı.

Məhz bunun nəticəsidir ki, Türkiyədə milli hərəkata başlayanlar yalnız Anadolu türklərini düşünmüş, onların proqramında Türkiyə xaricindəki türklərdən bəhs olunmamış, hətta Türkiyə Misaqi-Millini gerçəkləşdirmək üçün Qərbi Avropa imperialistləri ilə döyüşdə Türküstan, Krım, İdil-Ural və Azərbaycan türklərinin mübarizə apardıqları Rusiya ilə müttəfiq olmaq məcburiyyətində qalmışdı. Türkiyə Cümhuriyyəti qurulduqdan sonra da bu proses davam etmiş və türk birliyi uğrunda mübarizə aparan "Türk ocağı" əvvəlcə fəaliyyətini Türkiyə ilə məhdudlaşdırmış, daha sonra isə bir müddət qapanmışdır: "Artıq Türkiyədə bir Türkiyə türkçülüyü doğmuşdu və bu halın cığırından sapmış bir xətası olmaq üzrə "Anadolu millətçiliyi" epizodu da müşahidə edilmişdi. "Anadolu" məcmuəsi ətrafında toplanan bir qrup ziyalılardan ibarət zümrənin irəli sürdyü iddiaya görə türklük bir millət deyil, bir irqdir və bu irqə Anadolu, Azərbaycan, Türküstan və i.a. kimi millətlər daxildir" [8, s.206]. Doğrudan da, bu dövrdə türkçülüyün ideoloqu sayılan Z.Gökalp belə türkçülüyün və turançılığın real siyasi-ideoloji hədəfi kimi türkiyəçiliyi götürmüşdü. Onun fikrincə, uzaq gələcəkdə oğuzçuluq və daha sonra turançılıq mümkündür ki, bu isə daha çox siyasi deyil, mədəni birlik mahiyyətli idi [4, s.38]. Gökalpın bu fikirlərini əsas tutaraq M.B.Məmmədzadə qeyd edirdi ki, bu mənada artıq türkçülük-türk birliyi kimi romantik turançılıq da əski mənasını tamamilə dəyişdirmişdi.

O yazırdı ki, türkçülük və turançılıq məsələsində "Müsavat"ın 1936-cı ildə qəbul etdiyi "Yeni proqram əsasları"na görə, ümumi türkçülüklə Azərbaycan türkçülüyünü ideal bir surətdə birləşdirməyə nail olmaqdan ibarətdir. Yəni müsavatçılar da türk mədəni birliyinə sadiq və bağlı qalmaqla yanaşı, müstəqil Azərbaycan türkçülüyü ideyasını müdafiə edirlər: "Müsavatçılıq böyük türk kültürünə bağlı, milli, mədəni və insani dəyərləri mənimsəyən, hürriyyət, cümhuriyyət və istiqlal idealına sadiq Azərbaycan vətənsevərliyidir. Böyük türklüyə mənsub bir məmləkət olması səbəbilə Azərbaycan digər türk elləri ilə kültürəl surətdə bağlıdır. Bu bağlılığın bundan əvvəl olduğu kimi, bundan sonra da qorunmasını müsavatçılıq ciddiyyətlə müdafiə edər" [8, s.209].

Bununla da, Azərbaycan Milli İdeyasını müdafiə edən Məmmədzadə və başqa müsavatçılar hesab etmişdilər ki, azərbaycançılığın tarixi bir missiyası vardır. Həmin missiya "Müsavat"ın "Yeni proqram əsasları"nda öz əksini belə tapmışdı: "Azərbaycan qədim zamanlardan bəri tarixin müxtəlif dövrlərində özünəməxsus siyasi varlıq göstərərək müstəqil dövlət halında yaşamışdır. Azərbaycan xalqı isə müasir millət olmaq üzrə zəngin bir kültür həyatına malik bulunmuş və bunun məntiqi nəticəsi olaraq siyasi bir ideal daşımışdır. Bu ideala tərcüman olan milli Azərbaycan "Müsavat" xalq firqəsi 1918-ci ildə milli Azərbaycan Cümhuriyyəti istiqlalının elanındakı təşəbbüsü, bu təşəbbüsün fikirdən işə keçirilməsi yolundakı fəaliyyəti və nəhayət, qızıl rus istilasına qarşı milli mücadilə işində göstərdiyi yol göstərənliyi ilə bütün azərbaycanlıların biricik siyasi təşəkkülüdür" [8, s.209].

Mirzə Balanın fikrincə, istiqlal və milli dövlət ən yüksək, ən qüdsi və ən insani bir məfkurəni milli sərhədlər daxilində gerçəkləşdirmək üçün bir vasitədir: "Zatən siyasi türkçülük, milli dövlət qurmaq hərəkatı milli varlığı qorumaq əndişəsindən və mədəni millətçiliyi gerçəkləşdirə bilmək arzusundan doğmamışdırmı? Müstəqil və azad bir milli dövlət həyatı türk mədəni birliyini tətbiq etməkdən və gerçəkləşdirə bilməkdən əlavə millətin fərdlərini səadətə və rifaha qovuşdurmaq, ictimai bir ədalət və bərabərlik qura bilmək üçün də lazımdır" [8, s.211]. Beləliklə, o, belə bir doğru nəticəyə gəlir ki, "Müsavat" partiyasının liderliyi ilə Azərbaycan xalqı ümmətçilikdən-islamçılıqdan türkçülüyə, ümumi türkçülükdən Azərbaycan türkçülüyünə - Azərbaycan milli dövlətçiliyinə doğru böyük bir yol keçmişdir: "Əgər o ("Müsavat" - F.Ə.), "islamçılıq" dövründən "ümumi türkçülüyə",

oradan da türk kültür birliyinə əsaslanan "Azərbaycan milli dövlətçiliyinə" keçməmiş olsaydı, yerini başqa ifrat və qeyri-milli firqələrə verəcəkdi" [8, s.234].

Milli azərbaycançılıq və Qafqazçılıq ideyası

Mühacirət dövründə ən geniş yayılmış ideyalardan biri də Qafqazçılıq olmuşdur. Qafqazçılığın əsas ideoloqlarından biri M.Ə.Rəsulzadə idi. Onun fikrincə, bir müddət panturanizmin inqilabçı ideyalarından ilhamlanaraq milli varlığını qorumaq ideyasına çatan Azərbaycan xalqı artıq hazırda müstəqil Qafqaz Konfederasiyası siyasi birliyindən qıraqda qurtuluş olmadığını anlamışdı [17, s.63]. Bununla da, Rəsulzadə özəkçi Turan dövləti ideyasına qarşı olmaqla yanaşı, hətta gələcəkdə gerçəkləşməsini mümkün saydığı Türk dövlətlərinin Türk Federasiyası ideyasının belə, obyektiv səbəblərdən həmin dövr üçün mümkün olmadığını anlayaraq, ən ideal variant kimi Qafqaz Konfederasiyasını müdafiə etmişdir. Rəsulzadə yazırdı: "Biz müstəqil Qafqasiya Konfedarasiyası fikrini zamanın ən aktual bir tezisi olaraq müdafiə edirik" [16, s.52].

Bu isə o demək idi ki, Rəsulzadə Azərbaycan milli ideyası ilə Qafqaz Birliyi ideyası arasında uzlaşmanın olması ilə bağlı da ciddi siyasi-nəzəri müddəalar irəli sürmüşdür. Hələ, Azərbaycan Cümhuriyyəti dövründə Qafqaz Konfederasiyası ideyasını irəli sürən Rəsulzadə yazırdı: "Mən Azərbaycanı Qafqaz İttifaq dövlətinin konfederativ tərkib hissəsi kimi təsəvvür edirəm. Həmin ittifaq dövlətinin tərkibinə Azərbaycan, Gürcüstan, Ermənistan və Şimali Qafqaz daxil olmalıdır" [1, s.186]. Bu ideyanı 1919-cu ilin noyabrında "Müsavat"ın 2-ci qurultayında da müdafiə edən Rəsulzadənin təşəbbüsü ilə toplantı iştirakçıları Qafqaz respublikalarının Qafqaz Konfederasiyası azad ittifaqında birləşməsi ilə bağlı qətnamə də qəbul etmişdi [1, s.186].

Bu dövrdə Rəsulzadə ilə yanaşı Ə.M.Topçubaşov da Qafqaz birliyi ideyasını müdafiə etmişlər. Topçubaşov 1918-ci ildə qələmə aldığı "Azərbaycan Cümhuriyyətinin yaradılması" əsərində yazırdı ki, Güney Qafqazın üç ulusu (türklər, gürcülər və ermənilər) İsveçrə Respublikasında olduğu kimi konfederasiya əsasına dayanan ortaq bir siyasi yaşama iqlim, təbiət özü yönəldir: "Konfederasiya quruluşu düşüncəsi Güney Qafqazda olduqca geniş yayılmışdır. Bu düşüncə bu il (1918) aprelin 9-da bütün Güney Qafqazın bağımsızlığının bildirilməsi, ölkədə bir yönətim yaratmış Ağalığın yaradılması ilə sözdən işə keçdi. Bu baxış indi də yaşamaqda olub, istəyənləri arasında ermənilərin, gürcülərin, azərbaycanlıların orta-liberalları, ulusalçı partiyaları ilə yanaşı Güney Qafqazın bütün ellərinin birləşmək istəyən sosial-demokrat partiyaları da bulunmaqdadır" [18, s.54-55].

Rəsulzadə yazırdı ki, Azərbaycan mütəfəkkirləri və dövlət adamları (Ə.Ağaoğlu, Ə.M.Topçubaşov, M.Ə.Rəsulzadə və b.) Qafqaz Birliyi ideyasını 1918-1920-ci illərdə irəli sürüb müdafiə etdikləri kimi, bu gun də onun arxasında dayanırlar: "1918-ci ildə bu məsələ nə qədər aktual idisə, bu gün də o qədər önəmli və aktualdır. Otuz iki ildən bəri davam edən müştərək fəlakət otuz dörd il əvvəl duyulan bu zərurətin ikna qüvvətini şübhəsiz daha ziyadə artırmışdır. Mühacirətdəki konfederasiyonçuluq hərəkatı da ancaq bu iddiayı isbat edər" [10, s.178]. Bu mənada, 1934-cü ildə Parisdə ortaq bir Pakta imza atan gürcülər, şimali qafqazlılar və azərbaycanlılar Qafqaz Cümhuriyyətləri Konfederasiyasını yaratmaqla doğru yol tutmuşlar [10, s.168].

1952-ci ildə Münhendəki "Qafqaz" dərgisində nəşr olunan "Qafqaz məsələsi" məqaləsində Qafqaz Konfederasiyasının gerçəkləşməsi yollarını daha dərindən incələyən Rəsulzadə hesab edirdi ki, belə bir birliyin yaranmasını vacib edən amillər aşağıdakılardır: birincisi, "Qafqazın nə qövm, nə kültür, nə də irq baxımından Rusiya ilə heç bir ilgisi yoxdur". İkincisi, "ekonomi baxımından Qafqaz, kəndinə yetər müstəqil bir vəhdətdir". Üçüncüsü, "strateji baxımından da, Qafqaz bir bütündür" [10, s.173]. Dördüncüsü, "aralarındakı milli və kültürəl özəlliklərə baxmayaraq, Qafqaz millətləri ortaq bir ruh və xarakterə malikdirlər ki, bu Qafqaz deyilən psixolojik bir tipin yaranmasını dəstəkləyən ictimai bir çox müəssisələrdə görükməkdədir". Beşincisi, ən əsası "çarizmin və bolşevizmin hər şeyi bir səviyyəyə gətirən ruslaşdırma, müstəmləkəçilik siyasətinə qarşı mücadilədə bütün Qafqaz millətləri birləşməlidilər" [10, s.174]. Çünki çar Rusiyasından sonra Sovet Rusiyasının da Qafqaz millətlərinə qarşı yürütdüyü işğalçı siyasət bir daha göstərdi ki, "geopolitik bir vəhdət təşkil edən Qafqaz daxilində yaşayan millətlər eyni müqəddərata malikdirlər". Bütün bunlardan sonra Rəsulzadə belə bir nəticəyə gəlirdi: "Türkiyə Cümhuriyyəti və İran kimi güneydəki müsəlman dövlətləri ilə qüzeydəki xristian Rusiya arasında bir Eta tampon (hail hökumət) halində qurulacaq

Qafqaz Konfederasyonu isə məsələni məqbul bir tərzdə həll edə bilir. Gürcülərlə ermənilər Türk-Müsəlman dünyasında boğulmaq təhlükəsindən özlərini masun görür, azərbaycanlılarla, Şimali Qafqaz müsəlmanları da quzeydən gələcək təhlükəyə qarşı öz qonşularıyla yapmış olduqları ittifaq sayəsində təmin edilmiş olurlar" [10, s.175].

Belə bir ittifaqın varlığının Qafqazdakı türk ünsürünə xələl gətirə bilərmi sualına isə azərbaycanlı mütəfəkkirlərin cavabı budur: "Ekonomi baxımından qüvvətli, kültür baxımından qüdrətli olan Azərbaycan böylə bir kombinezonda öz önəmini itirmək riskinə heç bir zaman məruz deyildir. Əksinə, Qafqaz millətləri ailəsində Türk ünsürünə özünə layiq bir rol oynamaq müqəddərdir" [10, s.176]. Rəsulzadə inanırdı ki, Qafqaz Birliyi məsələsində Türkiyə Cümhuriyyəti Sovet Rusiyasından fərqli olaraq imperalist yol tutmamışdır. Artıq böyük Atatürkün sayəsində, Türkiyə demokratik bir xətt seçmiş və onu davam etdirməkdədir. Onun fikrincə, Türkiyənin bu xətti isə Qafqaz Birliyini nəinki inkar edir, əksinə onun yaranmasının tərəfdarıdır: "Türkiyə Cümhuriyyətinin müqəddəratını idarə edənlər hər fırsatta bugünkü milli hüdudlar xaricində heçbir əməl daşımadıqlarını israr və önəmlə elan etməkdədirlər. Patriotizm mənasında anlaşılan türk milliyyətçiliyi ilə, Qafqazya Konfederasiyon fikri arasında qətiyyən bir təzad yoxdur" [10, s.177]. O, böyük uzaqgörənliklə onu da əlavə edirdi ki, çürük əsaslara söykənən SSRİ dağıldıqdan sonra qurulacaq Qafqazın alacağı siyasi idarə şəkli haqqında indidən qərara gəlmənin həyati önəmi vardı: "Gələcək Qafqaz rejimi haqqında indidən dəqiq bir fikir və qənaət birliyi təmin etməlidir. Bu təmin edilmədən Qafqaz millətlərinin ən az qüvvət və fədəkarlıq sərfiylə ən çox hürriyyət və istiqlal imkanlarına qovuşmaq imkansızdır… Buna məhəl buraxmayacaq biricik tədbir isə, Qafqaz Konfederasiyası ideyasının bütün əlaqədarlarca indidən ciddiyyət və önəmlə ələ alınmasıdır!" [10, s.179].

Göründüyü kimi, Rəsulzadə Azərbaycan milli ideyasını müdafiə etməklə yanaşı, yeni turançılıq-yeni türkçülük və qafqazçılıq ideyalarının onunla hansı yönlərdən uzlaşdırıla biləcəyi ilə bağlı siyasi-ideoloji təkliflərlə çıxış etmişdir. Bununla da, Rəsulzadə bir tərəfdən, azərbaycançılığın türkçülüklə, eyni zamanda müəyyən qədər islamçılıqla bağlılığını daima qoruyub saxlamış, digər tərəfdən, bu ideyanın demokratiyaya zidd olmadığını ifadə etmək üçün Azərbaycanın Qafqaz Birliyi ideyasının əsas tərəfdarı olduğunu göstərmişdir.

Qeyd edək ki, hazırda istər Azərbaycanda, istərsə ondan kənarda bəzi politoloqlar, tədqiqatçı alimlər, ictimai-siyasi xadimlər və başqaları qafqazçılıq ideyası ilə bağlı müxtəlif mülahizələr irəli sürürlər. Bəziləri hesab edirlər ki, qafqazçılıq ideyası və identikliyi artıq əsrlərin süzgəcindən gəlib keçən və müəyyən bir psixoloji fenomen kimi formalaşan tarixi hadisədir [6, s.4]. Məsələn, akademik Əfrand Daşdəmirov yazır ki, artıq neçə əsrlərdən bəri Qafqazda yaşayan ayrı-ayrı etnoslar (türk, kvartel, slavyan, dağıstan və b.) eyni tarixi hadisələri yaşamaları, ortaq mədəniyyəti paylaşmaları, eyni zamanda zaman-zaman bir-birlərinə yaxınlaşaraq qohumlaşmaları baxımından Qafqaz mədəniyyəti, Qafqaz tarixi, Qafqaz adət-ənənələri, Qafqaz mentaliteti adı altında birləşiblər [2, s.16]. Bütün onların göstəricisidir ki, vaxtilə M.Ə.Rəsulzadənin qafqazçılıq ideyası ilə bağlı irəli sürdüyü müddəalar bu gün də öz aktuallığını qoruyub saxlamaqdadır.

Milli təsanüd ya da milli həmrəylik fəlsəfəsi

Mühacirət dövründə milli aydınlarımızın ən çox diqqət yetirdiyi məsələlərdən biri də Sovet Rusiyasının işğalçılıq siyasətinin, o cümlədən bolşevizm "demokratiyası"nın tənqidi və buna qarşı qoyduğu Azərbaycançılıq və milli təsanüdçülük (həmrəylik) ideyası olmuşdur. Onların fikrincə, sovetlərin qondarma beynəlmiləlçiliyi və "kommunizm" təbliğatı artıq qeyri-rus millətləri arasında özünə yer tapmır. Buna səbəb isə bolşeviklərin sözləri ilə əməllərinin üst-üstə düşməməsidir.

Onlar sosializmin yaranması və inkişafı tarixinə nəzər salaraq göstərirdilər ki, elmi əsasları alman filosofları K.Marks və F.Engels tərəfindən qoyulan kommunizm rus bolşeviklərincə tamam başqa hala gətirilmişdir. Bu mənada, SSRİ dönəmindəki kommunizm nəinki xalqlara azadlıq gətirmiş, əksinə onların bütün hüquq və azadlıqlarını tamamilə əllərindən almışdır. Bu mənada, SSRİ rejiminin zülmündən ən çox əziyyət çəkənlər isə qeyri-rus millətlər, o cümlədən Türk-müsəlman xalqları olmuşdur. Ona görə də, rus kommunizminin əsl mahiyyətinin dünya ictimayyətinin diqqətinə çatdırılması vacibdir.

M.Ə.Rəsulzadə yazırdı ki, bolşeviklərin lideri Lenin 1917-ci il oktyabr inqilabına qədər və inqilabın ilk dövrlərində özü də, hər bir millətin ayrı yaşamaq hüququnun olduğunu irəli sürmüşdü. Ancaq bolşeviklər Leninin bu formulunu "məramа müvafiq olarsa" qeydi ilə qəbul etmişlər. Bolşeviklərin milliyyət məsələsində fəaliyyət proqramı kimi qəbul etdiyi bu tezisə görə, guya sovet federalizmi isə müvvəqətidir, ittifaqı təşkil edən üzvlərin hansı istərsə ittifaqı tərk etmək haqqına malikdir: "Ancaq bu xəyali bir istiqlal idi. "Sovetlər ittifaqı" təşkilati-əsasiyyəsi - ölkə ruslar tərəfindən birmənalı şəkildə idarə olunur. MİK "ittifaq şurası" və "millətlər şurası" rusların əlindədir. O birisi cümhuriyyətlərin heç bir səlahiyyəti yoxdur. Sovet federasiyonunu təşkil edən cümhuriyyətlərin yalnız adı cümhuriyyətdir" [11, s.61].

Bütövlükdə, bolşeviklərin Şərq siyasətini Rəsulzadə, belə dəyərləndirirdi: "Rus "Lafonten"i məşhur Krılovun "istifadə edə bilmədiyimizi hədiyyə edirik" - deyə bir misrası vardır. Bolşeviklərin Şərq məmləkətləri haqqındakı comərdlikləri də bu yöndəndir. Əlləri çatmadıqlarını hədiyyə edirlər… Bu, parlaq manevr idi. Manevrə idi - deyirik, çünki manevrə olmayıb da Sovet hökumətinin Şərqdəki qonşuları ilə dostluğu həqiqi və hər cürə istismar iştihasından ari həqiqətpərvaranə bir əsasə istinad etmiş olsaydı o zaman biz aradakı siyasi razılıq və uyğunluğa baxmayaraq, Şərq millətləri ilə Sovet arasında sənələrcə davam edən və hələ də bir cürə həll edilməyən iqtsadi ixtilaflarla ticarət mübarizələrinə şahid olmazdıq" [11, s.174-175].

M.Ə.Rəsulzadə kommunizmə və faşizmə qarşı qoyduğu **milli təsanüd ideyası**nı 1930-cu illərdə irəli sürsə də, onun kökü Azərbaycan Cümhuriyyəti dövrünə gedib çıxır. Hələ, "Əsrimizin Səyavuşu" əsərində Rəsulzadə milli-dini dəyərlərlə liberalizmin ortaq nöqtələrinin tapılmasının zəruriliyindən bəhs etmişdir. Bununla da həmin kitabında milli təsanüd ideyasına ötəri şəkildə toxunan mühacirət dövründə bu məsələyə əsaslı şəkildə yanaşmışdır. O, "Milli mücadilədə sosial şüarlar" məqaləsində yazırdı ki, indi başlıca problem "milli dava və sosial məsələ"yə aydınlıq gətirməkdir: "Bir kərə "millət"in özü ictimai, yəni sosial bir anlamdır. Milli dava dəxi, əhatəli və ötkün bir baxışla, sosial bir davadır. Bir millət nə zaman müstəqil olur və bu istiqlalı nə üçün istəyir? Bu suallara cavab aradığımız zaman milli istiqlal davası ilə sosial məsələlər arasında ayrılıq deyil, dərin bir bağlılıq olduğunu görürük. Bir millətin dışarıya qarşı həqiqi istiqlalı, içəridəki milli hakimiyyətinin həqiqiliyi ilə mütənasibdir. Dövlətlər arasındakı "milli istiqlal" anlamının bir dövlət içindəki qarşılığı, "milli hakimiyyət" sözündəki mənadır" [16, s.58-59].

Onun fikrincə, hürriyyət, milliyyət və istiqlal kimi mücərrəd siyasi şüarlar, münəvvər kütləyə xitab edən və onları inqilablaşdıran anlamlardır. Çünki geniş xalq təbəqələrini ayaqlandırmaq üçün, sadə şüarlar kafi deyildir. Onlar hərəkətə keçmək üçün, daha maddi və daha aydın şüarlar istər. Bu mənada, bolşeviklərdən fərqli olaraq İtaliyada Mussolini, Almaniyada isə Hitler sosial şüarlardan milli mənfəətlər üçün istifadə edir. Bolşeviklər sosial şüarlarını beynəlmiləl proletar sinfi uğrunda mübarizə adı ilə təqdim etdikləri halda, Mussolini və Hitler isə, bütün bunları milli şüarlar kimi qələmə verirlər. M.Ə.Rəsulzadənin fikrincə, bolşevizm olmasaydı İtaliya və Almaniyada faşizm bu dərəcədə uğur qazanmazdı. Yəni, rus bolşevizmi təhlükəsi İtaliya və Almaniyada millətçiliyin radikal şəkildə ortaya çıxmasına səbəb olmuşdur [16, s.60-61].

"Milli dava və sosial məsələ" problemindən çıxış yolu kimi milli təsanüdü qəbul edən Rəsulzadə yazırdı ki, Cümhuriyyət dövründə bu məsələlər arasında uzlaşmanın yaranmamasının bir sıra səbəbləri olmuşdur: "O zaman bir tərəfdən liberalizm, digər tərəfdən də internasyonal sosializm cərəyanlarının zamana hakim təsirlərinə rəğmən, milliyyətçi qalmağı bacaran "Müsavat" üçün indiki ümumi ruhdan mülhəm olaraq, daha milli bir siyasət də daha təsanüdçü sosial bir sistem təsbit etmək qeyri mümkün idi!…" [16, s.66]. Bu baxımdan 1930-cu illərdə "Müsavat"ın proqramına sosial məsələlərlə bağlı bir sıra dəyişikliklərin edildiyini önə çəkən Rəsulzadə yazırdı ki, bu milli həmrəylik anlayışıdır. Onun fikrincə, yalnız milli təsanüd demokratik dövlətin əsas ideologiyası ola bilər. Bu zaman nə liberalizmə, nə də bolşevizmə ehtiyac qalacaq. Burada əsas məsələ milli çərçivə daxilində sosial məsələləri həll etmək cəhdidir. Şübhəsiz ki, bu zaman kommunizmin doğurduğu bolşevizm və s. kimi bəlaları özündən uzaq tutmaqla yanaşı, milli təsanüdçülük kapitalizmin də mənfi tərəflərini rədd edirdi: "Milli istiqlal mücadiləsinin müvəffəqiyyəti və onun bir kütlə hərəkatı olaraq, şumulluluğu üçün milliyyətçilərə sosial məsələlərlə məşğul olmaq zərurət və bu məsələləri milli davanın faydası namına həll etmək isə borcdur! Sadə istiqlal şüarı məmləkətin geniş xalq kütlələrini toplayaraq mücadiləyə çəkmək üçün kafi deyildir. Uğrun-

da mücadilə edilən "istiqlalın" daşıdığı sosial mənanı da açmalıdır ki, milli hərəkat düşmənlərinə kütləyi şaşırtmaq üçün demaqogiyasına imkan qalmasın!..." [16, s.66]. O hesab edirdi ki, sosial məsələni milli məsələnin bir hissəsinə çevirməklə bolşevikləri sıradan çıxarmaq mümkündür. Bu baxımdan onun əsas məqsədi sosial məsələnin millətçiliyə zidd olmadığını sübut etmək idi: "Düşmənimiz bolşevizm üçün milliyyət, keçici bir taktika məsələsi isə, bizim üçün sosial islahat heç də öylə deyildir. Bu, öz başına təsanüdlü və məsud bir varlıq təsəvvür etdiyimiz ahəngdar milli cəmiyyətin həm davamı, həm də istiqlalının təmini üçün zəruri və daimi bir qayədir!..." [9, s.51].

M.B.Məmmədzadənin fikrincə də, 27 aprel faciəsinin kommunistlərin hər yerdə çığırdıqları və bağırdıqları kimi, Azərbaycan kəndli və işçisinin inqilabı deyil, sadə Rusiya ordusunun vəhşicə istilası olması hər kəsə aydın və açıqdır [8, s.155]. Bunu nəzərə alaraq, o qeyd edirdi ki, Azərbaycan türk xalqının məsumanə axan qanından yaranan milli intibah rus ağalığının son qəbir daşı olacaqdır: "Ey türk xalqı! Səni azad edəcək və xoşbəxt yaşadacaq mübarizəyə bütün qüvvənlə hazırlaş, səni bu mübarizə xilas edəcəkdir! Azərbaycanın istiqlalını bir dəfə qurdun, ikinci dəfə də qurmaq bacarığına maliksən. Düşmənini tanı, milli intibahını yüksəlt, haqq səninlədir" [8, s.156]. Bu fikirlərinin davamı olaraq Məmmədzadə yazırdı: "Bir millət ya yetişmişdir, öz haqqına müdrikdir, müştərək milli bir şüura malikdir və yaxud əksinə olaraq ölgündür, ictimai bir üzviyyət halına gəlməmişdir" [7].

M.Ə.Rəsulzadənin "rus kommunizmi"nə qarşı irəli sürdüyü milli həmrəylik (solidarizm) ideyasını müdafiə edən Məmmədzadə yazırdı ki, "Müsavat"ın "Yeni proqram əsasları"na görə, müstəqil türk dövlətində nə ifrat liberalizmə, nə də kommunizmə yer olmayacaqdı: "Bu qənaətlə o, fərdi azadlıq və şəxsi mülkiyyət əsasını siyasət və iqtisad prinsipi olaraq qəbul etməklə bərabər, əsrimizin gündən-günə qüvvətlənən bir sintezi halında olan həmrəylik (solidarizm) sistemi gərəyincə dövlətlə cəmiyyətin haqlarını tanıyır və onların çarpışan zümrə mənfəətləri üzərində nizamlayıcı rolunu oynamağa mükəlləf müəssisələr olduğunu qəbul edir. Bu surətlə müsavatçılıq milli birlik və həmrəyliyi əsas olaraq qəbul edir, hər cür sinif və zümrə hakimiyyətini rədd edir" [8, s.211]. Bu proqrama görə, türk mədəniyyətinin inkişafı və təkamülü, Azərbaycan türkünün səadəti və rifahı belə bir milli həmərylik sistemi daxilində mümkündür. Artıq burada fərdi azadlıq və fərdi mülkiyyət ilə yanaşı, ümüminin mənfəəti də vardır. Məmmədzadə yazır: "Bu tezisdə cəmiyyət də (bütün) var, fərd də (tək). Fərdi hürriyyət və mülkiyyət, ümumun, bütünün, dövlətin – millətin ali mənafelərinə zərər vurmamalıdır. Ona görə millət-dövlət fərdi hürriyyət və mülkiyyətləri kontrol etmək haqqına malikdir" [8, s.212].

Ümimilikdə M.Ə.Rəsulzadənin milli təsanüd ideyası, milli məsələ ilə sosial məsələnin kəsişdiyi bir nöqtə idi. O, bu ideyanı irəli sürməklə sübut etmək istəyirdi ki, sosial məsələləri milli məsələlərə qarşı qoymağın heç bir mənası yoxdur. Rəsulzadə sosial məsələlərin milli məsələlərə zidd olmadığını, əksinə, onunla bağlı olduğuna inanırdı. Beləliklə, milli ideoloq əsas fikirlərini milli məsələ ilə sosial məsələnin təsanüdünə, yəni onların həmrəyliyinə yönəltmişdir. Mühacirət dövründə Rəsulzadənin milli ideyaya, o cümlədən milli həmrəylik fəlsəfəsinə sonsuz dərəcədə inanması bir daha göstərir ki, o bir milli ideoloq kimi Azərbaycan Cümhuriyyətinin memarıdır. Elə bir memar ki, Rəsulzadənin ideyaları əldə əsas tutarlarsa, bu dövlət əbədiyyən yaşamaq gücünə malikdir.

Gördüyümüz kimi, Rəsulzadənin mühacirət dövründəki irsində əsas mübarizə xətti bütün sahələrdə (mədəni, fəlsəfi, siyasi və s.) Azərbaycan milli ideyasını yaşatmaq və onu son məqsədə – Milli İstiqlala çatdırmaq istəyi olmuşdur. Bu mənada, onun yaradıcılığında yer verdiyi mədəni, fəlsəfi, dini, tarixi və iqtisadi məsələlər Azərbaycan Milli İdeyası ilə uzlaşdırılmışdır. Xüsusilə, Azərbaycanın Milli İstiqlalının zorla əlindən alınıb, onun yerini Sovet Rusiyası müstəmləkəçiliyi ilə əvəz olunmasını heç cürə qəbul edə bilməyən Rəsulzadə müxtəlif aspektlərdən bu tarixi hadisənin mahiyyətini dünya ictimaiyyətinin diqqətinə çatdırmışdır. O, bir tərəfdən Azərbaycan türklərinin qədim mədəniyyətə, tarixə, ədəbiyyata malik bir millət kimi azad yaşamağa haqqı olduğunu isbat etməyə çalışmış, digər tərəfdən SSRİ kommunizminin saxta mahiyyətini ifşa etməyə çalışmışdır. Eyni zamanda, o, Azərbaycan Milli İstiqlalını tarixi nümunələrlə yanaşı, Azərbaycan milli ideyasının meydana çıxması və formalaşması baxımından izah etmişlərr. Beləliklə, Türk-İslam-Şərq mədəniyyətinə əsaslanan Azərbaycan Milli İdeyası və onunla bağlı olan yeni turançılıq, qafqazçılıq, "rus kommunizmi"nin tənqidi və milli təsanüd ideyaları Rəsulzadənin irsində başlıca yer tutmuşdur.

Açar sözlər: M.Ə.Rəsulzadə, Azərbaycan milli ideyası, yeni turançılıq, milli təsanüd

İstifadə edilmiş ədəbiyyat

1. Balayev A.H. Məmməd Əmin Rəsulzadə (1884-1955). Bakı: 2011, 288 s.
2. Дашдамиров А. Идеологические проблемы, межкавказские отношения. Баку: ИОПИИ. 2001, 87 с.
3. Əhmədli R.A. Azərbaycan milli-demokratik dövlətçilik məfkurəsi: türkçülük, müasirlik, islamçılıq. Bakı: Elm, 2007, 280 s.
4. Gökalp Z. Türkçülüyün əsasları. Bakı: Maarif, 1991, 175 s.
5. Gökdemir A. Düşüncə tarihimizden portreler. İstanbul: Bayrak, 2005, 359 s.
6. Исаев М.И. Современная концепция Кавказа: Этнокультурный аспект // Московское Эхо Кавказа. Москва: 1997
7. Mehmetzade M.B. Azerbaycan dövleti // Odlu Yurt jurnalı, İstanbul, 1931, №3(28).
8. Məmmədzadə M.B. Milli Azərbaycan hərəkatı. Bakı: Nicat, 1992, 246 s.
9. Resulzade M.E. Milli tesanüd. Ankara: Kardeş matbaası, 1978, 143 s.
10. Resulzade M.E. Hatıralar ve Kafkasya. İstanbul: 2011, 208 s.
11. Rəsulzadə M.Ə.Bolşeviklərin Şərq siyasəti. Bakı: Sabah, 1994, 134 s.
12. Rəsulzadə M.Ə. Əsərləri. IV cild. Bakı: Qanun, 2013, 456 s.
13. Rəsulzadə M.Ə. Azərbaycan Cümhuriyyəti. Bakı: Elm, 1990, 116 s.
14. Rəsulzadə M.Ə. Əsrimizin Səyavuşu, Çağdaş Azərbaycan ədəbiyyatı, Çağdaş Azərbaycan tarixi. Bakı: Gənclik, 1991, 112 s.
15. Rəsulzadə M.Ə. Qafqaz türkləri. Bakı: Təknur, 2012, 112 s.
16. Rəsulzadə M.Ə. Milli birlik. Bakı: Çıraq, 2009, 176 s.
17. Rəsulzadə Məhəmməd Əmin. Panturanizm. Qafqaz sorunu. Bakı: Təknur, 2012, 68 s.
18. Topçubaşı Ə.M. Azərbaycan Cümhuriyyətinin yaradılması. Bakı: Təknur, 2013, 55 s.

Фаик Алекперли

ФИЛОСОФСКИЕ, СОЦИАЛЬНО-ПОЛИТИЧЕСКИЕ ПРОБЛЕМЫ В ТВОРЧЕСТВЕ М.А.РАСУЛЗАДЕ (ПЕРИОД ИЗГНАНИЯ)

Резюме

В статье отмечается важная роль М.Э.Расулзаде в формировании и развитии национальной философии в XX веке в Азербайджане. Несмотря на многогранность деятельности М.Э.Расулзаде служил азербайджанской культуре, философии и науке. В статье освещаются идеи Расулзаде, связанные азербайджано-турецкой культурой и философией, таких как Азербайджанская Национальная Идея, Новый Туранизм, Национальный Солидаризм.

Клюевые слова: М.Э.Расулзаде, Азербайджанская национальная идея, новый туранизм, национальный солидаризм

Faiq Alakberli

PHILOSOPHICAL AND SOCIAL-POLITICAL PROBLEMS IN CREATIVE ACTIVITY OF MOHAMMED AMIN RASULZADEH (MIGRATION PERIOD)

Summary

The article notes an important role of M.A.Rasulzadeh in the formation and development of national philosophy in XX century in Azerbaijan. In spite of the multifaceted nature of his activity, he served Azerbaijan's culture, philosophy and science. The article highlights the ideas of Rasulzadeh related to Azerbaijani-Turkish culture and philosophy, such as Azerbaijan national idea, new turanism, national solidarity.

Keywords: M.A.Rasulzadeh, Azerbaijan national idea, new turanism, national solidarity

UOT – 165.0

Əbülfəz Hüseynov
Bakı Dövlət Universiteti, hüquq ü.e.d.

HÜQUQİ İDRAK VƏ HÜQUQİ ŞÜUR

Məqalədə hüquqi şüur hissi-idraki proses kimi təhlil edilir. Bildirilir ki, hüquqi fəaliyyətlə məşğul olan şəxsin şüurunun mərkəzi elementini hüquqi şüur təşkil edir. Nəzəri planda hüquqşünasların hüquqi şüurunun mahiyyəti hüquqi ideologiyanın və hüquqi psixologiyanın xüsusiyyətlərində öz ifadəsini tapır. Müəllifin fikrincə, hüquqi idrak prosesual və qeyri-prosessual formalarda təzahür edir və o, hüquqi kommunikasiya və hüquqi dialoqla sıx bağlıdır. Məqalədə hüquqi şüur və hüquqi idrakın bütün element və səviyyələri ətraflı təhlil edilir.

Hüquqi idrakın birinci və ya mərkəzi elementini özündə hüquqi faktın və hüquqi materiyanın dərkini birləşdirən şüur təşkil edir. Bu, hüquqi idrakın ən az verifikasiya edilən elementidir, çünki o, ideal şəkildə mövcuddur və onun haqqında yalnız dolayısı, əsasən fəaliyyət vasitəsilə mühakimə yürütmək mümkündür.

Öz növbəsində hüquqi fəaliyyətlə məşğul olan şəxsin şüurunun mərkəzi elementini hüquqi şüur təşkil edir. Nəzəri planda hüquqşünasların hüquqi şüurunun mahiyyəti hüquqi ideologiyanın və hüquqi psixologiyanın xüsusiyyətlərində, bu peşə üçün səciyyəvi olan hüquqi biliklər, təsəvvürlər, hisslər, emosiyalar, vərdişlər və s. sistemində öz ifadəsini tapır.

Hüquqşünasların hüquqi şüuru göstəriş və ya qadağan olunan davranış modelini müəyyən edən norma ilə konkret davranış aktı arasında vasitəçi kimi çıxış edir. Prosessual qərar qəbul edərkən subyektə öz baxışlarını rəhbər tutmaq imkanının verilməsi səlahiyyətli orqanın nəzərdən keçirdiyi hüquqi işin necə həll olunmalı olduğu barədə rəyi və ya qənaəti deməkdir. Subyektin işin halları və ya onun həlli variantı barədə istənilən qənaətində onun dünyagörüşünün, həyat təcrübəsinin, peşə hazırlığı səviyyəsinin və s. izləri olur.

Hüquqi idrakın ikinci elementini şəxsiyyətin psixoloji və bioloji xüsusiyyətləri təşkil edir. Bu halda hüquq tərəfindən hüquqi idrakın subyektinin informasiyanı qavramaq imkanı təmin olunur.

Hüquqi idrakın üçüncü elementini hiss orqanlarından şüura keçməyə can atan informasiya axınının özü təşkil edir. O, hüquqi idrakın subyektinin müxtəlif informasiya mənbələrindən gələn informasiya axını ilə qarşılıqlı əlaqələrini xarakterizə edir. Dövlət bu əlaqələri tənzimləyir, bir tərəfdən, hüquqi sahədə dövlət funksiyalarının icrasını, digər tərəfdən də prosessual qanunvericilik yolu ilə hüquqi idrakın subyektinə mötəbər informasiyanın çatmasını təmin etməyə can atır.

Hüquqi idrakın strukturunu başqa müstəvidə də, yəni hüquqi faktın dərki baxımından da nəzərdən keçirmək olar. Konkret subyekt tərəfindən hüquqi faktın dərkinin aşağı səviyyəsini prosessual və ya maddi qanunvericilikdə nəzərdə tutulmayan müxtəlif mənbələrdən əldə edilən biliklər təşkil edir. İşə aid olan biliklər qeyri-prosessual yolla, qeyri-prosessual mənbələrdən əldə edilə bilər, qeyri-prosessual formada, yəni mətbuatda, ayrı-ayrı vətəndaşlarda olan məlumatlar və s.əks etdirilə bilər. Bu səviyyəni hüquqi fakt haqqında adi-gündəlik bilik kimi səciyyələndirmək olar.

Hüquqi idrakın ikinci səviyyəsini qeyri-prosessual informasiya təşkil edir. Buraya biz əməliyyat-axtarış və özəl detektiv fəaliyyət nəticəsində əldə edilən məlumatları aid edirik. Sübut etmədən əvvəl gələn və ya onunla paralel şəkildə cərəyan edən bu idraki fəaliyyət köməkçi rolunu oynar.

Deməli, hüquqi idrak prosessual və qeyri-prosessual ola bilər. Hüquqi idrak prosessual idrakla başa çatmır. O, tam olaraq prosessual qanunvericiliyin normaları ilə tənzimlənə bilməz.

Hüquqi idrakın üçüncü səviyyəsinə müstəsna olaraq prosessual və maddi qanunvericilik çərçivəsində əldə olunan məlumatları aid etmək olar.

Qeyd etmək lazımdır ki, biliyin bu səviyyələrinin üçü də bir hüquqi subyektin şüurunda "birgə mövcudluq" edə bilər. Lakin onların həm bir-birinə, həm də obyektiv həqiqətə uyğunluq dərəcəsi əsaslı şəkildə fərqlənə bilər.

Konkret hüquqi iş üzrə real baş verən hüquqi idrakda idrakın subyekti faktlarla yox, onlar haqqında lazımi prosessual məlumatlarla əməliyyat aparır. Bu arada faktlar haqqında məlumatlar hüquqi idrakın subyektinə sübuta yetirmənin məzmununa çevrilincəyədək, yəni qanunla müəyyən olunmuş qaydada təsbit olunanadək bəlli ola bilər. Necə deyərlər, faktlar haqqında məlumatlar göz önündədir, sübut isə hələ yoxdur. Əgər bu məlumatlar prosessual forma almış olsa, onda sübutlar da meydana gələcəkdir ki, onların da əsasında hüquqi idrakın subyekti hansısa faktların mövcudluğu barədə hər hansı bir nəticəyə gələ bilər. Bu halda obyektiv gerçəkliyin aktlarının dərki prosesi aşağıdakı sxem üzrə baş verəcəkdir: informasiyanın əldə edilməsi, məlumatların sübuta çevrilməsi və fakt haqqında qənaətlər [1, s.16-17].

Bu məlumatlar hər hansı bir səbəb üzündən sübuta transformasiya etmədikdə və ya sübuta yetirmənin müəyyən mərhələsində yolverilməz kimi tanındıqda, hüquqi idrakın subyekti onlardan qərar qəbul etməkdə əsas kimi istifadə edə bilməz. Bununla belə onun şüurunda bu məlumatlar qalacaqdır. Qərar qəbul edərkən hüquqi idrakın subyekti onlardan sərf-nəzər edilməlidir ki, bu da psixi baxımdan kifayət qədər çətindir.

Hüquqi idrakın dördüncü səviyyəsini hüquqi prosesin gedişində səlahiyyətli orqan tərəfindən müəyyən olunan hüquqi fakt haqqında ən ümumi biliklər təşkil edir. Bu elə biliklərdir ki, onlara əsasən qanuni qüvvəyə minmiş qərar qəbul olunur. İdrakın bu səviyyəsi hüquqi həqiqətin özüdür: o, həm obyektiv həqiqətlə, həm də hüquqi idrakın səlahiyyətli subyektdən başqa digər subyektlərinin qənaətləri və ya bilikləri ilə üst-üstə düşməyə də bilər.

Hüquqi idrakın növbəti mərhələsini işin hüquqi əsasının müəyyənləşdirilməsi, onun qanuniliyi, zaman və məkanda qüvvəsi və s. baxımından, lazımi hüquqi normanın seçilməsi və təhlili təşkil edir. Hüquq tətbiq etmə prosesində hüquqi tövsif etmə baş verir. Bu zaman real həyatın hadisələri hüquqi normanın hipotezi və dispozisiyası ilə tutuşdurulur. Hüquqi tövsif etmə səlahiyyətli subyektin zaman və məkanda davam edən fəaliyyət prosesidir. Lakin obyektin də olması tələb olunur, subyekt qismində isə şəxslərin qanunla müəyyən olunmuş fəaliyyəti çıxış edir. Bu fəaliyyət qüvvədə olan hüququn normaları əsasında işin faktiki hallarının hüquqi qiymətləndirilməsi yolu ilə müəyyən olunur.

Hüquq tətbiq etmə zamanı hüquqi idrak xüsusi idraka aid edilir, yəni bu, praktiki fəaliyyət çərçivəsində və onun üçün həyata keçirilir. Hüquqi idrakın məqsədinə bu hadisələrin qanunauyğunluqlarının sosial-siyasi, iqtisadi mahiyyətinin araşdırılması daxil deyil. Bununla belə o, kortəbii bir proses olmayıb, istiqamətləndirilmiş səciyyə daşıyır və praktiki məsələlərlə-hüquqi normaların tətbiqi ilə əlaqədar faktların, halların öyrənilməsi məqsədini güdür.

Beləliklə, hüquqi idrakın predmeti lokal,vəzifələri məhduddur. Bundan başqa, idrakın bu növündə faktlar xüsusi üsullar, vasitələrlə müəyyənləşdirilir ki, bunlar da bu və ya digər dərəcədə qanunvericiliklə tənzimlənir.

Hüquqi idrakın aşağıdakı iki növünü də göstərmək olar: tətbiq etmənin və ya şərhin hüquqi əsasını əmələ gətirən hüquqi göstərişlərin dərki və işin faktiki hallarının dərki. Birlikdə onlar hüquq tətbiq etmənin ümumi elementlərindən birini – onun məzmununun intellektual tərəfini yaradır.

Hüquqi idrak bilavasitə və vasitəli ola bilir. Bilavasitə hüquqi idrak (bu zaman hissi qavranılan obyekt birbaşa idrakın predmeti olur) dar əhəmiyyətə malikdir. Buraya, məsələn, inzibati orqan tərəfindən hüquq pozuntusunun baş verdiyi yerdə sanksiya qoyularkən hüquqa zidd əməl faktının müəyyən edilməsi aid edilə bilər. Məhkəmə fəaliyyətində buna hüquqi işə baxılan anda mövcud olmaqda davam edən və məhkəmə tərəfindən bilavasditə dərk olunan hüquqi faktların məhkəmə tərəfindən prosessual formada qavranılmasını aid etmək olar.

Hüquqi idrakda həlledici rolu vasitəli fəaliyyət oynayır. Belə ki, işin faktiki halarının müəyyənləşdirilməsi zamanı gerçəklik başqa faktiki məlumatların-sübutların köməyi ilə rekonstruksiya edilir. Bu, təbiidir, çünki hüquq tətbiqetmə orqanları tərəfindən müəyyən edilən işin hallar əsasən keçmişə aid olur. Onlar bir qayda olaraq müəyyən informasiyanın (əşyaların üzərində qoyulmuş izlər və s.) köməyi ilə rekonstruksiya edilir.

Hüquqi normaların dərki, yəni şərh də vasitəli xarakterlidir. O, sözlü-sənədli formaya malik olmaqla qanunvericinin iradəsinin hüquqi ifadəsindən başqa bir şey deyil.

Hüquqda ifadə olunan tələbə görə, hüquq tətbiqetmə orqanının qərarı dolğun və dəqiq şəkildə obyektiv gerçəkliyə uyğun olmalıdır.

Bu prinsip hüquq tətbiqetmə orqanlarının, məsələn, məhkəmələrin, təhqiqat orqanlarının, arbitrajın və s. işin faktiki hallarının, subyektlərin hüquq və vəzifələrinin, faktların hüquqi əhəmiyyətinin hərtərəfli, tam və obyektiv müəyyən edilməsi üçün zəruri tədbirləri görmək öhdəliyində öz ifadəsini tapır.

Obyektiv həqiqət prinsipi hüquqi idrakın ümumi prinsipidir. Hüquqi normaların tətbiqi zamanı həqiqi mühakimərlein predmetini hüquqi işlə bağlı olan obyektiv faktlar təşkil edir. Obyektiv gerçəklik anlayışı özlüyündə faktlar deyil, onların sosial-hüquqi əhəmiyyətini, o cümlədən, hüquqa zidd əməllərin ictimai təhlükəsizliyini əhatə edir. Obyektiv gerçəklik faktlarına həmçinin hüququn özü, subyektlərin hüquq və vəzifələri aiddir. Bir sözlə, hüquq tətbiqetmədə həqiqi mühakimələrin predmetini bizim biliklərimizdə obyektiv olan, yəni hüquq tətbiqetmə fəaliyyətinin intellektual məzmununu təşkil edən obyektiv biliklər təşkil edir.

Bununla belə obyektiv həqiqətin predmetinə hüquq tətbiqetmə fəaliyyətinin iradi tərəfi daxil deyil. Hüquq tətbiq etmə orqanının qərarı obyektiv gerçəklik faktları haqqında həqiqi mühakimələrə əsaslanır, lakin o, hüquq tətbiq etmənin yaradıcı, deməli, subyektiv məqamlarını ifadə edir. Bu, deyək ki, ictimai münasibətlərin fərdi tənzimlənməsinə yönələn qərarların, məsələn, cinayət işləri üzrə cəza tədbirinin müəyyənləşdirilməsi zamanı iradi tərəfinə aiddir.

Burada iki mühüm məqama diqqət yetirmək tələb olunur. Birincisi, hüquq tətbiq etmə prosesində həyata keçirilən idrakın xüsusiyyətlərinə uyğun olaraq, hüquqi işdə obyektiv gerçəklik predmeti və məzmununa görə məhdud xarakter daşıyır. Nəzəri idrakdan fərqli olaraq, burada faktların əlaqə və xassələrini araşdırmaq, hadisələrin obyektiv qanunauyğunluqlarını, iqtisadi və sosial-siyasi əhəmiyyətini müəyyən etmək vəzifəsi qarşıda qoyulmur.

Məhkəmə tədqiqatında həqiqət sonsuz olmayıb sərt, qanunla müəyyən olunan çərçivələrlə məhdudlaşır. Bundan başqa, hüquq sahəsində obyektiv həqiqətin məzmununun müəyyən dərəcədə məhdud olması bu hüquq sisteminə xas olan hüquqi prinsiplərin təsiri ilə şərtlənir. Məsələn, hüququn humanizm prinsipi həqiqət naminə işgəncə kimi vasitələrdən istifadəyə yol vermir. Hüququn bəzi, məsələn, mülki prosessual və digər sahələrində isə həqiqi fakt müəyyən növ sübutların olmaması üzündən məhkəmə tərəfindən rədd edilə bilər. Son nəticədə hüquq tətbiq etmə prosesində obyektiv həqiqət qələbə çalsa da, bu konkret halda nəzərdən keçirilən prinsipdən müəyyən kənaraçıxmalar müşahidə olunur. Bundan başqa, ayrı-ayrı hallarda obyektiv həqiqət prinsipindən müəyyən xarici və subyektiv səbəblər üzündən də geriləmə halları mümkündür. Burada, məsələn, sosial-siyasi quruluş, qanunçuluğun tələblərinin xarakteri və ağırlığı həlledici rol oynayır. Bununla belə hətta ən sərt qanunçuluq şəraitində belə hüquq tətbiq etmə orqanlarının ayrı-ayrı işçiləri tərfindən hüquqi işlərin həlli zamanı kifayət qədər dərin araşdırmaların aparılmadığını qeydə almaq mümkündür. Bəzən hüquqi işin nəticələrinə dəqiq hüquqi tənzimləmənin olmaması da mənfi təsir göstərir. Bütün bunlar hüquqi işlərin həlli zamanı xətalara səbəb ola, obyektiv həqiqətə çatmağa mane ola bilər. Bunu nəzərə alaraq qanunvericilikdə hər bir konkret iş üzrə obyektiv həqiqətə nail olmanı təmin edən prosessual zəmanətlər nəzərdə tutulmuşdur. Məhkəmənin fəaliyyətində təcəssüm edən bu zəmanətlər prosessual formanın xüsusiyyətlərini, onu digər hüquqi prosedurlardan fərqləndirməyin səbəblərini izah edir. Bu kimi zəmanətlərə, məsələn, hüquq tətbiq etmə orqanlarının işin faktiki hallarının tam və hərtərəfli araşdırılması üçün bütün lazımi tədbirləri görmək vəzifəsi, şahidlərin bilərəkdən yalan ifadə verməyə görə, ekspertlərin bilərəkdən yalan rəy verməyə görə məsuliyyəti, hüquq tətbiqetmə orqanlarının qərarlarından şikayət verilməsi, habelə yeni açılmış hallar üzrə qərarlara yenidən baxılması təsisatları və s. aid edilə bilər.

Prosessual hüquqda mütləq və nisbi həqiqət sahəsində birmənalı fikir yoxdur.

Doğrudan da, hüquq tətbiq etmə fəaliyyətində həyata keçirilən idrak sərt müəyyən olunmuş və nisbətən məhdud dərəcəli praktiki vəzifələri qarşısında qoyan xüsusi idraka aiddir.

"Mütləq həqiqət" və "nisbi həqiqət" anlayışları isə sırf nəzəri idrak üçün nəzərdə tutulmuşdur. Onlar obyektiv gerçəkliyin dərkinin dərinliyini, elmin bu inkişaf səviyyəsində hadisələrin qanunauyğunluqlarının dərk olunma dərəcəsini əks etdirir.

Görünür, buradan belə qənaətə gəlmək olar ki, hüquqi işlərdə həqiqət mütləq və nisbi həqiqətin dialektik vəhdətindən ibarətdir. Hüquq normalarının tətbiqi zamanı söhbət dünyanın tam dərki məsələsinin həllindən getmir. Söhbət konkret həyati faktın obyektiv həqiqiliyindən gedir və bu, obyektin mötəbərliliyi ilə müəyyən olunmalıdır.

Qeyd olunmalıdır ki, hüquqi işlərdə həqiqətin mahiyyəti haqqında mübahisələr əsasən süni xarakter daşıyır. Nəzəri idraka aid fəlsəfi kateqoriyaları insan fəaliyyətinin xüsusi hallarına heç də həmişə birbaşa şamil etmək olmur. Bu mənada mütləq və nisbi həqiqət anlayışlarının məhkəmə araşdırmalarının nəticələrinin tətbiqinə həmişə bəraət qazandırmaq olmaz. Məhkəmə prosesində həqiqətin xarakteri haqqında məsələdə əsas şey bu həqiqətin nisbi yaxud mütləq olması deyil, onun obyektiv olmasıdır, yəni məhkəmənin hökmündəki və ya qərarındakı qənaətlərin obyektiv gerçəkliyə uyğunluğudur.

Hüquq tətbiqetmənin mərhələləri istənilən idarəetmə fəaliyyətinin mərhələlərinə uyğun gəlir. O, aşağıdakıları əhatə edir: 1) informasiyanın toplanması və qiymətləndirilməsi; 2) qərarın qəbul edilməsi; 3) onun həyata keçirilməsinin təmin edilməsi. Bununla belə hüquq tətbiqetmə idarəetmə fəaliyyətinin xüsusi bir növüdür. Birincisi, o, hüquqi normaların həyata keçirilməsi prosesinin bir mərhələsidir. O, təminedici, fərdi-tənzimləyici funksiyaları yerinə yetirir. İkincisi, səlahiyyətli orqan müəyyən informasiya əsasında qərar qəbul edir. Qəbul olunan qərarın əsas mənbəyi ümuməhəmiyyətli qərarın ifadə olunduğu hüquqi normalardır. Buna görə də hüquqi tətbiqetmənin çıxış elementini onun faktiki əsasının, yəni faktiki halların müəyyənləşdirilməsi deyil, onun hüquqi əsasının, yəni qüvvədə olan hüquqi normalar sisteminin dərki təşkil edir. Üçüncüsü, hüquq tətbiqetmə vahid bir prosesdir. Burada ayrı-ayrı hüquq tətbiqetmə hərəkətlərini bir-birindən zamanca ayırmaq mümkün olmur. Təcrübədə hüquq tətbiqetmə prosesində həyata keçirilən hərəkətlər bir-birini şərtləndirir. Hüquq normasını seçib təhlil etmək üçün müəyyən faktlara əsaslanmaq tələb olunur. Bu faktların dairəsi isə yalnız o zaman düzgün müəyyən edilə bilər ki, onların hüquqi əhəmiyyətə malik olduğu bəlli olsun.

Beləliklə, hüquq tətbiqetmə hərəkətləri fasiləsiz, getdikcə dərinləşən və zənginləşən hüquqi idrak prosesidir. Onun gedişində gah faktlara, gah da hüquqi normalara müraciət olunur, normaların təhlilinə əsasən faktiki halları daha dərindən təhlil etmək zərurəti yaranır, faktiki halların təhlili isə normalara müraciət etməyi, ayrı-ayrı hüquqi məsələləri dəqiqləşdirməyi və s. tələb edir.

Bununla belə hüquq tətbiqetmə fəaliyyətini mərhələlərə ayırmaq nəinki mümkündür,hətta lazımdır. Bu, hüquq tətbiqetmə prosesinin detallarını daha ətraflı öyrənmək imkanı yaradır.

Hüquq tətbiqetmə hərəkətlərini aşağıdakı üç əsas mərhələyə ayırmaq olar:

1) faktiki halların müəyyən edilməsi. Buraya faktların-sübutların təhlilinə, sübut etmə prosesinə aid hərəkətlər, yəni faktlar haqqında informasiya aiddir;

2) hüquq normalarının seçilməsi və tətbiqi, yəni, işin hüquqi əsasının müəyyən edilməsi. Bu mərhələni hüquqi normaların özü ilə aparılan hərəkətlər, yəni normativ aktın dəqiq mətninin tapılması, onun hüquqi qüvvəsinin yoxlanılması, aktın şərhi, hüquqda boşluqların doldurulması ilə bağlı hərəkətlər və s. təşkil edir;

3) işin hüquq tətbiqetmə aktında ifadə olunan həlli. Burada fakt və hüquqi normaların təhlili əsasında hüquqi iş üzrə hüquq tətbiqetmə aktında ifadə olunan qərar çıxarılır. Qərara müəyyən forma verilir və o, praktiki olaraq həyata keçirilir.

Göstərilən mərhələlərdən ilk ikisi əsasən hazırlıq xarakteri daşıyır. Onlar hüquqi idrakı ifadə edir və hüquq tətbiq etmə üçün faktiki, yəni ilkin mərhələ və hüquqi, yəni, ikinci mərhələnin əsasını təşkil edir. Tətbiq etmə prosesi işin həlli ilə başa çatır. Hüquq tətbiqetmə elə məhz bundan ibarətdir.

Maraqlıdır ki, göstərilən bu əsas mərhələlər ümumən hüquqi göstərişin strukturuna uyğun gəlir. Hüquqi göstərişin iki əsas elementi, bir tərəfdən, hipoteza, digər tərəfdən, dispozisiya və ya sanksiya hazırlıq xarakterli hüquq tətbiqetmənin iki mərhələsinə uyğun gəlir.

Müasir cəmiyyətdə hüquqşünas təkcə hüquqi mövqedən, yəni ədalət əsasında, hamıya qarşı bərabər azadlıq ölçüsünü tətbiq etməklə sosial münaqişələri həll edən mütəxəssis deyil. Hüquqi praktikada hüquq və ədalət ideyaları işarəvi formada öz ifadəsini tapır. Məsələn, vəkil və ya prokuror öz peşə məqsədlərinə fəal nitq kommunikasiyası prosesində çata bilir.

Hüquqşünaslıq geniş nitq praktikasını, dəqiq işarəvi ifadələrdən istifadəni nəzərdə tutur. Hüquq-mühafizə sisteminin bütün həlqələrində kompüter texnikasının, tele və videoapparaturanın tətbiq edilməsinə baxmayaraq, peşəkar hüquqi fəaliyyətin əsas vasitəsi yenə də sözdür [5, s.114-118; 2, s.23; 7; 3, s.109-112; 4, s.103-104]. Əksər hüquqşünasların əməyi daimi ünsiyyətlə bağlıdır. Buna görə də hüquqi tənzimləmə şəraitində ünsiyyətdən ibarət olan kommunikativ funksiya hüquqşünasın fəaliyyətinin əsas tərəflərindən biridir. Qeyd etmək lazımdır ki, yeni tipli hüquq sisteminin formalaşdığı, hüquq yaratma və hüquq tətbiqetmənin həcminin artdığı bir şəraitdə hüququn sözlə ifadəsində çoxlu sayda deformasiyalar, yuridik xətalar, boşluqlar, hüquqi normaların subyektiv qiymətləndirilməsi halları meydana gəlir. Dövlət, təşkilatlar və vətəndaşlar arasında yeni qarşılıqlı münasibətlər sisteminin inkişaf etdiyi bir şəraitdə nitq fəaliyyətinin müxtəlif üsullarından daha geniş şəkildə istifadə etmək tələb olunur. Buna görə də hüquqşünasların kommunikativ hazırlığı məsələsi xüsusi aktuallıq kəsb edir.

Qərbin sosial elmlərində isə sosial-elmi biliyin bu sahəsi xüsusi yer tutur və "Communication" və ya "Communication Studies" (kommunikasiya nəzəriyyəsi) kimi məlumdur. Qərb alimlərinin demək olar ki, hamısı vurğulayır ki, peşə keyfiyyətləri arasında ünsiyyət vərdişləri, yəni, dinləmək, danışmaq, inandırmaq, müxtəlif növ informasiya ilə iş aparmağı bacarmaq və s., öz hərəkətlərini tərəflərin hərəkətləri ilə əlaqələndirmək bacarığı çox yüksək əhəmiyyətə malikdir.

Ünsiyyət prosesində təkcə dili bilmək yetərli olmur. Danışığın aparılması prinsiplərini və qaydalarına da əməl etmək lazım gəlir. Öz peşə vəzifələrini yerinə yetirərkən hüquqşünas nəyi isə müzakirə etməli, danışıqlar aparmalı, suallar verməli, ona verilən sualları cavablandırmalıdır. Hüquqşünasın öz nitq fəaliyyətini nə dərəcədə bacarıqla həyata keçirməsi onun peşə fəaliyyətinin uğurluluğuna birbaşa təsir göstərir. Bu gün ölkə hüquq elmində hələ ki, kommunikativ fənlərlə bağlı müstəqil elmi cərəyan formalaşmamışdır. Hüquqi kommunikasiyaya həsr olunan xüsusi tədqiqatlar da yoxdur.

Nitq kommunikasiya problemi hələ qədim zamanlardan insanların diqqətini çəkirdi. Arxeoloji qazıntılara əsasən alimlər müəyyən etmişdirlər ki, ibtidai-icma dövründə insanların biliklərinin dillə ifadəsinin yeganə forması şifahi nitq olmuşdur. Deməli, idraki informasiya saxlanmalı və folklorda olduğu kimi, ötürülməlidir. Ən qədim rituallar dialoji struktura malik idi. Bu cür ritualların yazıldığı mətnlər çox vaxt Sokratın zamanından sual və cavabların ardıcıllığından ibarət idi. Şifahi söz, canlı ünsiyyət sahəsi uzun müddət ərzində elmi biliyin inkişafında aparıcı rol oynamışdır.

Şifahi söz mədəniyyətinin çiçəklənməsi e. ə. IV əsrə, Yunanıstana təsadüf edir. Klassik Yunanıstanda həqiqi müdriklik təsir və əsaslandırmadan, inandırmaq və müdafiə olunmaq bacarığından, deməli, şifahi nitqdən ayrılmaz idi. Xalq toplantılarında çıxış etmək və öz mövqeyini məntiqi cəhətdən əsaslandırmaq zərurəti şifahi arqumentləşdirmə sənətinin təkmilləşdirilməsinə səbəb oldu və son nəticədə məntiqi sübut etmə üsullarının işlənməsinə şərait yaratdı.

Afinada şifahi söz ayrıca bir vətəndaşın və ya bütövlükdə dövlətin taleyini həll edə bilərdi. Dialoq təkcə ünsiyyət forması deyil, həm də yunan alimləri üçün əqli fəaliyyətin bir növü idi. Platon hesab edirdi ki, insanlar arasında ünsiyyət ədalət, təmkinlilik, əxlaqi normalar üzərində qurulmalıdır. O, söhbəti aparma üsullarına diqqəti çəkmiş, müxtəlif həmsöhbətlərin dialoqunun bir çox incəliklərini qeyd etmiş, insanların düşüncələrinin onların ünsiyyətinin xarakteri və məzmunundan asılı olduğunu göstərmişdir. Söhbət zamanı bilik yaranır, təkmilləşir və başqalarına ötürülür.

Qədim Roma natiqləri arasında Siseronu, onun məhkəmə və siyasi nitqlərini qeyd etmək lazımdır. Siseron sözlərin seçiminə xüsusi əhəmiyyət verirdi. Onun nitqlərinin əksəriyyəti dialoq formasında yazılmışdır: əvvəlcə hadisə yeri təsvir olunur, söhbət üçün bəhanə göstərilir, onun iştirakçıları sadalanır, müzakirəyə çıxarılacaq məsələlər qeyd olunur. Artıq Roma hüquqşünasları və natiqləri hüquqi qaydaların ritorika xarakterli olmasını, prezumpsiyaların, aksiomların olduğunu görürdülər. Son nəticədə bu, hüquqi dilin məna sahəsində ünsiyyət vasitəsi və ya oyun qaydalarıdır.

Orta əsrlərdə canlı ünsiyyət kommunikasiyanın əsası olaraq qalır. Lakin şifahi nitq vasitəsilə indi artıq kitablardan əldə edilmiş biliklər ötürülməyə başlayır. Dialoq təkcə İntibah mədəniyyətinin mövcudluq üsulu kimi deyil, həm də onun sevimli janrı kimi ünsiyyətin ən müvafiq forması olaraq qalır.

Nitq kommunikasiyasının daha mürəkkəb nəzəri qaydaları Maarifçilik dövründə meydana gəlir. Bu zaman təbiətdən insana, ontologiya və qnoseologiyadan antropologiya və pedaqogikaya dönüş baş verir. Bu dövrdə mütəfəkkirlərin əsas diqqəti insanların qarşılıqlı münasibətlərini tənzimləyən psixi mexanizmlər üzərində cəmləşdirir.

Lakin kommunikasiya nəzəriyyələri yalnız XIX əsrin sonu - XX əsrin əvvəllərində işlənilib hazırlanır. Bu dövrdə kommunikasiya nəzəriyyəsi sosiologiyada simvolik interaksionizm adlanan cərəyan çərçivəsində T.Mid, A.Rouz və s. kimi alimlərin əsərlərində inkişaf etdirilirdi. Simvolik interaksionizm insanların qarşılıqlı təsirlərini fasiləsiz dialoq kimi nəzərdən keçirir. Bu prosesdə onlar bir-birini müşahidə edir, bir-birinin niyyətlərini anlayır və onlara reaksiya verir. Bu gün hüquq dialoq kimi İ.L.Çestnovun tədqiqatlarında təqdim olunur [6]. Bu tədqiqatlarda kommunikasiya təkcə cəmiyyətin deyil, həm də hüququn mövcudluq üsulu kimi nəzərdən keçirilir.

Ünsiyyət bir-biri ilə bağlı olan üç tərəfdən ibarətdir. Kommunikativ tərəf, yəni informasiya mübadiləsi; interaktiv tərəf-qarşılıqlı təsirlərin təşkili, perseptiv tərəf-qavrama, qiymətləndirmə, qarşılıqlı anlama prosesidir. Hüquqi kommunikasiya təkcə informasiya mübadiləsi olmayıb bir ünsiyyət aktı kimi qeyd edilən tərəflərin hamısını ehtiva edir. Hüquqi kommunikasiyanı hüquqi akt kimi nəzərdən keçirməklə spesifik dil formasında ifadə olunmuş və subyektlərin hüquq normaları ilə müəyyən olunmuş davranış qaydalarını təyin edən informasiya tərəfini və qarşılıqlı kommunikativ təsirlərin təşkili prinsiplərini müəyyən edən interaktiv tərəfi qeyd etmək olar.

Subyektlərin qarşlıqlı kommunikativ təsirlərinin təşkili prinsipini dialoq təşkil edir. Özünə ünvanlanan normaların mənasını başa düşən başqa bir subyektlə qarşılıqlı hüquqi təsirlərdə sosial əhəmiyyətli hüquqi qaydanın reallaşdırılmasına yönəlmiş əqli, emosional və iradə səyləri nümayiş etdirərək subyekt hüququn mexanizmini işə salır. Hüquqi dialoqun əsasını problem və onun həlli ilə bağlı mövqelərdəki fərqlər təşkil edir.

Hüquqi dialoq mahiyyətcə münaqişəlidir və məhkəmə mübahisəsi kimi kəskin münaqişəli situasiyalarda tərəflərdən etik normalara əməl olunmasını tələb edir. Qarşılıqlı hüquqi kommunikasiya təsirlərini araşdırarkən qanunvericilik prosesində, məhkəmə hakimiyyətinin, icra hakimiyyətinin, habelə mülki hüquqi münasibətlərin reallaşması sferasında hüquqi kommunikasiyanı fərqləndirmək lazımdır. Qanunvericilik prosesində kommunikasiya qanunun layihəsinin hazırlanması prosesində gedən şifahi və yazılı dialoqların toplusunu kəsb edir. Qanunvericlik prosesində kommunikasiyanın əsas vasitəsi qanunun dilidir. Bu, linqvistik bir kompleks olmaqla normativ-hüquqi göstərişlərin sözlə və işarə ilə ifadəsidir. Hüquqi aktların hazırlanması, nəşri, hüquqi göstərişlərin izahı, sistemləşdirilməsi və həyata keçirilməsi nitqlə müşayiət olunur. Qanuna əməl olunması üçün o, onun ünvanlanmış olduğu hər kəsə aydın olmalıdır. Məlum olduğu kimi, eyni sözlərin köməyi ilə eyni hüquqi aktın mənasını müxtəlif cür çatdırmaq olar. Eyni sənədlərdən istifadə etməklə də onların məzmunu ilə bağlı tamamilə fərqli nəticələrə gəlmək olar.

Nitqin kommunikativ vasitələrinin köməyi ilə hüquqşünas bu qeydi-mənalılığı aradan qaldıra, sosial-hüquqi praktikanın iştirakçılarını idarə edə, hüquqla tənzimlənən müxtəlif məsələlərlə bağlı səmərəli qərarlar qəbul edə bilər.

Məhkəmə kommunikasiyası məhkəmə araşdırmalarında tərəflərin qarşılıqlı təsirləri prosesində meydana gəlir. Müdafiənin və ittihamın nitqində mövqenin mənəvi cəhətdən əsaslandırılması, sübutların analizi və qiymətləndirilməsi yer almalıdır. Nitqin özü isə obrazlı və həyəcanlandırıcı, kifayət qədər lakonik olmalıdır. Təbii ki, bu, ustalıq tələb edir, çünki məhkəmələrdə insanların taleyi həll olunur. Buna görə də nitq yuridik fəaliyyətin əsas alətini təşkil edir. İcra hakimiyyətindən danışarkən isə, qeyd etmək lazımdır ki, onun reallaşması sahəsində yaranan kommunikasiyanın bəzi xüsusiyyətləri var ki, onlar hələ də kifayət qədər öyrənilməmişdir.

Hüquqşünasın nitq kommunikasiya vərdişlərinin inkişafı üsullarına onun öz nitqinin keyfiyyəti üzərində müstəqil iş aparması, müxtəlif təlim treninqləri, real həyat situasiyalarını imitasiya edən rollu oyunlar, başqasının nitq fəaliyyətinin üstünlükləri və çatışmamazlıqlarını izləmək imkanı verən ekspert işi, öz sözlərini video və audiovasitələrə yazılması və özünün kommunikasiya fəaliyyətinin izlənməsi aid edilə bilər.

Hüquqi kommunikasiyanın hüquq və ünsiyyət müstəvisində öyrənilməsi şəxsiyyətlə hüququn, şəxsiyyətlə dövlətin qarşılıqlı təsirlərinin mahiyyətini, təkcə qanunun mətnində deyil, həm də sosiomədəni gerçəklikdə özünə yer alan hüquqi normanın təsirini açıqlamaq imkanı verir. Öz funskiyalarını həyata keçirən dövlət vətəndaşlarla, habelə cəmiyyətin digər təsisatları ilə ünsiyyətdə yalnız hüquqi formalardan istifadə edə bilər. Müasir dövrdə hüquqi dövlətin inkişaf etdiyi bir şəraitdə hüquqi kommunikasiya dövlət strukturlarının rejiminin rasional tənzimlənməsinə və onun təkmilləşməsinə səbəb ola bilər.

Açar sözlər: hüquqi irdak, hüquqi şüur, hüquqi kommunikasiya, hüquqi dialoq

İstifadə edilmiş ədəbiyyat

1. Громов Н.А., Пономаренков В.А. Доказательства и доказывание в уголовном процессе. Самара: СФ ГАСБУ, 1999, 81 с.
2. Губаева Т.В. Язык и право. М.: Норма, 2004, 160 с.
3. Общая теория государства и права. Академический курс в 3-х томах / Отв. ред. М.Н.Марченко. Том 2. М.: Зеркало, 2002, 528 с.
4. Пигров К.С. Социальная философия. Учебник. СПб.: СПбГУ, 2005, 296 с.
5. Право и культура: Монография / Под. ред. Н.С.Соколова. М.: РУДН, 2002, 423 с.
6. Честнов И.Л. Право как диалог: к формированию новой онтологии правовой реальности. СПб.: 2000, 104 с.
7. Язык и право: актуальные проблемы взаимодействия (материалы международный научно-практической интернет конференции). Ростов-на Дону, 2011, 277 с.

Абульфаз Гусейнов

ЮРИДИЧЕСКОЕ ПОЗНАНИЕ И ПРАВОВОЕ СОЗНАНИЕ

Резюме

В статье анализируется юридическое познание как чувствительно-познавательный процесс. Юридическое познания представляет собой центральный элемент сознания индивида, занимающейся правовой деятельностью. В теоретическом плане сущность правового сознания юристов заключается в особенностях правовой идеологии и психологии. По мнению автора, юридическое познание проявляется в процессуальных и не процессуальных формах. Юридическое познание взаимосвязан правовой коммуникацией и диалогом. Анализируется все элементы и уровни юридического познания и правового сознания.

Ключевые слова: юридическое познание, правовое сознание, правовая коммуникация, правовой диалог

Abulfaz Hüseynov

LEGAL COGNITION AND LEGAL CONSCIOUSNESS

Summary

The article analyzes legal cognition as a sensitive-cognitive process. Legal cognition is the central element of the consciousness of the individual engaged in legal activity. In the theoretical plan the essence of the legal consciousness of lawyers lies in the peculiarities of legal ideology and psychology. According to the author, legal cognition is manifested in procedural and non-procedural forms. Legal cognition is linked to legal communication and dialogue. The article analyzes all elements and levels of legal cognition and legal consciousness.

Keywords: legal cognition, legal consciousness, legal communication, legal dialogue

UOT - 101.1

Nəzakət Salmanova
AMEA Fəlsəfə İnstitutu, fəl.ü.f.d., dosent

SOSİAL TƏSİSAT KİMİ AİLƏNİN SPESİFİKLİYİ

Məqalədə ailə, ailənin tarixi formaları, ailəyə münasibətdə ayrı-ayrı mütəfəkkirlərin fikir və münasibətləri ətraflı şərh olunmuşdur. Ailənin sosial institut kimi keçdiyi tarixi mərhələlər, onu səciyyələndirən xüsusiyyətlər də geniş izah olunur. Eyni zamanda burada nikah, onun növləri haqqında da məlumat verilir, monoqam və poliqam ailənin xüsusiyyətlərinə nəzər yetirilir, fikir və təkliflər irəli sürülür. Müasir Azərbaycanda ailənin möhkəmlənməsi istiqamətində aparılan dövlət əhəmiyyətli tədbirlərdən danışılır.

Cəmiyyətin özəyi olan ailə ibtidai icma quruluşu nəzdində sinif, millət və dövlətdən əvvəl yaranan ən qədim sosial institutdur. Onun yaranmasına bütün sosial-iqtisadi və mədəni proseslər, gündəlik həyat tərzi, ətraf mühitin amilləri təsir göstərir. Min illər ərzində ailə sivilizasiyalı cəmiyyətin vacib komponentlərindən olmuş, tarixi inkişafın hər bir mərhələsində insan istehsalını yerinə yetirmişdir [15, s.11]. Ailə qədər ictimai həyatın dəyişiklik, nailiyyət, inkişaf və çətinliklərinə həssas olan başqa bir sosial institut yoxdur [12, s.244]. İstənilən cəmiyyətin sosial quruluşunun lazımi komponenti olan və çoxlu sosial funksiyaları yerinə yetirən ailə cəmiyyətin inkişafında mühüm rol oynayır, çünki cəmiyyətin inkişafı insan ilə bağlı olduğu kimi, insanın inkişafı da ailə ilə bağlıdır. Ailə haqqında düzdür müxtəlif fikirlərin, ideyaların olmasına baxmayaraq, XIX əsrin 60-cı illərinin əvvəllərinədək ailənin tarixi barəsində heç danışmaq da ola bilməzdi. Bu sahədə tarix elmi hələ tamamilə Musanın Beş kitabının təsiri altında idi. Burada daha ətraflı təsvir edilmiş patriarxal ailə formasını nəinki danışıqsız olaraq ən qədim ailə forması hesab edirdilər, hətta çoxarvadlılıq istisna edilməklə müasir burjua ailəsi ilə eyniləşdirirdilər. Əslində guya ailə ümumiyyətlə heç bir tarixi inkişafdan keçməmişdi. Ən çoxu fərz edilirdi ki, ibtidai zamanlarda nizamsız cinsi əlaqələr dövrü ola bilərdi [18, s.7]. Doğrudur, təknikahlılıqdan əlavə bir də Şərq çoxarvadlılığı və hind – Tibet çoxərliliyi məlum idi; lakin bu üç formanı tarixi ardıcıllıqla düzmək mümkün deyildi və bunlar heç bir qarşılıqlı əlaqə olmadan yan-yana dururdu. XIX əsrin 60-cı illərinin əvvəllərindən etibarən artıq filosof, sosioloqlar ailənin tarixini tədqiq etməyə, öyrənməyə başladılar. 1861-ci ildə görkəmli İsveçrə alimi Baxovenin "Ana hüququ" adlı əsəri çapdan çıxdı. Bu əsərdə müəllif aşağıdakı müddəaları irəli sürmüşdür: 1) əvvəllər insanlar arasında qeyri-məhdud cinsi əlaqələr olmuşdur və bu əlaqələri müəllif yerində işlədilməyən "heterizm" (subay yaşayan kişilərin ərsiz qadınlarla əlaqəsi – red. N.S.) sözü ilə qeyd edir; 2) bu cür əlaqələr atanı düzgün müəyyən etmək üçün heç bir imkan vermir və buna görə də mənşəyi yalnız qadın xətti üzrə – ana hüququna əsasən müəyyən etmək mümkün idi, əvvəllər bütün qədim xalqlarda məhz belə də olmuşdur; 3) bunun nəticəsində qadınlara mane olmaq etibarı ilə, gənc nəslin yeganə qəti məlum valideyni olmaq etibarı ilə yüksək dərəcədə hörmət və ixlas göstərilirdi, bu da, Baxovenin fikrincə, qadınların tam hökmranlığı (ginekokratiya) dərəcəsinə çatırdı; 4) qadının yalnız bir kişiyə məxsus olduğu təknikahlılığa keçilməsi ən qədim dini ehkamın pozulması demək idi (yəni, qalan kişilərin həmin qadına qədimdən bəri olan hüququnun həqiqətdə pozulması demək idi), bunun pozulması isə belə bir günahın yuyulmasını tələb edirdi və ya buna ödənc vermək şərti ilə yol verilirdi, bu ödənc isə ondan ibarət idi ki, qadın müəyyən müddət ərzində özünü başqa kişilərin ixtiyarına verməli idi.

Nikah və ailənin tarixi haqqında tədqiqat aparan alimlərdən biri də ingilis alimi C.F.Mak-Lennan olmuşdur. O, ilk dəfə olaraq "qaçırma-nikah" forması, ekzoqamiya, endoqamiya haqqında məlumat vermişdir. Mak-Lennan qədim və Yeni dövrün bir çox vəhşi, barbar və hətta sivilizasiyalı xalqlarında elə bir nikah forması tapır ki, bu zaman adaxlı təklikdə və ya öz dostları ilə birlikdə gəlini sanki zorla onun qohumlarının əlindən alıb qaçırmalı idi. Nə qədər ki, kişilər öz tayfaları içərisində kifayət qədər arvad tapa bilirdilər, belə bir nikah üçün heç bir əsas yox idi. Lakin biz eyni

dərəcədə tez-tez görürük ki, inkişaf etməmiş xalqlar arasında müəyyən qruplar daxilində nikah qadağan edilirdi, buna görə də kişilər özləri üçün arvadları, qadınlar isə özləri üçün ərləri həmin qrupdan kənarda tapmağa məcbur idilər. Daha bir ingilis alimi C.Lebbok isə qrup nikahlar (Communal marriage) haqqında 1870-ci ildə "Sivilizasiyanın mənşəyi" adlı əsərində məlumat vermişdir. 1871-ci ildə ailə haqqında həlledici material verən amerikan alimi L.Morqan olmuşdur. O, 1871-ci ildə Havay "Punalua" ailəsi, 1877-ci ildə isə "Qədim cəmiyyət" adlı əsərində qan qohumluğu olan nikahlar barəsində, eyni zamanda müxtəlif nikah formaları haqqında məlumatlar vermişdir. Ailə, onun tarixi formaları haqqında məlumat verən tədqiqatçılardan biri də Cenevrə professoru Jiro-Tölon olmuşdur.

Ailə vasitəsilə davam edən insan nəsli sosiallaşaraq əxlaqi baxımdan kamilləşir. Ailə eyni zamanda məişət təşkilinin özəyi və mühüm tələbat vahididir. Ailənin əsasını cəmiyyət tərəfindən sanksiyalaşdırılmış kişiylə qadının nikahı təşkil edir. Lakin ailə təkcə hüquqi cəhətdən təsdiq olunmuş münasibət deyil, həmçinin kişi və qadın münasibətini təşkil edir. Valideyn və uşaqlar arasında əlaqə ailəyə mühüm sosial institut xarakteri verir.

Ailənin mahiyyəti onun quruluşu, funksiyası və üzvlərinin əxlaqi rollarında ifadə olunur. Ailə funksiyası bir tərəfdən ailə sisteminin qarşılıqlı fəaliyyətini əks etdirir. Ailəyə cəmiyyətin dinamik inkişaf və tələbatı sistemində sosial institut kimi baxılsaydı, onun məzmun və sosial funksiyaları dəyişərdi. Ailə üzvlərinin qohumluq münasibətindən başqa mənəvi, əxlaqi, hökmranlıq münasibətləri onun quruluşunu təşkil edir. Avtoritar ailələrdə qadın kişiyə, uşaqlarsa valideynlərinə tabe olduğu halda, demokratik ailələrdə rolların bölünməsi ənənəyə uyğun deyil, şəxsi keyfiyyətlərə görə, ərlə arvadın hər ikisinin qəbul etdiyi qərarda birgə iştirakına əsaslanır. Düzgün münasibətlər hüquqi normalarda, ərlə arvadın vəzifəsində, valideynlər və uşaqların bir-birinə qarşı münasibətində öz əksini tapır. Ailədə əsas rol münasibətləri ər və arvadın, atanın (ananın) və uşaqların, qardaş və bacıların, həmçinin qayınana, qayınata və gəlinin (kürəkənin) arasında olan düzgün münasibətlərdir. İndi qadınların əksəriyyəti bu və ya digər regionlarda istehsalatda, ailənin iqtisadi təminatında çalışır və ailənin qərarlarında eynihüquqlu iştirak edir. Bu hal ailənin funksiyallaşmasına, ailə-nikah münasibətlərinə, ana-qadın şəxsiyyətinin inkişafına, ərlə arvadın eynihüquqlu olmasına, demoqrafik əxlaqa, doğumun azalmasına və boşanmanın çoxalmasına gətirib çıxardı. Ailədə böyük nəsil və orta nəsil arasında qarşılıqlı əlaqə münasibətlərinin mürəkkəbləşməsi prosesində nuklear ailələrin sayı artır, valideyn və uşaqlar arasındakı münasibətlər dəyişir.

Sosial instutut kimi cəmiyyətin formalaşması ilə yaranan ailə özünün ilk inkişaf mərhələsində kişi və qadın, böyük və kiçik nəsil arasındakı münasibətlərlə, eyni zamanda tayfa və icma adətləri ilə nizamlanırdı. Əxlaqın, dinin, sonra isə dövlətin yaranması ilə cinsi həyatın nizamlanması əxlaqi, dini və hüquqi xarakter aldı. Bu, nikaha daha çox sosial nəzarəti gücləndirməyə imkan verirdi. Din və hüquqdan kənarda nikah qiymətdən düşür və nikah hüququ cinsi əxlaqın yaranmasına səbəb olurdu. Hüquq nikahın əxlaqi dayağına müsbət təsir edirdi. Bu hüquq poliqamiyanın yox edilməsini sürətləndirərək, valideynlərin uşaqların tərbiyəsində məsuliyyətini artırır, qadın üzərində kişinin hökmranlığını məhdudlaşdıran və onun zorakılığa çevrilməsinə imkan verməyən hüququ bazanı yaradır. Bəzi hüquqi vəzifələr insanlarda uyğun əxlaqi keyfiyyətlərin yaranması və inkişaf etdirilməsinə imkan yaradırdı. Nəhayət, nikahın hüquqiləşməsi yalnız ailəyə deyil, dövlət qarşısında da müəyyən vəzifələr qoyurdu. Əgər nikahın müdafiə və dayağa ehtiyacı olarsa, oraya daxil olan adamlar istər ictimai fikrə, istərsə də qanuna müraciət edə bilərlər. Deməli, nikah hüququ ailədə hüquqi münasibətlərin yaranmasında proqressiv hadisədir. Beləliklə, nikahda və ər-arvad münasibətlərində insanın təbii və sosioloji təbiətinin yaranması hiss olunur. Ona görə də nikahın mahiyyət və spesifikasına yalnız cinsi əlaqə kimi baxmaq olmaz.

Nikah tarixən qadın və kişi arasında dəyişən sosial formadır. Bunun əsasında cəmiyyət onların cinsi həyatını təsdiq edir, ər-arvadlıq və qohumluğu, hüquq və vəzifələrini təyin edir. Ancaq ailə nikaha nisbətən daha mürəkkəb sistemdir. Ona görə ki, ailə təkcə ərlə arvadı deyil, onların uşaqlarını, hətta qohumlarını birləşdirir. Ona görə də ona nikah qrupu kimi deyil, sosial institut kimi baxmaq lazımdır. Ailə, nikah yaxud qan qohumluğuna əsaslanan kiçik sosial qrupdur. Ailə üzvləri bir-birinə məişət birliyi, mənəvi cavabdehlik və qarşılıqlı köməklə bağlıdır [2, s.187].

Ailəni səciyyələndirən iki mühüm xüsusiyyət: a) məişət birliyi; b) özünəməxsus münasibətlər sistemi – qarşılıqlı cavabdehlik, məsuliyyət və kömək ayırd edilir. Bu xüsusiyyətlər qarşılıqlı əlaqədədir. Ailəni xarakterizə edərkən onları birlikdə nəzərdən keçirmək lazımdır. Özünün bu xüsusiyyətlərinə görə ailə digər kiçik qruplardan fərqlənir. Digər sosial qruplarda olduğu kimi, ailənin də özünəməxsus məqsəd və vəzifələri, tərkib və demoqrafik strukturu, onun dəyər, norma və davranış nümunələri vardır. Ailə, müxtəlif növ ictimai münasibətləri kompleks şəkildə birləşdirən, müxtəlif mənəvi və ictimai tələbatları ödəyən əvəzolunmaz sosial məfhumdur. Ailədə hər bir insan həyatının əsas mərhələləri inkişaf edir, orada insan asanlıqla özünü idarə edir, öz maraq və yaşayışını təmin edir. Bu baxımdan ailənin obyektiv elmi tədqiqi mürəkkəb məsələdir.

Ailə müxtəlif ictimai elmlərin öyrənilməsində bir alətdir. Bu elmlərdən hər birisi ailə və onun funksiyasını təyin etməyə çalışır. Lakin ailə haqqında ən dürüst məlumatı sosiologiya elmi verir. Ailə məzmun, quruluş və forma baxımından tarixən dəyişən, universal əlamətləri ilə qohumluq əlaqələri sistemini, şəxsiyyətin sosial və fərdi keyfiyyətlərinin inkişafını təmin edən və müəyyən iqtisadi fəaliyyəti həyata keçirən bir qrupdur. Ailə kişi və qadınların cinsi, estetik, etik hisslərini təmin etməklə, şəxsiyyətin sosial və fərdi keyfiyyətlərini realizə edir.

F.Engels "Ailənin, xüsusi mülkiyyətin və dövlətin mənşəyi" kitabının müqəddiməsində yazırdı: "Materialist baxımından tarixdə əsas an son hesabda həyat üçün lazım olan istehsal və təkrar istehsaldır. Lakin o da iki cür olur. Bir tərəfdən həyat üçün lazım olan istehsal: yemək əşyaları, geyim, yaşayış yeri və bunun üçün lazım olan alət, digər tərəfdən insanın özünün istehsalı, nəslin davamı" [7, s.17]. Alim uzun müddət Şimali Amerika hindu-irokezlər tayfasında yaşamış, öz müşahidələrini "Qədim cəmiyyət" kitabında göstərmişdir. F.Engels Amerika alimi Lyus Morqanın (1818-1881) etnoloji tədqiqatlarının nəticəsindən istifadə etmişdir. Morqan deyir: "Ailə fəal ünsürdür: o heç vaxt dəyişilməz qalmır, cəmiyyət aşağı pillədən yüksək pilləyə doğru inkişaf etdikcə, o da aşağı formadan yüksək formaya keçir. Qohumluq sistemləri isə, əksinə, passivdir: ailədə baş verən tərəqqi bunlarda yalnız uzun müddət keçdikdən sonra özünü göstərir və yalnız ailə əsaslı surətdə dəyişildikdə, bunlar da əsaslı surətdə dəyişilir" [10, s.242]. L.Morqan ailə və qohumluq münasibətlərini tədqiq edərkən belə bir fərziyyə irəli sürmüşdür ki, insan cəmiyyətinin ilk dövrlərində tayfadakı üzvlər arasında cinsi əlaqədə heç bir normaya riayət olunmamışdır. Sonralar valideynlər və uşaqlar arasında cinsi əlaqə qadağan edildikdən sonra müəyyən formada ailə həyatı yarandı.

Ailə öz inkişafında aşağıdakı fazalardan keçmişdir: promiskutet, qan qohumluğu olan ailə, punalua ailə, ikili ailə, sindiasmik ailə, monoqam ailə [17, s.106-109]. Nikah da öz tarixinə görə müəyyən formalara ayrılır. Onun inkişaf sxeminə görə promiskutet – nikaha qədərki münasibətlər, qrup və ya dual-nəsli, ikili və monoqam nikahlar fərqləndirilir. Y.İ.Semyonova sadəcə cinslər arasında münasibəti tənzimləyən və pozitiv sosial normaların olmadığını bildirən "promiskutet" anlayışının yerinə "anomiya" anlayışının işlədilməsini daha məqsədəuyğun sayırdı [13, s.93]. İbtidai cəmiyyətin ilk dövrlərində promiskutet, qrup və ya dual-nəsli nikaha keçid baş verir. Qrup nikah nəsillər arasındakı münasibətləri xarakterizə edirdi. A və B nəsilləri, onların da A_1+A_2 və müvafiq olaraq B_1+B_2 (1-kişi, 2-qadın) ibarət olduğunu qəbul etsək, həmin nəsillər arasında A_1-A_2 və B_1-A_2 dual-nəsli nikahın formalaşdığını qəbul etmək olar. Bu, ərlə arvadın bir yerdə yaşamadığı, eyni təsərrüfat-məişət kollektivinə aid olmadığı diolokal nikahdır. Dual-nəsli nikah inkişaf edərək ikili nikahla əvəz olunur. İkili nikahda kişinin qadının nəslinə keçməsi (matrilokal nikah), sonralar qadının kişinin nəslinə keçməsi (patrilokal nikah) baş verir. Neolit dövründə istehsal təsərrüfatının meydana gəlməsi ilə tədricən monoqamiya yaranır. İlk dəfə olaraq nikah cinsi və təsərrüfat – məişət ittifaqına çevrilir, bununla da ailə - ev təsərrüfatı anlayışları ilə yaxınlaşır [6, s.45]. Cəmiyyətdə kapitalizm və bazar iqtisadiyyatının inkişafı ilə əlaqədar olaraq nikahın təkamülü də davam edir [3, s.46-47].

İnsan cəmiyyətinin ilk dövrü üçün xarakterik olan promiskutet ayrıca ailə qrupunun olmadığı dövrdə kollektiv həyatın forması idi. Sosioloqların çoxu onu ailə həyatında əlavə mərhələ olduğunu iddia edirlər. Təbii ki, ibtidai insan yalnız kollektivdə sıx əlaqələr əhatəsində yaşaya bilərdi. Lakin L.Morqan cinsi ünsiyyətin məhdudlaşması nəticəsində onun ayrı-ayrı qruplara keçməsini və tədricən qan qohumluğuna əsaslanan ailənin yaranmasına gətirib çıxarmasını göstərir [1, s.11].

Qan qohumluğu olan ailə – ailənin birinci pilləsidir. Burada nikahlı qruplar nəsillər üzrə bölünmüşdür: bütün babalar və nənələr, həmçinin onların uşaqları, yəni ata və analar da ailə daxilində bir-biri üçün ər-arvaddır; bunların uşaqları da ümumi ər-arvadların üçüncü dairəsini təşkil edir. Beləliklə, bu ailə formasında yalnız babalarla övladlar arasında, ata-analarla uşaqlar arasında qarşılıqlı ər-arvad hüquqlarına və vəzifələrinə yol verilmir. Ailənin bu pilləsində qardaşla bacının qohumluq münasibətini özlüyündə təbii hesab edən cinsi əlaqə də daxildir [10, s.243].

Cəmiyyətin inkişafı nəticəsində daha inkişaf etmiş ailə forması – punalua (1884-cü ildə "qrup nikahı" – "punalual ailəsi" kimi çap edilmişdir) yarandı. Əgər ailənin təşkilində irəliyə doğru ilk addım ata-analarla uşaqlar arasında cinsi əlaqəni kənar etmək idisə, ikinci addım bacılarla qardaşlar arasında həmin əlaqəni kənar etmək olmuşdur. Belə ailə növünə hələ də qrup halında olan evlənmə xas olsa da, endoqamiya tədricən ekzoqam prinsipi ilə əvəz olunurdu. Beləliklə, punalual ailə bir qəbilədən olan bacılar və digər qəbilədən olan qardaşlardan təşkil olunurdu. Belə ailədə bir kişi və bir qadın arasında daha möhkəm və uzun sürən əlaqə yaranırdı. Cüt nikahın yaranması üçün bu bir addım idi.

İkili ailə - çox və ya az müddətə ayrı-ayrı cütlərin birləşməsi hələ qrup nikahı zamanı və ya daha əvvəllər mövcud olmuşdur. Kişinin çoxlu arvadı arasında baş arvadı var idi və bu kişi də həmin arvadın başqa ərləri arasında onun üçün baş ər idi. Bu hal missionerlərin zehnində xeyli dolaşıqlıq törənməsinə səbəb olur və onlar qrup nikahını gah nizamsız arvad ümumiliyi, gah da ər-arvadlıq sədaqətinin özbaşına pozulması hesab edirdilər. Lakin qəbilə daha çox inkişaf etdikcə və indi aralarında nikah mümkün olmayan "qardaşlar" qrupu ilə "bacılar" qrupuna daxil olanların sayı çoxaldıqca, ayrı-ayrı cütlərin adət halı almış bu cür birləşməsi getdikcə daha çox möhkəmlənməli idi [7, s.48].

Başqa ailə növü – sindiasmikdir. Burada bir kişi bir qadınla yaşaya bilərdi, lakin poliqamiya (çox arvad alma) kişinin əsas hüququ olaraq qalırdı. Ailə bağlılığı tezliklə dağılır, uşaqlar ana ilə qalırdı. Müxtəlif dövrlərdə xarici (hüquq, din, ictimai fikir) və daxili (qarşılıqlı hisslər, iqtisadi maraq) təsirlərə məruz qalan sabit ailə meyarı prinsip etibarı ilə müxtəlif formalara (monoqamiya, poliqamiya) keçir. Sabit qadın-kişi əlaqələri ilə fərqlənən monoqam ailə yalnız kişinin iradəsi ilə dağıla bilərdi. Monoqam ailənin yaranmasının əsas səbəbi xüsusi mülkiyyətin əmələ gəlməsi və müdafiə edilməsi, yəni atalıq hüququnun təmini və ailə vərəsəsinə sahiblik olmuşdur.

Monoqam ailə ikili ailədən əmələ gəlmişdir. Bu ailə ərin hökmranlığına əsaslanır, özü də müəyyən atadan əmələ gəlməsinə şübhə yeri qoymayan uşaqlar doğulması kimi qəti ifadə olunan bir məqsəd daşıyır, mənşənin belə şübhəsiz olması isə ona görə lazımdır ki, müəyyən müddətdən sonra uşaqlar əsl vərəsə kimi ata əmlakına sahib ola bilsinlər. İkili nikahdan bu ailənin fərqi ondadır ki, nikah əlaqələri xeyli dərəcədə möhkəmdir. Bu ailə artıq tərəflərdən hər hansının arzusu ilə pozula bilməz. Bir qayda olaraq, yalnız ər bu əlaqəni pozub öz arvadını rədd edə bilər. Ər-arvadlıq sədaqətini pozmaq hüququ hər halda adət üzündən ər üçün təmin edilmiş qalır.

Müasir dünyada vahid tipli ailə yoxdur. Müxtəlif ailə münasibətlərinin olması bu və ya digər cəmiyyətin inkişaf dərəcəsi, ictimai münasibətlərin xarakteri ilə izah olunur. Bu gün dünyada ailənin aşağıdakı növləri mövcuddur: totemik klan, patriarxal ev icması, patriarxal və fərdi ailə [1, s.192]. Totemik klan (qəbilə) ailə həyatının ən köhnə formasıdır. Ona indi Avstraliya tayfalarında da təsadüf olunur. Ümumi adı ilə tanınan qəbilə üzvləri müqəddəsləşdirdikləri bir heyvanı özlərinin ulu əcdadı sayırdılar. Onlar qrup halında evlənir və nəsil ana xətti ilə təyin edilir. Klanın bu forması bir neçə köçəri tayfalarda mövcuddur [10, s.245]. Ev icması ailə növü kimi keçmişdə hind-avropa xalqlarında mövcud idi (bəzi yerlərdə indi də qalıb). Belə ailə ümumi adla və bir neçə nəslin birgə yaşaması ilə xarakterizə olunur. Ümumi əcdadlarıyla ailənin bütün üzvləri bir nəslə məxsus olduğundan bacı və qardaş hesab olunur və böyük bir evdə yaşayırdılar. Bir neçə otaqdan ibarət olan bu evdə evlənənlər və onların uşaqları olurdular. Burada yalnız ana xətt ilə qohumluq təşkil edənlər qalır və onlara qadın başçılıq edir. İcmanın üzvləri öz ana ailələrində, bəzən kişilər qadınlarının yanında yaşayırdılar. Belə icmalarda tez-tez poliandriyaya rast gəlinirdi (yəni çoxərlilik və ya bir qadının

bir neçə əri olan evlənmə forması). Belə ailə formasına indi Tibetdə (Cənubi Hindistan) todas xalqında təsadüf edilir. Ata ev icması – yalnız ata xətti ilə qan qohumluğu olanları təşkil edirdi. Burada ana uşağı üçün uzaq qohum sayılırdı. Belə ailə növü yaxın vaxtlara kimi bəzi ölkələrdə, o cümlədən Yuqoslaviyada mövcud idi. Monoqam patriarxal ailədə yalnız ailə başçısı mülkün sahibi idi. Qohumluq ata tərəfdən sayılırdı. Ailə başçısının bütün hüquqları vardı. O ailə üzvlərini cəzalandıra bilər, qızını ərə verər, oğlunu evləndirər və s. Belə ailə növü yaxın vaxtlara qədər Çində vardı.

Nəsli kişi və qadın xətti ilə təyin edən fərdi ailə növü bu gün dünyada ən geniş yayılan formadır. Qeyd etdiyimiz kimi, nikah və ailə tarixən eyni zamanda meydana gəlməmişdir. Rus etnoqrafı Şternberq müxtəlif cinsdən olan şəxslərin cinsi münasibətinin hələ nikah olmadığını və bunun üçün ictimai sanksiyalaşdırmanın mühüm olduğunu, İ.S.Kon nikahdan ailəyə keçərkən cüt əlaqənin qrup əlaqəsi ilə rəqabətə girdiyini və onun ailənin mahiyyətini təşkil etdiyini [9, s.37], O.Kont ailəni cəmiyyətin ilkin özəyi, G.Zimmel insanların sosial qarşılıqlı təsirinin bir forması [5, s.25], Fredrik Le Ple ailəyə "kiçik cəmiyyət" kimi baxmış və "cəmiyyəti başa düşmək üçün ailəni başa düşmək lazım" olduğunu, A.Q.Xarçev ailəni nikah və qohumluq əsasında adamların birləşməsi [16, s.17], onların məişət eyniliyi və qarşılıqlı məsuliyyəti əsasında qurulması kimi təyin edirlər.

Cədvəl 1

Ailənin həyat dövrünün fazaları	Ailənin həyat dövrünü xarakterizə edən müvafiq hadisələr	
	Başlanğıc	Son
Formalaşma	Nikahın bağlanması	1-ci uşağın doğulması
Artım	1-ci uşağın doğulması	Sonuncu uşağın doğulması
Artımın sonu	Sonuncu uşağın doğulması	1-ci uşağın ailəni tərk etməsi
Azalma	1-ci uşağın ailəni tərk etməsi	Sonuncu uşağın ailəni tərk etməsi
Azalmanın sonu	Axırıncı uşağın ailəni tərk etməsi	Valideynlərdən birinin ölümü
Ailənin dağılması	Valideynlərdən birinin ölümü	2-ci valideynin də ölümü, "boş yuva"

Cədvəldən göründüyü kimi ailə sosial institut kimi müxtəlif mərhələlərdən keçir: 1) ailənin əmələ gəlməsi – nikaha daxilolma; 2) uşağın doğulmasının başlanğıcı – ilk uşağın doğulması; 3) uşaq doğumunun sonu-axırıncı uşağın doğulması; 4) "boş yuva" – axırıncı uşağın ailə qurması və ailəni tərk etməsi; 5) ailənin mövcudluğunun dayanması – ər və ya arvaddan birinin ölümü [11, s.286].

Sosial və iqtisadi mərhələlərdən keçən ailə sosial institut kimi cəmiyyət yaranan vaxtdan meydana gəlmişdir. Ailə nikaha daxil olunanların seçilməsi, seksual-əxlaqi standartlar, qadın və kişinin rəhbərliyi, valideynlər və uşaqlar və s. normalara əsaslanır.

Cəmiyyətin ilk inkişaf mərhələsində qadın-kişi, böyük və kiçik nəsil arasındakı əlaqələr tayfa-nəsil adətləri, dini-əxlaqi təsəvvürlər əsasında tənzimlənirdi. Dövlətin yaranması ilə ailə həyatı hüquqiləşərək, ailə və dövlət qarşısında məsuliyyətlər qoydu. Ailənin sosial institut kimi başa düşülməsində ailədə rol münasibətinin böyük əhəmiyyəti var. Ailə rolu insanın cəmiyyətdəki sosial rollarından biridir. O, hər bir şəxsin, birinci növbədə ərlə-arvadın, valideynlərin, uşaqların, uzaq və yaxın nəslin (baba, nənə, böyük, kiçik və s.) rol, funksiya və yerini müəyyənləşdirir. Ailə rolunun yerinə yetirilməsi ilk növbədə rolun düzgün formalaşmasından asılıdır. Hər bir şəxs ailə üzvlərinin ailədəki rollarını və normalarını dərindən başa düşməlidir. Ailədə böyük və ya kiçik özünü necə aparmaq, hansı normaları görmək lazım olduğunu bilməlidir. Öz davranışını düzgün yerinə yetirmək üçün şəxsiyyət öz yerini və digər ailə üzvlərinin yerini dəqiqləşdirməlidir. Ümumiyyətlə, o, ailə başçısı rolunu oynaya bilərmi? İradəsi zəif olan ailə başçısı yaşlı olsa belə axıracan bu rolu apara

bilməz. Ailədəki rol münasibətləri - anlaşma və konfliktli ola bilər. Sosioloqlar rol konfliktinin yaranmasını belə göstərirlər:

1. Ailənin bir və ya bir neçə üzvünün konflikti;
2. Roldaxili konflikt. Belə rol konflikti əsasən çoxnəsilli ailələrdə olur [12, s.159].

Müasir ailələrdə belə problemlər əsasən qadının ailədəki rolu (təsərrüfat, uşaqların tərbiyəsi, ailə üzvlərinə qulluq, ailənin təminatı) ilə bağlıdır. Konflikt, qadının daha yüksək vəzifə və statusa malik olmasından, əqidə və dünyagörüşü qarşıdurmasından, öz vəzifə və funksiyasını yerinə yetirə bilməməsindən yaranır.

Müasir cəmiyyətdə ailə bir sosial institut kimi get-gedə zəifləyir. Əvvəllər qadın təsərrüfat işlərinə və uşaqların tərbiyəsinə, ər isə ailənin maddi və mənəvi təminatına cavabdeh idisə, müasir qadınların əksəriyyəti siyasət və istehsal sahələrində çalışmaqla ailəni iqtisadi cəhətdən təmin edir. Bu da ailənin idarə olunması funksiyasını dəyişdirib neqativ və pozitiv hallara gətirib çıxarır. Bu hal, bir tərəfdən qadının əqli inkişafının artmasına, ər ilə eyni hüquqda olmasına, digər tərəfdən konflikt münasibətlərin, ölümün artmasına və doğumun azalmasına gətirib çıxarır.

Müasir Azərbaycanın yaşlı ailələrində ailə üzvlərinin yaş, say və nəsil tərkibi, ailə həyatının xarakteri və digər proseslər ailə quruluşu məsələsinə daxildir. Müasir ailələrin quruluşu barədə müxtəlif fikir və münasibətlər mövcuddur. Məsələn, O.Qanskayanın fikrincə, ailənin quruluşu sosial müəyyənedici olub, onun üzvlərinin sosial mənsubiyyətindən, təhsilindən və ixtisasından asılıdır. O, ailədəki nikahların sayının ailənin digər quruluş əlaməti kimi səciyyələndirərək, ailələrin sadə və mürəkkəb formalara bölünməsində müəyyən rol oynadığını qeyd edir [4, s.18].

Y.Semyonova ər-arvad həyatının xarakteri, birliyi və quruluşunun ailə quruluşunun mühüm əlamətlərindən biri olduğunu göstərir. Ailənin quruluşu – hər şeydən əvvəl onun üzvləri arasında olan əlaqədir (ailə üzvləri: valideynlər, uşaqlar, ər-arvad və s.). Onların qarşılıqlı münasibətləri prosesində sosial fəaliyyətin mahiyyəti, özünüdərketmənin və əxlaqlarının xüsusiyyətləri təyin edilir. Ailənin quruluşuna adətən ailənin konkret göstəricisi olaraq onun tərkibi, ümumi sayı, nəsil tərkibinin və nikahların sayı, uşaqlar, qohumluq dərəcəsi, xarakteri və özünəməxsusluğu və s. daxildir [14, s.26].

A.T.Jdanko ailənin tərkib və çoxövladlılığının ailə quruluşunu təşkil etdiyini söyləyir. Ailənin quruluşu məsələsinə bir çox sosioloq və etnoqraflar ailədaxili münasibətlərdə iştirak edən şəxslərin əsas əlaqələrini də daxil edirlər. Qeyd etmək lazımdır ki, ailənin say, nəsil tərkibi bu məsələdə əsas yer tutur [8, s.489].

Bütün deyilənlərdən bu nəticəyə gəlmək olar ki, ailə bir mürəkkəb sosial sistem kimi müntəzəm olaraq formalaşır. Cəmiyyətin inkişaf etməsi və dəyərlərin yeniləşməsi burada baş verən sosial, iqtisadi, demoqrafik, mənəvi, siyasi hadisələr və proseslər ailənin strukturuna, ailə üzvlərinin qarşılıqlı münasibətlərinə, ailənin davamlılığına birbaşa təsir göstərir.

Açar sözlər: ailə, qrup nigah, poliandrik nigah, punalua ailə, sindiasmik ailə, monoqam ailə

İstifadə edilmiş ədəbiyyat

1. Антонов А.И., Медков А.И., Нетрусов М.А. Демография семьи – проблемы моделирования семейного цикла жизни // Вестник МГУ. Социология и политология, 1997, №2, с. 97-108
2. Azərbaycan Sovet Ensiklopediyası. I cild. Bakı: Qızıl Şərq, 1976, 591 s.
3. Брачность, рождаемость, семья за три века. II сб. стат. // Под. ред. А.Г.Вишневского и И.С.Кона. М.: Статистика, 1979, 183 с.
4. Ганцкая О.А. Семья: структура, функции, типы // Советская этнография, 1984, №6, с.16-29
5. Громов И.А., Майкович А.Ю., Семенов В.А. Западная социология. СПр.: Ювента, 1997, 286 с.
6. Демографический энциклопедический словарь // Гл. ред. Д. И. Валентей. М.: Советская энциклопедия, 1985, 608 с.

7. Engels F. Ailənin, xüsusi mülkiyyətin və dövlətin mənşəyi. Bakı: Qızıl Şərq, 1971, 375 s.
8. Жданко Т.А. Внутрисемейные отношения. М., Мысль, 1991, 287 с.
9. Кон И.С. Ребенок и общество. М.: Наука, 1988, 243 с.
10. Маркович Д.Ж. Общая социология. М.: ВЛАДОС, 1998, 431 с.
11. Осипов Г.В. Социология. М., Мысль, 1990, Мысль, 446 с.
12. Радугин А.А., Радугин К.А. Социология. М.: Центр, 2000, 256 с.
13. Семенов Ю.И. Происхождение брака и семьи. М.: Мысль, 1974, 309 s.
14. Семенов Ю.И. Происхождение брака и семьи. М., Мысль, 1974, 308 с.
15. Харчев А.Г., Богославская Н.Ф., Мацковский М.С. Семья и общество. М.: Наука, 1982, 128 с.
16. Харчев А.Г. Исследования семьи: на пороге нового этапа // Социологические исследования, 1986, №3, с. 23-33
17. Həsənova L. Azərbaycanda nikahın bəzi problemləri // Tarix və onun problemləri, 1998, №4, s. 106-109
18. www.az stat.org /library/ index.php

Назакат Сальманова

СПЕЦИФИЧНОСТЬ СЕМЬИ КАК СОЦИАЛЬНОГО ИНСТИТУТА

Резюме

В статье рассматривается семья, исторические формы семьи, мнения ученых по изучаемым вопросам. Раскрываются исторические этапы семьи как социального института, их особенности. Дается информация о браке и его видах, уделяется внимание особенностям моногамной и полигамной семьям. Отмечается, что в современном Азербайджане проводятся мероприятия государственной важности в целях укрепления семьи.

Ключевые слова: семья, групповые браки, полиандрические браки, пуналуавые семьи, синдиасмические семьи, моногамные семьи

Nazakat Salmanova

FAMILY SPECIFICITY AS A SOCIAL INSTITUTE

Summary

The article examines the family, the historical forms of the family, the opinions of scientists. It also discloses historical stages of the family as a social institute and their features. The article gives information about marriage and its types, the main attention is paid to the monogamous and polygamous families. It is noted that in modern Azerbaijan, state importance events are carried out to strengthen the family.

Keywords: family, group marriages, polyandric marriages, punual families, sindiasmic families, monogamous families

UOT – 101.1

Həcər Abdallı
AMEA Fəlsəfə İnstitutu, fəl.ü.f.d., a.e.i.

AİLƏ MƏİŞƏTİNDƏ MİLLİ VƏ DİNİ NORMALAR

Məqalədə həm əvvəllər, həm də hazırda Azərbaycan ailəsinin milli-mənəvi keyfiyyətləri, adət-ənənələri ətraflı təhlil edilir, nişan, kəbin, xınayaxdı, bayramlaşma, evlilik mərasimi kimi məsələlərə münasibət bildirilir. Nişanlanmış qız, onun davranışı, bu qıza cəmiyyətdə münasibətin dəyişilməsinə diqqət yönəldilir, yeni qohumlar arasında formalaşlaşmağa başlayan münasibətlər araşdırılır. Varislik prinsipi əsasında milli-dini dəyərlərin və normaların qorunmasının, cəmiyyətin sağlam və davamlı olmasında bu qaydalara riayət edilməsinin zəruriliyi əsaslandırılır, Azərbaycan mütəfəkkirlərinin müvafiq məsələlərə münasibəti vurğulanır.

> *Hər xalqın öz adət-ənənəsi, öz milli-mənəvi və dini dəyərləri var. Biz öz milli-mənəvi dəyərlərimizlə fəxr edirik, bizim xalqımız yüz illərlə,min illərlə adət-ənənələrimizi, milli-mənəvi dəyərlərimizi yaradıblar və bunlar indi bizim xalqımızın mənəviyyatını təşkil edən amillərdir. Biz dini ilk növbədə mədəniyyətin, tarixi irsin, milli mentalitetimizin bir fenomeni və ayrılmaz hissəsi kimi qəbul edirik.*
>
> ***Heydər Əliyev***

Azərbaycanda ailələrin qurulması nişanqoyma mərasimi ilə başlayır. Toyla bağlı mərasimlərdən biri də nişanlanmadır. İndiyədək davam edən nişan mərasiminin xarakterik xüsusiyyətləri əsasən ondan ibarətdir ki, o hər iki tərəfin yaxın qohumlarının iştirakı ilə keçirilir. Nişan mərasimi oğlan tərəfin xərci hesabına edilirdi.

Elçilikdən sonra başlanan bu mərasimdə bəlgə gətirilər və şadyanalıq olardı. Nişanda qız üçün gətirilən ən vacib əşya üzük, baş örtüyü və şirniyyat şeyləri olardı [3, s.7]. Üzüyün rəmzi mənası əbədilikdir, baş örtüyü isə qızın başının məhz nişanlandığı adama bağlandığına işarədir. Şirniyyat da münasibətlərin şirin olması diləyidir. Bundan əlavə, oğlan evi tərəfindən hər kəs öz imkanına görə qıza və onun yaxın qohumları üçün xonçada müxtəlif geyim əşyaları təqdim edilirdi. Beləliklə, bundan sonra qız nişanlı hesab edilir və başqa bir ailənin onun adını tutmağa ixtiyarı olmurdu. Nə qədər ki, nişan mərasimi olmurdu, qıza başqaları tərəfindən elçi gəlmək mümkün sayılırdı. Lakin bəlgə qoyulduqdan sonra qız artıq başqasına aid olduğu üçün onun adını çəkmək adətə görə düzgün sayılmırdı.

Nişanlanmış qızın ailə və cəmiyyətdə statusu dəyişərdi. Belə ki, o ölçülü-biçili davranış nümayiş etdirərdi. Qız oğlan tərəfin adamlarından gizlənər, utanıb çəkinərdi. Nişandan sonra da oğlanla qızın görüşməsi qadağan idi. Qız nişanlı qaldığı müddətdə ona bayramlarda pay aparılırdı. Yeri gəlmişkən qeyd edək ki, əsrlərdən bəri icra olunan bir adətdir ki, nişanlı qıza Qurban bayramı zamanı qoyun alınır və qız evinə göndərilirdi. Elçilikdən sonra razılıq əldə olunan, lakin hələ barmağına üzük taxılmayan qıza bayramlıq aparmazdılar, lakin nişanlanmış qıza apararardılar. Yeni çıxan meyvələrdən məhz nişanlı qıza "nübarlıq" göndərilirdi. Hətta Naxçıvanda payızın son çillə gecəsi nişanlı qıza "çillə payı" aparılırdı. Burada müxtəlif meyvələr, hədiyyə, şirniyyat ilə bərabər çillənin rəmzi hesab olunan qarpız da göndərilirdi [3, s.42-59]. Xüsusən, Novruz bayramı zamanı qız evinə bayramlıq payı təqdim olunurdu. Adətən Novruz bayramı gələndə gəlin üçün aparılan bayram xonçasına şirniyyatlar qoyulurdu. Lakin bölgələr üzrə fərqlər mövcud idi. Belə ki, Lənkəran-Astara bölgəsində düyü ilə bərabər, quş əti, balıq da qoyardılar. Balığın ağzına hil qoyardılar, indi isə gəlin üçün üzük qoyurlar. Bayramlarda nişanlı qıza pay aparılması ənənəsinin Təbrizdə keçmiş zamanlarda mövcudluğu maraq doğurur. Oğlan evi bayram zamanı "nəsib çörəyi" adlanan südlü çörək və kökə bişirib qız evinə yola salardılar [3, s.20].

Bütün bu deyilənlər onu göstərir ki, nişan mərasimi qızın rəsmən başqa ailəyə mənsubiyyətinin, oğlan evinə aid olmasının rəmzi sayılır. Nişanla toy mərasimi arasındakı zaman kəsiyində bir sıra adətlər icra olunurdu. Bayramlarda pay aparmaqla yanaşı, qız evi "ayaqaçdı" edirdi. Burada məqsəd gələcək kürəkənin çəkinmədən qız evinə gedib-gələ bilməsi idi. Yəni bu vədədən sonra oğlanın qız evinə gəlməsinə böyüklərin razılığı ilə icazə verilirdi. Oğlanın sonralar açıqca gəlib-getməsi mümkün sayılsa da, bir sıra etik normaları gözləmək vacib idi. Oğlanın qız evində hədsiz çox oturması, böyüklərin yanında qızla söhbətləşməsi qınanırdı, o, gecəni orada qala bilməzdi. Gələndə oğlan özüylə meyvə, şirniyyat, nişanlısı üçün bəxşişlər və s. gətirirdi. Amma qız üçün "ayaqaçdı" mərasimi keçirilmirdi. Onun oğlan evinə getməsi adətə görə düzgün sayılmırdı.

Nişanla toy arasındakı vaxt ailələrin bu işə hazırlıq dərəcəsindən asılı olurdu. Əgər hər iki tərəf toy tədarükünə tam hazır olardısa, onda gün təyin olunar və mərasim başlardı. Ümumən isə qızı çox nişanlı saxlamaq, toyun vaxtını uzatmaq el arasında yaxşı sayılmırdı. Ona görə də, əksər hallarda hər iki tərəf çalışırdı ki, toyu tez başa çatdırsınlar.

Nişan zamanı qıza gətirilən geyimdən o, gündəlik vaxtlarda istifadə edə bilərdi, xüsusilə də baş örtüyü və nişan üzüyü taxmaq məsləhət görülürdü. Oğlan evinin gətirdiyi nişan xonçası və ya boxçasında qıza gətirilən əşyalar qəbul edilir, içinə oğlan üçün lazım olan geyim əşyaları qoyulur və onun evinə aparılırdı.

Müasir dövrümüzdə də müşahidə etdiyimiz adətin mahiyyəti belədir ki, toydan əvvəl oğlan evi qız evinə xonçada xına gətirir və burada toplaşan xanımlar əllərinə xına yaxırlar. Bu adət hər iki tərəfin yalnız qadınlardan ibarət üzvlərinin iştirakı ilə keçirilirdi. Azərbaycanın bütün bölgələrində xınayaxdı mərasimi həyata keçirilmişdir. Göyçə mahalında isə adətə görə, gəlin gedən qızın bir gün əvvəl axşam çağı əlinə və ayağına xına qoyub balaca dəsmalla bağlayıb səhər isə açıb yuyardılar. Bu xınadan bəy evinə də göndərirdilər, belə ki, o da azacıq əl və ayağına sürtə bilərdi. Əslində, təsəvvürə görə xına "peyğəmbər nişanəsi" sayılırdı. Bu düşüncə sonraların məhsuludur. Adət kimi isə xınayaxdı İslama qədər də mövcud olmuşdur.

Bakılılarda da bu adətin icrası etnoqrafik baxımdan maraq doğurur. Yaşlı nəsillərdə olan məlumata görə Bakı və ona aid olan kəndlərdə XX əsrdə keçirilən xınayaxdı, elimizin bir sıra adətləri, indi şəhər yerində bir o qədər də əvvəlki kimi qeyd olunmur. Lakin buna baxmayaraq, xınayaxdı adəti hələ də şəhər və kənd yerlərində qalmaqda davam edir. Adətə görə oğlan tərəfin qohumları bir yerə yığışıb qız evinə gedəcək xonçanı hazırladıqdan sonra qız evinə yollanırdılar. Qohumlar içərisində əsasən oğlanın nənəsi, xalası, bacısı və digərləri iştirak edirlər. Qız evinin yaxınları da qonaqları qarşılayıb qəbul edirlər. Gətirilən xonçada xına ilə bərabər müxtəlif şirniyyat də olur. Qızı adətə görə oğlanın bacısı geyindirir. Əgər oğlanın bacısı yoxdursa, onda oğlan evindən gələn qonaqlar içərisindən hər hansı gənc qız (gəlin də ola bilər) onu geyindirə bilər. Sonra sevinc səsləri altında gəlin gedən qızı hamının yığışdığı otağa gətirirlər.

Yemək mərasimi zamanı yeyib-içdikdən sonra başı duvaqlı gəlini ortalığa gətirirlər. Gəlinin sağdışı və soldışı qız uşaqlarından olurdu. Onlardan biri qız, digəri isə oğlan evi tərəfindən olurdu və əllərində yanan şam tuturdular. Mərasim zamanı çalğıçı qızı tərif edirdi. Yengə tası əlinə alıb xına isladırdı. Evdə "xınayaxdı" məclisində iştirak edənlərin hamısına xına paylanırdı. Onlar da öz növbəsində qadınlar tünd rəngli xaralardan paltar geyər, başlarına isə kalağayıdan çalma salardılar. Ertəsi gün hamama gedərdilər [3, s.36]. Yengə xınanı yoğururdu və gəlin gedən qızın saçına da xınadan qoyurdular, lakin indi qoymurlar [3, s.17].

Bildiyimiz kimi, xınayaxdı zamanı (toydan bir gün qabaq) masa üzərinə qırmızı rəngdə örtük salınır. Güzgü, şam, xına sinisi onun üzərinə qoyulur. Gəlinin yanında sağdış, soldış oturur. Qız anası onlara hədiyyə olaraq çiyninə salmağa şal və ya yaylıq təqdim edir. Oğlan evi tərəfindən gətirilən xonçada qızın çiyninə salınan şal olur. Əvvəlki vaxtlardan indikinin fərqi odur ki, xınanı balaca qablarda paylayırlar. Hamamdan sonra evə gəlib xınayaxdı olur. Oğlan evinin xonçasında gətirilən parçaların ucundan kəsirlər ki, işlənsin, qalmasın. Xonçanı atlas ipəklə örtürdülər. Toyda al qırmızı gəlinlik geyinirdilər [3, s.18].

Bu adətlər bütün bölgələrdə eyni əhəmiyyət kəsb edirdi. Qız evində böyük toya (xınayaxdıya) hazırlıq gedirdi. Həmin hazırlığa qədər hər gün axşamçağı məhəllə qızları gəlin qızın ətrafına topla-

nıb çalğısız nəğmələr oxuyardılar, ağacdan asılmış ipdən yellənərdilər. Buna küp yellənməsi deyilərdi [3, s.21]. Xına qoyan gəlin köçən qıza hədiyyə verməlidir [3, s.130].

Xınayaxdı zamanı şamlar yandırılır və özü sönənədək gözlənilir. Gəlinin başına duvaq salınır. R.Babayev XIX-XX əsrin əvvəllərinnə aid xınayaxdı mərasimini belə təsvir edir və o göstərir ki, rəqslərdən sonra oyunlar başlayırdı, yalnız qadınların iştirak etdiyi bu xınayaxdı mərasimində əyləncəli oyunlar göstərilirdi. Abşeronda xınayaxdıdan bir gün əvvəl "sərpayı" adlanan məclis düzəldilir və qızın rəfiqələri, yaxınları, qohumları yığışırlar. Məclisi idarə edənə də "sərpayı" deyilir. Azərbaycanın müxtəlif bölgələrində xınayaxdı mərasimi zamanı özünü göstərən bəzi fərqli xüsusiyyətlər var idi ki, bu da əsasən icra qaydalarında müşahidə edilirdi. Məsələn, Qubada mövcud olan xınayaxdıya görə, gəlin xına tökülmüş ovucunu duvağın altından dışarı çıxararaq əlini başına qoyur. Və xınalı ovucu açıq olaraq ağzı yuxarı durur. Bu sırada bir oğlan uşağı gəlir, gəlinin ovucundakı xınadan bir barmaq sıyırıb alır. Bu da gəlinin erkək övladı olacağına səbəb ola bilirmiş. Gəlin bir qədər ayaq üstə durduqdan sonra, dünya görmüş qarıların icazəsi ilə o, sağdış və soldışı ilə başqa bir otağa keçirlər. Qıza bəzək vurulması qaş və üz alınması və saçının düzəldilməsi ancaq xınayaxdı zamanı olurdu. Xına ilə bağlı təsvirlər bayatılarda da yer almışdır. Məsələn,

Əllərin xına gözlər, Ovçular sona gözlər,
Atma hicran oxunu, Eləmə qan, a gözlər!

Türkdilli ədəbiyyatda xına ilə bağlı maraqlı məlumatlar vardır. Orhan Çeltikçi qeyd edir ki, qədim turklər xınadan vəba xəstəliyinə qarşı istifadə etmişlər. Bundan əlavə, xına baş və göz ağrılarında mühüm vasitə sayılmışdır. Qulunc yelinin müalicəsində də xınanı sabunla qarışdırıb dizə sürtürdülər. Hətta onun su ilə qatışığından qarqara edilər və ağız yaralarının müalicəsində istifadə edərdilər. Uşaqlardakı çiçək xəstəliyinə müsbət təsir etdiyini də müəllif qeyd edir. Hətta xınanın müxtəlif maddələrlə qarışdıraraq bronxitdə, əldəki çatlamalar zamanı istifadə olunduğu məlumdur. Rahmi Yılmazın əxilərdə adət və ənənələrlə bağlı verdiyi məlumatlarında deyilir ki, rəvayətlərə görə xına ağacı Həvvanın göz yaşlarından yaranmışdır.

Bir bitki kimi xına dünyanın müxtəlif ərazilərində yetişir. Hətta tədqiqatlar sayəsində məlum olmuşdur ki, Misir ehramlarındakı mumiyalarda xına rənginin izlərinə rast gəlinmişdir. Bu da onu deməyə əsas verir ki, ondan daha qədimlərdə istifadə edilmişdir.

Türkiyə ərazisində keçirilən xına gecəsinin Azərbaycandakı kimi mahiyyət daşıdığını bu qardaş dövlətdə yaşayan azərabaycanlıların söyləməyinə görə, orada da bizlərdə olduğu kimi oğlan evi xına gətirir, qızın rəfiqələri yığışır, əyləncə başlayır və bu zaman nəğmələr (mahnılar) söylənilir. Bütün dünya xalqlarında olduğu kimi, Azərbaycanda da uzun əsrlər boyu özünəməxsus şəkildə toy mərasimi keçirilmişdir. Bildiyimiz kimi, toya qədərki adətlər əsasən qızbəyənmə, elçilik və nişanlanmadır. Yalnız bu mərhələlər ardıcıl olaraq icra edildikdən sonra toy günü dəqiqləşdirilir və hər iki tərəfdə (qız və oğlan evi) toy mərasiminə hazırlıq işləri başlanır. Toy artıq tam razılıq əldə olunmasını təsdiqləyən sonuncu mərhələdir və nikahın qəti olaraq rəsmiləşdirilməsini göstərir. Bütün dövrlərdə toy büsatı eyni mahiyyət və məzmun kəsb etmişdir.

Toy adət-ənənəsinə nəzər salsaq, deyə bilərik ki, toy özü nikaha girmə vasitəsidir. Nikaha girmə isə ya toy, yaxud da nadir hallarda olduğu kimi qızqaçırma yolu ilə həyata keçirilirdi. Nikaha girmə zamanı albanlarda bir sıra şərtlər qoyulurdu. Məsələn, "heç kəs öz qohumu olan əmi və bibi nəvəsi ilə evlənə bilməz və qardaşının da arvadını ala bilməz" [3, s.7]. Bu kimi şərtlər sonralar İslam dinində də şərh olunmuşdur. Lakin elə İslam zamanı da, indinin özündə də bütün bunlar müsəlmana xas olan bir ənənə kimi hələ də yaşayır. Bütün bunlar həyatda ən xoşagəlməyən haldır.

Toy mərasimi tarixi keçmişimizin etnoqrafik baxımdan əhəmiyyətli canlı səhifələrini göz önündə əks etdirir, real həqiqətləri, ailə məişətində uzun əsrlərdən bəri kök salan müxtəlif adət və ənənələri işıqlandırır. Cəmiyyət daxilində bütün məsələlərin uzun əsrlər boyu müəyyən adət və ənənələr çərçivəsində cərəyan etdiyi məlumdur. O cümlədən, toy mərasimində bir sıra müxtəlif və çoxsaylı adətlər icra olunur. Toy əslində bir xalq yığıncağıdır. Buraya toplaşanlar gündəlikdən fərqli olaraq xüsusi geyimlərdən və bəzəklərdən istifadə edirlər. Toy müəyyən qədər göstəriş meydanıdır. Burada mərasim iştirakçıları tərəfindən xüsusi canfəşanlıq nümayiş etdirilir. Bu mərasimdə insanla-

rın əhval-ruhiyəsi dəyişir və o, əyləncə xarakteri kəsb edir. Xüsusən orta əsrlərdə əhalinin əsas şadyanalığı toylarda özünü büruzə verirdi. Təsadüfi deyildir ki, şairlərin yaradıcılığında, nağıllarımızda və dastanlarımızda toyların üç, yeddi və qırx gün qeyd edildiyi vurğulanır. Bu da onu deməyə əsas verir ki, qədim zamanlarda şadyanalıq yığıncağı, məharət nümayiş etdirmə yeri məhz toylar və bayramlar olmuşdur. Toylarda müxtəlif məzmunlu oyunların nümayiş olunduğu da məlumdur ki, bu da mərasimin daha da rövnəqlənməsinə xidmət etmişdir.

Toy mərasimi, ümumiyyətlə ailə qurmağın vacibliyi, ailə yarandığı dövrdən etibarən mühüm əhəmiyyət kəsb etmişdir. Ailə qurmağın əhəmiyyət kəsb etməsi görkəmli alim Nəsirəddin Tusi tərəfindən "Əxlaqi-Nasiri" əsərində mühüm məsələ kimi ön plana çəkilmişdir. Müəllif haqlı olaraq qeyd etmişdir ki, insan ümumiyyətlə təkbaşına yaşaya bilməz və ömrü boyu tək qalmaq doğru deyildir. Onun mütləq həyatını paylaşa biləcəyi, yaxşı və pis günündə ona şərik olan bir yar-yoldaşa ehtiyacı vardır. Ailənin təməlini təşkil edən bu cütlüyün mühüm rola malik olduğunu o belə söyləmişdir: "Lakin insanın yaşaması və davamı üçün doğub törədə bilən bir ciftə də ehtiyac vardır. Bu səbəbə görə ilahi hikmət elə bir təbiət yaratmışdır ki, bir kişi bir qardaşının da arvadını ala bilməz" [5, s.49]. Bu kimi şərtlər sonralar İslam dinində də şərh olunmuşdur.

Burada qadına verilən müsbət qiymət sezilməyə bilməz. Çünki qadın burada mənzilin qoruyucusu kimi, bu işə qadir ola bilən bir insan kimi təqdim olunur. Deməli, bu mənada ona etibar edilən bir şəxs kimi baxılır və böyük əhəmiyyət verilir. Göründüyü kimi, Tusi qadına həmçinin ailə daxili vəzifə bölgüsünün mühüm və əvəzolunmaz bir iştirakçısı kimi baxır. Orta əsrlərdə qadına verilən bu cür qiymət digər müəlliflərin əsərlərində də əks olunur.

Nikahla bağlı onu göstərmək lazımdır ki, Orta əsrlərdə əksər hallarda kəbin bərabər sosial zümrələr arasında bağlanırdı. Bu bir çox orta əsr müəllifləri tərəfindən açıqlanmışdır. Oruc bəy Bayat I Şah İsmayılın şahzadə Muradı yaxşı qarşıladığından və öz qızlarından birini ona verdiyindən söz açır [5, s.24]. Eləcə də, Azərbaycanda səfərdə olmuş venesiyalı Mikele Membre bu barədə məlumat verərək Şah Təhmasibin öz bacılarını yüksək mövqeli xanlara ərə verdiyini söyləyir [5, s.27]. Bu da aydındır ki, bütün zamanlarda yüksək zümrənin ailələri bir-birilə qohum olurdular. Hətta çox vaxt belə nikahlar siyasi və diplomatik addım sayılırdı. Şahlar özləri də bərabər zümrədən evlənirdilər. Lakin bununla yanaşı, onların hərəmində müxtəlif cariyələr də olurdu ki, onlar isə müxtəlif təbəqələrə mənsub ailələrin üzvləri idilər. Hətta şahların onlardan da övladları ola bilərdi. Orta əsr şairlərimizin də yaradıcılığından sezilir ki, yuxarı təbəqənin nümayəndələri nikah münasibətlərində sosial bərabərliyə üstünlük verirdilər.

Aydındır ki, "Nikah kişi ilə qadın arasında, valideynlər və uşaqlar arasında münasibətləri qəti müəyyənləşdirir, ancaq müəyyən normalara salır, bununla da ona mühüm sosial institut xarakteri verir. Ailəyə, nikaha və qan qohumluğuna əsaslanan üzvləri məişət ümumiliyi, qarşılıqlı əxlaqi məsuliyyətlə, qarşılıqlı köməklə bağlı olan sosial qrup kimi də baxılır" [5, s.18]. Nikahla nəsillərin davamı təmin olunmuş, təsərrüfat həyatı inkişaf etdirilmişdir.

Nikah münasibətlərində gəlinliyə namizədin seçilməsi və yaş həddi də əsas idi. Qızlara oğlan anaları erkən yaşlardan etibarən göz qoyur, onlar haqqında məlumat toplayırdılar. Bu göz qoyma əsasən toy və bayramlarda, hətta hamamda olurdu. Qızın hansı nəslə mənsub olması da əsas götürülürdü. Orta əsrlərdə ailə münasibətlərində əsas şərt nikahda valideynlərin razılığıdır. Ata ananın razılığı əsasında qızlar ərə gedir, oğlanlar evlənirdilər. Toy mərasimi icra olunduqdan sonra nikaha girənlərin ailə içərisində ictimai vəziyyəti bir qədər dəyişir, yeni bir ailənin təməli qurulurdu. Oğlanın evləndirilməsi və qızın ərə verilməsi valideynlərin üzərinə düşən məsuliyyətli bir iş hesab olunurdu. Ona görə də valideynlər öz övladlarını gələcək müstəqil ailə həyatı üçün hazır olmağa çalışır və onları buna yetişdirirdilər. Belə ki, qızlar hələ kiçik yaşlarından etibarən əsasən ev işlərilə, oğlanlar isə təsərrüfat fəaliyyəti ilə məşğul olurdular.

Toyla bağlı məsələlərdən biri də nikaha girənlərin yaş həddidir. Ümumiyyətlə, Orta əsrlərdə hansı yaşlarda gənclərin nikaha daxil olduqlarını və yaş həddini müəyyənləşdirmək maraq doğurur. Əldə olunan məlumatlarda bu barədə dəqiq və ətraflı məlumatlar demək olar ki, yoxdur. Yalnız ötə-

ri bəhs edilən ayrı-ayrı faktları nəzərə alaraq, bu barədə müəyyən fikir söyləmək mümkündür. Ənənəvi olaraq nikah əlaqələrinə girənlər arasında qadınların kişilərdən kiçik olması demək olar ki, bütün dövrlərdə əsas sayılırdı. Hətta orta əsrlərdə bəzi hallarda qızlar özlərindən yaşca həddən artıq böyük kişilərə ərə verilirdi. Amma buna baxmayaraq, həmyaşıdlar və özündən kiçiklərə ərə getmək faktlarına nadir hallarda da olsa, rast gəlinirdi. Orta əsrlərdə yaş həddini müəyyənləşdirmək baxımından köməyimizə şairlərimizin əsərləri çatır. Belə ki, Azərbaycanın orta əsrlərdə yaşayan görkəmli, dahi şairlərimiz olan Nizami və Füzulinin təsvirindəki Leyli və Məcnun bir yerdə oxuduqlarına görə ola bilsin ki, eyni yaşa mənsubdurlar. Nizaminin "Xosrov və Şirin" poemasında isə əsərin qəhrəmanları olan Xosrovla Şirin arasında o qədər də böyük yaş fərqinin olmadığı qənaətinə gəlmək olar. Yaxud, Yusif Məddahın təsvir etdiyi obrazlar - Gülşahla Vərqanın eyni vaxtda anadan olduğunu nəzərə alsaq, görürük ki, orta əsrlərdə həmyaşıdı ilə evlənmə mümkün hesab edilirdi. Orta əsr müəlliflərinin əsərlərinə görə həddibüluq vaxtının hansı yaş dövrünə təsadüf etdiyini dəqiq müəyyənləşdirmək də çətindir. Lakin ənənəvi olaraq orta əsrlərdə və daha sonrakı dövrlərdə də qızlar erkən yaşlarda ərə verilirdi. Bu xüsusiyyət hətta XX əsrin əvvəllərinədək davam etmişdir. Hesab olunurdu ki, artıq 14-15 yaşındakı qızlar yetkin sayıldıqlarına görə onlar ailə həyatı qura bilərlər.

Məlumdur ki, nikaha girmə toy vasitəsilə mümkün idi. Azərbaycan xalqının isə özünəməxsus, zəngin və uzun tarixi inkişaf mərhələsi keçmiş ənənəvi toy mərasimi mövcud olmuşdur. Zənginlik özünü bir də onda göstərir ki, toy mərasimi ölkəmizin müxtəlif bölgələrində müxtəlif şəkildə icra olunmuş, zaman keçdikcə bir sıra dəyişikliklərə uğramışdır. Lakin buna baxmayaraq, zaman onun əsas mahiyyətinə xələl gətirməmiş və toy zənginliyi, rəngarəngliyi ilə seçilən bir mərasim olaraq indi də qalmaqda davam edir. O, xalqımızın əsrlər boyu yaradıb yaşatdığı mütərəqqi bir adət kimi ailəyə sevinc və xoş əhval-ruhiyyə bəxş etmişdir.

Toyla bağlı qədim adətlərdən biri türkdilli xalqların möhtəşəm abidəsi olan "Kitabi Dədə-Qorqud" dastanında yer almışdır. Belə ki, "oğuz zamanında evlənən hər igid ox atardı. Oxu düşən yerdə də gəlin otağı qurardı. Beyrək xan da oxunu atdı, oxu sancılan yerdə otağını qurdurdu. Adaxlısından bir bəylik qaftan gəldi" [2, s.155-156]. Göründüyü kimi, bəy geyimini də qızın özünün hazırlayıb oğlana göndərməsi bir adət imiş. Dastanda nəzəri cəlb edən bir başqa məqam da vardır ki, məlum olduğuna görə "Baybörə bəyin oğlu Beyrək Baybican bəyin qızını aldı. Hündür evlərinə, ağ otağına qayıtdı. Toy şənliyinə başladı. Bu qırx igidin bir neçəsinə Qazan xan, bir neçəsinə Bayandır xan qız verdilər. Beyrək də yeddi bacısını yeddi igidə verdi. Qırx yerdə otaq tikdirdi. Otuz doqquz qız hərə bəxtinə-taleyinə görə bir-bir ox atdı. Otuz doqquz igidin hər biri öz oxunun ardınca getdi. Qırx gün-qırx gecə toy-düyün etdilər. Beyrək igidlərlə birlikdə öz muradına çatdı" [2, s.40]. Deməli, qızlar da bəxtlərini beləcə ox ataraq sınayırmışlar.

Azərbaycan xalqı bütün dövrlərdə kəbin, toy vasitəsilə nikaha girməyə yüksək qiymət vermişdir. Bu Nizami Gəncəvi yaradıcılığında da öz əksini tapmışdır. Şair yazır:

Şəhərə gələn kimi əhdinə vəfa göstərib
Öz istəklisinə elçi yolladı.
Dünən gecəki ayı (gözəli) öz taxtına gətirib
Rəsmə uyğun surətdə onun kəbinini kəsdirdi [4, s.256].

Əldə olunan bütün məlumatları təhlil edərkən konkret olaraq orta əsr müəlliflərinin hamısının kəbinə böyük əhəmiyyət verdikləri nəzəri cəlb edir. Onların yaradıcılığında nikaha girmənin digər forması olan qızqaçırma haqqında məlumat demək olar ki, yoxdur. Nəticədə gəlinin ata evindən bəy evinə köçməsi ilə yekunlaşan toy mərasiminin özü də xalqın yaradıcılıq nümunəsi kimi əsrlərin sərhəddini aşaraq bu gün də yaşamaqdadır.

Orta əsrlərdə monoqam nikah forması üstün idi. XIII əsrin görkəmli şəxsiyyəti, mütəfəkkiri Nəsirəddin Tusinin "Əxlaqi-Nasiri" əsərində Azərbaycanda orta əsrlərdəki nikah formaları haqqında müəyyən qədər məlumat vardır. Əsərdən göründüyü kimi nikahın əsas forması təkkəbinlilik, yəni monoqam ailə forması mövcud olmuşdur [1, s.49]. Bu əsərdə "...mühitin, şəraitin insana, xüsusilə

uşaqlıq və cavanlıq dövründə təsirindən geniş danışılır, təlim və tərbiyənin son dərəcə böyük rol oynadığını aydın, həyati misallarla nümayiş etdirilir. ...Tusi yeni nəslin yetişdirilməsində tərbiyə və təlimin həlledici əhəmiyyətə malik olduğunu elmi cəhətdən əsaslandırır, valideynlərin, mürəbbilərin, müəllimlərin, habelə ictimaiyyətin tərbiyəsilə məşğul olması bütün şəxslərin bu sahədə böyük məsuliyyət daşıdıqlarını xüsusi qeyd edir.

Mənəvi təmizliyə, əxlaq saflığına, vicdan büllurluğuna son dərəcə böyük əhəmiyyət verən Tusi hər şeydən əvvəl uşaqların və gənclərin mənəvi-əxlaqi tərbiyəsi ilə məşğul olmağı, onları düzlüyə, doğruluğa, bir sözlə vicdanlı olmağı məsləhət görür. Tusi insanın kamilliyində, səadətə çatmasında, xeyirli işlər görməsində ədalətli vicdanın zəruriliyini əsas şərt hesab edir" [1, s.16-17].

Orta əsr müəlliflərinin əsərlərində bəzən nikahın əhəmiyyət kəsb etməsi məsələsi də öz əksini tapır. Nikah barədə məlumat verərkən Xaqani anası ilə atasının evlənməsi haqqındakı xatırlatma ilə kifayətlənmişdir:

Eşqilə yaşayıb əbədiyyətin,
Əzəl möhrü ilə kəsmişdi kəbin [1, s.16].

Şair ailə həyatının qurulmasında nikahın rolunu yüksək qiymətləndirir və onu əbədi hesab edir. Bundan əlavə, anası xristian qızı olan Xaqani onun evləndikdən sonra islam dinini qəbul etdiyini də yazmışdır. Yeri gəlmişkən qeyd edək ki, Arif Ərdəbilinin də əsərində oxşar məsələ təsvir edilir, lakin burada əksinə kişi qadının dinini qəbul edir. Gülüstan ilə Fərhadın toy mərasimi yaxınlaşır. Əsərdə müəllif toydan əvvəl Fərhadın xristian dinini qəbul etdiyini təsvir etmişdir, o, eyni zamanda rahiblərin musiqi çaldığını, Davud duasının oxunmasını, evlənənlərin bir piyalədən şərab içməsini və beləliklə, toyun xristian adəti ilə aparıldığını qeyd etmişdir [1, s.21]. Amma bir cəhət də budur ki, adətən qadının ərinin mənsub olduğu dini qəbul etməsi halı (məsələn, Əfzələddin Xaqani xristian qızı olan anasının nikaha daxil olarkən islam dinini qəbul etdiyini söyləyir) məlumdur. Burada isə A.Ərdəbili əksinə, kişinin evlənərkən başqa dini qəbul etməsini şərh etmişdir. Bu da müəllif tərəfindən ola bilsin ki, nadir görünən hallardan biri kimi təqdim olunmuşdur. Deməli, burada biz orta əsrlərdə ailə münasibətlərində dinin əngəl olmadığını, müxtəlif dinə mənsub olanların nikah əlaqəsinə girə bildiyini görürük. Buradan məlum olduğu kimi, şairin evlilikdə əsas şərt saydığı bir məsələni - məhəbbətlə, sədaqətlə kəbin kəsilməsini vurğulayaraq ön plana çəkməsi diqqəti xüsusilə cəlb edir. Xoşbəxt ailənin təməlində o, doğru olaraq məhəbbətin durduğunu göstərir. Kəbin haqqında məlumata Məhsəti Gəncəvinin də yaradıcılığında rast gəlmək mümkündür. O, yazır:

Arvadla kişini bağlayar kəbin,
Bu işə yol verir şəriət, ayin [4, s.15].

Və yaxud, Xaqani o dövrdə qadına qarşı olan amansızlıqları belə öz "Həbsiyə" şerində açıqlığı ilə yazkəmışdır. Burada yenicə doğulan qızının ölümünə yazdığı mərsiyədə sair öz şəxsi kədərinə ictimai rəy verir:

Yenicə doğulan qızım gördü ki,
Qarşıda gözlənir min bəla öldü.
Qeybdən gələn o töhfə duydu ki,
Dərdlərə olacaq mübtəla öldü.
O kiçik gövhərim yaxşı anladı,
Ki, çox pis yaranmış bu dünya öldü.
Bildi ki, ürəyim dərdə düşəcək,
O, böyük qızımı pərdədə görcək,
Dedi - Kifayətdir bir səfa, - öldü [5, s.234-235].

Böyük mütəfəkkir istər kəbin olsun-olmasın, qızları ərə versinlər və bunlar hətta ana olduqdan sonra da işgəncələrə məruz qaldıqlarının şahidi olurdu. Lakin dövrün tələblərinə göz yuma bilmirdi. Burada müəllif kəbinin kəsilməsində şəriət qaydalarının hökm sürdüyünü göstərir və xüsusi rəsmi

ayinin icra olunduğunu qeyd edir. Müəlliflərin hamısının kəbini ailənin qurulmasında vacib olan və əhəmiyyət kəsb edən bir məsələ kimi qiymətləndirməsi nəzərdən qaçmır. Bu məsələnin bütövlukdə cəmiyyətdə kök salmış qanunauyğunluq kimi təqdim olunması təqdirəlayiq hal kimi dəyərləndirilməlidir. Şəriət dedikdə, nə nəzərdə tutulur? Ərəbcə məqsədə aparan düzgün yol anlamı verən şəriət dedikdə, islam dininin yayıldığı ölkələrdə cəmiyyət tərəfindən riayət olunan əsas davranış normaları nəzərdə tutulur.

Ailə qurmuş bir insan, evlənmə yolu ilə özünü səadətə, xoşbəxtliyə çatdırır, fərdilik sərhədlərindən ictimaiyyətə, məsuliyyətli bir ocağa doğru qədəm qoyur. Evlənmə ilahi qanun və peyğəmbər sünnəti, habelə dünyəvi və dini vəzifə olmaqla yanaşı, onun böyük səmərəsi və faydası vardır. Subaylıq çağlarında sübh oyana bilməyən, evlənib ailə qurduqdan sonra yüksək əhval-ruhiyyə ilə, həyata olan nikbinliklə öz fəaliyyətlərini artırır, cəmiyyətin fəal bir fərdinə çevrilir, daha üstün bir həyatı izləyir. Onun həyatı nə qədər inkişaf edirsə, qəlbindəki bədbinliklər, kinlər də bir o qədər azalır və nəhayət tamamilə yox olub gedir...

... Cavanlar bilməlidirlər ki, evlənmə məsələsi onların şəxsiyyət və təfəkküründün formalaşmasında son dərəcə təsirlidir və bu məsələ ilə bağlı etinasızlıq etməməlidirlər. Belə hallarda valideynin məsləhətlərini eşitmək gərəkdir. Hətta bu məsələni dost və qohumlardan gizlətməməliyik. İslam dini mühüm ictimi və s. kimi işlərdə məşvərətə dəvət etməkdən əlavə, qızlarının evlənmə məsələsində ata-anaların icazəsini və nəzərlərini sərt bilir, onların razılığı olmadan oxunan əqdi batil hesab edir.

Yer üzünün əşrəfi insan olduğu kimi, hər bir ailənin yaraşığı da, şübhəsiz ki, uşaqdır. Uşaq ailəyə sevinc gətirir, valideynlər də həmişə öz övladlarına böyük ümid bəsləyirlər. Ona görə ki, uşaqlar valideynlərin gələcək köməkçisi, qocalıqda dayağıdır. Belə arzu və istəklərin özünü doğrultması valideynin vəcəyi tərbiyəni, onlara şəxsiyyət olaraq fəzilətləri aşılamasından asılıdır.

İslam dəyərlərinə riayət olunan müsəlman ailəsində valideynlər uşaq tərbiyəsində öz məsuliyyətlərini daha dərindən anlayırlar. Ona veriləcək tərbiyədən asılı olaraq uşaqlar ailənin sevinc və qürur mənbəyi də ola bilər, digər tərəfdən təkcə ailə üçün deyil, bütövlükdə cəmiyyət üçün problemə də çevrilə bilər.

Elə ata-analar var ki, öz övladlarının istəklərinə əsla əhəmiyyət vermir, onların evlənməyə olan ehtiyaclarını nəzərə almır, övladları bu arzunu bildirdikdə ciddi tənələrə,danlağa məruz qalırlar. Bu cür valideynlər özlərinin cavanlıq çağlarını yada salmalıdırlar.Onlar bilməlidirlər ki, övladları da onların cavanlıqda keçirdiyi hissləri keçirirlər.

Övladların hüquqları və onlarla rəftar tərzi haqqında müqəddəs islam dini çoxlu üstün şeylər tövsiyə etmişdir ki, onlara əməl edilməsi hər bir ailənin səadətinə zəmanət verir. Bir sözlə, ata-ana öz övladları ilə sıx ünsiyyət yaratmalıdırlar,öz övladları ilə məhəbbətlə rəftar etməlidirlər ki, islamda buyrulduğu kimi əməli-saleh insan kimi böyüsünlər. İslam dini bu cəhətdən ailə ocağında müxtəlif şərtlər qoymuşdur ki, dini baxımdan bu şərtlərin pozulması yol verilməzdir. Yəni, valideynlər nə qədər ailədaxili çəkişmələr edirsə, o zaman övladlara bu cür yanaşmalar pis təsir edir və onların isti ailə ocağından qaçmasına səbəb olur, sonra da ata-anaya qarşı övladların laqeyd olmasına səbəb olur. İslam dini ailələrin formalaşmasına, ailə daxilində qadın və kişilər, valideynlərlə-uşaqlar arasında vəzifə bölgüsünün aparılmasına mühüm əhəmiyyət verir. Əslində, bu baxımdan Quranda və Qurana söykənən digər dini-islami mənbələrdə qadının və kişinin təbii fərdi-psixoloji xüsusiyyətləri dəqiq şəkildə müəyyən edilir. Bu mənada, cəmiyyət uzun zaman kəsiyində inkişaf edib böyük təkamülə uğrasa da, ümumən dinə, dini dəyərlərə, nizamlı ailə həyatının zəruriliyinə və müqəddəsliyinə olan inam hissi dəyişməmişdir. Müasirləşmiş və daha da inkişaf etmiş respublikamızda heç də təsadüfi deyildir ki, əvvəllər olduğu kimi indi də bütün rəsmi nigahların əksəriyyəti, həm də dini nigahla tamamlanır.

Açar sözlər: ailə, miili-mənəvi dəyərlər, adət-ənənə, evlilik, mərasimlər, dini normalar

İstifadə edilmiş ədəbiyyat

1. Əfzələddin Xaqani. Seçilmiş əsərləri. Bakı: Lider, 2004, 672 s.
2. Kitabi-Dədə Qorqud dastanı. Bakı: Öndər, 2004, 376 s.
3. Qeybullayev Q.Ə. Azərbaycanda ailə və nikah (XIX əsr və XX əsrin əvvəlləri). I hissə. Bakı: Elm, 1994, 264 s.
4. Məhsəti Gəncəvi. Rübailər / Şərq Tərcümə toplusu. Bakı: Nurlan, 2007, s. 4-20
5. Nəsirəddin Tusi. Əxlaqi Nasiri. Bakı: Elm, 1989, 254 s.

Хаджар Абдаллы

НАЦИОНАЛЬНЫЕ И РЕЛИГИОЗНЫЕ НОРМЫ В БЫТУ АЗЕРБАЙДЖАНСКОЙ СЕМЬИ

Резюме

В статье анализируются как национальные, так и духовные традиции азербайджанской семьи как раньше, так в настоящем, выражается отношение к таким вопросам как помолвка, кебин, хнайахди, праздник, церемонию бракосочетания. Особое внимание уделяется помолвленной девушке, ее поведению, изменению отношения к этой девушке, формирующимся отношениям между новыми родственниками. На основе принципа унаследования подчеркивается необходимость защиты национальных ценностей и норм, необходимость соблюдения этих правил в здоровом и устойчивом обществе, изучается отношение азербайджанских мыслителей к рассматриваемым вопросам.

Ключевые слова: семья, духовные ценности, традиции, брак, обряды, религиозные нормы

Hajar Abdally

NATIONAL AND RELIGIOUS NORMS IN AZERBAIJAN FAMILY

Summary

The article analyzes both the national and spiritual traditions of Azerbaijan family both earlier and now, expresses attitude to such issues as engagement, kebin, henna parties, holidays and marriage ceremonies. The main attention is paid to the engaged girl, her behavior, changing the attitude to the girl in the society, formation of a relationship between the new relatives. On the basis of inheritance principle, the necessity of the protection of national values and norms, the necessity of observing these rules in the healthy and sustainable society, the attitude of Azerbaijan thinkers to relevant issues are emphasized.

Keywords: family, spiritual values, tradition, marriage, ceremonies, religious norms

УДК – 1.101

Тахмина Агакишиева
Институт Философии НАНА, д.ф. по филос., доцент

АЗЕРБАЙДЖАНСКАЯ ДЕМОКРАТИЧЕСКАЯ РЕСПУБЛИКА – ГОРДОСТЬ АЗЕРБАЙДЖАНСКОГО НАРОДА

В статье нашло отражение деятельность Азербайджанской Демократической Республики в 1918 году. Наряду с этим в работе делается акцент на многогранное руководство Гейдара Алиева во время его президентства в Азербайджане. Общенациональный лидер создал политические, экономические основы независимого государства Азербайджана. В статье подчеркивается значимость государственного флага. Одной из официальных и отличительных особенностей государства является государственный флаг, и его описание в основном устанавливается *конституцией. Государственный флаг одновременно является символом суверенитета государства.*

Флаг священен, флаг является символом идей свободы
и независимости нашего народа, его национального
бытия, неделимости наших территорий
Гейдар Алиев

Азербайджанская Демократическая Республика (АДР) – самое блистательное и историческое событие в жизни азербайджанского народа. Выдающиеся сыны Азербайджана, движимые стремлением к национальной независимости, добились провозглашения Азербайджанской Демократической Республики в 1918 году. Одним из создателей АДР был азербайджанский государственный, политический и общественный деятель, журналист и драматург Мамед Эмин Расулзаде. М.Э.Расулзаде указывал, что день 28 мая стал символом Республики в Тюркском и Исламском мире. 28 Мая состоялось первое заседание Национального Совета Азербайджана. С докладом выступил Х.Хасмамедов. Он потребовал немедленно принять «Акт независимости Азербайджана». Его поддержали Н.Усуббеков, А.Шейхульисламов, М. Самедов и др. После длительного и всестороннего обсуждения этого вопроса Национальный Совет 24 голосами при двух воздержавшихся (С.Ганиев и Д.Ахундов) высказался за немедленное объявление Азербайджанской Демократической Независимой Республикой в пределах Южного и Восточного Закавказья [2, с.18]. Помимо этого в зале бывшего Дворца наместника на Кавказе в Тифлисе (Тибилиси) 28 мая 1918 года была подписана Декларация независимости, в которой сказано: «Отныне азербайджанский народ является носителем суверенных прав, а Азербайджан, охватывающий Восточное и Южное Закавказье, – полноправным независимым государством. Формой политического устройства независимого Азербайджана устанавливается Демократическая Республика. Азербайджанская Демократическая Республика стремится установить добрососедские отношения со всеми членами международного общения, и в особенности с определьными народами и государствами. Азербайджанская Демократическая Республика гарантирует в своих пределах гражданские и политические права всем гражданам без различия национальности, вероисповеданий, социального положения и пола. Азербайджанская Демократическая Республика всем народностям, населяющим её территорию, предоставит широкий простор для свободного развития». Главной задачей АДР во внутренней политике было установление ее власти над всей территорией Азербайджана, а во внешней политике признание ее со стороны мировых государств.

Необходимо подчеркнуть, что заслуга деятелей АДР (М.Э.Расулзаде, М.Г.Гаджинский, А.М.Топчубашев, Ф.Х.Хойский, М.Ю.Джафаров, Н.Нариманов и др.) прежде всего в том, что они сумели проявить смелость и гибкость в этих сложных условиях, создав по – де-

ловому демократическое и независимое государство, ориентированное на национальные интересы и общечеловеческие ценности. После обретения независимости наше государство за кратковременный срок стало членом Организации Объединенных Наций, Организации Безопасности и Сотрудничества в Европе, Содружества Независимых Государств, Содружества Тюркских Государств, Организации Экономического Сотрудничества Черноморских стран, Международного Валютного Фонда, Всемирного Банка Реконструкции и Развития, Исламского Банка Развития. Установлены партнерские отношения с Межпарламентским Союзом, Советом Европы, Европейским Союзом, Европейским Парламентом, НАТО и другими международными организациями. В тревожной обстановке фактически в состоянии войны с Деникиным Азербайджанский народ праздновал годовщину независимости. Было проведено торжественное заседание парламента. По случаю великого праздника премьер – министр АДР выступил с обращением к населению Азербайджанской Республики. В нем говорилось: «Граждане Азербайджана! Согласно волеизъявлению ваших избранников, год тому назад народ выступил на путь социалистического и политического существования; 28 Мая – День Национального праздника Азербайджанской Республики – память о котором для всех граждан Азербайджана будет навсегда священной. Год свободной и трудовой жизни под собственным национальным флагом, лучше всяких слов объясняет значение этого великого исторического дня для Азербайджана» (3, с.45).

Однако, в результате внешней агрессии деятельность независимого АДР длилось недолго и к большому сожалению просуществовало всего 23 месяца, то есть до 28 апреля 1920 г. В Азербайджане была построена Советская власть. В декабре 1922 года был создан Союз Советских Социалистических Республик. В период в течение, которого Азербайджан находился в составе СССР, он сумел сохранить свои многие государственные атрибуты, развивая экономику, культуру и науку. Хотя, как независимое государство, республика, созданная в Азербайджане в 1918 году, и распала, но республиканский строй жил, чувства независимости никогда не покидали наш народ [1, с.4]. Азербайджанский народ, восстановивший в 1991 году свою независимость, использовал богатые традиции краткосрочной деятельности Азербайджанской Демократической Республики и на этом историческом наследие создал независимое Азербайджанское Государство. 18 октября 1991 года вошел в историю Азербайджана как День Государственной Независимости. На сессии Верховного Совета Азербайджанской Республики был принят «Конституционный Акт о государственной независимости Азербайджана». Этим знаменательным историческим документом азербайджанский народ, после долгих лет ожидания, обрел свободу. Именно в этот день в результате исторических условий, возникших с распадом СССР, Азербайджан восстановил свою независимость. АР заявившая о своей независимости, начала свое существование в предельно тяжкой исторической ситуации. Первой независимость АР признала Турецкая Республика. Это произошло девятого ноября 1991 года. Затем Румыния (11 декабря 1991), Пакистан (13 декабря 1991 года), Швеция (23 декабря 1991 года), Иран (25 декабря 1991 года), США (23 января 1992 года), Россия (10 апреля 1992) и другие страны признали Азербайджан как независимое государство [4].

Второго марта 1992 года Азербайджан становится членом ООН. Карабахская война, развязанная в результате агрессии армянских вооруженных формирований, поставила под угрозу само существование молодой независимой республики. Однако с приходом к власти видного политического деятеля Гейдара Алиева эта опасность исчезла. В связи с кровавой трагедией, учиненной 20 января 1990 года в Баку советскими войсками, Гейдар Алиев, выступив на следующий день в представительстве Азербайджана в Москве с заявлением, потребовал наказать организаторов и исполнителей преступления, совершенного против азербайджанского народа. В знак протеста против двуличной политики руководства СССР в связи с возникшей в Нагорном Карабахе острой конфликтной ситуацией, в июле 1991 года он покинул ряды Коммунистической Партии Советского Союза.

В первые годы независимости наша страна столкнулась с большими трудностями. По настоятельному требованию народа Общенациональный лидер Гейдар Алиев, возвративший-

ся в 1993 году во второй раз к руководству в Азербайджане, сделал независимость нашей страны необратимой. Именно богатый политический опыт общенационального лидера, высокое управленческое мастерство, неиссякаемая любовь к Родине, спасли государственную независимость Азербайджана от опасности. Гейдар Алиев устранил в стране хаос и анархию, царящую в обществе экономическую, политическую и духовно-психологическую напряженность. Независимая Азербайджанская Республика на прочной базе обозначила новый курс развития. Общенациональный лидер Гейдар Алиев, провозгласивший Азербайджан наследником первой демократической республики на мусульманском Востоке, приступил к грандиозной работе по государственному строительству. В результате неустанных усилий великого лидера за короткий срок голос Азербайджана стал доноситься с трибун самых влиятельных международных организаций. Заявив с большой гордостью о том, что независимость является огромным богатством и играет неоценимую роль в исторической судьбе народа. Работа, проводимая с 1993 года, и предпринимаемые целенаправленные шаги в деле укрепления государственной независимости, стали самой надежной основой для нынешних успехов Азербайджана. Возвратившись в июле 1990 года в Азербайджан, Гейдар Алиев жил сначала в Баку, а затем в Нахчыване, и в том же году был избран депутатом Верховного Совета Азербайджана. В 1991-1993 годах он занимал пост председателя Верховного Меджлиса Нахчыванской Автономной Республики, заместителя председателя Верховного Совета Азербайджанской Республики. На проведенном в 1992 году в городе Нахчыван учредительном съезде партии «Ени Азербайджан» Гейдар Алиев был избран председателем партии. 15 июня 1993 года Гейдар Алиев был избран председателем Верховного Совета Азербайджана, а 24 июня – постановлением Милли Меджлиса стал осуществлять полномочия президента Азербайджанской Республики. На президентских выборах, состоявшихся 3 октября 1993 года, Гейдар Алиев, набрав большинство голосов избирателей, был избран президентом Азербайджана. 10 октября 1993 года в своем выступлении на церемонии инаугурации по случаю избрания его президентом Гейдар Алиев как руководитель страны заявил об основных задачах, стоящих перед Азербайджаном [5].

Под руководством Гейдара Алиева в Азербайджане были проведены важнейшие реформы. Была создана и укреплена Национальная армия, которая сумела наладить успешное противостояние армянским вооруженным силам и освободить часть захваченным ими территорий. С целью вывода страны из кризиса и возрождения экономики 12 мая 1994 года был, достигнут режим прекращения огня с Арменией. Появилась возможность для стабилизации политической обстановки. Началась деятельность по налаживанию нормальных отношений Азербайджана с международными организациями и мировыми государствами, развитию сотрудничества. В тот период был предпринят важный шаг в направлении осуществления новой нефтяной стратегии Азербайджана.

20 сентября 1994 года было подписано грандиозное международное нефтяное соглашение - «Контракт века», автором которого был Гейдар Алиев. Азербайджан впервые выступил в качестве обладателя своих ресурсов. А участие в этом контракте самых передовых компаний ведущих государств мира повысило значимость и авторитет нашей страны в регионе. Азербайджан присоединился к крупным региональным проектам, к системе энергетической безопасности Европы и мира в целом.

В 1995 году впервые в истории независимого Азербайджана были проведены парламентские выборы, и была принята новая Конституция независимого Азербайджана. В 1998 году благодаря Гейдару Алиеву Азербайджан стал первой страной исламского мира, где была отменена смертная казнь и цензура.

На президентских выборах 11 октября 1998 года Гейдар Алиев вновь был избран президентом страны и 18 октября принес присягу на верность Азербайджанской Республике и азербайджанскому народу. На инаугурации Гейдар Алиев выступил с обширной программой основных направлений развития страны, ее внутренней и внешней политики. В период своего президентства в 1998-2003 годах Гейдар Алиев продолжал проводить независимую и сба-

лансированную внешнюю политику, деятельность по поощрению инвестиций, возвращению оккупированных в результате нагорно-карабахского конфликта земель и обеспечению территориальной целостности Азербайджана.

Гейдар Алиев, давший согласие на выдвижение своей кандидатуры на пост президента Азербайджана на выборах, намеченных на 15 октября 2003 года, отказался от участия в выборах в связи с проблемами со здоровьем. 12 декабря 2003 года общенациональный лидер Азербайджана Гейдар Алиев скончался в Кливлендской клинике в США [6].

Сегодня неустанные усилия великого лидера, направленные на сохранение и укрепление нашей независимости, продолжаются его достойным преемником Президентом Ильхамом Алиевым. Опираясь на результаты многогранной деятельности общенационального лидера, Азербайджан под руководством Президента Ильхама Алиева достиг значительного прогресса в политической, экономической, социальной и военной сферах. Азербайджан превратился в страну, способную воздействовать на ход стратегических, политических и экономических процессов в регионе, где расположен Азербайджан. Наша страна умело использует свою политическую и экономическую мощь, стратегическую позицию и богатые природные ресурсы в обеспечении внешних политических приоритетов. В соответствии с национальными интересами наша страна плодотворно сотрудничает с большинством членов международного сообщества. Благодаря стратегии успешного развития, реализуемой главой государства, экономика страны по темпам развития занимает одно из высоких мест в мире. Таким образом, наша независимость, которая в свое время была сохранена великим лидером Гейдаром Алиевым, сегодня еще более укрепляется и обретает вечность под руководством Президента Ильхама Алиева. Все это вновь дает основание говорить, что независимость Азербайджана вечна и необратима.

Важно отметить, что Азербайджанская Демократическая Республика оставила основательный след в истории освободительной борьбы азербайджанского народа. Хотя АДР просуществовала всего 23 месяца, она доказала, что даже самые жестокие колониальные режимы и репрессии не в состоянии уничтожить идеалы свободы и традиции государственной независимости азербайджанского народа. Азербайджанская Демократическая Республика являвшийся первой парламентской республикой в истории азербайджанского народа, одновременно была символом развития Азербайджанской нации, подтверждая то, что она является первым государством и первым образцом демократического, правового и светского государства на всём Востоке, в том числе и в тюрко-исламском мире. Суверенная Азербайджанская Республика является родиной азербайджанцев всего мира. Исходя из этой позиции, каждый азербайджанец должен гордиться своей историей, богатой культурой сохраняя верность своим национальным и духовным ценностям и не забывая свой родной азербайджанский язык зная, что у них есть такая высоконадежная, стойкая защита, как независимая Азербайджанская Республика. Президент Ильхам Алиев придает особую оценку АДР. Каждый год в стране 28 мая отмечается День Республики. Важно отметить, что праздник отмечается с 1990 года и является нерабочим днем. С 25 мая 2007 года на улице «Истиглалият» возвышен памятник Независимости. На памятнике, вытесанном из гранита и белого мрамора, на старом и латинском алфавите выгравирован текст Декларации независимости, принятой в Тбилиси 28 мая 1918 года. Это один из самых ярких дней в истории азербайджанского народа. В этом году Азербайджан отметит 100-летие его создания. На заседании Кабинета министров Азербайджана 2018 год был объявлен Президентом Ильхамом Алиевым «Годом Азербайджанской Демократической Республики». В летописи Азербайджанского народа доминантной этого примечательного события выступают, в первую очередь, три Республики, возникшие в XX столетие: АДР(28 мая 1918 – 28 апреля 1920), Азербайджанская ССР (28 апреля – 18 октября 1991 года) и Азербайджанская Республика, истинным президентом которой является Г.А.Алиев. Глубокоуважаемый президент отмечал: «Если наш народ в начале XX века впервые сделал большой шаг на пути национальной свободы, государственной независимости, то

в конце XX века полностью добился этой свободы и государственной независимости» [2, с.125].

9 ноября 1918 года АДР приняла постановление о трехцветном Государственном флаге. В постановлении говорилось: «Национальным флагом признать флаг, состоящий из зеленого, красного и голубого цветов с белым полумесяцем и восьмигранной звездой». Автором нового флага Азербайджана был азербайджанский ученый, философ, художник и врач Али - бек Гусейнзаде. Как отмечал в своей речи Мамед Эмин Расулзаде, знамя с тремя цветами обозначает свободу для тюрков, культуру ислама и современность. Полумесяц, изображенный на флаге, обозначает принадлежность к религии ислама, восьмиконечная звезда означает восемь ветвей тюркских народов. Иногда восемь окончаний звезды ассоциируют с восьмью буквами в написании слова «Азербайджан» арабским алфавитом. Таким образом, первоначально за образец был взят флаг Османской империи. Разница заключалась лишь в том, что на флаге Османской Турции звезда перед полумесяцем была пятиконечной, а на флаге АДР – восьмиконечной [7].

Уникальное высказывание Председателя Национального Совета Азербайджана Мамеда Эмин Расулзаде «Bir kərə yüksələn bayraq bir daha enməz!» («Единожды вознесенному знамени вовек не пасть!») стало лозунгом национального движения в Азербайджане в XX веке [8]. Официально флаг был принят 5 февраля 1991 года. Предоставление всем гражданам, независимо от национальности, политической и религиозной принадлежности, пола и т.д., принятие атрибутов (флаг, герб, гимн) азербайджанской государственности, объявление родного языка государственным языком создали прочную основу для будущей независимости Азербайджана. По распоряжению президента Ильхама Алиева День государственного флага в Азербайджане отмечается с 2010 года. Президент также направил в Милли Меджлис предложение по внесению в Трудовой кодекс изменения в связи с Днем государственного флага. Милли меджлис внес соответствующее изменение в Трудовой кодекс, согласно которому День государственного флага стал считаться нерабочим днем. 1 сентября 2010 года при участии президента Азербайджана Ильхама Алиева состоялось торжественное открытие Площади государственного флага - мемориального памятника-парка отдыха, расположенного в городе Баку. На площади функционирует также Музей государственного флага. Так, 8 июня 2004 года глава государства подписал Указ «О правилах использования Государственного флага Азербайджанской Республики», которым регламентируются формы и случаи применения флага [7].

Как известно, флаг - необходимый атрибут каждого независимого государства. Как герб и гимн, флаг является официальной государственной символикой каждой страны. Флаг Азербайджана был и всегда будет жить в истории нашего народа. Ученый-историк, академик Сейфаддин Вели оглы Алиев отметил, что в Азербайджане флаги существовали еще во времена бронзового периода, их изображения встречаются в наших археологических и архитектурных памятниках (9).

Следует отметить, что в сопровождении национального гимна в честь победителя – спортсмена, во имя страны поднимается её Государственный флаг. Под флагом Азербайджана наши спортсмены и музыканты завоевывают победы на Олимпиадах и в избранных песенных конкурсах. Под флагом Азербайджана в бой идут храбрые, обладающие боевым духом солдаты и офицеры Азербайджанской армии. И у каждого из нас есть одна общая мечта - флаг Азербайджана должен быть поднят на оккупированных Арменией территориях нашей страны. Мы вернем себе исконные земли наших предков, мы поднимем в НКАО наш трехцветный флаг Азербайджана, так – как наша армия всегда держится даже тогда, когда смерть в бою неизбежна.

Президент Азербайджанской Республики Ильхам Алиев: "Настанет день, когда наш флаг будет развеваться в Шуше".

Ключевые слова: Азербайджанская Демократическая Республика, независимость, Азербайджанский народ, флаг, гимн

Использованная литература

1. Азербайджанская Демократическая Республика (1918-1920). Парламент. Баку: Издательство "Азербайджан", 1922, 992 с.
2. Азербайджанская Демократическая Республика (1918-1920). Баку: Издательство Элм, 1998, 316 с.
3. Фатуллаев Э.А. Азербайджанская Демократическая Республика. Баку: Издательство "Азербайджан", 1993, 72 с.
4. https://ru.sputnik.az/azerbaijan/20151211/403000924.html - Румыния стала второй страной, признавшей независимость Азербайджанской Республики. 11.12.2015
5. http://heydar-aliyev- foundation.org/ru/content/index/65/ – Биография
6. vzglyad.az... В-этот-день-22-года-назад-Гейдар-Алиев-был-избран-президентом. 03.10.2016
7. http://novosti.az/azerbaijan/42.html Что необходимо знать о флаге Азербайджана. 09.11.2016
8. https://ru.wikipedia.org/wiki/Расулзаде_Мамед_Эмин – М.Э.Расулзаде
9. http://1news.az/mobile/news/sostoyalas-teatralizovannaya-massovay- Флаг Азербайджана в сердце каждого азербайджанца! 09.11.2012

Təhminə Agakişiyeva

AZƏRBAYCAN XALQ CÜMHURIYYƏTİ – AZƏRBAYCAN XALQININ FƏXRİDİR

Xülasə

Məqalədə Azərbaycan Xalq Cümhuriyyətinin 1918-ci ildə fəaliyyəti şərh edilir. Eyni zamanda Heydə Əliyevin Azərbaycanda rəhbərlik etdiyi dövrdə misilsiz xidməti vurğulanır. Ümummilli lider müstəqil Azərbaycan dövlətçiliyinin siyasi, iqtisadi əsaslarını yaratmış, xalqın müstəqil və güclü dövlətə sahib olmaq arzusunu reallığa çevirmişdir. İşdə dövlət bayrağının böyük əhəmiyyət kəsb etməsi vurğulanır. Dövlətin rəsmi, fərqləndirici əlamətlərindən biri dövlət bayrağıdır və onun təsviri, əsasən konstitusiyada təsbit olunur. Dövlət bayrağı eyni zamanda məxsus olduğu dövlətin suverenlik rəmzidir.

Açar sözlər: Azərbaycan Xalq Cümhuriyyəti, müstəqillik, azərbaycan xalqı, bayraq, himn

Tahmina Aghakishiyeva

AZERBAIJAN DEMOCRATIC REPUBLIC – PRIDE OF THE AZERBAIJANI PEOPLE

Summary

The article reflects the activity of the Azerbaijan Democratic Republic in 1918. The article emphasizes Heydar Aliyev's unparalleled service during his leadership in Azerbaijan. The national leader created the political, economic foundations of independent Azerbaijan, and he realised the desire of the people to have an independent and strong state. İt also emphasizes the importance of the national flag. One of the official distinctive features of the state is the state flag and its description is mainly enshrined in the constitution. The state flag is also the symbol of sovereignty of the state that it belongs.

Keywords: Azerbaijan Democratic Republic, independence, Azerbaijani people, flag, anthem

UOT – 316

Üzeyir Şəfiyev
Bakı Dövlət Universiteti, sos.ü.f.d., dosent

AİLƏ SOSİAL İŞİN OBYEKTİ KİMİ

Məqalədə ailə sosial işin və sosiologiyanın obyekti kimi araşdırılır, bir sosial institut kimi ailənin tarixi, onun mahiyyəti, dinamikliyi təhlil edilir. Burada həmçinin müasir ailənin mahiyyətində baş verən dəyişikliklərin determinantları göstərilir, ailənin sosiallaşma agenti kimi rolundan bəhs olunur. Məqalədə Azərbaycan ailəsinin müasir vəziyyəti, mövcud problemləri araşdırılır, müvafiq tövsiyələr verilir.

Cəmiyyətin sosial inkişaf dinamikası sosial və bioloji cinslərarası münasibətlərdə əsaslı dəyişiklikləri şərtləndirir. Bu isə öz növbəsində sivilizasiyanın ilk əlaməti kimi təcəlla edən monoqam ailənin struktur və məzmununda ciddi təbəddülatların determinantı kimi çıxış edir. Tarixə ekskurs etsək görərik ki, əvvəllər insanlararası qeyri-məhdud cinsi münasibətlər mövcud olmuş və bu münasibətlər atanın həqiqi şəkildə təyin edilməsi imkanını istisna etdiyi üçün mənşəyi yalnız ana xətti ilə müəyyən etməli olurdular. Bu vəziyyət ailədə qadının (ananın) hökmranlığını tam təmin edirdi.

Poliqamik ailə tipinin üstünlük təşkil etdiyi matriarxat cəmiyyət tədricən estafeti monoqam ailə tipini özündə ehtiva edən patriarxal cəmiyyətdə ötürdü. F.Engelsin təbirincə desək, matriarxatın devrilməsi (analıq hüququnun fiaskosu) qadın cinsinin dünyada tarixi əhəmiyyətə malik hüququndan məhrum etdi [3, s.182]. Monoqam ailə birmənalı olaraq, kişi hakimiyyətinə əsaslanırdı. Daha dəqiq ifadə etsək, monoqamiya bir cinsin digər cins üzərində əsarətini ifadə edir. Birini digəri üçün mülkiyyət formasına çevirirdi. Ailədə ana hakimiyyətinin süqutu qadınların icmada və cəmiyyətdə hüquqlarını tam itirməsinə gətirib çıxardı. Bu proses o həddə qədər irəlilədi ki, hətta qadını iki insana dəyişmək mümkün idi və uzun müddət bu münasibət dəyişmədi. Hətta 585-ci ildə Makedoniya kilsəsi qadınların insan olmaması ilə bağlı məsələni ciddi müzakirə obyektinə çevirmişdi. Monoqamik ailələrdə kişi qadının həyat yoldaşı kimi çıxış etsə də, özünü onun sahibi kimi aparırdı. Nəsildənnəslə keçən belə münasibətlər getdikcə adət halını alır, bir növ arxetipləşirdi. Bəşər tarixinin bir neçə mərhələsini əhatə edən kişi qadın münasibətlərinin, ailədə əsas struktur vahidlərinin bu münasibətləri fonunda cinsi şüur və stereotiplər formalaşmağa başladı [5, s.67]. Əlbəttə, yaranmış reallıqda hansı cinsin özünü daha komfortlu hiss etməsi mübahisə obyekti ola bilməzdi. Ancaq tarixi proses yerində dayanmadığından ailənin struktur vahidlərinin rol dəyişiklikləri də qaçılmaz bir gerçəklikdir. İstər cahangirlik savaşları dönəmi, istər sənaye inqilabından yaxın dövrlərə qədər ailədə və cəmiyyətdə qadının rolu, funksiyaları, missiyası, kişilərlə müqayisədə ən yaxşı halda kölgədə qalır, kadrarxası görüntülənir, qadın uşaq fabriki (İ.Kant) kimi, kişinin rahatlığının təminatçısı kimi qiymətləndirilirdi.

Sovetlər birliyi dövründə də qadına "nəzakətlə" yanaşılır, o, zəif deyil, zərif məxluq kimi səciyyələnir, bir qədər önə çəkilir. Ancaq yaranmış yeni cəmiyyət də ailədə və cəmiyyətdə patriarxat əsasları sarsıda bilmədi, kişi - qadın nüfuzu sahəsində olan saldonu qadınların xeyrinə dəyişdirmək gücündə olmadı.

Qlobal miqyasda qadınların patriarxatdan xilas olması hərəkatı feminizm, sufrajizm dalğası gender islahatları şəklində təcəlla etməyə başladı. Onların istifadə etdiyi, üstünlük verdiyi əsas addımlar kimi kişi hakimiyyətindən qurtarmaq üçün qadın korporativ klinikalarının, klubların yaranması, qadının kişidən ayrı keçirdiyi vaxt yerlərinin olmasının tələb etməsini, qadınların qərarqəbuletməyə cəlb olunmasını qeyd etmək olar. Baş verən bu və ya buna bənzər proseslər ailənin məzmun və strukturuna da təsirsiz ötüşmür. Patriarxatın bərqərar olmasından bəri ailə mürəkkəb strukturlu

təsisat kimi institutlaşmaqda idi. Daha sonralar, o cümlədən günümüzdə ailənin geniş əhatə dairəsinə malik olan qohumluqdan "ailə izdivacı" adlı kiçik qrup şəklində məhdudlaşdırılması baş verməkdədir. Baba-nənə institutunun tədricən sıradan çıxması ailə dayanıqlığının taleyində də fəsadlarla müşayiət olunmaqdadır. Bu ilk növbədə ailədaxili bəzi dəyərlərin sıradan çıxmasında, sosiallaşma prosesində ailənin funksionallığının azalmasında, nikah və boşanma saldosunun ikincinin xeyirinə dəyişməsində daha çox ifadəsini tapmaqdadır.

Cəmiyyətin sosial simasının substantiv şəkildəyişməsi ilə ailə təsisatının mahiyyəti və strukturunda baş verən fərqliliklər arasında qarşılıqlı səbəb-nəticə əlaqələri mövcuddur. Cəmiyyətin əsas nüvəsi sayılan ailə sosiallaşma agenti kimi cəmiyyətə nə qədər təsir edirsə [4, s.24], cəmiyyətdə və qlobal müstəvidə mövcud proseslər də ailə fəlsəfəsinə müəyyənedici təsir göstərir. Ən ümumi əsaslara görə ailə dayanıqlığına təsir edən amillər kimi ailədə qadının iqtisadi asılılığının azalması və deməli, qadının məşğulluq probleminin aradan götürülməsi, cəmiyyətin fərdin davranışına nəzarətin zəifləməsinə gətirib çıxarmış, geniş insan kütləsinin cəmləşdiyi meqapolislərin yaranması, matriarxata çağırış edən hərəkatların qadınların "maarifləndirilməsi" sahəsində apardıqları açıq və latent təbliğ, təşviq işləri və s. qeyd etmək olar.

Nə qədər təəssüf doğurucu fakt olsa da, belə bir fakt heç kimdə şübhə doğurmur ki, ailə dayanıqlığında qadının məşğulluğu ilə boşanmalar arasında sabit korrelyativ asılılıq mövcuddur. İstər mərkəzdə, istərsə də ucqarlarda qadınların işsizliyi və iqtisadi asılılığı ailədaxili subordinativ konstitusiyanın, ailədaxili nizam-intizamın, ailə dayanıqlığının xidmətdarı kimi çıxış edir. Hərçənd bu o nəticəyə gəlməyə əsas vermir ki, işləyən qadınların hamısı üçün ailə dayanıqlığı prioritet deyildir. Ailənin hər iki üzvünün işlədiyi bir-birindən iqtisadi asılılığı olmayan, qarşılıqlı anlaşma şəraitində yaşayan kifayət qədər ailə nümunələri vardır.

Ailə dayanıqlığına təsir edən amillərdən biri də uşaq, övlad faktorudur. Məsələn, 2015-ci il statistikasına görə Azərbaycanda 12765 boşanma halı qeydə alınıb ki, bunun da 6950-si uşağı olmayan ailələrin payına düşür [1, s.332]. Sirr deyil ki, uşaq ailədaxili münasibətlərdə birləşdirici həlqə və bir çox potensial və real boşanmaların qarşısını alır. Təəssüf doğuran hallardan biri budur ki, ailə həyatı obrazına, uşaqların anadan olmasına yönəldilən tələbat azalmaqdadır. Acınacaqlı haldır ki, bu gün istər Avropada, nə qədər təəccüblü olsa da postsovet məkanında, o cümlədən Azərbaycanda ənənəvi ailə obrazına alternativlər özünü göstərməkdədir. Bu gün ABŞ əhalisinin 4-5%-i konsensual ittifaqda yaşayır. Bunun ən ağır nəticələri cəmiyyətdə ahıl yaşın tənhalığıdır ki, bu da özünü hələ 1989-cu il statistikasına əsasən ABŞ üçün 23 milyon təşkil etməkdə göstərirdi [2, s.110].

Narahatlıq doğuran məqam nikahdan kənar uşaqların sayının artmasıdır. Belə ki, 2015-ci il statistikasına əsasən Azərbaycanda doğulan uşaqların 24038-i qeydə alınmamış nikahada olan qadınlar tərəfindən dünyaya gəlmişdir ki, bunun da 9411-i şəhər (o cümlədən 2974-ü Bakı), 14627-si isə kənd əhalisinin payına düşür [1, s.232]. Həyəcan doğuran məqam odur ki, belə bir tendensiya pis örnəklər yaradır, nəsillərarası sosial varisliyin arzuolunmaz davamını şərtləndirir. Çox az hallarda natamam ailələrdən doğulan uşaqların ailə dayanıqlığı mümkün olur. Belə uşaqların gələcəkdə boşanma ehtimalı birgə yaşayan valideyn uşaqlarından 50% artıqdır. Çünki onlar üçün sələflərindən uğursuz nümunə var. Bu hadisələrin birbaşa və dolayı fəsadlarını yenə də cəmiyyət çəkməli olur. Natamamlıq kompleksi ilə "silahlanmış" belə insanların davranışları üçün müəyyən istisnalar çıxmaq şərtilə kin, qərəz, aqressivlik, qibtə və s.-dən doğan deviant və delikvent davranış fəaliyyəti spesifikdir. Təskinlik tapmağa imkan verməyən daha bir tendensiya isə odur ki, evliliyi həyat məqsədi saymayanların sayı və uzun müddət davam edən münasibəti ən azı evlilik qədər mənalı sayanların sayı durmadan artmaqdadır. Əgər nəzərə alsaq ki, nümunə götürüləsi mədəni-mənəvi coğrafiya Avropadır (burada həmin göstərici 74%-dir) onda problemin narahatlığı kimsədə şübhə doğurmaz.

Təəssüf doğurucudur ki, son illər Azərbaycanda da boşanmaların dinamikasında nəzərə çarpan artım qeydə alınıb. Belə ki, 2016-cı ilin ilk 3 ayı ərzində 2,8 min boşanma qeydə alınıb ki, bu da evlənənlərin 17,4%-ni təşkil edir. Bu bir sıra Avropa ölkələri ilə müqayisədə kiçik rəqəm olsa da, Azərbaycan kimi ənənəvi cəmiyyətlər üçün qeyri-xarakterikdir. Müqayisə üçün bir sıra ölkələrin statistik mənzərəsi ilə tanış olaq. Məsələn, ABŞ üçün boşanma nisbəti 53%, Rusiyada 51%, ateistlərin çoxluq təşkil etdiyi Belçikada 74%, İsveçdə 47%, Ukraynada 42%, Macarıstanda 67%-dir [2, s.112].

Boşanma hallarının qoşa və analoji müqayisəli təhlili belə qənaətə gəlməyə əsas verir ki, onu doğuran səbəblər içərisində etnopsixoloji, dini və mədəni determinantlar az rol oynamır. Hərçənd çoxsaylı sosietal səbəblər içərisində iqtisadi, daha doğrusu məşğulluq amili, habelə insan hüququ və azadlıqlarının qadınlar tərəfindən dərk olunacaq patriarxat asılılıqdan xilas olma hərəkatının fəallaşması nəzərə çarpan saldoya malikdir.

Boşanmalarla mübarizədə işi çətinləşdirən amillərdən biri də problemlə bağlı ictimai qınağın zəifliyi, ailələrdə nənə-baba institutlarının kənarda qalmasıdır. Ailə daxili münaqişələr qaçılmazdır. Bəzən belə münaqişələr boşanmalar, kriminalla nəticələnir. Mürəkkəb ailələrdə nənə və babanın müdrik müdaxiləsi belə münaqişələri tənzimləyir, cütlüklərə boşanma haqqında düşünməyə imkan vermirdi [3, s.128]. Gənc cütlüklər üçün nənə-babanın timsalında dayanıqlı ailə nümunələri var idi. Ailələr nuklearlaşdıqca nəsillərarası bağ, varislik zəifləməyə başladı, gənc cütlüklərin ailələrin taleyilə bağlı qərar verməsində emosiyaların, çılğınlığın diqtəsilə sərbəstlik, məsuliyyətsizlik öz sözünü deməyə başladı. Halbuki nənə-baba institutu nəslin, şəcərənin varisliyini təmin etmək üçün bu məsuliyyəti həmişə öz üzərində görürdü. El qınağı deyilən bir damokl qılıncını başının üstündə hiss edir və ailə dayanıqlığını qorumaq üçün bütün mümkün həll variantlarını müdrikliklə həyata keçirirdi. Məhz bu səbəbə görə yenə də nisbətən müsəlman Şərq ölkələrində hazırki dövrdə boşanma halları belə institutların tarixə çevrildiyi Avropa, Amerikadan xeyli aşağıdır. Baxmayaraq ki, artıq patriarxal ailələrin üstün olduğu ölkələrdə də oxşar proseslər start götürməkdədir. Belə ki, uzunömürlü ailələri ilə, ailə, nəsl, şəcərə bağlantılarına ultramühafizəkarlığı ilə seçilən Azərbaycanın nikah və boşanma statistikası ailə dayanıqlığı ilə bağlı həyəcan siqnalı çalmaqdadır. 2017-ci ilin 8 ayı ərzində qeydiyyat şöbələri tərəfindən 40256 nikah və 9787 boşanma halları qeydə alınıb və əhalinin hər 1000 nəfərinə nikahların sayı 6,2, boşanmaların sayı isə 1,5 olmuşdur [1, s.332].

Ailə dayanıqlığı ilə bağlı medianın üzərinə ictimai qınağı əks etdirmək baxımından böyük məsuliyyət düşür. Bir sıra hallarda efir məkanını ailə cütlüklərini bir-birinə qarşı qoyan, guya gender bərabərliyini təbliğ edən, əslində feminist hərəkat vasitəsilə matriarxata çağrış edən tokşoular, proqramlar zəbt etdiyinin şahidi oluruq. Yaxşı olardı ki, televiziyalar, saytlar, mətbuat uzunömürlü, örnək ailələrlə bağlı proqramlarla işləsin, natamam ailələrlə bağlı problemləri işıqlandırsın, nikahdan kənar və natamam ailələrdə doğulan uşaqlarla bağlı cəmiyyəti təhdid edən risklərdən bəhs etsin, müvafiq ekspertlərin tövsiyələri və sosial layihələri ilə qabaqlayıcı tədbirləri özündə əks etdirən ciddi addımlar atsın.

Ailələrdə dayanıqlığa təsir edən amillərdən biri də son dövrlər "hesabla" qurulan ailələrin sayının artması, alfonsların uğursuz izdivaclarıdır. Günümüzdə Azərbaycan cəmiyyətinin populyar və ya orta statistik insanlarının nikahlarının müəyyən bir qismi də təmənnalı məram, karyera, zənginliyə sahib çıxmaq amalı ilə qurulduğundan ürəkaçmayan sonluqlarla yekunlaşır. Çünki belə ailələrdə ailənin nüvəsuini təşkil edən səmimi münasibətlər, sevgi böhranı yaşandığından məqsəd boşa çıxdığı halda ailə dayanıqlığı xilas ola bilmir.

Bir sıra ölkələrdə boşanma mexanizmi son dərəcə sadələşdiyindən, iş məhkəmə müstəvisindən kənarda, ictimailəşdirilmədən "ağıllı telefonlar", internet vasitəsilə "özün boşan" adlı bir prosedurla gerçəkləşdiyindən boşanma statistikasında sıçrayışlar diqqəti cəlb edir (bax: Birləşmiş Krallıq Statistikası).

Ailələrdə, nigah idarələrində, məhkəmələrdə psixoloq və sosial işçi institutlarının təşkilinin sürətlənməsi də ailə böhranlarının tənzimlənməsində kifayət qədər ümidverici vasitələrdən biridir. Belə institutlar nəinki baş vermiş böhranın tənzimlənməsi və həlli istiqamətində, eləcə də problem baş verməzdən öncə qabaqlayıcı tədbirlər görülməsi baxımından da mühüm məna kəsb edir. Unutmaq olmaz ki, sağlam insan və cəmiyyətin ilk və alternativsiz sosiallaşma agenti ailədir. Ailələr nə qədər mükəmməl olarsa vətəndaş və cəmiyyət, dolayısı ilə dünya evi də sabit və sağlam olacaq.

Açar sözlər: ailə, sosiallaşma, boşanma, nikah, cəmiyyət

İstifadə edilmiş ədəbiyyat

1. Azərbaycanın statistik göstəriciləri. Bakı: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, 2017, 812 s.
2. Дементьева И.Ф. Негативные факторы воспитания детей в неполной семе // СОЦИС, 2001, №11, с. 108-113
3. Маркс К., Энгельс Ф. Сочинение. 2-е изд., Том 45. М.: Политиздат, 1975, 201 с.
4. Mehbalıyev S.S., İskəndərov R.K. Məşğulluq. Bakı: Çaşıoğlu, 2001, 80 s.
5. Rəcəbli H.M. Azərbaycan Respublikasının sosial müdafiə sistemi. Bakı: MBM, 2012, 408 s.

Узеир Шафиев

СЕМЬЯ КАК ОБЪЕКТ СОЦИАЛЬНОГО ДЕЛА

Резюме

В статье семья рассматривается как объект социального дела и социологии. Анализируется сущность, история и динамичность семьи как социального института. Здесь раскрывается детерминанты изменений в сущности современной семьи, роль семьи как агента социализации. Рассматривается современное состояние азербайджанской семьи, существующие проблемы, разработаны соответствующие рекомендации.

Ключевые слова: семья, социализация, развод, брак, общество

Uzeyir Shafiyev

FAMILY AS AN OBJECT OF SOCIAL WORK

Summary

The article examines the family as an object of social work and sociology, analyzes the history, essence and dynamics of a family as a social institution. It also shows the determinants of changes in the essence of modern family, the role of family as a socialization agent. The article examines the current state of Azerbaijan family, the existing problems and gives relevant recommendations.

Keywords: family, socialization, divorce, marriage, society

UOT – 016.94

Tamilə Həsənova
Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası

AZƏRBAYCANIN TARİXİ ABİDƏLƏRİ: QUBADAKI ÇUXUR (VƏ YA GÜMBƏZLİ) HAMAM

Məqalədə Azərbaycanın qədim yaşayış məskənlərindən olan Quba rayonu və onun ərazisində yerləşən Çuxur (Gümbəzli) hamamdan bəhs olunur. Hamamın dünya tarixi mədəniyyətin incilərindən sayıldığı, özünəməxsus tikiliş orijinallığının olduğu və Şərq memarlıq üslubunda tikildiyi, hamamın qızdırma sisteminin bu vaxtadək öyrənilmədiyi məqalədə ətraflı şərh edilir.

Bizim mədəniyyətimizin nə qədər dərinliyi var, yüksəkliyi var. Biz nə qədər zənginik [4].

Bu zənginliyi biz Azərbaycanın tarixi abidələrində də hiss edirik. Bu tarixi abidələr keçmişimizi özündə əks etdirir. Çox vaxt abidə tarixi əhəmiyyət kəsb edən hadisənin və şəxsiyyətin xatirəsinə ucaldılır. Bu abidələr haqqında çoxlu məqalələr yazılıb, kitablar çap olunub, film və cizgi filmləri çəkilib. Buna baxmayaraq yenə də bu mövzuya dəfələrlə qayıtmaq mümkündür. Çünki tarixi abidələr həmişə insanların maraq dairəsi olub və olacaqdır.

Azərbaycanın rayonlarında da tarixi abidələrə çox rast gəlinir. Goranboy rayonu ərazisində Gülüstan qalası, İsmayıllı rayonu ərazisində Cavanşir qalası, Gədəbəy rayonunun Qala kəndi ərazisində Koroğlu qalası ,Gəncədə 1606-cı ildə tikilmiş Çökək hamam - tarixi hamam, Əsgəran qalası Şuşanın təxminən 24, Xocalının 5 km-liyində və Ağdam şəhərinin 12 km cənubunda Qarqarçayın sağ və sol sahillərində dağ döşündə yerləşir və yüzlərlə belə tarixi abidələrin adını sadalamaq olar.

Quba şəhəri də öz tarixi abidələri ilə həmişə özünə çox maraq doğurub. Bu abidələrin seyrinə hər il Qubaya minlərlə qonaq və əcnəbilər, turistlər, yerli əhali üz tutur. Memarlıq abidələrindən Ağbil türbələri (XVI əsr), Alpan kəndində Subaba türbəsi (XVI əsr), Birinci Nügədi kəndində məscid və minarə (XVII-XIX əsrlər), Xınalıq kəndində büre, Qudyalçay üzərindəki Tağlı körpü və sair mühafizə olunur. Avropanın ən uca dağ kəndi sayılan Xınalıq kəndində IX əsrə aid Atəşpərəstlər məbədi, Quba şəhərində XIX əsrə aid Səkinəxanım, Hacı Cəfər və Cümə məscidləri, XVIII-XIX əsrlərə aid Gümbəzli(Çuxur) hamam vardır. Bundan başqa Rustov kəndində "Ələmu" adlı qala və tarixi məscid mövcuddur.

Quba - Azərbaycanın şimal-şərqində inzibati rayondur. Şimal-qərbdən Dəvəçi, şimal-şərqdən Xaçmaz, cənubdan Şamaxı, İsmayıllı və Qəbələ rayonları ilə həmsərhəddir.

İlk dəfə adı XIII əsr hadisələri ilə əlaqədar "Dərbəndnamə"də qeyd olunur. XII əsrdən Şirvanşahlar dövlətinin ərazisində yaşayış məntəqəsi kimi məlumdur [1, s.70].

Lakin, M.Soltanova görə, "Quba yaşı minilliklərlə ölçülən ən qədim məskənlərimizdəndir... Eramızdan əvvəlki minillikdə bu qədim ərazidə türklər yaşamış.... Dərbənd keçidi vasitəsi ilə buraya başqa türk tayfaları gələrək əhalinən qaynayıb-qarışmış və öz izlərini həmin ərazinin toponomiyasında hifz etmişlər".

A.Bakıxanovun yazdığına görə, Şah II Abbasın və onun oğlu II Səfinin (Süleyman şah) dövründə Dağıstan hakimlərindən Qaytaq Usmisinə pulla məvaciblə yanaşı, Şirvandakı bir sıra kəndlərin gəlirləri və idarəçiliyi də verilmişdir... Az yaşlı Hüseyn istisna olmaqla, Məcalisə qolunun bütün kişi üzvlərini qırır, Ayda bəy adlı birisi Hüseyni xilas edib, Tarki Şamxalın yanına aparır. Yetkinlik yaşına çatanda Hüseyn İrana gedir, yolüstü Salyanın Rudbar kəndində yerli qazinin yanında qalır və onun qızı ilə evlənir. Həmin qadından bir qızı olur [2, s.121-122].

P.Butkov yazır: "Hüseynəlinin xan təyin olunması mərasimində iştirak etmək və Rusiyaya sədaqət andı içməkdən ötrü Quba və Qolhandan adamlar dəvət olunmuşdular". Bu da Hüseynəli xanın hörmətindən irəli gəlirdi [8].

Öz dövrü üçün Quba əhəmiyyətli ticarət şəhəri idi. Şəhərdə əhali çoxaldıqca ticarətdə canlanırdı. Bu barədə M.Biberşteyn yazırdı: "Quba xanlığı, şübhəsiz ki, Şirvanın kiçik dövlətlərindən ən yaxşısıdır və əhalisi ən çox olan dövlətdir. Oranın paytaxtı olan Quba Şərq üsulu ilə divar və qalalarla möhkəmləndirilmiş bir şəhərdir" [10, s.195]. P.Butkovun məlumatına görə, XVIII əsrin ortalarında Hüseynəli xanın köçürmə siyasəti nəticəsində artıq Qubada 100 kənd və 2600 həyət vardır. [8]. Buna baxmayaraq, Quba xanlığının tarixi və xanlığın mədəniyyəti bu vaxtadək bütövlükdə tət-

qiq olunmamışdır. Xüsusən XVIII əsrin 80-ci illərindən sonrakı tarixi demək olar ki, diqqətdən kənar qalmışdır [9].

Quba xanı Fətəli ilə Rusiya hökuməti arasındakı münasibətin əsasən normal səciyyə daşımasına baxmayaraq, bəzən bəzi şəxsləri, xüsusən ermənilərin qüvvətli Quba xanına olan məkr və kin-kidurətlərinə görə həmin münasibət pisləşirdi.Buna misal Şabrandan bir qədər aralıda Samur çayı yaxınlığında Skvortsovun gəmisinin batmasında və hadisə ilə bağlı qalma-qalın qalxmasın göstərmək olar [10].

Fətəli xanın vəfatından sonra hakimiyyətə onun oglu Şeyxəli gəlir. O, çox çalışır atasının siyasətini davam etdirməyə, lakin bacara bilmir. Nəticədə tabelikdə olan xanlıqlar öz müstəqil siyasətini yürütməyə başlayırlar.

Rusiyanın təzyiqini hiss edən qubalı Şeyxəli xan Ağa Məhəmməd xan Qacara həm də ona görə meyil edirdi ki, itaət edəcəyi təqdirdə Ağa Məhəmməd xan bütün Şirvanın idarəsini ona verməyi vəd edir [10].

Xanlıqlar dövründə Azərbaycanda baş verən feodal-ara müharibələri, qonşu dövlətlərin basqınları tikinti sənətinə dərin təsir göstərirdilər. İqtisadi tənəzzül də tikinti sənətinin inkişafına mənfi təsir göstərirdi. Səyyahların verdiyi məlumata görə Qubanın kərpicdən tikilmiş qala divarlarının eni 2, hündürlüyü isə 6,5-8,5 metrə çatırdı [8, s.286]. İ.Berezin isə yazırdı: "...Oradakı çay ilan kimi qıvrılır. Çayın sərt sahilində evlər səpələnmişdir. Burada müxtəlif rəngli binalar, dördbucaqlı damları olan məscidlər vardır və bütün tikintilərin ətrafı müxtəliflik naminə yaşıl ağaclarla örtülmüşdür" [9]. S.Qmelin 1770-ci ildə Quba qalası divarlarının 30 il əvvəl inşa olunduğunu yazırdı [5]. Qonşu dövlətlərin hücumları, xanlıqların süqutu ərəfəsində və ya Rusiyanın işğalı altında olduğu dövrdə də çətinliklərə baxmayaraq xalq tikib yaradırdı. Məhz bu dövrdə bəhs etmək istədiyim tarixi abidənin təməli qoyulur.

Bu baxımdan Qubanın memarlıq incisi olan bir tarixi abidəsindən bildiklərim və eşitdiklərim barədə məlumat toplamışıq. Bu tarixi abidə gözəl Qubanın mərkəzində yerləşir - Çuxur (və ya Gümbəzli) hamam.

Hələ qədim vaxtlardan hamamlar insanların həyatında ictimai tikililər arasında xüsusi yer tuturdu. Qədim Misir və Roma həmişə öz hamam və termaları ilə məşhur olmuşlar. İctimai hamamlar öz əsas sanitar funksiyası ilə yanaşı həm də klub, informasiya mübadiləsi və görüş yeri kimi istifadə olunardı.

Hamam ərəb dilindən götürülüb, tərcümədə "ham" - isti, qaynar deməkdir. Hamamlar böyük çən vasitəsi ilə qızdırılırdı: çən qaynayır, buxar dəliklər vasitəsi ilə içəri ötürülürdü. Məhəmməd peyğəmbər hər cümə hamama getməyi məcbur bilirdi və "təmizlik inamın yarısıdır" deyə müsəlmanları buna riayət etməyi tövsiyə edirdi.

Azərbaycan hamamları insanların həyatında xüsusi yer tutub, bədənin və ruhun dincəldiyi sevimli yer olub. Xüsusi olaraq qeyd etmək istərdim toy hamamı (bəy hamamı) mərasimini: hamam əvvəlcədən bəyin burada olduğu müddətdə onun sərəncamında olur. Bu zaman hamama gələnlərin parası bəy tərəfindən verilir. Daha doğrusu bəy hamamda olduğu müddətdə hamamın suyunu almış olur. Bütün hamama gələnlər bəyin hesabına çimmiş olur. Bəy hamamdan çıxır, qız evindən qoyulmuş bəylik libasını geyinir və sağdışı ilə soldışı çalğı ilə bəyi böyük bir dəbdəbə ilə evlərinə aparırlar. Aşbaz bəyi plov ilə qarşılayır [3].

Bu hamam da Qubada çox məşhur idi. Çuxur hamam öz təyinatı üzrə qubalılara xidmət göstərib ta ki keçən əsrin 80-ci illərin ortalarına kimi. Hamam Quba şəhərinin mərkəzində Musabəyov küçəsi ilə Ərdəbil küçəsinin kəsişməsində yerləşir. XVIII-XIX əsrlərə aid bir abidədir. Quba xanlığının tarixi bu vaxtadək bütövlükdə tətqiq olunmamışdır, diqqətdən kənar qalmışdır [10]. Bu baxımdan Çuxur hamamın tikiliş tarixi də bəzi mənbələrdə XVIII əsrin sonu, bəzi mənbələrdə isə XIX əsrə aid edilir.

Bu tikilinin bünövrəsi qoyulan zaman "şimaldan və cənubdan iki böyük dövlət - Rusiya və Qacar dövləti xanların müstəqilliyini əllərindən almaq istəyirdi".

Xanlıqlar dövründə indiki Çuxur hamamın yerində Qubalı Hüseynəli xanın yay igamətgahı yerləşirdi. Xanlığı müdafiəsi məqsədi ilə qala divarla əhatə edəndə iqamətgahı mərkəzə köçürürlər və yerində bu memarlıq incisini ucaldırlar.

El arasında bura "Çuxur hamam", "Gümbəzli hamam", "Bəkir hamamı", "Məşədi Əlimərdan hamamı" adları ilə tanınır.

İki yüz ildən çox yaşı olmasına baxmayaraq və nəzərə alsaq ki, Quba rütubətli bir yerdir, Çuxur hamam bir dəfə də olsa nə dammayıb, nə də rütubətdən əziyyət çəkməyib. İndi də yağmurlu havalarda belə öz stabilliyini qoruyub saxlayır.

Hamam Şərq memarlıq üslubunda tikilib. Öz orijinallığı və yeganəliyi ilə elm əhlini özünə cəlb elir. Hamamın binası bişmiş qırmızı kərpicdən inşa edilib.Tikili iki tağın köməyi ilə inşa olunub. Böyük və kiçik olmaqla iki tağdan ibarətdir. Qapıları çox dardır və alçaqdır. Bu da istinin içəridə qalmasının təminatı kimi izah olunur. Dördbucaqlıdır, 6 otaq, 2 qapı və 6 pəncərədən ibarətdir. Maraqlısı budur ki, dördbucaqlı tikili olmasına baxmayaraq, qıraqdan görünüşü tamamilə yarımsferadır. Dam örtüyünə gəldikdə isə hamamın divarları hər cərgə kərpici bir millimetr içəri çəkməklə yuxarı nahiyədə gümbəz formasında birləşir və bütövlükdə tikili kərpic konstruksiyaya oxşayır. Kərpicləri bir-birinə bənd etmək üçün birləşdirici qarışığa əhəng, yumurta və sair qatılırdı. Tikilinin 200 yaşı olmasını nəzərə alsaq, indi də buranın içərisinə Qubanın sərt qışına və həmişə yağış yağmasına baxmayaraq bura daima quru qalıb. Hamam binasının lazımi temperatur və rütubəti saxlamağa məhz böyük günbəz kömək etmişdir. Gümbəzin yuxarı nahiyəsində pəncərə var, buradan buxar və rütubət bayıra ötürülür. Pəncərələr şəbəkə idi. Sonralar adi şüşə ilə əvəz olundu. Deyilənlərə görə, hamam bir "eşşək yükü" odunla düz bir həftə isti olardı. İstilik sistemi axıra kimi öyrənilə bilinməmişdir. Belə az odunla necə istilənməsinin sirri aşkarlanmayıb.

Sovet dövründə içəri örtük kafellə əvəz olunmuşdur. Yer metlax örtüyü idi. Təmirə saxlandığında kafel və metlax sökülüb çıxarıldı, lakin yenidən öz örtüyün bərpa edə bilmədilər. İndi yenidən suvaqlanır.

Tikilinin meşədi Əlimərdanın göstərişi ilə tikildiyi bildirilir. Lakin, tikilinin kim tərəfindən inşa olunduğu, memarı barədə dəqiq məlumat yoxdur.

Hamam cüt və tək günlər üzrə qadın və kişi günlərinə bölünürdü. Ümumi çimmə zalın sahəsi 120 m^2 idi, bir tək nömrəli otaq da vardı. Bura bilet əvvəlcədən alınırdı. Növbə sistemi tətbiq olunurdu. 30-45 dəqiqə ərzində nömrədən çıxmadıqda qapını döyüb vaxtın tamam olmasını bildirirdilər. Hər şəxsdən sonra nömrəyə xadimə daxil olub oranı təmizləyir və qaynar su ilə dezinfeksiya edirdi. Biletin qiyməti ümumi və tək nömrə üçün fərqlənirdi. Hamamda kisəçi xidmət göstərirdi. Təmizlik üçün lazim olan əşyanı (kisə,sabun və sair) evdə qoyub gəldikdə burada xüsusi satıcıdan bunları əldə etmək mümkün idi. Hətta şampunu da buradan almaq olardı.

Hamam tarixin həm yaxşı, həm də bəzi faciəvi səhifələrini də özündə əks etdirir. Hamamda məşhur fransız yazıçısı Aleksandr Düma çimib. 150 il sonra onun nəticəsi ulu babasının gəzdiyi yerləri yenidən ziyarət edib.

Yerli əhalinin söylədiyinə görə, 1918-ci ildə ermənilər tərəfindən Qubada törədilən soyqırımı zamanı adamları Çuxur hamamında buxarda boğublar. Sonra isə onları çalaya töküb üstlərini torpaqla örtüblər.

1985-ci ilə kimi əhalinin istifadə etdiyi Şərq memarlıq incisi sayılan hamam indi yalnız tarixi abidə kimi yerləşdiyi küçəni bəzəyir. Buna səbəb hamamın kanalizasiya sisteminin tutulması olub. İndiki texnikanın inkişafına baxmayaraq, kanalizasiya sistemini düzəltmək mümkün olmayıb. Qazıntılar aparılıb və kanalizasiya sistemi indi yeni tikilən yaşayış yerlərinin altından keçir. Davam etdirdikdə bu binalara ziyan vurulurdu və işləri dayandırmaq zəruri bilindi. Sonra abidənin bərpa olunmasının zəruriliyi gündəmə yenə gəlmişdir. 1986-1987-ci illərdə hamamda təmir bərpa işləri aparılmışdır. Lakin siyasi həyatda baş verən dəyişikliklər bu işləri yarımçıq qoydu. Bundan sonra hamam uzun müddət baxımsız qaldı və müəyyən yerləri uçulub-dağılmağa başladı.

Quba əhalisi bir müddət bu şərq memarlıq sənətinin ətrafını zibilliyə çevirmişdi. Sonralar yerli icra hakimiyyəti nümayəndələri bu işə qarışdı və hamamın bərpa işlərinə yenidən təkan verildi. Bərpa zamanı bişmiş kərpicdən tikilmiş hamama sementdən istifadə olunmayıb, daxili görünüşündə dəyişiklik edilməyib. Hamamdakı divar naxışları da bir-bir bərpa olunur.

Bərpa layihəsi bilavasitə Mədəniyyət və Turizm Nazirliyinin iştirakı, beynəlxalq təşkilatlardan birinin Amerika hökumətinin Beynəlxalq İnkişaf Agentliyinin maliyyə dəstəyi ilə həyata keçirilib [6]. Hamam Azrbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi tərəfindən tarixi abidə kimi qorunur. Ətrafına vaxtilə UNESCO tərəfindən məhəccərlər inşa edilib.

Bu gün ölkədə genişlənməkdə olan demokratikləşmə prosesi şəraitində postsovet məkanında yaşayan digər xalqlar kimi, Azərbaycan xalqının da öz zəngin və qədim tarixi keçmişinə marağı xeyli artmışdır [3]. Hazırda xalqımız öz bilik və məlumat dairəsini daim genişləndirməyə, vətənimizin qədim keçmişini və indiki qlobal dəyişiklikləri daha ətraflı öyrənməyə can atır. Bu faydalı və xeyirxah işdə xalqımıza məhz muzeylər öz rəngarəng, maraqlı eksponatları ilə, tarixi abidələr, arxeoloji qazıntılar köməklik göstərir.

Bununla da, belə nəticəyə gəlirik ki, Azərbaycan xalqı dünya sivilizasiyası xəzinəsinə böyük töhfələr vermişdir [4]. Azərbaycanda yaşanan inkişaf dünyada çox nadir hallarda müşahidə edilir –

həm siyasi, iqtisadi, həm energetika, mədəniyyət sahələrində [7]. Bizim iqtisadi göstəricilərimiz ən gözəl göstəricilərdir.

Azərbaycanın bütün rayonları kimi, Quba da uğurlu inkişaf mərhələsindədir. Bu inkişafın təməlində ulu öndər H.Əliyevin müəyyənləşdirdiyi və bizim xalqın uğurla davam etdirdiyi strategiya dayanır. Azərbaycan Respublikasının Prezidenti İ.Əliyevin təsdiq etdiyi "Regionların sosial-iqtisadi inkişafı Dövlət proqram"larının uğurlu icrası nəticəsində Quba rayonu üzrə nəzərdə tutulan tədbirlər çərçivəsində makroiqtisadi göstəricilərdə artım müşahidə olunur [7]. Bu proqramın reallaşması Çuxur hamamın da bəxtini açdı və "çuxura düşmüş hamam" anlayışını aradan qaldırdı.

Tariximizə göz yummayaq. Abidələrin qorunması, bərpası və gələcək nəsillərə çatdırılması hər bir azərbaycanlının müqəddəs borcudur. Biganəliyi kənara qoyub, hər kəs bu işə öz kömək və dəstəyini göstərməlidir. Nə qədər əsl vətəndaşlıq borcumuzu layiqincə yerinə yetirsək o qədər də Azərbaycan çiçəklənəcək və işıq saçacaq.

Açar sözlər: tarixi abidə, Çuxur hamam, gümbəz, Şərq hamamı

İstifadə edilmiş ədəbiyyat

1. Azərbaycan toponimlərinin ensiklopedik lüğəti. II cild. Bakı: Şərq-Qərb, 2007, 304 s.
2. Bakıxanov A.A. Gülüstani-İrəm. Bakı: Gənclik, 1991, 204 s.
3. Çələbizadə Ə.Ə. Quba – dövrün adət və qaydaları // AMEA, 2009, s. 56-57
4. Heydər Əliyev və mədəniyyət. 3 cilddə (2-ci cild). Bakı: Nurlar, 2008, 528 s.
5. İbişov S.Ə. Quba xanlığı: əhali, tarixi və azadlıq mücadiləsi. Bakı: Elm, 2012, 336 s.
6. Qubada "Günbəzli hamam" abidəsi bərpa olunur // Mədəniyyət, 2015, 18 dekabr, s.11
7. Quba 2003-2013: hədəflər, inkişaf, nəticələr. Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi, 2013
8. Материалы для новой истории Кафказа. Баку: Ренесанс А, 2015, 314 с.
9. Mustafazadə T.T. Quba xanlığı. Bakı: Elm, 2005, 479 s.
10. Şahin Fazil. Quba tarixi. Bakı: TEAS Press, 2016, 700 s.

Тамилла Гасанова

ИСТОРИЧЕСКИЕ ПАМЯТНИКИ АЗЕРБАЙДЖАНА: ЧУХУР ХАМАМ (ИЛИ КУПОЛЬНАЯ БАНЯ) В ГОРОДЕ ГУБЕ

Резюме

В статье рассматривается история великолепного памятника культуры и архитектуры Чухур хамам, расположенного в одном из древних мест обитания человека городе Губе Азербайджанской Республики. Отмечается, что этот хамам (баня) и по сей день привлекает оригинальностью своего строения, которое построено в восточном стиле и считается жемчужиной мировой истории, отопительную систему которого невозможно было раскрыть.

Ключевые слова: исторический памятник, Чухур хамам (баня), купол, восточная баня

Tamila Hasanova

HISTORICAL MONUMENTS OF AZERBAIJAN: CHUKHUR HAMAM (OR DOME BATH) IN GUBA

Summary

The article examines the history of the magnificent monument of culture and architecture of Chukhur Hamam, located in Guba-one of the ancient places of the Republic of Azerbaijan. It is noted that, this hamam (bathhouse) still attracts the originality of its structure, which built in the oriental style, it considers the pearl of world history and the heating system could not be disclosed.

Keywords: historical monument, Chukhur hamam, dome, eastern bath

UOT – 316.6

Həlimə Qafarova
AMEA Fəlsəfə İnstitutu

AZƏRBAYCAN CƏMİYYƏTİNDƏ MODERN HƏYAT TƏRZİNƏ ADAPTASİYANIN SPESİFİK XÜSUSİYYƏTLƏRİ

Məqalədə həyat tərzi anlayışının ümumi sosial-fəlsəfi kontekstdə nəzəri təhlili aparılmış, modernləşmə prosesində yeni həyat tərzinin formalaşma xüsusiyyətləri araşdırılmışdır. Həmçinin Azərbaycan cəmiyyətində formalaşan modern həyat tərzinə adaptasiya prosesinin təhlili verilmişdir.

Azərbaycanda gedən sistemli modernləşmə prosesi cəmiyyətdə milli-mənəvi dəyərlərlə modern dəyərlərin, ənənəviliklə müasirliyin mütənasibliyi problemini daha da aktuallaşdırmışdır. Cəmiyyəti əhatə edən sürətli dəyişikliklər, yeni reallığın, dəyər və davranış modellərinin ortaya çıxması həyat tərzinin mahiyyətinin xeyli dərəcədə dəyişməsi ilə nəticələnir. Şəxsiyyətlə cəmiyyət arasında qarşılıqlı əlaqədə formalaşan həyat tərzi sistemli modernləşmə prosesinin səviyyəsi və sürəti ilə sıx bağlılıq təşkil edir. Həyat tərzi bir tərəfdən cəmiyyətin inkişaf səviyyəsini əks etdirmək, digər tərəfdən isə inkişafın istiqamətini və daxili imkanlarını açmaq qabiliyyətinə malikdir. İnsanların həyat tərzi və yaşayış səviyyəsi cəmiyyətin və mədəniyyətin inkişaf göstəricisi, sosiomədəni mühitin real mənzərəsi kim çıxış edə bilir [4, s.91]. Başqa sözlə desək, həyat tərzi cəmiyyətin sosiomədəni inkişaf dinamikasını əks etdirən əyani vasitədir. Müasir həyat tərzi anlayışının evristik əhəmiyyəti çox dəyişikdir. O, cəmiyyətin yaşadığı bir çox problemlərin bəzən ortaya çıxma səbəbi kimi, bəzən də, həllinə kömək edə biləcək əsas kimi çıxış edə bilər [7, s.70].

Ədəbiyyatlarla tanışlıq zamanı məlum oldu ki, həyat tərzi anlayışı həyat stili, yaşam tərzi kimi də işlədilmişdir. Elmi məqalələrdə və tədqiqat işlərində həyat tərzi anlayışı yaşam tərzi anlayışı ilə eyniləşdirilərək həyat səviyyəsi, yaşayış keyfiyyəti, yaşayış stili və s. anlayışlara münasibətdə daha ümumi anlayış kimi qəbul edilmişdir.

Həyat tərzi konkret tarixi, sosial-iqtisadi münasibətlərdə insanların fərdi və kollektiv fəaliyyətinin üsul, forma və şərtidir [9, s.284]. Sosial-iqtisadi faktorlardan, müvafiq tarixi zamanda hakim dəyərlərdən asılı olaraq cəmiyyətdə fərdlərin və qrupların fəaliyyətinin və rəftarının məcmusunu ifadə edən müxtəlif həyat tərzləri bir-birindən fərqlənir. İş və istirahət vaxtının təşkili, əmək fəaliyyətindən kənar məşğuliyyətlərin seçimi, davranış maneraları, zövqlər və s. müxtəlif həyat tərzlərini ayıran xüsusiyyətlərdir.

Həyat tərzinin anlayış səviyyəsində öyrənilməsi M.Veberin adı ilə bağlıdır. M.Veber həyat tərzi terminini cəmiyyətin stratifikasiyası nəzəriyyə ilə işləyən zaman istifadə etmişdir. Onun fikrinə görə, həyat tərzi cəmiyyətdə müxtəlif qrupların fəaliyyətində ortaya çıxan xüsusiyyətləri, bütövlükdə, cəmiyyətin sosiomədəni səviyyəsini əks etdirir [3, s.148]. Həyat tərzinin ayrı-ayrı təzahür formaları müxtəlif qrupların cəmiyyətdə yerini ayırır, onların statusunu təyin edir, bununla da cəmiyyətdə müxtəlif statuslu qrupların imkanlarını və hər bir sosial təbəqənin özünəməxsus yaşayışını fərqləndirir. Bu isə onları bir-birindən ayıran sərhədləri yaradır. Çünki hər bir təbəqə bir birindən gəlirlərinə, hakimiyyət imkanlarına görə fərqləndiyi üçün ehtiyacları, iş rejimi, istirahət və asudə vaxtlarının təşkilinə görə də bir-birindən kəskin şəkildə fərqlənirlər. Q.Zimmelə görə həyat tərzi şəxsiyyətin ictimai və daxili impulsunun balanslaşdırılmasına nail olaraq fərdi yolunu tapmasını özündə ehtiva edir [6, s.132]. Cəmiyyətdə yaşayan hər bir insanın sayı qədər də həyat tərzinin müxtəlif formaları mövcuddur. Bu gün cəmiyyətdə eyni yaşam tərzinə malik insanların belə eyni hadisə və proseslərə reaksiyası, münasibəti müxtəlif olur. Bu baxımdan da hər bir insanın yaşam tərzində fərdi xüsusiyyətlər danılmazdır.

İnsanların sosial və mədəni anlamda müasir yaşamasının məna və mahiyyəti üç amillə şərtlənir. Birinci amil fundamental olaraq maddi tərəfdir. Belə ki, konkret tarixi dövrdə insanların özünü reallaşdırmasının forma və sərhədlərini təyin edən maraq, məqsəd və ehtiyaclarının ödənilməsi üçün maddi təminat ilkin şərtdir. Həyat tərzi şəxsiyyətin fərdi imkanları ilə də ilə sıx surətdə bağlıdır. İnsanın fəaliyyət qabiliyyəti həm onun şəxsiyyətinin, həm də cəmiyyətin inkişaf istiqamətinə təsir göstərmə imkanlarını artırır [2, s.7]. Buna görə də həyat tərzinin həm formalaşma amili, həm də səviyyə göstəricisi kimi fəaliyyət çox vacib amildir. Hətta demək olar ki, bu əsas məqam sayılmalıdır. Lakin həyat tərzinin formalaşmasında cəmiyyətin iqtisadi inkişaf səviyyəsinin, sosial ehtiyacların rolu qədər coğrafi amillərin əhəmiyyətli rolu yenə də qalmaqdadır. İkinci amil isə insanların fərdi xüsusiyyətlərindən irəli gələn şərtlərdir. Bu şərtlər onun məlum şəraitdə həyat yolunu seçməsi üçün imkan və meyillərini təyin edən amildir. Üçüncü şərt ictimai praktikanın gedişində qazanılan və möhkəmlənən normalar və dəyərlər sistemidir. Təbii ki, bunsuz mümkün deyildir. Bu üç amil birlikdə bu gün müasir insanın öz həyat tərzini və həyat fəaliyyətini qurmasına təsir edir.

Modern yaşam tərzində ilk nəzərə çarpan xüsusiyyət məhz norma anlayışına münasibətin dəyişməsilə baş verir. Norma elə bir nümunədir ki, hər bir sahədə davranış və fəaliyyətin sərhədlərini müəyyənləşdirən qaydalara çevrilmiş olur [1, s.231]. Sosial normaların cəmiyyətdə əhəmiyyətli funksiyaları vardır. Sosial normaların tərkibinə milli adətlər, dini, siyasi, hüquqi və s. da normalar aiddir. Fikrimizcə, həyat tərzinin əsasını sosial davranış, ünsiyyət və əxlaq normaları təşkil edir.

Müasir yaşam tərzinin ən əsas xüsusiyyəti onun çoxvariantlılığındadır. O, üç əsas xüsusiyyəti özündə birləşdirir: həyat səviyyəsi, həyat stili, həyatın keyfiyyət göstəriciləri. Həyat səviyyəsi maddi, mədəni və mənəvi ehtiyacların ödənməsini, həyat stili insanın şəxsiyyət kimi formalaşması üçün malik olduğu müəyyən standart və davranışları, modaya münasibəti, həyatın keyfiyyət göstəriciləri isə komfort həyat səviyyəsi və sağlamlıq səviyyəsini əhatə edir [10].

Qeyd etmək istərdik ki, modern yaşam tərzinin ən önəmli tərəfi hazırda bütün inkişaf etmiş ölkələrdə sağlam həyat və asudə vaxtın səmərəli keçirilməsi ilə bağlı olan tərəfdir. Sağlamlıq insanın həyat qabiliyyətinin dinamik göstəricisi kimi çox əhəmiyyətlidir. Sağlamlıq dedikdə isə, həm bioloji-tibbi-fiziki, həm psixoloji, həm də mənəvi sağlamlıqdan söhbət gedir.

Ümumiyyətlə, dəyişən həyat şərtləri ilə birlikdə insanların həyat tərzlərində də dəyişikliklər qaçılmaz olur. Bu gün ölkəmizdə baş verən sürətli inkişaf cəmiyyətdə gedən proseslərin sürətlənməsinə, bu isə insanların bu inkişafa müvafiq olaraq modernləşməsinə rəvac verir. Modern həyat tərzinə uyğunlaşma müəyyən dərəcədə insanların psixoloji xüsusiyyətlərindən asılı bir prosesdir. Buna görə də bu proses ləng və ya çevik, mütəhərrik ola bilir [8, s.34]. Modern həyat tərzinə adaptasiya Azərbaycan cəmiyyəti üçün özünəməxsus formada gedir və bir neçə amillərdən asılıdır.

Azərbaycan Respublikası Şərqdə ilk parlamentli, demokratik dövlət olan Azərbaycan Xalq Cümhuriyyətinin varisidir. Müasirliyə meyil bizi digər şərq dövlətlərindən hər zaman fərqləndirmişdir. Avropa ilə Asiya arasında və bir neçə sivilizasiyanın qovuşuğunda yerləşən Azərbaycanda həyat tərzinin özünəməxsusluğu labud hal sayılmalıdır. Ölkəmiz Qərbə inteqrasiya yolunu seçmişdir. Uzun müddət Sovetlər birliyinin təpkibində, qapalı şəraitdə "sovet həyat tərzi" yaşamış insan tam fərqli yaşam tərzinə keçmişdir. Avropanın, Amerikanın və bütün dünyanın yeni dəyərlərini də özündə əxz edən yeni dəyərlər sistemi formalaşır. Əlbəttə, cəmiyyət üzvlərinin təfəkkürü, mənəviyyat səviyyəsi kənar müdaxiləyə daxili müqavimət gücünü şərtləndirir. Lakin ayrı-ayrı adamlar öz mənəvi varlığını qorumaq gücündə və səviyyəsində olsalar da, əksəriyyət bunu bacara bilməz. Çünki bütün insanlar eyni dərəcədə savadlı, kamil və iradəli deyillər. Müasirliyə gedən yolun diskoteka və internet klublarında keçdiyini düşünənlər də az deyildir. Belə qüsurlu mövqeyin yayılması ümumiyyətlə, müasirlik haqqında təsəvvürlərin məhdudluğu ilə əlaqədardır. Müasirlik, sərbəst seçim imkanı, komplekslərdən uzaq psixoloji rahatlıq, istədiyi kimi əylənmə hüququ, istirahət hüququ və imkanları verir. Lakin bunlarda sui istifadə halları cəmiyyətdə eybəcərliklər yaradır. Bu baxımdan modern yaşam tərzinin bəzi mənada mənfi tərəflərinin də olduğunu qeyd etmək lazımdır.

Azərbaycan cəmiyyətində yeni dəyərlərə tolerant münasibət modern yaşam tərzinə adaptasiya prosesinin rahat getməsi üçün ilkin yardımçı amil sayıla bilər. Düzdür, hər bir yeniliyin cəmiyyət tərəfindən mənimsənilməsi çox çətin və uzunmüddətli proses olur. Əhalinin əksər hissəsinin təhsillilərdən ibarət olması da bu prosesin sürətli getməsinə səbəb olan şərtlərdəndir.

Sonrakı mərhələ mənimsənilmiş yeni dəyərlərin emalından ibarətdir. Bu çox vasib mərhələ hesab edilməlidir. Məhz təqlidçilikdən uzaq yeni dəyərlərlə zəngin lakin yaşayışın daha rahat, sadə və modern formaya salınması üçün alınmış yeniliklər milli, etnik, mental, tarixi, ənənəvi süzgəclərdən keçirilməlidir. Əks halda yaranan ziddiyyətlər kəskin ictimai qınaq yarada bilər. Bu adaptasiya prosesinin öz dinamikasının tələbidir [5, s.115].

Onu qeyd etmək lazımdır ki, modern həyat tərzinin davranış, geyim, moda kimi zahiri xüsusiyyətləri bizim cəmiyyətdə daha sürətlə inkişaf edir, nəinki mədəniyyət, düşüncə tərzi kimi daxili xüsusiyyətlər. Düzdür, müasir insanın həyat tərzi onun fəaliyyətinin, məşğuliyyətinin, maddi və mənəvi ehtiyaclarının, fərdi davranış və ünsiyyət formasının necə olması ilə yanaşı zövqləri və modaya münasibəti ilə də bağlı olur. Modaya modern həyat tərzinin formalaşmasının əsas faktorlarından biri kimi baxılır. İlk baxışda moda anlayışı zahiri xarakter daşıyır. Ancaq əslində moda sosial hadisədir. O, insanların həyat tərzində çox əhəmiyyətli yer tutur. Modern həyat tərzinin əsas göstəricilərindən biri olan moda təkcə xarici göstərici deyil, o insanların əşyalara dəyər vermə göstəricisi, ətrafındakı insanlara münasibət göstəricisi, özünün cəmiyyətdə mövqeyinin belə göstəricisi ola bilir. Bu baxımdan da insanların ayry-ayrı zövq daşıyıcıları olaraq müxtəlif qruplara ayrılırlar. Hətta bu gün həyat tərzinin ayrılmaz bir hissəsi olan modaya uyğun geyim seçimi insanlar üçün gündəlik problemlərini bir hissəsinə çevrilmişdir. Bəzən isə təəssüf ki, cəmiyyətimizdə moda zövq göstəricisi deyil imkanların nümayişi xarakteri alır. Bu baxımdan mənəvi mühitin qorunması problemi çox aktualdır. Səlahəddin Xəlilovun ifadəsi ilə desək, müasir dövrdə ən aktual problemlərdən biri milli özünütəcrid və qloballaşma kimi iki kənar hal arasında optimal nisbətin tapılmasıdır. Yeri gəlmişkən, əsrin əvvəlində bizim böyük ziyalılarımız oriyentir kimi "türkçülük, islamçılıq və müasirliyin vəhdəti" prinsipini tövsiyə edirdilər ki, bu prinsip indi də aktuallığını saxlamaqdadır. S.Xəlilovun fikrinə görə, keçmişimizdən qalan, lakin tərəqqiyə deyil, tənəzzülə xidmət edən cəhətləri yaşatmaqdansa, onlardan xilas olmaq yolu tutulmalıdır. Lakin biz yenə də nəyin pozitiv, nəyin neqativ, yaxud nəyin həqiqi, nəyin saxta olduğunu aydınlaşdıra bilmək üçün keçmişdən daha çox bu günümüzə və gələcəyimizə, milli-mənəvi idealımıza xidmət etməliyik [11].

Modern həyat tərzində ailə modelinə münasibət də çox maraqlı xüsusiyyətlərilə dəyişikliyə uğramışdır. Demək olar ki, yeni norma və dəyərlər ən çox ailə modelinə dərin nüfuz etmiş olur. Yeni yaşayış tərzinə transformasiya prosesində fərd ilə ailənin əlaqəsi yeni forma kəsb etməyə başlayır, fərd ailədən sanki uzaqlaşır. Bəzən bir ailədə hər bir fərd ayrıca həyat tərzi keçirməyə başlayır. Müxtəlif həyat tərzi seçmiş insanların ailədə birgə yaşayışlarında, bir-biri ilə davranış, qarşılıqlı münasibət və ünsiyyətlərində yaranan xüsusiyyətlər bəzən çətinliklərlə xarakterizə olunur. Bu öz təcəssümünü insanların fəaliyyətində, sosial aktivliyində, maraqlarının ifadəsində tapır. Ailədə ər-arvad münasibətləri, böyük-kiçik münasibətləri, bir-birinə görə məsuliyyət, hətta uşaqların sayına olan münasibət belə əsaslı şəkildə dəyişilməyə məruz qalır. Ailə planlaşdırılmasına münasibətin dəyişməsi onunla nəticələnmişdir ki, bu gün bir çox müasir ailələrdə çox zaman tək uşaq ilə kifayətlənirlər.

Hesab edirik ki, cəmiyyətimizdə modern yaşam tərzinə adaptasiya prosesində qüsurlu tərəf təqlidçiliyə meyillilik sayılmalıdır. Təqlidçiliklə, zahiri xarakter daşıyan şərtlərin təmini ilə gedən modernləşmə eybəcər vəziyyət yaradır.

Beləliklə, nəticəyə gəlmək olur ki, modernləşmə prosesi təkcə xarici, görünən xüsusiyyətlərilə deyil, həm də daxili görünməyən tərəflərilə cəmiyyəti əhatə edir, həmçinin obyektiv və subyektiv səbəblərlə də bağlı formalaşır. Azərbaycan cəmiyyəti üçün modern yaşam tərzinin formalaşması həm müsbət, həm də mənfi tərəflərin bir-biri ilə çulğalaşmış şəkildə olması ilə, özünəməxsus qaydada baş verir.

Açar sözlər: həyat tərzi, yaşayış səviyyəsi, sosial davranış, modernləşmə prosesi

İstifadə edilmiş ədəbiyyat

1. Бобнева М.И. Социальные нормы и регуляция поведения. М.: Наука, 1978, 311 с.
2. Боголюбов Л.Н. Деятельность в жизни человека и общества // Социально-политический журнал, 1994. №1-2, с. 108-110
3. Вебер М. Основные поятия стратификации // СОЦИС, 1994, №5, с. 147-156
4. Гурьев В.И., Горбей Г.Ф. Наш образ жизни. М.: Финансы и статистика, 1990, 111 с.
5. Дудченко О.Н., Мытиль А.В. Социальная идентификация и адаптация личности // СОЦИС, 1995, №6, с. 110-119
6. Зиммель Г. Избранное. М.: Юрист, 1996, 671 с.
7. Ионин Л.Г. Социология культуры. М.: ЛОГОС, 1996, 280 с.
8. Климова С.Г. Изменения ценностных оснований идентификации (80-90-е годы) // СОЦИС, 1995, №1, с. 59-73
9. Новейший философский словарь. Сост. и гл. н. ред. Грицанов А.А. 3-е изд. Мн.: Книжный Дом, 2003, 1280 с.
10. http://www.countries.ru/library/antropology/orlova/obraz.htm#m1
11. http://psychology.az/az/salahaddin_halilov.php

Халима Гафарова

СПЕЦИФИЧЕСКИЕ ОСОБЕННОСТИ АДАПТАЦИИ СОВРЕМЕННОГО ОБРАЗА ЖИЗНИ В АЗЕРБАЙДЖАНСКОЙ ОБЩЕСТВЕ

Резюме

В статье был проведен теоретический анализ концепции образа жизни в общем социально-философском контексте и исследованы особенности формирования нового образа жизни в процессе модернизации. Также, проанализирован процесс адаптации современного образа жизни в Азербайджанском обществе.

Ключевые слова: образ жизни, уровень жизни, социальное поведение, процесс модернизации

Halima Qafarova

SPECIFIC FEATURES OF ADAPTATION TO THE MODERN LIFESTYLE IN AZERBAIJAN SOCIETY

Summary

In the article, the theoretical analysis of the concept of lifestyle in the general social-philosophical context was carried out and the features of the formation of a new lifestyle in the process of modernization were explored. The adaptation process of the modern lifestyle in Azerbaijan society was analyzed.

Keywords: lifestyle, standard of living, social behavior, the process of modernization

UOT – 93

Nərmin Əsgərli
Azərbaycan Dillər Universiteti

DÜNYANI DƏYİŞƏN 11 SENTYABR TERRORU

Məqalə 2001-ci il ABŞ-da törədilmiş terror aktının və onun nəticələrinin təhlilinə həsr olunmuşdur. Terror aktından sonra dünyada, əsasən də Yaxın Şərq regionunda cərəyan edən proseslər təhlil olunmuşdur. 11 sentyabr 2001-ci ildə Nyu-Yorkun məşhur "Əkiz göydələnləri"nin, həmçinin Vaşinqtonda Pentaqonun binasının terrorçuların hücumuna məruz qalması ilə dünyada yeni proseslər cərəyan etməyə başladı. Dünya siyasətində köklü dəyişikliklərə səbəb olan tarixi hadisələr 17 il öncə baş verənlərə yenidən nəzər yetirməyi zəruri edir. Məqalədə həmçinin 2001-ci il terror aktının baş vermə anı, terror aktının ABŞ-ın ictimai həyatına, iqtisadiyyatına mənfi təsiri kimi məsələlərə də toxunulmuşdur.

Müasir dövrdə terror fəaliyyəti dövlət sərhədlərini tanımadan beynəlxalq terror mərkəzləri və təşkilatları ilə sıx əlaqədə öz fəaliyyətini genişləndirməkdədir. Terrorizm latın sözü olan "terror" sözündən götürülüb, tərcüməsi qorxu, vahimə deməkdir. XX əsrin sonlarından təhlükəsizlik problemləri günbəgün dövlətlərarası əlaqələr və tərksilah tematikası hüdudlarından kənara çıxmaqdadır. Terrorizm zəmanəmizin ən ciddi problemidir. O, nəinki XX əsrin sonları XXI əsrin əvvəllərində daha da kəskinləşmiş, hətta dünya təhlükəsizliyinə əsas təhdid rolunu oynamağa başlamışdır [1, s. 181].

Terrorizm haqqında birmənalı tərif mövcud olmasa da, əksər mütəxəssislərin gəldiyi qənaət budur ki, o, siyasi, dini, ideoloji, iqtisadi məqsədlərə çatmaq üçün qeyri-qanuni zorun və gücün tətbiq olunması formasıdır. Terrorizm ekstremizmin təzahürlərindən biridir, lakin ekstremizmin digər formalarından onunla fərqlənir ki, terrorizmin bütün təzahürləri bir qayda olaraq hüquqa ziddir. Qlobal təhlükə kimi terrorizm müasir dövrdə diqqət mərkəzindədir. Amerika Birləşmiş Ştatlarında baş verən 11 sentyabr terror aktı da bir daha sübut etdi ki, terror qaçılmaz bir fəlakətdir [2].

ABŞ, 2001-ci il, 11 sentyabr..... Bu tarixdə dünya silkələndi. "Əl-Qaidə" terror təşkilatının rəhbəri, terrorçu Üsamə bin Laden dünyanın super dövləti olan Amerika Birləşmiş Ştatlarında terror aktının müəllifi kimi beynəlxalq medianın zirvəsini fəth etdi. Ümumi şəkildə demək olar ki, ölüm, xəsarət və maddi ziyana görə Nyu-Yorkdakı 11 sentyabr hadisələri terror aktları arasında "şəriksiz lider"dir. Bu terror aktı nəticəsində 4000-ə yaxın nəfər həlak oldu, 6000 nəfər müxtəlif dərəcəli bədən xəsarəti aldı. Dəymiş maddi ziyan isə 100 milyonlarla dollarla ölçülür. Təkcə Ümumdünya Ticarət Mərkəzinin partladılması nəticəsində Nyu-York şəhər iqtisadiyyatına 95 milyard dollar həcmində ziyan dəymiş, 83 min insan iş yerini itirmişdir. Əkiz qüllələrin dağıntılarının təmizlənməsi isə 8 aydan çox vaxt apardı. Həmin gün ABŞ tarixinə ən irimiqyaslı terror aktı kimi düşdü.

Terror aktının təfərrüatlarına nəzər yetirdikdə görmək olar ki, yerli vaxtla saat 08:46-da "American Airlines" (Amerika hava yolları) şirkətinə məxsus sərnişin təyyarəsi Nyu-Yorkda yerləşən Dünya Ticarət Mərkəzinin Şimal qüllələsinə çırpıldı. Digər təyyarə isə 09:03 radələrində Cənub qüllələsini hədəf aldı. Binaların aşmasına səbəb isə baş vermiş güclü yanğınlar idi. "77 American Airlines" təyyarəsi isə Vaşinqtonda yerləşən Pentaqon binasına yönəldilmişdi. Eyni zamanda, "93 United Airlines" təyyarəsi Pensilvaniya ştatında yerə çırpılmışdı. Güman edilir ki, həmin təyyarə Kapitoliy binasına tərəf yönəldilmişdi. Lakin təyyarədəki sərnişinlər və heyət üzvləri tərəfindən müqavimətlə qarşılaşan terrorçular təyyarəni yerə yönəltməyə üstünlük vermişdilər. "Boeing 757" tipli təyyarə isə Pitsburq şəhərindən 80 mil məsafədə yerə düşdü.

11 sentyabr terror hadisəsinin amerikalılar üzərində çox ağır izləri qaldı. Terror aktı ABŞ-ın həm iqtisadiyyatına, həm də turizm sahəsinin inkişafına maneə oldu. Bu hücumlar Amerika və dünya bazarına əhəmiyyətli dərəcədə təsir etdi. Nyu-York məzənnə fondu (NYMF) və Amerika Məzənnə fondu sentyabrın 11-də açılmadı və sentyabrın 17-dək qapalı qaldı. Məzənnə fondu yenidən açı-

landa isə səhm bazarı 71%-dən 8921-ə endi. Bu isə öz növbəsində, bir gündə qeydə alınan ən böyük enmə idi.

11 sentyabr hadisələrindən dərhal sonra ABŞ terrorçulara qarşı müharibə elan etdi və beynəlxalq alyansın yaradılması yönündə fəaliyyətə başladı. ABŞ prezidenti Corc Buşun dediyi "bizimlə olmayan onlarladır" fikri antiterror koalisiyasının tez bir zamanda formalaşmasına böyük təsir göstərdi. Dünyanın əksər dövlətləri ABŞ-ın antiterror siyasətini dəstəklədiklərini bəyan etdilər və öz köməklərini təklif etdilər. Antiterror koalisiyasına hətta Rusiya da qoşuldu. İlk öncə 2001-ci ilin oktyabr ayının 7-də ABŞ və Böyük Britaniya Əfqanıstanda hərbi əməliyyatlara başladı. Bu əməliyyatlar daxili müharibələrdən cana doymuş Əfqanıstanda yeni müharibə ocağının yaranmasına təkan verdi. ABŞ və Britaniyanın həyata keçirtdiyi əməliyyatlar terror aktında ittiham olunan "Əl-Qaidə" təşkilatına və onları dəstək olan "Taliban" hərəkatına qarşı yönəlmişdi. İlk hədəf kimi Əfqanıstanın seçilməsinin əsas səbəbi Taliban rejiminin əsas məskəninin Əfqanıstan olmasıdır. Talibçilər 1996-cı ildə Əfqanıstanda hərbi yolla siyasi hakimiyyətə gətirilmişdir. Həmin dövrdə "Əl-Qaidə" təşkilatı və üzvləri Əfqanıstanda məskunlaşmışdı. Digər səbəblərdən biri də Əfqanıstan kimi, strateji əhəmiyyətli bir ölkəni nəzarət altında saxlamaq idi. Çünki ABŞ Əfqanıstanın ələ keçirilməsi ilə Rusiya və Çin kimi böyük dövlətlərin sərhədlərində məntəqə əldə etmiş olurdu. Hələ 11 sentyabr hadisələrindən əvvəl Keniya və Nigeriyada yerləşən ABŞ səfirliklərində partlayışların törədilməsi, Səudiyyə Ərəbistanındakı ABŞ hərbi bazasının partladılması kimi terror aktları da bu təşkilatın adı ilə əlaqələndirilirdi. Amerika bu hadisələrdən sui-istifadə edərək hadisədən 1 ay keçməmiş Əfqanıstanı işğal etdi. "Əl-Qaidə" lideri Üsəma bin Laden əməliyyatlardan 10 il sonra 2011-ci ildə öldürüldü. Əfqanıstanda Taliban rejimi devrildi. Ancaq buna baxmayaraq hələ də ABŞ və NATO qoşunları Əfqanıstanda əməliyyatları davam etdirir. ABŞ təkcə Əfqanıstan müharibəsində hərbi əməliyyatlara 700 milyard dollara yaxın vəsait xərclədi.

Daha sonra isə olan hadisələrlə heç bir əlaqəsi olmayan İraqı işğal etdi. Ancaq ABŞ-ın İraqa müdaxiləsi digər dünya dövlətlərinin narazılığına səbəb oldu. Artıq dövlətlər başa düşürdü ki, ABŞ-ın İraqa müdaxiləsi terrora qarşı mübarizə adı altında əslində digər məqsədlərin reallaşdırılması idi. İraqa müdaxilədə ABŞ-a yalnız ənənəvi müttəfiqi İngiltərə və İspaniya dövləti dəstək verdi. İraqa müdaxilə üçün əsas bəhanə kimi guya İraq dövlətinin terrora dəstək verməsi və Səddam Hüseynin kütləvi qırğın silahlarına malik olması göstərildi. 2003-cü ildə İraqın paytaxtı Bağdad işğal edildi. Səddam Hüseyn beynəlxalq qanun və konvensiyalara uyğun olmayan şəkildə mühakimə olunaraq edam edildi. Ancaq İraqın kütləvi qırğın silahlarının varlığı sübuta yetirilmədi. Nəticədə sadəcə İraqda 200 mindən artıq sivil insan qanına qəltan edildi. ABŞ təkcə İraq müharibəsində 4500-ə yaxın hərbçisini itirdi. ABŞ 2011-ci ildə ordusunu İraqdan çıxardı. Ancaq ölkə bu gün də sakitliyə qovuşmadı. ABŞ-ın 2001-ci ildən terrorla mübarizə üçün həyata keçirdiyi əməliyyatlar nəinki ciddi effekt verdi, hətta müdaxilə etdiyi bölgələrdə uzun illərdən bəri davam edən qeyri-sabitlik, mütəmadi baş verən terror aktları və s. 10 ildən artıq aparılan əməliyyatların heç bir nəticə vermədiyini göstərir. Daha sonra ABŞ terrorda şübhəli bildiyi müsəlmanlara MKİ-nin (Mərkəzi Kəşfiyyat İdarəsi) gizli həbsxanalarında, İraqdakı Əbu Qüreyb, Kubadakı Quantanamo kimi həbsxanalarda ağlasığmaz işgəncələr verdi. Bundan sonra Vaşinqtonun xüsusi xidmət orqanları müttəfiqlərindən tutmuş rəqiblərinə kimi hamını dinləməyə başladı.

2001-ci il 11 sentyabr hadisələrindən sonra müsəlman əhaliyə qarşı təqiblər daha da artdı. "İslamofobiya" anlayışı gündəmə gəldi. Məlum hadisələrdən sonra artıq qərb əhalisində müsəlmanlara qarşı qorxu və nifrət hissi yaranmağa başladı. Bu hadisələri əlində bayraq edən Vaşinqton, ölkə daxilində müsəlman vətəndaşların hüquqlarına çox sərt məhdudiyyətlər qoydu.

Terror hadisəsindən sonra yaxın şərqlilər və yaxın şərqlilərə bənzəyən digər insanlara qarşı hücum və nifrət zəminində baş vermiş cinayət hadisələrinin sayı da artdı. Məsələn, sixlərə qarşı baş verən hücumlar buna bariz nümunədir. Çünki six kişiləri ənənəvi olaraq türban geyinirlər, bu da Birləşmiş Ştatlarda bir qayda olaraq müsəlmanlarla əlaqələndirilən bir əlamət sayılır. İstər hind məbədinin partladılması, insanlara qarşı hücum və təhqirlər, istərsə də məscid və digər dini binalara olunan hücumlar bu terrorun nəticəsi idi. Sentyabrın 15-də Balbir Sinq Sodhinin qətlə yetirilməsi

amerikalıların qəzəbinin və intiqamının sübutu idi. Balbir Sinq Sodhi güllələnmişdi, ancaq o da digərləri kimi müsəlman zənn edilən six idi [4].

Ümumiyyətlə, 2001-ci il 11 sentyabr hadisələri ilə başlanan ABŞ-ın terrora qarşı mübarizəsi hələ də digər cəbhələrdə davam edir. Bunun ağır nəticəsini ödəyənlər isə Yaxın Şərq ölkələrinin sadə vətəndaşlarıdır. Uzun illər müharibə meydanı olan, müxtəlif böyük dövlətlərin gizli maraq zonasına çevrilən Əfqanıstan, İraq kimi müharibə yaşamış dövlətlərin və vətəndaşlarının yaralarını sağaltmaq üçün hələ uzun illər lazım olacaq.

Açar sözlər: terror, ABŞ, əkiz binalar, 11 sentyabr, Pentaqon, Əl-Qaidə

İstifadə edilmiş ədəbiyyat

1. Həmidov S.S. Beynəlxalq təhlükəsizlik. Bakı: Mütərcim, 2017, 728 s.
2. Həsənov A.İ. Beynəlxalq terrorizm. Bakı: Əbilov, Zeynalov və oğulları, 2003, 588 s.
3. https://az.wikipedia.org/wiki/11_sentyabr_terror_aktlar%C4%B1
4. http://www.kaspi.az/az/az/dunyanin-deyisildiyi-gun-11-sentyabr/
5. https://news.milli.az/world/368314.html
6. https://www.ntv.com.tr/dunya/tarihi-degistiren-gun-11-eylulun-uzerinden-16-yil-gecti,ptwz83RfBkagbVG2JbZEZg

Нармин Асгарли

СОБЫТИЯ 11 СЕНТЯБРЯ, ИЗМЕНИВШИЙ МИР

Резюме

Статья посвящена террористическому акту, совершенному США организацией "Аль-Каида" 11 сентября 2001 года, который создал новый геополитический век в мировой истории. В результате событий, произошедших 11 сентября, внешняя политика США радикально изменилась. Именно они стали причиной объявления Америкой борьбы с международным терроризмом основным направлением ее внешнеполитического курса. После террористического акта операции, проведенные антитеррористической коалицией в Афганистане и Ираке, не обвенчались успехом, наоборот, послужили началом новых войн.

Ключевые слова: террор, США, близнецы, 11 сентября, Пентагон, Аль Каида

Narmin Asgarli

SEPTEMBER 11TH, WORLD CHANGE

Summay

The article is devoted to the terror act committed the USA by the Al-Qaeda organization on September 11, 2001 created a new geopolitical century in the world history. As a result, the acts of September 11th have caused a radical change in the foreign policy of the USA. After these events, the USA has proclaimed the struggle with international terrorism as the main the direction of its foreign policy course. After the terror act, the operations conducted in Afghanistan and Iraq by an antiterrorist coalition have not brought peace, on the contrary, they have caused the beginning of new wars.

Keywords: terror, USA, twin buildings, September 11, The Pentagon, Al-Qaeda

UOT – 316.6

İlham Soltanov
AMEA Fəlsəfə İnstitutu

FƏLSƏFİ FİKİR TARİXİNDƏ ŞƏXSİYYƏTİN ÖZGƏLƏŞMƏSİ PROBLEMİ

Məqalədə müasir dövrdə şəxsiyyətin özgələşməsi ilə bağlı problemləri dərindən anlamaq üçün fəlsəfi fikir tarixində mövcud olmuş fikirlər araşdırılmışdır. Qərbdə geniş yayılmış ictimai müqavilə nəzəriyyəsində, Hobbsun, Russonun və sonralar Hegelin təlimlərində mənəvi özgələşmə, yəni siyasi hüquqların özgələşməsi, ruhun özgələşməsi kimi fikirlər geniş işıqlandırılmışdır. Özgələşmənin ümumi tarixi xarakter daşıdığını anlamaq üçün özgələşmənin əsas mahiyyətinin təhlili aparılmışdır.

Müasir dövrdə şəxsiyyətin özgələşməsi ilə bağlı problemləri dərindən anlamaq üçün fikrimizcə, onun fəlsəfi ənənədə yerinə qısa da olsa, nəzər salmaq məqsədəuyğundur.

Fəlsəfi fikir tarixində belə bir rəy mövcud olmuşdur ki, insanların öz hüquqlarını iclimai-siyasi təşkilatlara verməsi özgələşməni, yəni şəxsiyyətin tələbatları ilə mövcud quruluşun davranış normalarının bir-birindən ayrı düşməsini törədir. Qərbdə geniş yayılmış ictimai müqavilə nəzəriyyəsində, Hobbsun, Russonun və sonralar Hegelin təlimlərində mənəvi özgələşmə, yəni siyasi hüquqların özgələşməsi, ruhun özgələşməsi əsas götürülürdü. Özgələşmənin ümumi tarixi xarakter daşıdığını anlamaq üçün onun Hegel tərəfindən təfsiri diqqəti cəlb edir. Əvvəla, onu qeyd edək ki, bu anlayış Hegelin fəlsəfəsində mərkəzi yerlərdən birini tutur. O, özgələşmənin əsas mahiyyətini insanın öz yaratdıqlarına, yəni reallaşdırdığı gerçəklik onun spesifik münasibətində görürdü. Hegelə görə, məhz insanın yaratdığı bu reallaşdırılmış gerçəklik onun özü tərəfindən əsl həqiqi olmayan kimi başa düşülür və özgələşməni yaradır, yəni şəxs onlara münasibətdə öz "Mən"ini qoruyub saxlayır. İradənin fərdiliyinin özgələşməsi onun bilavasitə saxlanılması deməkdir. Bu mənəviliyin ən yüksək mərhələsidir. Bu pillədə ikiyə bölünmə o deməkdir ki, hər bir tərəf tamamilə özü-özünə qayıdır, özgürlüyünü mahiyyət kimi anlayır [5, s.361].

Hegel göstərirdi ki, özgələşmə prosesində insan ayrıca bir fərd kimi ən ümumini özündən kənarlaşdırır və ona tam müstəqillik verir, bu halda o, gerçəkliyindən imtina edərək, yalnız bilik kimi qalır. Məsələn, insanın mənfi keyfiyyətləri, qəbahəti öz mövcud varlığından tam imtina edən özgürlüyünün tam şəkildə özgələşməsi deməkdir, onun artıq öz ümumi dünyası deyil, başqa dünyası vardır. Böyük mütəfəkkir özgələşmə kateqoriyasına xüsusi əhəmiyyət verərək, onu özünün "substansiya – subyekt" konsepsiyasının əsasına qoymuşdur. Həmin konsepsiya isə subyekt ilə obyektin "mütləq eyniyyətini" israr edərək göstərir ki, burada ruh eyni zamanda həm "substansiya" və həm də "subyekt" kimi çıxış edir.

Hegelin təlimində dünya ruhu iki aləmə bölünür: birincisi, gerçəklik dünyası və yaxud ruhun özünün özgələşməsi dünyasıdır, ikinci dünyada isə ruh birincidən yüksəkdə duraraq özünü xalis şüur efirində quraşdırır [4, s.262]. Hegel bu fikri dövlətə tətbiq edərək qeyd edirdi ki, dövlət fərdlərin mahiyyətinin ifadəsi deməkdir. O nə dərəcədə sadə substansiyadırsa, bir o qədər də ən ümumi hadisə deməkdir. "O elə bir mütləqlikdir ki, burada fərdlərin mahiyyəti ifadə olunur və onların fərdiliyi sadəcə olaraq onların ümumiliyinin başa düşülməsidir" [3, s.266]. Hegelin fikrincə, özgələşmə ruhun qəlb, can tərəfindən inkar edilməsi ilə başlayır. Bu, birinci inkardır, ikinci inkar - ümumiyyətlə, götürülən qeyri-xoşbəxtlik deməkdir, üçüncü pillə ən yüksək olub, subyektin mənlik şüurunun ali səviyyədə özgələşməsi deməkdir [6, s.166].

Fəlsəfi ədəbiyyatda haqlı olaraq göstərilir ki, Hegel özünün fəlsəfi sisteminə müvafiq olaraq özgələşməni daxili xarakterli inkarın (canın ruhu inkar etməsi) və xarici xarakterli inkarın (dövlətin insanı inkar etməsi) və transendental xarakterli inkarın (insan və vahid yaradıcı - Allah) nəticəsi hesab edir [2, s.124].

XIX əsrin ikinci yarısından başlayaraq sənaye cəmiyyətinin inkişafı ilə əlaqədar olaraq özgələşmə probleminə dliqqət daha da artdı. Həmin dövrdən etibarən fəlsəfi fikirdə belə bir meyil qərarlaşdı ki, özgələşmə insan üçün zəruri keyfiyyətdir və sosial həyatda onun aradan qaldırılması mümkün deyildir. XX əsrdə bu meyil daha da inkişaf etdirildi və göstərildi ki, özgələşmə insanın sosial həyatda iştirakının mahiyyət xarakterli səviyyəsidir. Artıq bu dövrdə özgələşmə kateqoriyası sosial prosesləri əks eldirən digər anlayışlar ilə əlaqəli götürülürdü. Məsələn, Manheym və M.Beber onu bürokratiya ilə, Dürkheym və Merton sosial anomiya ilə, Markuze isə onu industral cəmiyyətə xas olan istehlakçılıq yarışı ilə sıx əlaqədə nəzərdən keçirmişdir.

Yeri gəlmişkən qeyd edək ki, özgələşmə problemi təkcə Qərb fəlsəfəsində deyil, həm də Şərq nəzəri fikri tarixində (məsələn, ən çox sufizm təlimində) özünü göstərmişdir. Lakin bu iki fikir istiqaməti tərəfindən özgələşmənin anlaşılmasında müəyyən fərq də vardır. Belə ki, Qərb fəlsəfi ənənəsində özgələşmə ya nihilizmin sərhəddində olan tənhalıq ilə, yaxud da özünü tamamilə dinə həsr etməklə başa çatır. Şərq fəlsəfəsində isə bir qayda olaraq özgələşmə həqiqət axtarışları və Allaha sevgi yolunda özünü göstərən tərkidünyalıq və asketizm ilə tamamlanır.

Qeyd etmək lazımdır ki, şəxsiyyətin özgələşməsinin müvəqqəti, konkret tarixi xarakter daşıdığı, yaxud da bütün dövrlərdə zərurən fəaliyyət göstərən ümumtarixi sosial fenomen olması haqqında məsələ fəlsəfi fikirdə birmənalı izah olunmur. Məsələn, marksizm fəlsəfəsi göstərirdi ki, özgələşmənin əsas mənbəyini xüsusi mülkiyyət təşkil edir və o kapitalizm cəmiyyətində özünün ən yüksək pilləsinə çatır. Buna görə də kapitalizmin inqilabi yol ilə devrilməsi, həm də özgələşmənin aradan qalxması demək olacaqdır. Bu məntiqə görə kommunizmin bərqərar olması gedişində ictimai münasibətlərin sosiallaşması baş verəcək və beləliklə də özgələşmə yox olacaqdır. Sözügedən baxışı doğru hesab etmək olmaz. Səbəbi də budur ki, yuxarıda deyildiyi kimi özgələşmə xüsusi mülkiyyətin deyil, ictimai əmək bölgüsünün nəticəsidir. Buna görə də onu xüsusi mülkiyyət ilə bağlayaraq gələcəkdə yox olacağını iddia etmək əsassızdır. Bunu tarixi təcrübə də sübut edir. Bu prosesdə özgələşmənin zəifləməsi meyli özünü göstərmir. O, ictimai əmək bölgüsü ilə əlaqəli olduğu üçün, öz-özünü tənzim edən sistemə-cəmiyyətə daxilən məxsus olan keyfiyyət kimi təsəvvür olunan perspektivdə qalmaqda davam edəcəkdir. Söhbət onun kəskinlik dərəcəsinin azadılmasından və yumşaldılmasından gedə bilər. Özgələşmə prosesinin öz inkişafında malik olduğu fazaların və mərhələlərin xarakteri də spesifikdir. Yəni onun yüksələn və yaxud da enən xətt üzrə getdiyini söyləmək o qədər də ağlabatan deyildir. Görünür ki, bu proses daha çox spiralvari formada çıxış edir. Belə ki, bəşəriyyətin tarixində elə dövrlər olmuşdur ki, özgələşmənin nisbətən zəiflədiyi və yaxud gücləndiyi hallar özünü göstərmişdir [7, s.294].

Ədalət naminə qeyd olunmalıdır ki, özgələşmənin kapitalizm cəmiyyətinə nəzərən verilən marksist təhlilin bəzi müddəaları indi də öz əhəmiyyətini itirməmişdir. Bu, xüsusən də özgələşmənin iqtisadi, siyasi və mənəvi növlərinə və təzahür formalarma aiddir. Marksizm özgələşmənin məzmununda aşağıdakı səpkiləri seçib ayırırdı: a) bütövlükdə insanın fəaliyyətinin özgələşməsi və bunun nəticəsində işçinin əmək prosesində tam yorğun və sarsımış halda özünü göstərməsi; b) əmək şəraitinin və əməyin özünün özgələşməsi; c) əməyin nəticələrinin muzdlu işçidən özgələşməsi; ç) sosial institutların və onların tələb etdiyi normaların zəhmətkeşlərdən özgələşməsi; d) ideologiyamn həyatdan özgələşməsi. Bu onunla nəticələnir ki, cəmiyyətin bütün üzvlərində şəxsiyyəti normal çərçivədən kənara çıxan davranışa gətirib çıxaran ideologiya formalaşdırılır, yəni onun ideoloji manipulyasiyası baş verir.

Özgələşmə probleminə ekzistensialist və personalist mövqeyindən yanaşma bu prosesin təkcə kapitalizm deyil, bütün quruluşlara xas olduğunu israr edir. Fikrimizcə, sonuncu baxış həqiqətə daha uyğundur. Belə ki, şəxsiyyət ilə cəmiyyət arasında müəyyən fərqlilik və mənafe müxtəlifliyi mövcud olduqca, özgələşmə də müəyyən formalarda təzahür edəcəkdir. Lakin buradan belə bir yanlış nəticə çıxarmaq olmaz ki, özgələşmə bütün dövrlərdə eyni məzmuna malikdir və eyni səviyyədə ifadə olunur. Əslində özgələşmə anlayışının məzmunu tarixi xarakter daşıyır. Bu isə o deməkdir ki, cəmiyyət siyasi, iqtisadi, mədəni və mənəvi sahələrdə tərəqqi edib, mükəmməl səviyyəyə yüksəl-

dikcə, həmin istiqamətlərin hər birində şəxsiyyət ilə cəmiyyətin əlaqələri daha da yaxınlaşır və təkmilləşir.

Mükəmməl texniki vasitələrin geniş tətbiqi, informasiya texnologiyasının heyrətamiz nailiyyətləri şəxsiyyətin hər bir hərəkətini və atdığı addımı nəzarət altına almağa imkan verir. Bu isə nəticə etibarilə şəxsiyyətin daxili fəallığı və yaradıcı müstəqilliyini xeyli dərəcə zəiflədir. Sonra, müasir dövrdə kütləvi informasiya vasitələrindən şəxsiyyətin emosiyalarını, fikir və hisslərini manipulyasiya etmək üçün məharətlə istifadə olunur. Bununla yanaşı onun zəka və iradəsinin müəyyən çərçivəyə salınması, başqa sözlə deyilsə, ağılın standartlaşdırılması meyli baş verir. Buradan aydın olur ki, elmi-texniki inkişafa uymaq insan fəaliyyətinin mənəvi əsaslarını sarsıdır, şəxsiyyətin həyat tərzindən və sosial vəziyyətdən narazılığını artırır, onun mənəvi dünyasını eroziya təhlükəsi ilə üzləşdirir.

Zəmanəmizin görkəmli filosoflarından olan E.From göstərirdi ki, insan varlığı unikal və eyni zamanda ümumi xarakter daşıyır. Onun daxili aləmində sosial səbəblərdən irəli gələn konfliktlər əsas yer tutur. Bu konfliktlərin səbəbləri isə müasir dünyada insanın mövcudluğunun özülündə duran özgələşmə, əkshumanistləşmə və istehlakçı cəmiyyətdə insanın öz şəxsi keyfiyyətlərini itirməsi və şəxsizləşməsi kimi hadisələrdir. Buna görə də onun fikrincə, bunların aradan qaldırılması sosial şəraitin özünün dəyişdirilməsi, yəni daha humanist cəmiyyət qurulması və insanın sevgiyə, etiqada və zəkaya olan daxili qabiliyyətinin genişləndirilməsi ilə bağlıdır [8, s.312].

Qeyd etmək lazımdır ki, ictimai əmək bölgüsünə əsaslanan cəmiyyətdə özgələşmənin kökləri istehsalda, fərdin istehsal fəaliyyətində özünü göstərir. O, istehsalda, bölgüdə, mübadilə və istehlakda bir-birinə əks tərəflərin əlaqəsi üsulu kimi çıxış edir. Həmin əks tərəflərə misal olaraq istehsal vasitələrinin mülkiyyətçisi ilə iş qüvvəsinin sahibi arasında, istehsalçı ilə istehlakçı arasındakı fərqi göstərmək olar. Bu ayrılıq antaqonist cəmiyyətlərdə daha kəskin şəkildə çıxış edir. Burada işçinin əməyinin nəticələri başqasına məxsus olur.Buna görə də əmək işçi üçün nə isə bir kənar amilə, onun mahiyyətinə mənsub olmayan fəaliyyət növünə çevrilir.

Lakin özgələşmə təkcə maddi istehsal sferası ilə məhdudlaşmır. O, burada yarandıqdan sonra digər sferalara keçir. Tədricən siyasi təsisatlar, mənəvi nemətlərin istehsalı və istehlak edilməsi, sosial sferanm institutları (təhsil, səhiyyə) da fərddən özgələşmiş hala düşür.

Özgələşmənin mahiyyətinə nəzər saldıqda onun ikipilləli xarakteri aşkara çıxır. Birinci səviyyədə sosial kollektivlərin üzvü olan insanlardan onların iş qüvvəsi, qabiliyyətləri və fəaliyyətinin nəticələri ayrılır. Lakin özgələşmə bununla bitmir, ikinci pilləyə yüksəlir. Həmin pillədə insanların fəaliyyətinin özgələşmiş nəticələri müstəqil amillərə çevrilir, onların nəzarətindən çıxır və cəmiyyət üzərində hökmranlıq edən qüvvə kimi çıxış edir.

Qeyd etmək lazımdır ki, indi şəxsiyyətin özgələşməsi bu və ya digər ölkələrin hüdudlarından kənara çıxaraq, bir çox münasibətdə beynəlxalq, qlobal hadisəyə çevrilmişdir. Müasir dünyada gedən qloballaşma prosesləri, habelə onlarla milli müstəqil dövlətin keçid mərhələsində olması və bu mərhələnin hələ xeyli davam edəcəyi faktı, insanların özgələşməsinə və tənhalıq vəziyyətinə düşməsinə sürətləndirici təsir göslərir. Bu təsir xüsusilə də xırda dövlətlərin və xalqların həyatında daha güclü hiss olunur. Təsadüfi deyildir ki, hazırda dünyanın bir çox regionlarında qloballaşma əleyhinə hərəkatlar genişlənməkdədir. Onlar konkret vəziyyətdə hansı məqsəd güdməsindən asılı olmayaraq, ümumən xalqların öz milli-tarixi xüsusiyyətlərini, öz varlığını və özgürlüyunü qoruyub saxlamağa yönəlmişdir.

Şəxsiyyətin özgələşməsi, tənhalıq hissinin güclənməsi əksər hallarda həyatın mənasının gəraksizləşməsi ilə nəticələnir. Sonuncu hal təkcə sənaye cəhətdən inkişaf elmiş Qərb ölkələri üçün səciyyəvi əlamət deyildir. İndi o, mənəvi keyfiyyətlərin mövcud gerçəkliyə adekvat olmadığı digər ictimai sistemlərdə də özünü göstərir. Sözügedən məsələ, yəni mövcud iclimai həyat ilə insanların malik olduğu mənəvi keyfiyyətlərin uyğun gəlməməsi indi prinsipial problemlərdəndir. Çünki bu iki tərəf qarşılıqlı surətdə bir-birini şərtləndirməlidir. V.Franklın mənəvi dəyərlərin ikiqat zənginləşməsi və reallaşması nəzəriyyəsində də göstərildiyi kimi "müəyyən məqamlarda həyat bizi öz hərə-

kətlərimizdə bu dünyanı zənginləşdirməyə çağırır, elə vaxtlar da olur ki, biz yaşantılarımızla özözümüzü zənginləşdirirk" [1, s.174].

Cəmiyyəlin qarşısında duran slarteji məqsədlərin (hərtərəfli və ardıcıl demokratikləşmə, bazar münasibətlərinin formalaşması, vətəndaş cəmiyyəti və hüquqi dövlət yaradılması və s.) tam başa çatmaması üzündən şəxsiyyət - cəmiyyət münasibətbrində özgələşmə də qalmaqda davam edir.

Açar sözlər: cəmiyyət, şəxsiyyət, özgələşmə, tənhalıq, qloballaşma, modernləşmə

İstifadə edilmiş ədəbiyyat

1. Abbasov Ə.F. Əsgərov İ. Keçid dövrü və yeni iqtisadi təfəkkür. Bakı: Nurlan, 2002, 324 s.
2. Абдуллаев Я.А. Проблема человека в социокультурном контексте (Переходной период). Баку: Адилоглы, 2002, 181 с.
3. Арсеньев А.С. Философские основания понимания личности. М.: Академия, 2001, 592 с.
4. Гегель Г.Ф. Сочинения. Философия права. Т.7, М.: Соцэкгиз, 1934, 384 с.
5. Гегель Г.Ф. Работы разных лет. М.: Мысль, 1972, 672 с.
6. Гегель Г.Ф. Политические произведения. М.: Наука, 1978, 483 с.
7. Кулиев Т.А. Регулируемая рыночная экономика. Баку: Нагыл еви, 2000, 390 с.
8. Панарин А.С. Политология. М.: Гардарики, 2000, 479 с.

Ильхам Солтанов

ПРОБЛЕМА ОТЧУЖДЕНИЯ ЛИЧНОСТИ В ИСТОРИИ ФИЛОСОФСКОЙ МЫСЛИ

Резюме

В статье рассматриваются идеи, существующие в философских мыслях, чтобы полностью понять проблемы отчуждения личности в современности. В широко распространенном общественном мнении Запада освещались идеи Хоббса, Руссо и позднее Гегеля по поводу моральное отчуждение, также отчуждения политических прав и души. В целях раскрытия общеисторического характера отчуждения проанализирован его сущность.

Ключевые слова: общество, личность, отчуждение, одиночество, глобализация, модернизация

Ilham Soltanov

THE PROBLEM OF ALIENATION OF PERSONALITY IN THE HISTORY OF PHILOSOPHICAL THOUGHT

Summary

The article examines the ideas existing in the philosophical thoughts in order to fully understand the problems of personality's alienation in modern times. In the widespread public opinion of the West, the article illuminates Hobbs, Russo and later Hegel`s ideas on moral alientation, as well as the alientation of political rights and soul. For the disclosure of the general historical character of alientation article analyzes its essence.

Keywords: society, personality, alienation, loneliness, globalization, modernization

İQTİSADİYYAT VƏ İDARƏETMƏ BÖLMƏSİ

UOT – 330.8

Fəhrad Möhbalıyev
Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası, i.ü.f.d., dosent
Nurəngiz Mikayılova
Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası, i.ü.f.d.

AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN DÖVLƏT QURUCULUĞU SAHƏSİNDƏ HƏYATA KEÇİRDİYİ SOSİAL-İQTİSADİ SİYASƏTİN ƏSAS İSTİQAMƏTLƏRİ

Məqalədə başlıca diqqət Azərbaycan Xalq Cümhuriyyətinin dövlət quruculuğu sahəsində həyata keçirdiyi sosial-iqtisadi inkişafın əsas istiqamətlərinin təhlilinə yönəlmişdir. Eyni zamanda Azərbaycan Xalq Cümhuriyyətinin sosial-iqtisadi münasibətlər sahəsində həyata keçirdiyi strategiya və taktika ətraflı araşdırılır. Məqalədə bununla yanaşı Azərbaycan Xalq Cümhuriyyətinin iqtisadi platformasının mahiyyəti, sənaye sahələri, o cümlədən neft sənayesi, kənd təsərrüfatı, mülkiyyət münasibətləri, maliyyə-bank sistemi, pulun emissiyası və sosial siyasət geniş təhlil edilir. Bundan əlavə məqalədə Azərbaycan Xalq Cümhuriyyətinin bir sıra qonşu və Avropa dövlətləri ilə ikitərəfli və çoxtərəfli iqtisadi-ticari əlaqələri də ətraflı təhlil edilmişdir.

Qədim dövrlərdə və orta əsrlərdə ölkələr arasında iqtisadi əlaqələr Aralıq dənizi və Qara dəniz sahillərindəki başlıca ticarət mərkəzləri vasitəsilə həyata keçirilirdi. Asiyanın daxilindən, Çin və Hindistandan Aralıq dənizi və Qara dəniz sahillərinə uzanan başlıca karvan yolları, xüsusilə "Böyük İpək Yolu" Azərbaycan torpaqlarından keçirdi. Şərqi Avropanı (Rusiya daxil olmaqla) və Volqa sahilini, Dərbənd keçidi vasitəsilə Cənubi Qafqaz, İran və Mərkəzi Asiyaya bağlayan məşhur karvan yolu da yenə Azərbaycandan keçirdi. Beləliklə, ölkə daxilindən keçən beynəlxalq karvan yolları dünya dövlətlərinin diqqətini qədimlərdən bəri Azərbaycana yönəltmişdi. Azərbaycan, sanki Qərb ilə Şərq arasında "qızıl körpü" rolunu oynayırdı. Belə bir coğrafi mövqeyə sahib olması səbəbiylə Azərbaycan XIX əsrin əvvəllərində, 1813-cü ildə "Gülüstan", 1828-ci ildə "Türkmənçay" müqavilələri ilə Şimali Azərbaycan və Cənubi Azərbaycan olmaqla iki yerə parçalanaraq, Rusiya və İran tərəfindən bölüşdürüldü. 1917-ci il bolşevik inqilabından sonra 28 May 1918-ci ildə Məhəmməd Əmin Rəsulzadənin başçılığı altında qurulan və Türkiyə tərəfindən də dərhal tanınan Azərbaycan Demokratik Respublikası təəssüflər olsun ki, qısa ömürlü oldu.

Bu gün müstəqilliyə və suverenliyə qovuşmuş Azərbaycan xalqı dövlətçiliyini möhkəmləndirmək, iqtisadi islahatları həyata keçirmək kimi məsələləri həll edir. Öz kökünə, tarixinə, ənənələrinə qayıdır, tarixi təcrübədən faydalanmağa çalışır. Azərbaycan Prezidenti ulu öndər Heydər Əliyevin dediyi kimi, "dövlət quruculuğunda nəinki tarixi və milli ənənələrimiz nəzərə alınır, həm də dünya təcrübəsindən, demokratik prinsiplərdən istifadə edilir" [1]. 1918-20-ci illərdə Azərbaycanda mövcud olmuş parlamentli, demokratik respublika formasında dünyəvi bir dövlət uzun illər geniş ictimaiyyət, hətta tarix elmi üçün qaranlıq bir səhifə kimi qalmış, yaddaşımızdan tamamilə silinmişdir. İndiki mədəni dünyada əsas demokratik normalar sayılan xalq hakimiyyəti, insan haqları, milli və irqi bərabərlik, söz, mətbuat, ittifaqlar azadlığı kimi dəyərlər Yaxın və Orta Şərqdə ilk dəfə olaraq, Azərbaycan Xalq Cümhuriyyətində elan edilmiş və əməli həyata keçirilmişdi. Çar Rusiyasının dağılmasından sonra onun ucqarlarında yaranmış siyasi qurumlar içərisində Azərbaycan Xalq Cümhuriyyəti ən demokratik dövlətlərdən biri idi, onun dövlət strukturlarında Azərbaycanda fəaliyyət göstərən bütün siyasi partiyalar, milli azlıqlar və az-çox əhəmiyyətli ictimai təşkilatlar təmsil olunmuşdu. Tarixi keçmişimizə və onun müasirliklə əlaqəsinə dair Azərbaycan Respublikasının Prezidenti ulu öndər Heydər Əliyevin aşağıdakı fikri tariximizin və bu günümüzün qiymətləndirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir: "1918-ci ildə yaranmış Azərbaycan Demokratik Cümhuriyyəti

bizim milli sərvətimizdir, tariximizin parlaq səhifəsidir. Ondan sonrakı illər, onilliklər də həyatımızın böyük mərhələləridir, parlaq səhifələridir, xalqımızın böyük nailiyyətidir. Məhz bunlar hamısı birlikdə indiki müstəqil Azərbaycanın həm iqtisadi, həm intellektual, həm də mədəni potensialını yaradıbdır" [2].

Cümhuriyyət hökuməti ictimai-siyasi həyatın digər sahələrində olduğu kimi, müstəqil milli iqtisadiyyat quruculuğu və sosial sahədə də mühüm tədbirlər həyata keçirirdi. "Azərbaycan Xalq Cümhuriyyətinə abidə ucaldılması haqqında" Azərbaycan Respublikası Prezidenti Heydər Əliyev cənabları tərəfindən imzalanan sərəncamında göstərildiyi kimi, "Gərgin və mürəkkəb ictimai-siyasi şəraitdə fəaliyyət göstərmiş Azərbaycan Xalq Cümhuriyyətinin demokratik dövlət quruculuğu, iqtisadiyyat, mədəniyyət, təhsil, hərbi quruculuq və sair sahələrdə həyata keçirdiyi işlər xalqımızın tarixində dərin iz buraxmışdır" [2]. Azərbaycan Xalq Cümhuriyyəti müstəqil Azərbaycan ideyasını müstəqil Azərbaycan iqtisadiyyatı yaratmaqla reallığa çevirmək üçün ciddi addımlar atdı. İstiqlalın görkəmli öndərləri olan Məhəmməd Əmin Rəsulzadə, Fətəli xan Xoyski, Əlimərdan bəy Topçubaşov və başqalarının sosial-iqtisadi baxışlarında elə bir demokratik cəmiyyətin qurulması nəzərdə tutulurdu ki, orada vətəndaşlar arasında siyasi bərabərliyin bərqərar edilməsi ilə yanaşı, sosial ədalətsizlik də aradan götürülsün. Xalqımızın müstəqillik idealının gerçəkləşdirilməsində, Azərbaycanın tarixi dövlətçilik ənənələri zəminində milli dövlət quruluşunun dirçəldilməsində, milli istiqlal ideyalarının geniş yayılmasında böyük xidmətlər göstərmiş və siyasi publisistikası ilə ədəbi-ictimai fikir tariximizə layiqli töhfələr vermiş görkəmli ictimai-siyasi xadim [3] Məhəmməd Əmin Rəsulzadənin "Fikri, milli və siyasi istiqlalların kökü iqtisadi istiqlaldır" konsepsiyası Azərbaycan Xalq Cümhuriyyətinin bütün fəaliyyəti dövründə daim diqqət mərkəzində saxlanılırdı.

Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması və inkişafı təkcə yeni siyasi sistemin əsaslarının qurulmasını deyil, həm də **yeni iqtisadiyyatın** təməlinin qurulmasını nəzərdə tuturdu. İqtisadi dəyişikliklərin müvəffəqiyyəti ölkədə siyasi islahatların nə dərəcədə aparılmasından çox asılı idi. Müstəqil Azərbaycan dövlətinə qalmış mirasın-birinci dünya müharibəsinin nəticələri, Cənubi Qafqazda, eləcə də Azərbaycanın özündə, ikihakimiyyətlilik dövründə iqtisadiyyatdakı anarxiya və hərc-mərclik, ölkənin varidatının, Azərbaycan xalqının düşmənləri - Bakı kommunarları tərəfindən talan edilməsi və nəhayət, müstəqil cümhuriyyətin ərazisində ingilis qoşunlarının olması iqtisadiyyatın demək olar ki, tam dağılmasının və bununla bağlı məsələlərin həll edilməsində hökumətin qarşısında duran çətinliklərin böyüklüyü haqqında fikir söyləməyə imkan verir. Gənc cümhuriyyətin qarşısında duran vəzifə təkcə bütün dağılmış təsərrüfatı bərpa etməkdən deyil, həm də yeni iqtisadi sistemin prinsiplərini müəyyənləşdirməkdən, iqtisadi islahatlar keçirməyə başlamaqdan ibarət idi.

Azərbaycan Xalq Cümhuriyyətinin iqtisadi platformasında **mülkiyyət plüralizmi** - dövlət mülkiyyəti, xüsusi, şəxsi, səhmdar, bələdiyyə mülkiyyəti və digər mülkiyyət formalarının inkişafı üçün bərabər imkanlar yaradılması nəzərdə tutulurdu. Bolşevizmdən fərqli olaraq, Cümhuriyyət liderləri fabrik, zavod, torpaq və digər əsas istehsal vasitələri üzərində xüsusi mülkiyyəti rədd etmirdilər. Əksinə hesab edirdilər ki, bu cür mülkiyyəti tamamilə aradan qaldırmaq indiki vəziyyətdə insanların şəxsi təşəbbüs qüvvətini zorakı olaraq aradan götürür. Eyni zamanda, xüsusi mülkiyyətin miqyası müəyyənləşdirilir, bu işdə ifrata varmağın zərərli olduğu göstərilirdi. Qeyri-məhdud mülkiyyət hüququ və mənimsəmədə ifratçılıq xüsusi mülkiyyətin yoxluğu qədər zərərli sayılırdı. "Hər bir əkinçi özünün əkib-biçə biləcəyi miqdarda torpağa sahiblik etməlidir!" prinsipini əsas götürən Azərbaycan islahatçıları geniş torpaqları ölü halında buraxan torpaq sahiblərinin mülkiyyət haqqını rədd edirdilər. Bu cür torpaq sahələri əvvəlki sahiblərindən alınıb, əkinçi vətəndaşlar arasında yenidən bölüşdürülməli idi. Azərbaycan Xalq Cümhuriyyətinin iqtisadi siyasətində nəzərdə tutulurdu ki, xüsusi mülkiyyətin mövcudluğu mülkiyyətin tamamilə xırdalanmasına aparmamalıdır. Xüsusən də, fabrik və zavodların xırdalanması yolverilməz hesab edilirdi. Respublikanın iqtisadi qanunvericiliyinə görə dövlət mülkiyyətinə, qismən də bələdiyyə mülkiyyətinə dövlətin sərvət və gəlir qaynağını təşkil edən "yeraltı mədənlər", həmçinin "dəmir yolu, işıq, su, teleqraf və sair bu kimi ümumi işlərə xidmət edən quruluşlar" daxil edilirdi.

Azərbaycan Xalq Cümhuriyyətinin aqrar proqramının əsasını aqrar islahatı haqqında Parlamentə təqdim olunmuş "Müsavat" fraksiyasının və Əkinçilik Nazirliyinin mövqeyini əks etdirən qa-

nun layihələri təşkil edirdi. Göstərilən qanun layihələrinin hər ikisinin məqsədi müəyyən fərqlərinə baxmayaraq, torpaqsız və aztorpaqlı əhalini torpaqla təmin etmək idi. Həm də xüsusi torpaq mülkiyyətini ləğv etmək deyil, torpağı xüsusi mülkiyyətə elə istehlak normaları üzrə vermək nəzərdə tutulurdu ki, bir tərəfdən kənd əhalisini gəlirlə təmin etmək mümkün olsun, digər tərəfdən istifadəsiz xüsusi sahibkar torpaqları qalmasın. "Müsavat" fraksiyasının qanun layihəsində torpaqların əvəzsiz paylanması, digər qanun layihəsində isə müəyyən əvəz müqabilində verilməsi nəzərdə tutulurdu. Birinci qanun layihəsində əvvəlki sahibkarların mülkiyyətində 75 desyatin, digər qanun layihəsində isə yerli şəraitdən asılı olaraq, müxtəlif miqdarda torpaq sahəsinin saxlanması müəyyənləşdirilmişdi. Mövcud olduğu 23 ay ərzində Cümhuriyyət Hökuməti bir sıra cari təsərrüfat məsələlərinin həllində mühüm uğurlar qazanmışdı. Neft sənayesi ağır vəziyyətdən çıxarılmış, dağıdılmış Bakı - Batum neft kəməri bərpa olunmuş, Bakı-Culfa dəmiryolu inşası davam etdirilmiş, Kür çayı üzərində körpü salınmış, Azərbaycan Dövlət Bankı yaradılmış, milli pul nişanları buraxılmış, Xəzər dəniz gəmiçiliyi inkişaf etdirilmişdi.

Neft və neft sənayesi Azərbaycan iqtisadiyyatının əsas özəyini təşkil edirdi. Məhz neft məsələsində iqtisadiyyat hər şeydən çox siyasət ilə, özü də dünya siyasəti ilə bağlı idi. Məlumdur ki, keçən əsrin 90-cı illərindən Rusiya imperiyasında istehsal olunan neftin ümumi həcminin 85%-i Bakının payına düşmüşdü. Bu rəqəm dünya neft istehsalının təxminən yarısını təşkil edirdi. Birinci dünya müharibəsinin ilk 4 ili ərzində, yəni 1914-cü ildən 1917-ci ilə qədər Bakı ildə 7 milyon ton neft istehsal etmişdi ki, bu da dünyada istehsal olunan neftin ümumi həcminin 75%-nə bərabər idi. Müharibə edən bütün ölkələrin Bakı regionuna olan təbii marağı da buradan irəli gəlirdi. Birinci dünya müharibəsinin sonlarında Bakının əldən-ələ keçməsi nəticəsində neft sənayesi ciddi itkilərə məruz qalmışdı, neft hasilatı xeyli azalmışdı. Bu, xüsusilə bolşeviklərin neft sənayesindəki talançı istismarına aiddir. 1918 və 1919-cu illərdə müvafiq olaraq hasil olunan 3,376 min ton və 3,690 min ton neftin ümumi həcmi 1916-cı il hasilatının yalnız yarısına bərabər idi. Neft sənayesini böhrandan çıxarmaq yolunu tutan Azərbaycan Xalq Cümhuriyyəti hökuməti yarandığı ilk gündən bu sahədə konkret addımlar müəyyənləşdirdi. Azərbaycan parlamenti neft istehsalı və satışın öz nəzarəti altına aldı, neft sənayesinin rentabelliyinin yüksəlməsinə yardım edən bir sıra qanunverici sənədlər qəbul etdi. Vaxtilə S.Şaumyan hökuməti Sovet Rusiyasının arzusu naminə neft stansiyasının milliləşdirilməsini elan etdiyindən, indi milli hökumətin ilk zəruri addımı 1918-ci il oktyabrın 6-da neft sənayesinin özəlləşdirilməsi haqqında qərar verməsi oldu. 1918-ci il oktyabrın 7-də hökumətin neft mədənləri və zavodlarını, Xəzər ticarət donanması gəmilərini neft firmaları və gəmi sahiblərinə qaytarmağı nəzərdə tutan dekreti nəşr olundu və bununla da hökumət neft sənayesində xüsusi mülkiyyət prinsipini bərpa etdi. 638 günlük iş saatı, müştərək müqavilə və "istehsal üzərində fəhlə nəzarəti" ləğv edildi [7, s.7].

Neft Azərbaycanın ixracatının əsas mənbəyi olduğundan hökumət onun müxtəlif istiqamətlərdə ixracını bərpa etməyə çalışırdı. Məlum səbəblərə görə, Rusiya bazarı Cümhuriyyət üçün itirildiyindən bütün diqqəti Azərbaycanı dünya bazarı ilə birləşdirən Bakı-Batum neft kəmərinin işini bərpa etməyə yönəltmək lazım idi. Neft kəmərinin taleyi çox mürəkkəb idi. Onun tikintisinə hələ XIX əsrin sonlarında, 1897-ci ildə başlanmış, 1907-ci ilin iyulunda isə başa çatmışdır. Neft kəmərinin ümumi uzunluğu 830 km idi və onun marşrutu Zaqafqaziya dəmiryolu boyunca keçirdi. 1917 və 1918-ci illərdə neft kəməri üzərində iş aparılması haqqında rast gəlinən müxtəlif məlumatlar, mahiyyət etibarı ilə məhz həmin neft kəmərinin fəaliyyətinə aid idi. Məlumdur ki, ilk başlanğıcda Bakı neft sənayeçiləri onun məhz neft kəməri kimi inşa edilməsinə etiraz edirdilər. Uzun və gərgin mübarizədən sonra Zaqafqaziya dəmiryolu idarəsinə yol boyu Bakı-Batum magistral boru xəttini inşa etməyə icazə verilmişdi. Amma bu dəfə kəmərlə ağ neftin ötürülməsi nəzərdə tutulduğundan onun inşasına neft sənayeçiləri etiraz etmədilər. Bununla Bakı neft zavodları sahiblərinə Qara dəniz sahillərində rəqiblərin meydana gəlməsi təhlükəsi sovuşmuş olurdu. Bu ağ neft kəməri neft emaletmə sənayesi mərkəzi kimi Bakının mövqeyini möhkəmlətdi. Təəssüflər ki, sonralar məhz 1917-ci il iyulun 1-də ağ neft kəməri qara neft ötürən kəmərə çevrildi. Azərbaycanın müstəqilliyi elan olunduğu məqamda neft kəməri işləmirdi. Bakı-Batum marşrutu ilə neft ötürülməsi yalnız 1918-ci il dekabrın 12-də bərpa olundu.

Bunun ardınca, 1918-ci il dekabrın 26-da Azərbaycanla Gürcüstan arasında "Azərbaycan dəmiryolunun Zöyəm stansiyasından Gürcüstan dəmiryolunun Saloğlu stansiyasınadək neft ötürülməsinin müvəqqəti qaydaları" haqqında tranzit müqaviləsi bağlandı. Neft sənayeçiləri ittifaqı yanında neft kəmərinin ehtiyatı üçün firmalar arasında neftin pay bölgüsü siyahısını müəyyən edən xüsusi Şura mövcud idi. Neft sənayesi işlərinin bərpa olunduğu dövrdə Azərbaycanda Bakıda, Biləcəridə, Hacıqabulda, Yevlaxda, Dalmalıoğluda, Gəncədə, Şamaxıda və Ağstafada 25 anbar var idi. Neftin əsas ötürülməsi Bakı-Batum kəməri ilə həyata keçirilirdi. Neft kəmərinin işlədiyi müddət ərzində Azərbaycan Gürcüstana külli miqdarda neft göndərmişdi.

Gürcüstanla Azərbaycan arasında tranzit müqavilənin imzalanmasının hər iki dövlətin həyatında həm siyasi, yəm də böyük iqtisadi əhəmiyyəti var idi. Neftlə zəngin Azərbaycan üçün, birinci növbədə, əhalinin ilkin zəruri ərzaq məhsulları və kağız pula tələbatını təmin etmək lazım idi. Buna görə də hökumət nefti ərzağa dəyişməyi qərara aldı. Azərbaycan Gürcüstandan neftin əvəzində puldan başqa odun kömürü, lobya, kələm, şəkər, habelə avtomobil şinləri alırdı. Gürcüstanın Azərbaycanı kifayət qədər şəkər və taxılla təmin edə bilməməsindən Azərbaycan hökuməti uzaq Ukraynaya müraciət etməli olmuşdur və bu dəfə də Gürcüstanın ərazisindən Qara dənizədək tranzit kimi istifadə olunmuşdur. Eyni zamanda, Azərbaycanla İtaliya arasında ticarət miünasibətləri meydana gəlməyə başladı. 1920-ci ilin əvvəllərində Bakı-Tiflis dəmiryolu və ardınca Qara dənizə çıxmaqla barter sövdələrinin həyata keçirilməsinə başlanıldı. İtaliya Azərbaycana manufaktura malları, ayaqqabı və digər gündəlik tələbat mallarını göndərib əvəzində xam neft və neft məhsulları alırdı. Tranzit müqaviləyə qayıdaraq qeyd etmək lazımdır ki, o, Gürcüstan üçün çox əlverişli şərtlərlə bağlanmışdı. Belə ki, müqaviləyə görə neftin Qara dənizədək ötürülməsində Gürcüstan ərazisindən tranzit kimi istifadə edildiyindən neftin bir hissəsini qonşu dövlət müftə alırdı. Neft kəməri ilə Qafqazdakı Britaniya komandanlığına da neft ötürülürdü. Belə ki, yalnız 1918-ci il oktyabrın 1-dən 1919-cu il aprelin 1-dək Bakı stansiyalarından Saloğlu stansiyasınadək (Gürcüstan ərazisi) 6.168.000 pud neft ötürülmüşdü. Bunun 3.220.754 pudu ingilis komandanlığına, 281.160 pudu isə Gürcüstan hökumətinə göndərilmişdir. Neft kəmərinin fəaliyyətinin bərpa edilməsindən sonra isə, yəni 1918-ci il dekabrın 12-dən 1919-cu il aprelin 1-dək, Gürcüstan dəmir yoluna 3.882.808 pud neft verilmişdi. Bu vaxtadək alınmış neftə görə Gürcüstanın Azərbaycana borcu 15.940.364 rubl. 44 qəpiyə çatmışdı [6, s.42].

Ümumiyyətlə, yuxarıda göstərildiyi kimi, qara neftin kəmərlə daşınması sərfəli gəlir mənbəyi deyildi. Sözsüz ki, ağ neftin daşınması sərfəli idi. Neft sənayeçiləri ittifaqı Şurasının tələbi və İngilis komandanlığı nümayəndələrinin iştirakı ilə 1919-cu il mayın 20-də Şuranın iclası oldu. Orada neft kəmərinin ilkin funksiyasına - yəni ağ neftin daşınması-qayıtması məsələsi xüsusi olaraq müzakirəyə qoyuldu. 1919-cu il mayın ortalarında Azərbaycan anbarlarında 15 milyon pud ağ neft ehtiyatı, 70 milyon pud isə ağ neft emal etmək üçün xam neft ehtiyatı var idi. Bu, ağ neft ötürülməsi işlərinin bərpa olunmasına potensial imkanların varlığı demək idi. Təəssüflər olsun ki, Cümhuriyyətin mövcudluğu müddətində bu layihəni axıradək başa çatdırmaq mümkün olmamışdı. Hətta əksinə, bütün neft sənayesində tənəzzül baş vermişdi. Əgər müharibəyə qədərki 1913-cü il göstəricilərini 100% kimi qəbul etsək, onda 1920-ci ilin rəqəmləri müharibədən əvvəlki rəqəmlərlə müqayisədə belə idi: quyu qazılması - 3,49%, neft hasilatı -39,18%, neft e'malı - 34,54%.

Məlumdur ki, Azərbaycan üçün Rusiya bazarının itirilməsi neft sənayesindəki böhranın əsas səbəbi idi. Azərbaycan neftinə kəskin ehtiyacı olan Rusiya ilə iqtisadi münasibətlərin bərpa olunmasını nəzərdə tutaraq, respublikanın iqtisadi yönümünün dəyişilməsini elan edən dördüncü hökumətin başçısı edən N.Usubbəyovun cəhdlərinə baxmayaraq, bu dönüşü həyata keçirmək mümkün olmamışdı. Bolşevik Rusiyasının xarici siyasətinin təcavüzkar xarakteri Azərbaycana bu dövlətlə normal iqtisadi əlaqələr yaratmağa imkan verməmişdi. Rusiya dövləti işğal yolu ilə Azərbaycan neftinə sahib olmağa üstünlük verdi.

Azərbaycan **aqrar** ölkəsi olduğundan torpaq məsələsi ən kəskin iqtisadi, sosial və siyasi məsələlər sırasına daxil idi. Kənd təsərrüfatı neft sənayesindən sonra iqtisadiyyatın əsas özəyini təşkil edirdi. 1917-ci ildə kəndli sektorunun sosial strukturu aşağıdakı kimi idi:

- yoxsul təsərrüfatları - 54,4%;

- ortabablar - 34%;
- qolçomaqlar - 6,2% [8, s.212].

İslahatların keçirilməyə başlandığı dövrdə Azərbaycanda torpaq mülkiyyəti formalarının qısa xarakteristikası bundan ibarət idi. Belə ki, mülkiyyət formalarından dövlət və mülkədar torpaq sahibliyi üstünlük təşkil edirdi. Mülkədarların mülkiyyətində 29,6%, dövlətin payında isə 68,8% torpaq olduğu halda, bütün kənd təsərrüfatı sahəsinin yalnız 1,8%-i kəndlilərə məxsus idi. Torpaqsız və aztorpaqlı kəndlilər mülkədarlardan torpaq icarə etməyə və ya muzdur kimi işləməyə məcbur idilər. İcarə Azərbaycanın bütün qəzalarında torpaqdan adi istifadə forması idi. Mülkədar təsərrüfatlarında muzdlu əməkdən geniş istifadə olunurdu. Bu iş "Torpaq layihəsi" deyilən bir sənədin müəllifləri tərəfindən yerinə yetirilirdi. Azərbaycan hökuməti başa düşürdü ki, bu "qanunla" kütlə arasına çıxmaq mümkün deyil və dövlətin həyati maraqlarına cavab verə biləcək daha ciddi sənəd lazımdır. Məhz buna görə də F.Xoyski 1918-ci il iyunun 22-də "aqrar qanunun" şərtlərinin Azərbaycan Cümhuriyyətinin ərazisinə şamil edilməməsi haqqında fərman vermişdi. Hökumət kabinetinin formalaşmasından sonra ilk çıxışında F.Xoyskinin millətin tərəqqisi üçün siyasi və təsərrüfat sərbəstliyinin zəruriliyini qeyd etməsi dövlətin ictimai tərəqqini aqrar məsələnin uğurla həll edilməsi ilə bilavasitə bağlandığını sübut edir. Zəhmətkeşlərin mənafeyinin təmin edilməsi bəyanatda xüsusi yer tuturdu. Belə ki, kəndli və fəhlə ünsürlərinin təminatı, qayğısı hökumətin ən başlıca vəzifəsi olmalı, torpaq kəndliyə havayı verilməlidir. Lakin məlum oldu ki, belə sosial islahatın istiqamətini nəzərdə tutmaq, müvafiq qanunvericiliyin qəbul edilməsindən daha asan imiş. Bu sahədə cüzi zaman fərqilə iki istiqamətdə - parlament komissiyası çərçivəsində və hökumət səviyyəsində iş gedirdi. "Torpaq islahatı haqqında" Qanun layihəsinin hazırlanması ilə əlaqədar olaraq 1919-cu il fevralında Səməd bəy Ağamalıoğlu başda olmaqla müxtəlif siyasi fraksiyalarının nümayəndələrindən olan 9 nəfərdən ibarət parlament aqrar komissiyası yaradıldı. Komissiyanın rəngarəng siyasi tərkibi qanun layihəsini lap əvvəldən müvəffəqiyyətsizliyə məhkum etmişdi, çünki məlum olduğu kimi partiyaların aqrar məsələ üzrə yekdil nöqteyi-nəzəri yox idi. Ona görə də layihənin alternativ variantına malik olmayan komissiya Seymin 1918-ci il martın 7-də qəbul olunmuş "Aqrar qanunu"n əsasları ilə kifayətlənməli olmuşdu. Həm də komissiyanın sədri S.Ağamalıoğlu vaxtı ilə Seym variantının tərtib olunmasında iştirak etmişdi. Görünür, bu səbəbdən yeni layihə əvvəlcə qeyd olunduğu kimi dövrün tələbinə cavab verməyib.

1919-cu il avqustun sonu-sentyabrın əvvəllərində, nəhayət, torpaq komissiyası layihə üzərində işini tamamladı. Layihənin əsas tezisləri aşağıdakılardan ibarət idi:

1) respublika ərazisindəki bütün torpaqlar dövlətin mülkiyyətidir;

2) torpaq əvəzsiz olaraq dövlətin ixtiyarına keçir;

3) əvvəlki mülklərinin müəyyən hissəsi aşağıdakı normalar üzrə əsas sahibkarlarda onların istifadəsi üçün saxlanılır: 1-ci kateqoriya torpaqlar - 7 desyatin (bağlar və becərilən torpaqlar), 2-ci kateqoriya torpaqlar - 15 desyatindən 29 desyatinədək (əkin yerləri); 3-cü kateqoriya - 40 desyatindən 50 desyatinədək (otlaqlar).

Bütün qalan torpaqlar dövlət torpaq fonduna daxil edilir. Torpaq haqqında qanunun son variantı Azərbaycan Müəssislər Məclisi tərəfindən təsdiq olunmalı idi. Lakin layihə olduğu şəkildə də havadan asılı vəziyyətdə qaldı. Məhz buna görə də 1919-cu il iyunun 6-da Nazirliyin nəzdində aqrar islahatlar şöbəsi təsis edildi və ona tapşırıldı ki, bir ay müddətinə aqrar islahatlar layihəsini bəyənilmək üçün Nazirlər Kabinetinə təqdim etsin. Nazirlikdə işlər kifayət qədər sürətlə aparılırdı və artıq 1919-cu ilin avqustunda Ziraət nazirinin müavini Hidayət bəy Sultanovun rəhbərliyi altında 2 qanun layihəsi başa çatdırıldı:

1) "Azərbaycan Cümhuriyyəti əhalisinin torpaq təminatı haqqında";

2) "Xüsusi sahibkar meşələrinin dövlətin mülkiyyətinə çevrilməsi haqqında".

Qanun layihələrində qoyulan əsas məsələlər xüsusi sahibkar torpaqlarının əhalinin hansı kateqoriyasından nə qədər və hansı şərtlərlə dövlət torpaq fonduna keçirilməsi haqqındakı məsələlər idi. Bu məsələlərdən birincisini Ziraət Nazirliyi xüsusi sahibkar torpaqlarını, torpağın istismar zamanı verdiyi gəlir qədər əvəzi ödənilməklə özgələşdirilməsi yolu ilə həll etməyi nəzərdə tuturdu. Nazirlik belə hesab edirdi ki, xüsusi sahibkar torpaqlarını əvəzi ödənilmədən müsadirə etmək xüsusi mülkiy-

yəti ləğv etməyə bərabərdir. Buna görə də qanun layihəsi torpağın əkinçi əhaliyə yalnız istehlak norması üzrə xüsusi mülkiyyətə verilməsini nəzərdə tuturdu.

Azərbaycan Cümhuriyyəti ərazisinin tərkibi
(ayrı-ayrı kateqoriyalar üzrə torpaq sahibliyinə bölunməsi)
Desyatinlə (1 des. = 1,0982 ha)

Cədvəl 1

Quberni-yalar	Ərazisi	Yararlı Torpaq (k/t və meşə üçün)	Yararsız torpaq (şəhərlər, yaşayış məntəqələri və s.	Nadel torpaqları	Dövlət torpaqları	İcarə kəndli torpaqları	Meşələr
Bakı	3.570.235	2.590.453	979.782	1.424.270	94.958	5.546	823.894
Gəncə	4.054.078	3.317.923	736.155	1.400.010	43.961	35.858	1.178.967
Zaqatala	364.793	289.566	75.226	140.865	464	1.569	96.008
Yekun	7.989.106	6.197.942	1.791.198	94.958	139.383	42.973	2.098.869

Mənbə: [8, s.217].

Lakin bu qanun layihələrinin də taleyi parlament qanun layihəsinin taleyini təkrar etdi. Azərbaycanda baş vermiş hökumət böhranı onların heç müzakirə olunmasına da imkan vermədi. Baş nazir Nəsib bəy Usubbəyovun Cümhuriyyətin kifayət qədər radikal dünyagörüşlü daha gənc siyasi xadimlərindən təşkil etdiyi yeni hökumət kabineti özünün yeni aqrar kurs işləyib hazırlamaq əzmində olduğunu bəyan etdi. Ziraət Nazirliyinin işləri sosialist Əhməd Cövdət bəy Pepinova həvalə edildi. O, ləngimədən qanun layihəsini təkmilləşdirilmək üçün onun Nazirliyə qaytarılmasını tələb etdi. 1920-ci il martın əvvəllərində Nazirlik "Xüsusi sahibkar torpaqlarının dövlət torpaq fonduna keçirilməsi və Azərbaycan Cümhuriyyəti əhalisinin torpaqla təmin olunması haqqında qanunun yeni layihəsi üzərində işi başa çatdırıb, onu baxılmaq üçün hökumətə təqdim etdi. Bu qanun layihəsinin əsasında Azərbaycan sosial-demokratiyası tərəfindən bəyənilən Gürcüstan sosial-demokrat hökumətinin aqrar qanunu dururdu. Bu layihədə əsasən kənd yerlərində olan xüsusi sahibkar hüquqi şəxslərin bütün torpaqları, o cümlədən monastır, vəqf, məscid və kilsə torpaqları, habelə şəhər yerləri hüdudunda olan və şəhər mülkiyyətinə daxil olmayan torpaqlar sahiblərindən alınır və əvəzsiz olaraq dövlət torpaq fonduna verilirdi. Mülkiyyəti əlindən alınmış sahibkarlar üçün saxlanılan torpaq sahəsinin ölçüsü kənd yerlərinin becərilmə şəraitinə uyğun olaraq müəyyən edilirdi.

Parlament komissiyası torpağın əvəzsiz olaraq alınması şüarı israrında davam edirdi. Bu layihənin parlamentə təqdim olunması təəccüb doğurmur. Ölkədə vəziyyət gərginləşmişdi. Hökumət hələ də aqrar qanunun müzakirəsinə başlamamışdı. M.Ə.Rəsulzadə çox haqlı olaraq göstərmişdi ki, bu məsələdə tələskənlik, eləcə də onu həddən ziyadə uzatmaq eyni dərəcədə mənfi nəticələrə gətirib çıxara bilər. 1920-ci il fevralın 16-da parlamentin növbəti iclasında "Müsavat" fraksiyası öz partiyası aqrar məsələ üzrə qurultayda bəyənilmiş qanun layihəsini təqdim etdi. "Müsavat" partiyasının qanun layihəsi də xüsusi sahibkar torpaqlarının əvəzsiz olaraq alınıb dövlət torpaq fonduna verilməsini nəzərdə tuturdu. Lakin burada göstərilirdi ki, sahibkarların mülkiyyətində bağ və həyətlər də daxil olmaqla, 25-75 desyatin torpaq saxlanılır.

Müstəqil dövlətin atributu kimi milli pul vahidinin buraxılması Cümhuriyyətin maliyyə siyasətinin mühüm uğuru idi. 1918-ci ilin əvvəlindən Bakıda yeni kağız pullar – "Bakı bonları" buraxıldı (bu zamanadək tədavüldə "Nikolay" pulları və "Kerenski" pul vahidləri işlənirdi).

Müsəlman dünyasında ilk demokratik dövlət olan Azərbaycan Cümhuriyyətinin – Azərbaycan Demokratik Respublikasının ilk müstəqil **pul emissiyasının** tarixi 1919-cu ilin əvvəlində tədavülə buraxılan 25, 50, 100 və 250 manatlıq əskinaslarla başlayır. Əskinasın üz tərəfində Cümhuriyyət,

arxa tərəfində isə rus dilində "Азербайджанская Республика" ifadələri, əskinasın nominal dəyəri və buraxıldığı tarix göstərilmişdir.

1919-1920-ci illərdə buraxılmış pul vahidlərinin adları Azərbaycan dilində manatla, rus dilində isə rubl ilə verilib. Burada əsas məqsəd uzun illər işlədilən və hələ də dövriyyədə qalan Rusiya pul nişanlarına öyrəşən əhalinin tədricən yeni milli pul vahidinə inamının artırılması idi. Eyni zamanda, Azərbaycan Cümhuriyyətinin bu sahədəki iqtisadi siyasəti milli valyuta – manatın beynəlxalq miqyasda tanınması ilə bağlı olub. Məhz buna görə də Fransa hökumətinin dəstəyini hiss edərək (qismən də fransız dilinin beynəlxalq dil olduğunu nəzərə alaraq), Cümhuriyyət 500 manatlıq əskinasların üzərində Respublikanın və nominalın adlarını fransız dilində də verməyi lazım bilmişdi.

1919-cu ilin iyulunda Azərbaycan Respublikasında keçirilən birjada milli valyuta kursunun xarici valyutalara olan nisbəti valyuta kursunun xarici valyutalara münasibətdə

Cədvəl 2

1000 rubl ("kerenski")	1850 manat
500 rubl ("romanovka")	1600 manat
100 rubl ("romanovka")	350 manat
1 funt sterlinq	310-315 manat
1 dollar	250 manat
1 frank	8-10 manat
1 italyan lirəsi	7 manat
1 iran tüməni	125-130 manat
1 türk qızıl lirəsi	390 man
1 rus qızıl rublu	420 man
1 nobel aksiyası	16,500 manat

Mənbə: [8, s.226].

İqtisadi münasibətlərin və iqtisadi əlaqələrin getdikcə inkişaf etməsi və güclənməsi tədavül sferasında pul kütləsinin həddən artıq şişməsinə gətirib cıxartdı ki, bu da ölkədə inflyasiya proseslərini sürətləndirdi və nəticədə manatın alıcılıq qabiliyyəti digər valyutalara nisbətdə aşağı düşdü. Belə ki, 1919-cu ilin oktyabrında 1 funt 525 manat, noyabrın əvvəllərində isə 730 manat oldu.

Milli pul vahidinin möhkəmləndirilməsi, onun alıcılıq qabiliyyətinin qorunub saxlanması ilk vaxtlardan hökumətin iqtisadi siyasətinin əsas məsələsi oldu. Çünki milli valyuta inflyasiya şəraitində dövriyyəyə buraxılmışdı. Hökumət həm əvvəlki dövrdən miras qalan, həm də respublikanın mövcudluğu dövründə baş verən inflyasiyaya qarşı mübarizə aparmalı olurdu. Bu məqsədlə müstəqil dövlətin maliyyə, vergi, bank-kredit sistemi yaradıldı. 1919-cu ilin sentyabrında Azərbaycan Xalq Cümhuriyyətinin **Dövlət Bankı** açıldı. Maliyyə Nazirliyinin 1919-cu il 20 iyul tarixli qərarı ilə əmtəələrin sərbəst ixracına nail olunması nəzərdə tutulurdu. Parlament xəzinəyə müəyyən rüsum (ixrac olunan xammalın dəyərinin 25 faizi qədər) keçirmək şərti ilə xammal ixracına icazə verilməsinə dair qanun (1919, 11 dekabr) qəbul etdi. Xaricə gizli yolla gümüş, qızıl, platin aparılmasına görə məsuliyyət məsələsinə baxıldı. Qüvvədə olan 1914-cü il 15 noyabr tarixli qanunun 1919-cu il 20 oktyabr tarixli qanunla əvəz edilməsi bu sahədə məsuliyyəti artırdı.

Ölkənin sərhədləri daxilində mal mübadiləsini tənzimləmək məqsədilə 1919-cu ilin avqust ayından Azərbaycana xaricdən gətirilən bir sıra zinət şeylərinə müvəqqəti olaraq xüsusi gömrük tarifləri tətbiq olundu. Eyni zamanda daxili bazarı tənzimləmək məqsədilə Azərbaycandan kənara göndərilən əmtəələr üçün yeni müvəqqəti gömrük qaydalarının tətbiq edilməsi haqqında qanun qəbul edildi (1920, 9 fevral). Hökumət çevik vergi siyasəti yeridir, dövlət xərclərinin ixtisar edilməsi istiqamətində tədbirlər görürdü. Bu məqsədlə xaricdən ölkəyə gömrüksüz gətirilən malların siyahısı müəyyənləşdirilmiş (bu siyahıya 200-dən çox məhsulun adı daxil edilmişdi), xarici sərmayəçilərə və Azərbaycana sərmayə qoymaq arzusunda olanlara güzəştli şərtlərlə "Bakı bon"ları təklif olun-

muşdu. Yeni əsaslarda beynəlxalq iqtisadi əlaqələrin qurulması da hökumətin qarşısında duran mühüm məsələlərdən idi. İstiqlal bəyannaməsində xarici ölkələrlə, xüsusilə yaxın qonşularla iqtisadi əlaqələr yaratmaq və bu əlaqələri genişləndirmək nəzərdə tutulurdu.

Təsadüfi deyil ki, Parlamentin fəaliyyətində mühüm rol oynayan "Müsavat" partiyası öz məramnaməsində Azərbaycanın müstəqilliyinə, onun xaricdən müdafiəsinə və hüquqi cəhətdən tanıdılmasına nail olmaq üçün iqtisadiyyata, iqtisadi əməkdaşlığa böyük əhəmiyyət verirdi. Cümhuriyyətin iqtisadi platformasında xarici ölkələrlə iqtisadi əməkdaşlığı asanlaşdırmaq, bu sahədə maneələri aradan qaldırmaq, digər tərəfdən isə bu cür əməkdaşlığı dünya normaları əsasında həyata keçirmək nəzərdə tutulurdu. Ölkə iqtisadiyyatında inflyasiyanın qarşısını almaq üçün hökumət bir sıra tədbirlərin həyata keçirilməsini nəzərdə tuturdu. Zəruri tədbirlər sırasında əmtəələrin sərbəst ixracına nail olunması da var idi. Xaricdən Azərbaycana gətirilən spirtli içkilərə, balıq məhsullarına gömrük rüsumlarının artırılması haqqında 1919-cu ilin avqust ayında Parlamentin maliyyə-büdcə komissiyasında bəyənilən qanun layihələri də daxili bazarın qorunması və inflyasiyanın qarşısının alınmasına xidmət edirdi. Xarici iqtisadi-ticarət fəaliyyətinin iqtisadiyyatın sağlamlaşdırılması və pul tədavülünün tənzimlənməsində rolu Parlamentin 1919-cu il 24 noyabr tarixli iclasında geniş müzakirə olunmuşdu. Hökumətin iqtisadi platformasında Cümhuriyyətin yaranmasından əvvəl formalaşmış iqtisadi əlaqələrə münasibət, əsasən, birmənalı idi. Bu əlaqələri kəsmək yox, müstəqil dövlətin iqtisadi əlaqələri kimi genişləndirmək məqsədəuyğun sayılırdı. Azərbaycanda fəaliyyət göstərən xarici kapital nümayəndələri ilə münasibətləri yeni əsaslarda inkişaf etdirmək üçün konkret addımlar atılırdı. Məsələn, Azərbaycan Hökumətinin 1919-cu il oktyabrın 18-də qəbul etdiyi qərarda Böyükşor gölünün bir hissəsinin Nobel qardaşları birliyinə icarəyə verilməsi haqqında vaxtı bitmiş müqavilənin bərpa olunması göstərilir, bu müqavilənin şərtlərində edilən yeni dəyişikliklər əsaslandırılırdı. Ümumiyyətlə, Azərbaycanda xarici kapital və konsepsiya məsələsində həm Parlamentin və həm də xarici kapital nümayəndələrinin fikirləri uyğun gəlirdi.

Hökumət başçısı Nəsib bəy Yusifbəylinin Parlamentin 1919-cu il 22 dekabr tarixli iclasında elan etdiyi bəyanamədə güclü iqtisadiyyatın yaradılması zərurəti Azərbaycanın azad və müstəqil yaşamasının şərti kimi göstərilirdi. Hökumətin xarici ticarət siyasətində köklü dəyişiklik etmək nəzərdə tutulurdu. İndiyədək ticarət siyasətində idxalı artırmaq və ixracı imkan daxilində azaltmaq üstünlük təşkil edirdisə və nəticədə pul qiymətdən düşürdüsə, artıq indi ixracı stimullaşdırmaq istiqamətində tədbirlərin həyata keçirilməsinin mümkünlüyündən və zəruriliyindən bəhs olunurdu. Azərbaycan hökumətinin xarici iqtisadi fəaliyyətində reallaşdırmağa çalışdığı başlıca vəzifələrdən biri əhalinin zəruri mallara olan ehtiyacını təmin etməkdən və xəzinənin gəlirlərini artırmaq üçün əlavə mənbələr axtarıb tapmaqdan ibarət idi. Belə əlavə mənbələrdən biri də gömrük gəlirləri idi. Bu və ya digər məhsulun xaricə satışına icazə verilməsi və ya onun qadağan edilməsi zamanı həmin məhsulun əhali üçün nə dərəcədə gərəkli olması, hökumətə nə qədər gəlir gətirməsi halları diqqətlə nəzərə alınırdı.

Xarici ticarət əlaqələrinin inkişaf etdirilməsi sahəsində, o cümlədən spirtli içkilərin xarici bazara - əsasən də Avropa bazarına ixrac olunmasını Xalq Cümhuriyyəti hökuməti bir vəzifə kimi qarşısına qoydu. Belə ki, hökumətin hazırladığı 1919-cu il 20 fevral tarixli qanun layihəsi ilə xaricə konyak, üzüm və tut spirtinin ixracına icazə verildi (Cümhuriyyət dövründən qabaq xaricə spirtli içkilərin satışı qadağan olunmuşdu. Bu da təsərrüfatların və hökumətin maliyyəsinə olduqca mənfi təsir göstərmişdi). Hökumət hesab edirdi ki, xaricə spirt satışında nəinki dövlət xəzinəsi və araq çəkməklə məşğul olan adamlar, həmçinin bütün əhali maraqlıdır. Öz təsərrüfat məhsulları olan üzümü və tutu şərab zavodlarına satmaq onlara əlverişli idi. Bu qanun layihəsini işləyib hazırlayarkən hökumət onu da nəzərdə tuturdu ki, əhali üçün spirt ancaq texniki və tibbi məqsədlər üçün zəruridir. Xaricə satışına icazə verilən 85 dərəcəli konyak spirti və 40-45 dərəcəyə qədər olan üzüm və tut spirti isə bu məqsəd üçün yaranır. Buna görə də onun xaricə satışından əhaliyə heç bir ziyan dəyə bilməz.

Parlamentin Azərbaycan Cümhuriyyətinin sərhədlərindən kənara **xammal ixracının** şərtləri haqqında qəbul etdiyi qanun da (1919, 11 dekabr) Cümhuriyyətin xarici iqtisadi fəaliyyəti üçün çox

əhəmiyyətli idi. Bu qanuna görə pambıq, yun, ipək, frizon (ipək istehsalında tullantı), barama kimi xammalların azad şəkildə ixracına xammalın dəyərinin 25 faizinin əvəzsiz olaraq xəzinənin hesabına keçirilməsi şərtilə icazə verilirdi. Bu, xarici valyuta əldə etməyə və ya əmtəə mübadiləsi qaydası ilə dövlətə lazım olan zəruri məhsulları almağa imkan verirdi. Bu qaydada xammal ixracının nisbətən səmərəli bir tədbir kimi ortaya çıxması çoxlu mübahisələrin, fikir ayrılıqlarının təsiri nəticəsində aşkar oldu. Göstərilən dövrdə xarici valyuta əldə etmək məqsədilə bu cür əmtəələrin azad satışına icazə verilməsi**, azad ticarət** prinsipinin tətbiqi kimi mülahizələr də mövcud idi. Lakin həmin mülahizələr onların tətbiqində ciddi çətinliklər ucbatından həyata keçirilmədi. Məsələn, bütün qonşu respublikalarda əmtəə mübadiləsi sistemi üstünlük təşkil etdiyindən azad ticarət prinsipinə keçid əlverişli ola bilməzdi. Belə şəraitdə azad ticarətin yalnız Azərbaycanda tətbiqi respublikadan hər şeyin ixracına səbəb olar, idxal isə minimum həddə enərdi. Qonşu respublikalar Azərbaycan əmtəələrindən özlərində əmtəə mübadilələri əməliyyatları üçün istifadə etmiş olardılar. Bütün bunların nəticəsində Azərbaycan hökuməti xəzinəyə müəyyən rüsum keçirmək şərti ilə xammal ixracına icazə vermək qaydasını üstün tutdu. Xammal ixracına dair bu cür qaydanın işlənib hazırlanması o dövrdə iqtisadi fikrin mühüm nailiyyəti idi [5, s.72].

Azərbaycan Xalq Cümhuriyyəti **xarici-iqtisadi siyasət** sahəsində fəaliyyətini ancaq qanunların işlənib hazırlanması ilə məhdudlaşdırmır, onların həyata keçirilməsi istiqamətində də mühüm addımlar atırdı. Məsələn, xarici dövlətlərlə əmtəə mübadiləsini qaydaya salmaq üçün ağır maliyyə şəraitində 20 milyon manatlıq fond yaradılmış və bu fonddan ilkin ehtiyaclar üçün 10 milyon manat həcmində kredit buraxılması qərara alınmışdı. Eyni zamanda, Ticarət və Sənaye Nazirliyinin nəzdində "Xarici dövlətlər və bir-birinə yaxın sahələrlə əmtəə mübadiləsi komitəsi" fəaliyyət göstərirdi. Xüsusi əsasnamədə göstərilirdi ki, əmtəə mübadiləsi komitəsinin mühüm vəzifələrindən biri respublikanın iqtisadi və maliyyə vəziyyətinin əsasını təşkil edən neft ixracını və satışını təşkil etməkdir. Əmtəə mübadiləsi komitəsinin 1919-cu il 15 mart tarixli plenar iclasındakı geniş diskussiya bütün əmtəələrin iki böyük qrupa ayrılması ilə nəticələndi: xaricə ixrac edilməsinə, ümumiyyətlə, icazə verilməyən əmtəələr və ya komitənin ixrac etmək səlahiyyəti olmayan əmtəələr; komitənin icazəsi ilə ixrac edilməsinə icazə verilən əmtəələr. Bundan dərhal sonra Ticarət, Sənaye və Ərzaq Nazirliyi ixraca dair Əsasnamə təsdiq etdi. Əsasnamədə ixracına icazə verilməyən əmtəələrə taxıl, un, çörək, yarma, yem, at, iri və xırda buynuzlu mal-qara, ət və onun bütün növləri, qənd, külçə və pul şəklində qızıl və gümüş, dəmir, soyuq silahlar və s. daxil edilirdi. Nazirliyin xaricə satışına icazə verdiyi əmtəələrə düyü, makaron, hər cür toxum və tərəvəz, çay, qəhvə, bitki yağı, şərab, duz, sabun, meşə materialları, neft və neft məhsulları, qızıl və gümüş məmulatı, maşın və alətlər və s. aid edilirdi. Əsasnamədə bu iki qrupa aid olmayan bütün əmtəələrin azad satışına icazə verildiyi göstərilirdi.

Hökumət 1919-cu il iyunun 28-də xüsusi sərəncamla əmtəələrin ixracına dair qaydaları təsdiq etmişdi. Qonşu dövlətlərlə iqtisadi əlaqələrin genişləndirilməsinə xüsusi əhəmiyyət verən Azərbaycan Xalq Cümhuriyyəti hələ özünün mükəmməl iqtisadi bazasını yaradıb başa çatdırmadığı halda humanizm prinsiplərindən çıxış edərək, Dağıstana 50 mln. manat məbləğində yardım göstərmişdi ki, bu da respublikanın büdcə məxaricinin 1/8 hissəsini təşkil edirdi. Cümhuriyyətin **xarici iqtisadi əlaqələrinin** formalaşması baxımından AXC-nin xarici iqtisadi əlaqələrində qonşu ölkələri olan Gurcüstan və Sovet Rusiyası ilə ticarət əlaqələrinə geniş yer verirdi. Belə ki, 1918-ci il dekabrın 26-da Gürcüstanla bağlanan birillik müddətə bağlanan müqaviləyə əsasən, böyük ehtiyac olan məhsulların, bu respublikaların tələbatları çərçivəsində gömrük vergiləri qoyulmadan alınıb-satılmasına, habelə Gürcüstan əhalisinin və dəmir yolunun ehtiyacları üçün müəyyən həddə həcmində neft, mazut, kerosin və yağların rüsumsuz ixracına icazə verilirdi. Müqavilədə göstərilirdi ki, gürcü əhalisi üçün kerosin buraxılması 1 milyon puddan, neft və neft məhsullarının ümumi satışı isə 20 milyon puddan çox olmamalıdır. Gürcüstanın bəzi məhsullarının (daş kömür, meşə materialları və s.) neftin dəyərinin 1/10 hissəsi həcmində Azərbaycana gömrüksüz satılması nəzərdə tutulurdu. Müqaviləyə görə, alınan məhsulların başqa ölkələrə satışına icazə verilmirdi. Azərbaycan Xalq Cümhuriyyəti Rusiya ilə iqtisadi əməkdaşlığa da böyük əhəmiyyət verir, neft, pambıq və başqa ixrac məhsulları

üçün Rusiya bazarının əhəmiyyətini nəzərə alırdı. 1920-ci il martın 30-da Sovet Rusiyası və Azərbaycan birgə komissiyasının iclasında ticarət müqaviləsi imzalanmışdı. Lakin Rusiya Azərbaycanı qane edə biləcək bir sıra şərtlər vəd etsə də, onlara əməl etmədi [5, s.73].

Dövlət milliləşdirmə və əksmilliləşdirmə tədbirlərini həyata keçirməklə yanaşı, əmək münasibətlərinin qaydaya salınmasını da təmin edirdi. Daxili və xarici iqtisadi fəaliyyətin tənzimlənməsi üçün iqtisadi-hüquqi qanunların hazırlanmasına, onların yerinə yetirilməsinə də böyük əhəmiyyət verilirdi. Az vaxtda yalnız maliyyə, vergi, bank-kredit sahələri üzrə 82-dən çox qanun layihəsi işlənib hazırlanmış, bir çox qanunlar təsdiq olunmuşdu. İlk dəfə tərtib olunan müstəqil dövlət büdcəsi iqtisadi tənzimləmə və gəlirlərin bölgüsü işinin yoluna qoyulmasında və ümumiyyətlə, makroiqtisadi tarazlıq yaradılmasında müstəsna əhəmiyyət kəsb etdi. Azərbaycan Xalq Cümhuriyyəti dövlət əhəmiyyətli mühüm məsələlərin həllində geniş konsensusa nail olmağa çalışırdı. Parlamentin qanunlar vasitəsilə həyata keçirdiyi ümumi tənzimləmə tədbirləri dövlətin timsalında qeyri-mərkəzləşdirilmiş demokratik özünüidarə formalarına əsaslanan tədbirlərlə əlaqələndirilirdi. Hökumətin iqtisadi proqramı qarşılıqlı razılaşma əsasında ayrı-ayrı partiyaların məramnamələrində qoyulan iqtisadi məsələlərə uyğun işlənib hazırlanırdı. Bəzən alternativ variantların mövcudluğu daha səmərəli fəaliyyət istiqamətinin müəyyən olunmasını tələb edirdi. Bununla əlaqədar Parlamentdə iqtisadi təmayüllü bir neçə komissiya-maliyyə, büdcə, fəhlə, aqrar, ölkənin məhsuldar qüvvələrindən istifadə komissiyaları yaradılmışdı. Dövlət və Hökumət strukturunda olan Əkinçilik, Əmlak, Ərzaq, Dövlət nəzarəti, Maliyyə, Ticarət və Sənaye nazirlikləri, Milli Bank, Azərbaycan Xəzinə Palatası, Aksiz Palatası, Əmək müfəttişliyi kimi qurumlar dövlətin iqtisadi tənzimləmə fəaliyyətinin həyata keçirilməsində mühüm rol oynayırdılar. Dövlətin mühüm iqtisadi tənzimləmə aləti mütərəqqi **gəlir vergisi** hesab olunurdu. Bu vergi müəssisə və təşkilatlarda qazanılan mənfəətin 30%-ni təşkil edirdi. Dolayı vergi kimi şərab, tütün və neft məhsullarına qoyulan aksizlər aktiv iqtisadi tənzimləyici rolunu oynayırdı. Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyətində sosial yönüm xüsusi diqqət mərkəzində idi. Bu, təsdiq olunan qanunlarda, həyata keçirilən konkret tədbirlərdə özünü göstərirdi.

Azərbaycan Xalq Cümhuriyyəti yarandığı ilk gündən **nəqliyyat** sahəsinə xalq təsərrüfatının bu vacib sahəsinin bərpasına və inkişafına xüsusi diqqət yetirməyə başladı. Bu məqsədlə Yollar Nazirliyi yaradıldı. Bu nazirlik ilk vaxtlar dəmir yolu nəqliyyatına rəhbərlik edirdi. Azərbaycan Parlamentinin 1919-cu il 17 mart tarixli qərarı ilə bütün şosse və torpaq yolları, onların üzərindəki süni qurğular, yol inşası və bərpası işləri də Yollar Nazirliyinin sərəncamına verildi. Həmin il aprelin 2-də verilən qərarla ölkədəki avtomobil emalatxanaları və anbarları da Yollar Nazirliyinin ixtiyarına keçdi. Yollar Nazirliyi dəmir yolu nəqliyyatını sahmana salmaq üçün parovoz və vaqon parkının təmiri, yeni nəqliyyat vasitələrinin alınması, dəmir yolu qulluqçularının məvaciblərinin artırılması, onlara güzəştli şərtlərlə ərzaq verilməsi, parovoz maşinistlərinə və onların köməkçilərinə həqiqi hərbi xidmətdən möhlət verilməsi, dəmir yolu stansiyalarının qaydaya salınması, mühafizəsinin təmin edilməsi və s. kimi mühüm tədbirlər gördü. Bütün bu tədbirlər tezliklə öz bəhrəsini verdi. Artıq 1919-cu il iyulun 15-dən Bakı - Batum istiqamətində gündə 4 cüt qatarın, həmin ilin sonundan isə Bakı-Port-Petrovsk (Mahaçqala) istiqamətində də ciddi qrafik üzrə gündə 4 cüt qatarın hərəkəti təmin edildi. 1918-ci il oktyabrın 30-da Bakı ticarət limanı idarəsinin fəaliyyəti bərpa edildi. Ticarət gəmiləri ilə Bakı ilə Port-Petrovsk (Mahaçqala), Salyan, Lənkəran limanları arasında sərnişin və yük daşınması təşkil edildi. Hökumətin ciddi səyləri nəticəsində 1919-cu ildə Bakı-Batum neft kəməri də bərpa edilib istifadəyə verildi. 1919-cu ilin avqust ayında ingilis qoşunları Azərbaycandan çıxdıqdan sonra Bakı limanı və ticarət donanması da Cümhuriyyət Hökumətinin sərəncamına keçdi, ölkənin ticarət gəmiləri Azərbaycan Xalq Cümhuriyyətinin bayrağı altında üzməyə başladılar.

Dövlətin **sosial siyasəti** iki baxış üzərində qurulmuşdu. Birincisi, hər bir cəmiyyət üzvünün (Azərbaycan vətəndaşının) iqtisadi fəallıq göstərməsi və gəlir əldə etməsi üçün şərait yaratmaq, beləliklə, yoxsulluğu minimum həddə endirmək. İkincisi, cəmiyyət üzvlərinə elə bir gəlir əldə etməyə təminat verilsin ki, onlar bu gəlirlə özlərinin ictimai-zəruri ehtiyaclarını ödəyə bilsinlər. Qısa bir müddətdə ölkədə həm sosial müdafiə, həm də sosial təminat sistemləri formalaşdırılır və inkişaf edirdi. Dövlətin sosial siyasətini reallaşdırmaq üçün aşağıdakı əsas göstəricilərə nail olunması nə-

zərdə tutulmuşdu: ümumi daxili məhsulda istehlak fondunun payının artırılması, əhalinin hər nəfərinə görə istehlak fondunun, ümumi daxili məhsulda milli gəlirin və məşğulluq səviyyəsinin artırılması; əmək şəraitinin yaxşılaşdırılması; təhsil, səhiyyə, mənzil və kommunal təminatı səviyyəsinin yüksəldilməsi. Lakin mürəkkəb beynəlxalq və daxili vəziyyət, iqtisadi çətinliklər, yoluxucu xəstəliklər, keçmiş İrəvan quberniyası ərazisində ermənilər tərəfindən soyqırıma məruz qalan 150 mindən çox türkmüsəlman əhalisinin öz tarixi vətənlərindən didərgin düşüb Cümhuriyyətə pənah gətirməsi, əhalinin çoxluğunu təşkil edən kəndlilərin həyat şəraitini yaxşılaşdırmağın əsas amili olan torpaq məsələsinin həll olunmaması və s. sosial vəziyyəti xeyli çətinləşdirirdi. Belə ağır şəraitdə Azərbaycan Xalq Cümhuriyyəti Parlamenti və Hökuməti sosial gərginliyi aradan qaldırmaq məqsədilə təxirəsalınmaz tədbirlər həyata keçirirdi.

Mövcud olduğu ilk günlərdən Azərbaycan hökuməti zəhmətkeşlərin **sosial** vəziyyətinə ciddi diqqət yetirirdi. İstehsalın tənəzzülü, neft sənayesinin böhranı, əsas ərzaq məhsullarının qiymətlərinin artması, əmək haqqının aşağı olması fəhlə və qulluqçuların onsuz da ağır olan vəziyyətini daha da ağırlaşdırırdı. Buna görə də, demək olar ki, parlamentin bütün iclaslarında işçi məsələsinə bu və ya digər dərəcədə baxılmışdı. Aydındır ki, məhz sosial problemlərin həll olunmaması hökumət böhranları və siyasi partiyalar arasındakı ixtilafların əsas səbəblərindən biri olmuşdur. Hökumət problemin kəskinliyini azaltmaq üçün zəhmətkeş kütlələrin milli dövlət quruculuğu prosesinə cəlb edilməsini, istehsalın aşağı düşməsinin, qiymətlərin və inflyasiyanın artmasının qarşısının alınmasını zəruri hesab edirdi. Lakin bu istiqamətdə atılan ilk addımlar gözlənilən nəticəni vermədi. Sosial məsələlərin tənzimlənməsi ilə paralel olaraq həm parlamentin fəhlə komissiyası, həm də Əmək Nazirliyi vasitəsilə hökumət məşğul olurdu. Hökumətin sosial siyasətdəki əsas vəzifəsi fəhlə qanunvericiliyinin formalaşdırılmasından ibarət idi. Əmək Nazirliyinin tələbi ilə parlament 1919-cu il martın 19-da Nazirliyin nəzdində fəhlə məsələsi üzrə "Xüsusi məşvərət şurası yaratmaq haqqında" Qanun qəbul etdi və bu məşvərət şurası əməyin mühafizəsi, fəhlə və sahibkarlar arasındakı münasibətlərin tənzimlənməsi məsələləri ilə məşğul olmağa başladı. Məşvərət şurası beş nəfər fəhlə və beş nəfər də sahibkarlardan olmaqla on nəfərdən ibarət idi. Onun əməyin mühafizəsi və zəhmətkeşlərin maddi vəziyyətinin yaxşılaşdırılmasına yönəldilən bütün tədbirlər üzrə qüvvədə olan qanunların icra olunmasına nəzarət etmək hüququ var idi. 1919-cu ilin dekabrında Azərbaycanın dövlət müəssisələrində 39705 nəfər (bunun 60%-i ailəli idi) işləyirdi. Onların saxlanılması xərci ildə 7.889.641 rubl təşkil edirdi. Qeydə alınmış qiymətlərlə subay adama ərzaq üçün ayda 231 rubl 75 qəp., ailəlilər üçün 418 rubl 50 qəpik, hamısına birlikdə ayda 13.650.379 rubl, ildə isə 163.804.948 rubl lazım idi. Ərzaq məhsullarının dəyəri 1920-ci il yanvarın birinci yarısında bazar qiymətləri ilə ayda 35.150.038 rubl təşkil edirdi. 1919-cu ilin son altı ayı ərzində çörəyin qiyməti 100%, yağın 56%, balığın 150%, yumurtanın 96%, ətin 200% artmışdır.

Beləliklə, göstərilən dövr üçün orta bahalaşma faizi 100% və daha çox idi, əmək haqqı isə cəmi 30% artırılmışdır. Bu fərqi nəzərə alan Ticarət, Ərzaq və Sənaye Nazirliyi 1920-ci ilin yanvarında hökumətə problemin həll olunması üçün başqa yol təklif etdi. Nazirlik fəhlə və qulluqçuların çörək, çay, qənd, düyü, bez və s. əsas ərzaq məhsulları və ilkin tələbat malları ilə möhkəm (qəti müəyyən edilmiş) qiymətlər müəyyən etməyi təklif edirdilər. Bunun üçün Nazirliyin nəzdində qulluqçuların ərzaqla təchizatını təşkil etməkdən ötrü xüsusi idarə yaratmaq nəzərdə tutulurdu. Hökumət fəhlə məsələsi üzrə qanun layihələri paketini hazırlayıb müzakirə üçün parlamentə təqdim etmişdir. Lakin bu layihələr uzun müddət deputatların diqqətindən kənarda qalmış və parlamentin ümumi iclaslarına çıxarılmamışdı. Hökumətin bu çoxsaylı cəhdlərinə baxmayaraq, fəhlə məsələsi tam bütövlüyü ilə həll olunmamış, son nəticədə fəhlə sinfinin özünün vəziyyətini yenidən pisləşdirmişdi. Siyasi sabitsizlik, daimi xarici təhlükə şəraitində ölkənin iqtisadiyyatında əsaslı dəyişikliklərə nail olmaq çətin idi, hərçənd o qədər də az iş görülməmişdi. Milli dövlətin başlıca nailiyyəti ondan ibarət idi ki, çoxukladlılıq zəminində yeni iqtisadiyyatın inkişaf modeli qurulmuşdu.

Qədim və zəngin dövlətçilik ənənələrinə malik Azərbaycan xalqı keçmişinin müəyyən dövrlərində tarixin hökmü ilə böyük imperiyalar tərkibinə qatılmaq məcburiyyətində qalmışdır. Azərbaycan Xalq Cümhuriyyəti məhz dünyanın siyasi nizamının yenidən qurulduğu bir vaxtda, XIX əsrin

axırları və XX əsrin əvvəllərində Azərbaycanın yaşadığı parlaq mədəni yüksəliş mərhələsinin məntiqi yekunu kimi meydana çıxmışdır.

Azərbaycan Xalq Cümhuriyyəti ölkənin daxilində və xaricində yaranmış gərgin və mürəkkəb ictimai-siyasi şəraitdə fəaliyyət göstərmişdir. Bu dövlətin qısa bir müddətdə həyata keçirdiyi tədbirlər xalqımızın tarixində böyük iz buraxmışdır. Milliyyətindən, siyasi və dini mənsubiyyətindən, cinsindən asılı olmayaraq bütün vətəndaşlara bərabər hüquqlar verilməsi, dövlət sərhədlərinin müəyyən olunması, Azərbaycan dövlətçiliyi atributlarının qəbul edilməsi, ana dilinin dövlət dili elan olunması Azərbaycanın gələcək müstəqilliyi üçün möhkəm zəmin yaratmışdır. Demokratik dövlət quruculuğu, iqtisadiyyat, mədəniyyət, təhsil, hərbi quruculuq sahələrində atılmış addımlar Azərbaycan Xalq Cümhuriyyətinin 23 aylıq fəaliyyətini əks etdirən əsas istiqamətlərdir.

Azərbaycan Xalq Cümhuriyyəti 1920-ci ilin aprelində süqut etdi, Azərbaycanda sovet hakimiyyəti quruldu. 1918-ci ildə Azərbaycanda yaranmış respublika müstəqil dövlət kimi süqut etsə də, respublika quruluşu yaşamış, müstəqillik hissləri xalqımızı heç vaxt tərk etməmişdir. 1991-ci ildə dövlət müstəqilliyini bərpa edən xalqımız Azərbaycan Xalq Cümhuriyyətinin qısamüddətli fəaliyyətinin zəngin ənənələrindən istifadə etmiş və bu tarixi varislik üzərində müstəqil Azərbaycan dövlətini yaratmışdır [1].

Azərbaycan Xalq Cümhuriyyəti təcavüzə məruz qaldığı üçün qarşıya qoyduğu məqsədlərə tam müvəffəq ola bilmədən süquta uğrasa da, onun şüurlarda bərqərar etdiyi müstəqillik ideyası unudulmadı. Azərbaycan xalqı ötən dövr ərzində milli dövlətçilik atributlarının bir çoxunu qoruyub saxlaya bildi. Ümummilli lider Heydər Əliyevin respublikada uğurla gerçəkləşdirdiyi siyasət xalqımızın tarixi-mədəni yaddaşını özünə qaytararaq milli mənlik şüurunu inkişaf etdirdi, azərbaycançılıq məfkurəsi işığında müstəqillik arzularının güclənməsi və yaxın gələcəkdə yenidən həqiqətə çevrilməsinə zəmin yaratdı.

2018-ci il may ayının 28-də müsəlman Şərqində ilk parlamentli respublikanın – Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illiyi tamam olur. 16 may 2017-ci il ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi haqqında" Sərəncam imzalanmışdı. Sərəncamda qeyd edildiyi kimi: "1991-ci ildə müstəqilliyinin bərpasına nail olarkən müasir Azərbaycan Respublikası özünün qədim dövlətçilik ənənələrinə sadiq qaldığını göstərdi, Xalq Cümhuriyyətinin siyasi və mənəvi varisi olmaqla onun üçrəngli bayrağını, gerbini, himnini qəbul etdi" [3]. Xalqımız Cümhuriyyətin istiqlalını dünyaya yaydığı 28 May gününü həmin vaxtdan Respublika Günü olaraq təntənə ilə qeyd edir.

Açar sözlər: sosial-iqtisadi münasibətlər, gəlir vergisi, mülkiyyət, aqrar siyasət, pulun emissiyası, xarici ticarət, neft sənayesi, azad ticarət

İstifadə edilmiş ədəbiyyat

1. "Azərbaycan Xalq Cümhuriyyətinin 80 illiyinin keçirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. Heydər Əliyev, Azərbaycan Respublikasının Prezidenti, Bakı şəhəri, 30 yanvar 1998
2. "Azərbaycan Xalq Cümhuriyyətinə abidə ucaldılması haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. Heydər Əliyev, Azərbaycan Respublikasının Prezidenti, Bakı şəhəri, 1 fevral 2003-cü il
3. "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, İlham Əliyev, Azərbaycan Respublikasının Prezidenti, Bakı şəhəri, 16 may 2017-ci il
4. "Məhəmməd Əmin Rəsulzadənin 130 illik yubileyinin keçirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, İlham Əliyev Azərbaycan Respublikasının Prezidenti, Bakı şəhəri, 22 noyabr 2013-cü il
5. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. Yaqub Mahmudovun redaktəsi ilə. Bakı: Lider, 2017 (yenilənmiş nəşr)

6. Həsənov C. Birinci dunya müharibəsinin qurtarması ərəfəsində Bakı nefti ətrafında mübahisələrinin kəskinləşməsi / "Azərbaycan neft sənayesinin tarixi" üzrə Beynəlxalq Konfransın materialları, Bakı: Nyuston, 1996, s. 38-45
7. Караев А.Ф. Из недавного прошлого. Баку: 1976
8. Maqsudov F., Əliyev İ., Ağamalıyev N., Alıçanlı Ş. "Azərbaycan Cümhuriyyəti (1918-1920). Bakı: Elm, 1998, 336 s.

Фахрад Мехбальев
Нурангиз Микаилова

ОСНОВНЫЕ НАПРАВЛЕНИЯ СОЦИАЛЬНО-ЭКОНОМИЧЕСКОЙ ПОЛИТИКИ АЗЕРБАЙДЖАНСКОЙ НАРОДНОЙ РЕСПУБЛИКИ В ОБЛАСТИ ГОСУДАРСТВЕННОГО СТРОИТЕЛЬСТВА

Резюме

В статье основное внимание уделяется главным направлениям развития социально-экономической политики, осуществленные Азербайджанской Народной Республикой в области государственного строительства. Всесторонне рассматриваются стратегия и тактика, проведенная АНР в сфере социально-экономических отношений. Также в статье раскрывается суть экономической платформы АНР в сфере промышленности, в частности нефтяной; аграрной а также в области собственности, эмиссии денег, банковско-финансовой, социальной политики. Одновременно анализируются двухсторонние и многосторонние связи с некоторомі м Европейскими государствами в сфере торгово-экономических отношений.

Ключевые слова: социально-экономические отношения, подоходный налог, собственность, аграрная политика, социальная политика, эмиссия денег, внешняя торговля, нефтяная промышленность, свободная торговля

Fahrad Mohbaliyev
Nurangiz Mikayilova

THE MAIN DIRECTIONS OF THE SOCIAL –ECONOMIC POLICY IMPLEMENTED BY THE AZERBAIJAN PEOPLE'S REPUBLIC IN THE FIELD OF STATE BUILDING

Summary

The article focuses on the analysis of the main directions of the social-economic development implemented by the Azerbaijan People's Republic in the field of state building. At the same time, the article investigates the strategy and tactics implemented by the APC in the field of social-economic relations. The article also analyzes the essence of the APR's economic platform in the spheres of industry, including oil industry, agriculture, property relations, money emission, financial-banking system and social policy. At the same time, the article analyzes bilateral and multilateral relations with some European states in the sphere of economic and trade relations.

Keywords: social-economic relations, income tax, property, agrarian policy, money emission, foreign trade, oil industry, free trade

UOT – 338.48

Vilayət İsmayılov
Azərbaycan Əmək Sosial Münasibətlər Akademiyası, i.ü.e.d., dosent

AZƏRBAYCANDA TURİST-REKREASİYA KLASTERİNİN FORMALAŞMASININ AKTUAL PROBLEMLƏRİ

Məqalədə Azərbaycan Respublikasının iqtisadi rayonlarında turizmin inkişaf etdirilməsi üçün çox əlverişli şəraitin formalaşması qeyd edilərək göstərilir ki, turizm sferasına aid olan göstəricilər regionların sanatoriya-kurortlarına da aiddir. Regionlarda fəaliyyət göstərən sanatoriya-kurort müalicələrindən, orada çıxarılan və müalicəvi əhəmiyyətə malik yeraltı təbii müalicə ehtiyatlarından istifadə xüsusi ixtisaslaşmış müalicə ocaqlarının fasiləsiz fəaliyyətini sürətləndirməklə ölkəmizdə turist-rekreasiya klasterinin formalaşmasına əhəmiyyətli dərəcədə təsir göstərir. Bu məqsədlə ölkədə turist-rekreasiya klasterinin formalaşması üçün ölkənin və xarici ölkələrin iqtisadi inteqrasiya aktivlərinin bu sferanın inkişafına cəlb edilməsinin vacibliyi qeyd edilir.

Azərbaycan respublikası 1995-ci ildə aparılan rayonlaşma nəticəsində oxşar təsərrüfat quruluşu, təbii ehtiyatları və əhalinin məskunlaşması üzrə qruplaşma əsasında 10 iqtisadi rayona ayrılmışdır. Qeyd etmək lazımdır ki, zaman keçdikcə təsərrüfat sahələrinin inkişaf etməsi ilə əlaqədar olaraq bu iqtisadi zonalarda ixtisaslaşma istiqamətləri və sahə quruluşları dəyişə bilir. Hal-hazırda respublikanın regionlarının qruplaşmasından 11 iqtisadi rayon yaradılmışdır.

Dünya iqtisadiyyatının dinamik inkişaf edən sahələrindən biri olan turizm dünya ixracatının aparıcı sahələrindən birinə çevrilir və bu göstəriciyə görə neft, neft məhsulları və axromobil ixracatından sonra üçüncü yeri tutur. Turizm müasir inteqrasiya səviyyəsində özünəməxsus fəaliyyət sferasıdır. Bu sahə bir sıra kompleks problemlərin və idarəetmə mexanizmlərin məcmusundan və qarşılıqlı əlaqəsindən formlaşmaqla mütəmadi olaraq dəyişir və yeniləşir [3, s.247-254]. Ölkəmizdə yeniləşən bu sahənin kompleks problemləri onun iqtisadi-sosial mahiyyətini, həmin xidmət sferasının inkişaf prosesində rolunu və həmçinin turizmin bazar tipli modelinin təşkil edilməsinin digər sahələrdən fərqli xüsusiyyətlərini meydana çıxarmaqla onun əlverişli sfera kimi formalaşmasını əks etdirir. Dünya təcrübəsi göstərir ki, bütövlükdə istehsal olunan umumi milli məhsulun (ÜMM) təqribən 10%-i, ixrac məhsullarının 8%-i beynəlxalq turizm sferasının payına düşür və həmin sahədə göstərilən xidmətlərin təqribən 30-35% -i məhz beynəlxalq turizm tərəfindən həyata keçirilir. Eyni zamanda dünyada əmək qabiliyyətli əhalinin 8,1%-i turizm sferasının özündə və onunla əlaqəli olan iqtisadiyyatın digər sahələrində məşğul olurlar [5, s.41-59].

Azərbaycan Respublikasının iqtisadi rayonlarında, o cümlədən Abşeron, Gəncə-Qazax, Aran, Kəlbəcər-Laçın, Lənkəran-Astara, Naxçıvan və s. turizmin inkişaf etdirilməsi üçün çox əlverişli şərait formalaşmışdır. Lakin təəssüflə qeyd etmək lazımdır ki, ölkə ərazisinin müharibə şəraitində olan bəzi iqtisadi zonaları, o cümlədən Yuxarı Qarabağ, Kəlbəcər, Laçın, Şuşanın işğal edilmiş ərazilərində, həmçinin blokada şəraitində yaşayan Naxçıvan MR-da turizmin inkişaf etdirilməsi məqsədi ilə turizm bazalarının genişləndirilməsi üçün əlverişli şəraitin yaranması hazırkı vəziyyətdə mümkün deyildir. Ümumilikdə respublikadakı bu vəziyyət bütünlükdə turist-rekreasiya yığımının formalaşmasına mənfi təsir göstərən əsas amil hesab olunur. Son illərdə razılaşdırılmış atəşkəs rejiminin bir sıra hallarda qonşu ölkə tərəfindən pozulmasına baxmayaraq onun müvəqqəti olsa da dayandırılmasına nail olunması, ölkədəki sosial-iqtisadi durumun normallaşması, eyni zamanda turizm sferasının inkişafı ilə əlaqəli həyata keçirilən müxtəlif məqsədli tədbirlər və s. ölkəmizdə turizmin inkişafına əlverişli şərait yaratmışdır ki, bu da respublikaya gələn müxtəlif məqsədli xarici turist axınının çoxalması ilə şərtləndirilir.

Bu baxımdan ölkə prezidentinin "Azərbaycan kurortları Dövlət Proqramı haqqında" 2007-ci il 27 fevral tarixli, "Azərbaycan Respublikasında kurortların 2009-2018 -ci illərdə inkişafı üzrə Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında 06 fevral 2009-cu il sərəncamları xüsusi əhəmiyyət kəsb

edir. Bu qəbildən Abşeron, Gəncə-Qazax, Naxçıvan və s. iqtisadi rayonlarında fəaliyyət göstərən sanatoriya-kurort müalicələrindən, orada çıxarılan və müalicəvi əhəmiyyətə malik olan mineral sulardan, müalicəvi neft və palçıqlardan və digər yeraltı təbii müalicə ehtiyatlarından istifadə, müvafiq olaraq bu regionlarda xüsusi ixtisaslaşmış müalicə ocaqlarının fasiləsiz fəaliyyətini sürətləndirməklə ölkəmizdə turist-rekreasiya klasterinin formalaşması üçün əhəmiyyətli göstərici hesab olunur.

Abşeron rayonunun turist-rekreasiya kompleksi əsasən Bakı şəhəri ətrafında yerləşən Bilgəh, Mərdəkan, Pirşağı və Şıxov qəsəbələrində cəmlənmişdir. Məsələn, "Bilgəh" sanatoriyasında kardioloji xəstəliklərin müalicəvi mineral yod və bromlu sularla təbii müalicəsi, Mərdəkanda "Qaranquş" sanatoriyası uroloji xəstəliklərin müalicəvi mineral yod və bromlu sularla təbii müalicəsi, Mərdəkanda "Günəşli" sanatoriyası əsəb sistemi xəstəliklərinin müalicəvi mineral yod və bromlu sularla təbii müalicəsi, Mərdəkanda "Abşeron" sanatoriyası həzm sistemi xəstəliklərin müalicəvi mineral yod və bromlu sularla təbii müalicəsi, Şıxov qəsəbəsində "Şıxov" sanatoriyası hərəkət və periferik sinir sistemi xəstəliklərinin kükürdlü təbii mineral sularla müalicəsi, Naftalan şəhərində yerləşmiş 6 sanatoriyanın: "Naftalan", "Çinar", "Möcüzəli Naftalan", "Daşaltı", "Füsunkar Naftalan", "Şəfa" hər birində periferik hərəkət və sinir sistemi, dəri və ginekoloji xəstəliklərin Naftalan nefti ilə müalicəsi və s. kimi müalicə ocaqlarının fəaliyyəti imkan verir ki, bu sanatoriyalarda müalicə aparılmaqla yanaşı həm də turizm məqsədi ilə ölkəmizə beynəlxalq turist axını sürətlənsin [7].

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının (AHİK) məlumatına əsasən ötən il ölkəmizdə fəaliyyət göstərən sanatoriyaların bərpa edilərək tam gücü ilə işinin təmin edilməsinə 2 milyon manata yaxın vəsait ayrılmışdır. Eyni zamanda qeyd etmək lazımdır ki, 2015-ci ildə AHİK-in xətti ilə 50 mindən artıq insan ölkəmizin sanatoriya - kurortlarında müalicə və istirahət etmişlər [4, s.210-214].

Azərbaycan Respublikasında fəaliyyət göstərən bəzi rekreasiya mənbələrindəki təşkil olunan müalicə olmuş, təşkil olunmayan istirahət və müalicədə olmuş, istirahət və turizm məqsədi ilə cəlb edilmiş bütün rekreantlar haqqında məlumatlar göstərir ki, müvcud sanatoriya-kurort tipli müəssisələrin gücündən tam səmərəli istifadə edilməsi üçün bu sferada məqsədyönlü və silsilə tədbirlər həyata keçirilir (cədvəl 1).

Respublikadakı bəzi rekreasiya mənbələrinin göstəriciləri

Cədvəl 1

Müalicə ocağının adı	Təklif olunan müalicə				Təşkil olunmayan istirahət və müalicə	İstirahət və turizm		Cəmi rekreantlar
	Sanatoriya-pansionat	Kur-sovka	Ambu-lator müalicə	Cəmi		Turizm müəss-isəsi	Pioner düşər-gələri	
"Bilgəh"	5,2	0,2	1,1	6,5	4,0	0,4	0,4	11,3
"Abşeron"	2,1	0,1	0,3	2,5	0,6	-	0,5	3,6
"Qaranquş"	2,7	-	-	2,7	0,5	-	-	3,2
"Günəşli"	4,2	-	0,5	4,7	1,0	-	-	5,7
"Şıxov"	2,9	0,1	0,2	3,2	0,4	-	-	3,6
Naftalan şəhərində yerləşmiş 6 sanatoriya kompleksi	7,6	0,8	1,2	9,6	4,5	1,3	1,3	16,7
Cəmi	24,7	1,2	3,3	29,2	11,0	1,7	2,2	44,1

Göstəricilərin təhlilindən göründüyü kimi, təşkil olunmuş müalicə üzrə 29,2 min nəfər, təşkil olunmayan istirahət və müalicə üzrə 11,0 min nəfər, istirahət və turizm üzrə isə turizm müəssisəsi və pioner düşərgələrində 3,9 min nəfər və ümumilikdə bu tip müəssisələrdən istirahət və turizm məqsədi ilə 44,1 min nəfər istifadə etmişdir ki, bu da 2005-ci ilin müvafiq göstəriciləri ilə müqayisədə 2017-ci ildə 150% təşkil edir. Bu tip müalicə ocaqları demək olar ki, bu halda da tam gücləri

ilə fəaliyyət göstərməmişdirlər və bu baxımdan həmin müəssisələrə beynəlxalq turist axınının təşkili danılmazdır. Yuxarıda qeyd edilən rekreasiya mənbələrindən Naftalan şəhərində yerləşən 6 sanatoriya kompleksi istisna olmaqla Abşeron rayonunun ərazisindəki digər sanatoriyalar bir-birindən çox da uzaq olmayan məsafədə yerləşir. Qeyd edilən müalicə ocaqları Bakı şəhərinin ətraf qəsəbələrində yerləşdiyindən, bunlarda istirahət edən turistlər əlverişli avtomobil yollarından və elektrik qatarlarının hərəkəti üçün dəmir yollarından istifadə edə bilirlər (məsələn, Pirşagı, Mərdəkan, Bilgəh qəsəbələrində yerləşmiş sanatoriyada olan yerli əhali və turistlər). Bu sanatoriyalar üçün Bakı şəhəri nəqliyyat qapısı hesab edilir. Bu baxımdan həmin sanatoriya və istirahət ocaqları təsərrüfat fəaliyyətini hərtərəfli təmin etmək məqsədi ilə öz aralarında avtomobil və dəmir yollarından səmərəli istifadə edə bilirlər və bu göstəriciləri təhlil etmək üçün aşağıda həmin müalicə ocaqlarının bir-birindən və Bakı şəhərindən aralıq məsafəsi verilmişdir (cədvəl 2).

Sanatoriyaların Bakı şəhərindən və bir-birindən aralıq məsafəsi, km

Cədvəl 2

Müalicə sanatoriyasının adı	"Bilgəh"	"Abşeron"	"Qaranquş"	"Günəşli"	"Şıxov"	Naftalan şəhərində yerləşən 6 sanatoriya kompleksi
"Bilgəh"	-	11	26	13	65	370
"Apşeron "	11	-	15	5	67	373
"Qaranquş "	26	15	-	30	78	356
"Günəşli "	13	5	30	-	69	375
"Şixov "	65	67	68	70	-	302
Naftalan şəhərində yerləşən 6 sanatoriya kompleksi	370	373	356	375	302	-
Bakı şəhərindən aralıq məsafəsi	40	45	47	42	28	330

Göründüyü kimi, Abşeron iqtisadi regionunda yerləşən sanatoriyalar arasında maksimum məsafə 78 km, minimum məsafə isə 5 km-dir. Bakı şəhərindən isə ən uzaq yerləşmə məsafəsi 47 km, ən yaxın yerləşmə məsafəsi isə 28 km-dir. Eyni zamanda qeyd etmək lazımdır ki, Naftalan şəhərində yerləşmiş 6 sanatoriya kompleksi bir-birindən çox az aralıq məsafəsinə malikdir və bunlar arasında turistlərin əlaqə qurmasına heç bir problem yoxdur.

Sanatoriyalar, istirahət müəssisələri və turizm bazaları üzrə məlumatların təhlili göstərir ki, 2005-ci ildə bu tip müəssisələrin sayı 84 olmuşdursa, bu göstərici müvafiq olaraq 2017-ci ildə 75 olmuşdur. Müqayisə edilən ilə nisbətən 2017-ci ildə sanatoriyalar, istirahət müəssisələri və turizm bazalarının sayı 10,7% azalaraq 89,3%-ə, sanatoriyalar və müalicə pansionatlarının sayı 22,2% azalaraq 77,8%-ə, sanatoriya profilaktoriyaların sayı 50% azalaraq 50,0%-ə, turist bazaları və digər istirahət ocaqlarının sayı 59,3% azalaraq 40,7%-ə çatmışdır [1, s.310-315].

Qeyd etmək lazımdır ki, Baki şəhərinin ətraf qəsəbələrində və Naftalan şəhərində yerləşən sanatoriyalar kompleksində 20 il öncə 60-70 min nəfər istirahət edirdi. Son illərin bu sahə üzrə materiallarının təhlili göstərir ki, xarıcı ölkələrdən, o cümlədən MDB və digər xarici ölkələrindən həmin sanatoriyalara turist axınını gücləndirmək məqsədi ilə fəaliyyət göstərən turizm kompleksləri öz potensiallarından səmərəli istifadə etməklə, ölkəmizə beynəlxalq turist axınını sürətləndirməli, eyni zamanda sanatoriyalarda turistlərin müalicə və istirahətlərinin, onlara göstərilən xidmət sferasının beynəlxalq səviyyəyə yüksəldilməsini təmin etməlidirlər.

Azərbaycan Respublikasında fəaliyyət göstərən turizm müəssisələrinin əsas göstəriciləri cədvəl 3-də verilmişdir.

Azərbaycanda fəaliyyətgöstərən turizm müəssisələrinin əsas göstəriciləri

Cədvəl 3

S/N	Göstəricilər	İllər				2005-ci ilə nisbətən 2017-ci ildə artım, dəfə
		2005	2010	2014	2017	
1	Müəssisələrin sayı	81	126	218	272	3,4
2	Turizm fəaliyyəti ilə məşğul olan işçilərin sayı, min nəfər	0,564	1,159	1,567	1,838	3,3
3	Müəssisələrin turizm fəaliyyətindən gəliri, min manat	4035,3	14755,5	26031,0	34834,3	8,6
4	Azərbaycan ərazisində səyahət etmək üçün xarici turistlərə satılmış göndərişlərin (yol vəraqlərinin) sayı, ədəd	1552	3706	4343	6768	4,4
5	Xarici turistlərə satılmış göndərişlərin (yol vəraqlərinin) dəyəri, min manat	446,4	4390,1	2347,8	5640,9	12,6

Materialların təhlili göstərir ki, ölkəmizdə fəaliyyət göstərən turizm müəssisələrinin sayı 2005-ci ilə nisbətən 2010-cu ildə 1,6 dəfə, 2014-cü ildə 2,7 dəfə və 2017-ci ildə isə 3,3 dəfə artmış və 272 olmuşdur. Turizm sferasında çalışan işçilərin sayı 2005-ci ilə nisbətən 2010-cu ildə 2,05 dəfə, 2014-cü ildə 2,7 dəfə və 2017-ci ildə isə 3,3 dəfə artaraq 1,838 min nəfər təşkil etmişdir.

Ölkə üzrə turizm fəaliyyətində çalışan müəssisələrin gəliri 2005-ci ilə nisbətən 2010-cu ildə 3,7 dəfə, 2014-cü ildə 6,5 dəfə və 2017-ci ildə 8,6 dəfə artmış və 34834,3 min manat təşkil etmişdir.

Azərbaycanda fəaliyyət göstərən turizm firmalarının xarici ölkə turistlərinə satdığı turizm yollayışları blanklarının dəyəri 2005-ci ilə nisbətən 2017-ci ildə 12.6 dəfə artmış və 5640,9 min manat təşkil etmişdir. Bu göstərici bilavasitə son illərdə ölkə ərazisinə beynəlxalq turist axını meyilinin artmasının təzahürüdür.

Turizmin inkişafının yüksək tempi, böyük həcmdə valyuta daxil olmaları ölkə iqtisadiyyatının müxtəlif sferalarının inkişafına aktiv təsir göstərir. Bu da öz növbəsində ölkə turizminin və bütövlükdə turizm sənayesinin formalaşmasını və təşəkkül tapmasını təmin edir. Dünya ölkələrinin ÜMM-nun 10,0%-i, dünya üzrə ümumi investisiyaların 7,0%-i, dünya ölkələrinin istehlak xərclərinin isə ümumilikdə təqribən 10-12%-i turizm sferasının payına düşür. Bu nöqteyi nəzərdən də halhazırda turizm sənayesinin güclü inkişaf etdirilməsinin dünya iqrisadiyyatına önəmli təsirini qeyd etməmək mümkün deyildir [6, s.91-95].

Dünya ölkələrindən respublikaya gələn turistlərin sayı ilə müəyyən edilən turist axınının aktivliyi və onlara göstərilən xidmətlərdən əldə edilən gəlir artımı cədvəl 4- də verilmişdir.

Beynəlxalq turist aktivliyi və onlara göstərilən xidmətlərdən gəlirin artımı

Cədvəl 4

S/N	Dövrlər	Beynəlxalq turist aktivliyi, dəfə	Turistlərə göstərilən xidmətlərdən əldə edilən gəlir artımı, dəfə
1	1995-2000	1,1	1,4
2	2001-2005	1,3	2,0
3	2006-2010	2,2	3,0
4	2011-2017	1,7	2,4

Məlumatlardan göründüyü kimi, ölkəyə turistlərin gəlməsinin aktivliyinin atrımı 2006-2010-cu illərdə digər dövrlərlə müqayisədə yüksəkdir. Bu artım 2001-2005-ci illə müqayisədə 1,7 dəfə, 2011-2017-ci illərlə müqayisədə isə 1,3 dəfə çox olmuşdur. Turistlərə göstərilən xidmətlərdən əldə edilən gəlir artımı göstəricisi də həmin dövrdə yüksək olmuş, 2001-2005-ci illərlə müqayisədə 1,5 dəfə, 2011-2017-ci illərlə müqayisədə isə 1,25 dəfə çox olmuşdur. Qeyd etmək lazımdır ki, ölkəyə turist axınının aktivliyi və onlara göstərilən xidmətlərdən əldə edilən gəlir kimi göstəricilərin yüksək olması beynəlxalq tədbirlər keçirilməsi və turizm firmalarının səmərəli fəaliyyətinin nəticəsidir.

Tədqiqat göstərir ki, turizmin ölkə iqtisadiyyatının inkişafına dolayı təsiri təqribən ondan birbaşa əldə edilən nəticəyə bərabərdir. İlkin şərtlər nəzərə alınmaqla, BTT-nin proqnozlarına əsasən UDM-in strukturunda turizmin xüsusi çəkisi təqribən 10-12%-ə çatır [2, s.152-155]. Turizm biznesi bütün ölkələrdə xalq təsərrüfatının müxtəlif sahələrinin, o cümlədən tikintinin, ticarətin, xalq istehlakı mallarının istehsalı bölmələrinin, rabitənin və s. də inkişafını stimullaşdırır və onların genişlənməsinə təkan verir. Eyni zamanda, turizm biznesi sahibkarları bir çox səbəblərə görə özünə cəlb edə bilir:

- start üçün çox da böyük həcmli investisiyanın lazım olmaması;
- ölkədə turizm xidmətlərinə olan tələbatın artması;
- bu biznes sahəsinin digər xidmət sahələri ilə müqayisədə rentabellik səviyyəsinin yüksək olması;
- turizm sferasına qoyulmuş xərclərin qısa müddət ərzində özünü ödəyə bilməsi;
- bu xidmət sferasının digərləri ilə müqayisədə qısa müddətdə gəlir gətirmə ehtimalının yüksək olması və s.

Turizm sənayesində göstərilən xidmətlərin həcminin artım dinamikası yeni iş yerlərinin sayının digər müəssisələrə nisbətən daha da çox artmasına gətirib çıxarır. Bu baxımdan turizm xidmətlərinə tələbatın artması və bu sferada yeni iş yerlərinin yaranmasının vaxt aralığı minimumdur. Lakin çox əfsusluqla qeyd etmək lazımdır ki, Azərbaycana turist axınının davam etməsinə baxmayaraq tirizm sənayesinin ölkə iqtisadiyyatına təsiri hələlik əhəmiyyətli dərəcədə hiss edilmir. Bu məqsədlə də, turizmdə real investisiyaların artırılması, mehmanxana tələbatı səviyyəsinin yüksəldilməsi, mehmanxanalarda yerli və beynəlxalq turistlərin nisbətən aşağı qiymətlərlə yerləşdirilməsi, bu sahədə ixtisaslaşdırılmış kadr çatışmazlığının aradan qaldırılması və s. turizm sənayesini bu sahənin inkişafına dövlətin qoyduğu xərclərlə adekvat edir. Bütün bunların nəticəsidir ki, dünya turist axınının 0,15%-dən az hissəsi bizim ölkəmizin payına düşür. Bu göstəricinin yüksəldilməsi məqsədi ilə dövlət və turizm sahəsində çalışan qeyri dövlət təşkilatları, sahibkarlar birgə fəaliyyət çərçivəsində öz işlərini aşagıdakı məsələlərin yerinə yetirilməsinə istiqamətləndirməlidirlər:

- xarici investorların ölkənin bu sahəsinə investisiya qoyuluşunu sürətləndirmək məqsədi ilə onlarda xüsusi stimul yaradılmasını təmin etmək;
- dağlıq regionlarda dağ turizminin inkişafını təmin etmək məqsədi ilə xarıcı ölkələrin təcrübəsindən bəhrələnməklə yüksək ixtisaslı mütəxəssiaslərin bu bölkələdə fəaliyyətinə əlverişli şəraitin formalaşmasını təmin etmək ;
- turizm sferasinin ölkə çərçivəsində inkişafını təmin edə bilən yeni layihələrin hazırlanması və tətbiq edilməsinə xüsusi məqsədli kreditlərin ayrılmasını təmin etmək;
- ölkədə aqroturizmin, ekoturizmin, dag turizminin, çay turizminin və turizmin digər əlverişli sahələrinin inkişafının sürətlənməsinə əlverişli şəraiti formalaşdırmaqla bərabər regionların idman, rekression, mədəni, sosial-iqtisadi, infrastruktur və qonaqpərvərlik, yerli əhalinin münasibətləri və s. kimi amillərin nəzərə alınmasını təmin etmək;
- ölkədə turist-rekreasiya yığımının formalaşması üçün birbaşa xarici investisiyaları, o cümlədən Türkiyə, Çin, İngiltərə, Çexiya və s. ölkələrin xarici-iqtisadi inteqrasiya aktivlərini bu sferanın inkişaf etdirilməsinə cəlb etmək və s.

Açar sözlər: turist-rekreasiya kompleksi, beynəlxalq və daxili turizm, turizm sənayesi

İstifadə edilmiş ədəbiyyat

1. Azərbaycanın statistik göstəriciləri. Bakı: Səda, 2017, 789 s.
2. Боголюбов В.С., Орловская В.П. Экономика туризма. М.: Наука, 2005, 192 с.
3. Əlirzayev Ə.Q. Turizmin iqtisadiyyatı və idarə edilməsi. Bakı: İqtisad Universiteti, 2011, 494 s.
4. İsmayılov V.İ. Sosial aspekts of Aqritourizm development. Bakı: Odlar Yurdu Universiteti, 2012, №33, s.210-214
5. Остроумов О.В. Туризм, продвижение российского турпродукта: возможности и реальность. М.: Финансы и статистика, 2011, 197 с.
6. Шевченко Ю.Л., Щенина О.П. Становление и развитие курортов СКФО. М.: 2009, 152 с.
7. http:/www/sanatorium/az/site/index/php/[Электронный ресурс]

Вилаят Исмайлов

АКТУАЛЬНЫЕ ПРОБЛЕМЫ ФОРМИРОВАНИЕ ТУРИСТСКО-РЕКРЕАЦИОННЫХ КЛАСТЕРОВ В АЗЕРБАЙДЖАНЕ

Резюме

В статье отмечается, что в экономических районах Азербайджанской Республики для развития туризма сформированы благоприятные условия. Поэтому все основные показатели в этой сфере относятся к санатории-курортам региона. Отмечается, что на формирование туристско-рекреационного кластера существенное влияние оказывает ускоренное непрерывное развитие специализированных лечебных учреждений. С этой целью для формирования туристско-рекреационного кластера в регионах страны должны быть вовлечены интеграционные активы в указанную сферу.

Ключевые слова: туристско-рекреационный комплекс, международный и внутренний туризм, туристская индустрия

Vilayat Ismayilov

ACTUAL PROBLEMS OF FORMATION OF TOURISTS-RECRAINING CLASSERS IN AZERBAIJAN

Summary

The article notes that in economic regions of the Republic of Azerbaijan for the development of tourism favorable conditions are formed. Therefore, all the main indicators in this area belong to the sanatorium – the resorts of the region. It is noted that on the formation of tourist-recreational cluster is significantly influenced by the accelerated continuous development of specialized medical institutions. For this purpose to form a tourist-recreational cluster in the regions of the country, integration assets should be involved in this area.

Keywords: tourist-and-recreational complex, international and domestic tourism, tourist industry

УДК – 338.512

Гюльнара Гаджиева
Азербайджанская Академия Труда и Социальных Отношений, д.ф.э., доцент

ФОРМЫ ПРОМЫШЛЕННОЙ ПОЛИТИКИ

В статье анализируются взгляды ученых классической экономики, таких как А.Смита и Д.Рикардо по промышленной политике, современных ученых экономистов Д.Родрика, О. Грэма и др. в контексте продолжающегося кризиса были исследованы формы промышленной политики с точки зрения экономического развития страны и предложена систематизированная схема форм промышленной политики.

Статья является продолжением изучения форм промышленной политики как обязательного атрибута государственного участия в экономическом развитии страны. Учитывая, что промышленная политика сформировалась в X1X веке и трактовалась как политика по поддержке важнейших секторов экономики, можно напомнить слова американского ученого Д.Родрика, который рассматривает промышленную политику …… как поддерживающую отдельные специфические виды деятельности и способствующую структурным изменениям [1]. Было бы уместным вспомнить слова О.Грэма, который определяет промышленную политику, как заявленные государством официальные действия стратегического характера в целях стимулирования развития отраслей, а также изменения структуры промышленности [2].

В мировой практике выработаны два типа государственной промышленной политики – «общесистемный и селективный» [3], первый их которых направлена на создание условий, благоприятствующих индустриальному развитию. Тогда как вторая выступает как нацеленное влияние на определенные группы субъектов рынка. На наш взгляд селективный подход приемлем для нашей экономики, так как благоприятно влияет в условиях выхода экономики из кризиса. Именно здесь проявляются управленческая и регулирующая деятельность государства. Таким образом, учитывая модель Бостонской матрицы, предприятия выступают в роли «дойной коровы» [4, с.236].

Итак, промышленную политику необходимо формировать в условиях продолжающегося кризиса при незавершенности становления рыночной инфраструктуры, а также при ограниченных инвестиционных ресурсах.

На фоне идеологической войны, страны которые вели политику «закрытой экономики» с точки зрения целесообразности развивали внешнеторговые отношения. Следует отметить, что это необходимость зародилась на почве влияния следующих факторов, таких как недостаточность местного производства; различная ценовая политика стран; товарная дифференциация между странами и т.д.

Говоря о недостаточности местного производства подразумевается, что некоторые товары в различных странах вовсе не производятся или объем местного производства не удовлетворяет внутренние потребности. А это происходит в следующих случаях:

а) неравномерное распределение природных ресурсов в мире. Несмотря на рост производства искусственных ресурсов все еще невозможно покрыть недостачу природных ресурсов.

б) нехватка высококвалифицированных специалистов.

Недостаточность производственной технологии для обработки промышленных товаров, также высококвалифицированных кадров обуславливает необходимость внешней торговли. Для производства определенного вида продукта разработанная технология в одной стране, получает патент на новшество, что дает возможность стране право на выпуск инновационного продукта. С помощью приобретения патента на технологию, производство инновационного товара осуществляется и в других странах. Для удовлетворения потребительских

запросов импортируются товары. Торговля высокой технологией занимает особое место в современном этапе, где технология для социально-экономического развития каждой страны имеет первостепенное значение. В определенный период технологические изобретения позволяют странам изобретателям становится экспортным монополистом.

По истечению срока патента, инновационный продукт превращается в свободный товар, или другие страны приобретает этот патент, или же заключают договор о лицензии. В дальнейшем, страны начинающие производить этот товар, если затраты на них будут дешевле, тогда в стране производителе экспорт сократится, вплоть до того, что могут импортировать.

в) неравномерный уровень развития. Учитывая его различный уровень в отдельных странах, нахождение их на одинаковом этапе развития практически невозможно. Причиной этих различий могут быть опережающее развитие, внешние и внутренние факторы, даже политическая история этих стран. Однако, независимо от причин, развитые страны по сравнению имеют больше капитала, квалифицированной рабочей силы, новой технологии, тогда как развивающиеся страны находятся в процессе индустриализации. Другими словами, в этих странах сфера промышленности или вовсе не сформирован, или не в состоянии обеспечить потребность страны из-за высокой себестоимости. Чтобы обеспечить потребность стран в необходимых потребительских товарах необходимо осуществить импортные операции промышленно развитыми. Хотя ненужно забывать о том, что в ходе неравномерного развития торговые отношения переходят с одного состояния в другую. После формирования промышленности, страныранее импортирующие продукцию, сами могут их производить, а также экспортировать.

Другой причиной внешнеэкономических отношений является существенная разница в производственной себестоимости в различных странах. Отметим, что несмотря на технологическое развитие, всегда существует разница в производственной себестоимости.

С точки зрения технологий, природных условий для производства определенных товаров могут отсутствовать все препятствия. Если представить, что страна отказывается производить некоторые товары, импортируя их, и таким образом ограниченными ресурсами достигает высокого уровня жизни, значитсуществует разница между странами с точки зрения эффективности производства.

По теории сравнительного преимущества, чтобы между двумя странами осуществлялись торговые отношения, основным условием является разница между себестоимостью. Здесь речь идет о фактической себестоимости продукции. Поэтому страна должна производить не те товары, которые доступны, а те, которые по сравнению с другой страной обходится дешевле. В этом случае производимые товары можно экспортировать, привлеченной валютой можно импортировать товары, которые стране обходились бы дороже, и тем самым сможет сэкономить инвестиции.

Думаем, что если все страны действовали бы опираясь на этот принцип, то каждая страна специализировалась бы в более производительной сфере и таким образом более эффективно использовал ресурсы. Следует отметить, что этот принцип введенный в оборот классической экономики, а далее получившее название «теория сравнительных преимуществ» в формировании внешнеэкономических отношений имеет особое значение.

Сравнивая такие факторы, как недостаточное местное производство и ценовые разницы, то можно прийти к такому заключению, что все одинаковые товары производятся буквально во всех странах. Однако, было бы правильно, если в развивающихся странах при выборе промышленного производства выступали бы из фактических сравнительных преимуществ. Государство, для таких отраслей промышленности должен вести страховую политику. Теория сравнительных преимуществ и свободные торговые отношения могут быть темой обсуждения стран, находящихся на определенном уровне индустриализации.

Другой причиной внешнеэкономических отношений является производство различных товаров. Если одинаковые материалы будут обрабатываться в различных предприятиях, то

они не будут одинаковыми. Разница между ними будет как с точки зрения внешнего облика, упаковки, также - качества. С другой стороны, выбор потребителей тоже не идентичен. Причиной внешнеэкономических отношений является расслоение общества, так как в высокоразвитых странах эстетические и вкусовые требования к товарам высоки, а значит они в цене дороже или наоборот. Далее, система открытой экономики, приводящее к обилию товаров, активирует фактор производства товаров, различных модификаций.

Если сравнить две вышеназванные причины увидим, что теория сравнительных преимуществ оправдывает себя в основном на ценовой разнице товаров, имеющих стандартный состав сырья. А товарная разница ощущается в продуктах, где по цене отличается, а в реализации существенное значение приобретают их состав и специфические особенности. Они обычно являются смешанными промышленными товарами передовой технологии. Но если замечается большая ценовая разница, то потребители будут действовать по теории сравнительного преимущества.

Выше указанные 3 причины формирования внешнеэкономических отношений занимали особое место в различных экономических направлениях в различных этапах. Например, меркантилисты были сторонниками экономической политики, ограничивающей и безопасной во внешней торговле. Меркантилисты считают,что в основе экономического богатства и силы лежат деньги, и чтобы увеличить их объем в казне необходимо уделить внимание экспортеру, ограничению импорта, расширению местного производства.

Своеобразное место имели ценовые разницы в произведениях классических экономистов. В произведении А.Смита «Богатство народов» (1799) отмечается, что люди выступают из своих экономических интересов, что их индивидуальная предприимчивость не должна быть ограничена, так как действуя по воле оказывают услугу обществу. Наконец, существует так называемая невидимая рука (ценовой механизм) которая регулирует экономические циклы, в роли которого действует вмешательство государства в экономику [5, с.254-256]. Защищая либерализм во внешнеэкономических отношениях классики опирались на сравнительные преимущества. Например, Д.Рикардо [6] в международной специализации предлагая сравнительную себестоимость вместо абсолютной себестоимости заложил фундамент теории сравнительных преимуществ. Обобщая вышесказанное можно отметить, что с точки зрения внешнеэкономических отношений в мировой практике существует 2 вида промышленной политики:

1. промышленная политика, ориентированная на импорт замещение;
2. экспортоориентированная промышленная политика.

Ориентированный на импорт замещение политика основана на комплексе мер, направленная на производство тех товаров, которые ранее были импортированы. Такая политика ведется с целью создания условий для укрепления промышленности страны, обеспечения экономической свободы и накопления капитала. Такая политика применяется в различных формах:

- Применяется как политика естественного развития, политика совершенствования. При применении этой политики, страна в первую очередь, приобретает товар, а в дальнейшем сама производит и продает;
- Обдуманная политика развития.Развивающиеся страны считают благоприятным ранее импортируемые товары производить внутри страны;
- Появляется необходимость производства импортированных товаров, в связи с войнами, блокадой и др. чрезвычайными случаями;
- Необходимость производства импортированных товаров связан недостатком валютных средств.

При применении этой политики государство опирается на различные способы:

а) ликвидируются запреты, связанные ввозом в страну товаров;

б) разрешается ввоз товаров только в определенном количестве;

в) разрешается применять ускоренные амортизационные отчисления. Этот способ имеет существенное значение с точки зрения морального износа оборудования, хотя приводит к снижению уровня доходности.

г) осуществляются налоговые льготы;

д) предпринимают протекционистские меры.

Если цена импортируемого товара ниже, чем в стране, для эквивалентности цен местными товарами применяется налог на импорт.

Вышеназванная политика осуществляется в следующих этапах:

- производство конечных потребительских товаров;
- производство промежуточных товаров, полуфабрикатов;
- производство производственных средств.

Производство потребительских товаров в стране, в первую очередь, связано с тем, что рыночный риск здесь отсутствует. Так как, производимые товары гораздо раньше были импортированы, поэтому известно сколько должно быть потреблено. Во-вторых, на производство этих товаров, по сравнению с промежуточными товарами и производственными средствами требуется гораздо меньше финансовых средств. В-третьих, производственная технология этих товаров сравнительно проще, приобретение гораздо легче, гораздо меньше требуются профессиональные кадры.

При достижении уровня производства товаров развитых стран, увеличении доходности, расширении объема рынка, переходят на производство промежуточных товаров, а в конечной стадии на производство производственных средств.

Политика в направлении заменяющегося импорта приводит к следующему:

1. На рынке появляется изобилие. Обеспечивается эластичность на рынке - цены определяются по спросу и предложению. Появляется изобилие инвестиций.

2. Вложенные средства находят крупных инвесторов, которое позволяет использовать национальное достояние иностранным предпринимателям.

3. Это политика не может снижать поток импорта и валюты. Когда страна импортирует один товар, возможно контролировать его потребление. Если товар производится в стране, то его потребление либерализуется, и тогда государству трудно его контролировать. В этом случает, для производства этого товара, импортируемые сырье и материалы трудно контролировать. А это позволяет импорту по сравнению с предыдущим состоянием расширится.

4. Сокращается накопление. Из-за инфляции население вместо накопления, потребляет. Так как, деньги обесцениваются, во избежание потерь, деньги меняют на товары. Также учитывая, что процентная ставка низкая, накопление теряет смысл. А это в свою очередь, говорит о сокращении инвестиционных фондов.

5. Полностью затрет импорта приводит к производству низко качественной, высокой себестоимостью товаров. Так, если на рынке не существует конкуренция, не ввозить товары, то какую-бы продукцию, и по какой цене не производили бы страны, они в любом случае потребляются. Поэтому производитель не думает о высоком качестве. Качество и себестоимость на повестке дня в конкурентных условиях. А это в свою очередь, требует инвестиционные вложения на строительство предприятий или же привлечь иностранных инвестиций. Первое дает возможность использовать малые производственные мощности, второе - отказаться от политики запрета импорта.

6. Это политика позволяет изменения в распределении доходов. Доходы от сельского хозяйства направляются в промышленность, от работника к работодателю и т.п.

Вышеназванная политика все меньше используется в управлении странами. Чем быстрее отказ от этой политики, тем быстрее страны могут избегать военный переворот, диктатуру и т.д., что происходила в таких странах, как Бразилия, Аргентина, Пакистан, Чили, Турция и др.

Изменение этой политики требует создания экономического и социального равновесия. Однако экспорт ориентированная промышленная политики, опираясь на собственные срав-

нительные преимущества, обоснует необходимость развития промышленности, международное разделение труда, интеграцию в мировую экономику.

Это политика предусматривает осуществление следующих мер:

1. Ликвидировать рыночные недостатки.

- извлечь недостатки на рынке товаров, снизить государственное вмешательство на цены товаров. Исключая стратегические товары (хлеб, сахар, лекарство), где должно сохраняться государственное вмешательство, а цены на другие товары на рынке по мере их дефицита должны определяться свободно.

- на рынке ресурсов также цены должны отразить уровень их дефицита. Заработная плата не должна искусственно завышена, необходимо применить позитивную процентную политику.

- применить необходимые меры на валютном рынке, сначало вести политику реальных валютных курс, затем конвертацию.

Меры, которые были направлены на ликвидацию недостатков позволит интегрировать экономику страны в мировое сообщество и эффективно распределять богатство. Все это обоснует необходимость участия государства в управлении экономикой не в прямую, а косвенным образом.

2. сокращение таможенных налогов и либерализация импорта.

3. принятие мер для стимулирования экспортно-импортных операций:

- развитие инфраструктур транспорта и связи;развитие банковского и страхового секторов;

- для производства экспортируемого товара освобождать от налога импортируемые сырье, материалы и оборудование;

- оказывать дешевые кредитные услуги экспортному сектору;

- часть валюты от экспорта держать зарубежом, с помощью которой осуществлять импортные операции;

- повысить образовательный уровень экспортеров со стороны государства, проводить ярмарки и выставки для признания местных товаров, фирм на внешнем рынке;

- оказание государством помощи экспортерам при получении международных стандартов качества и их информированности;

- снижение бюрократических преград и запретов в экономической деятельности;

- стимулировать иностранную инвестицию. Иностранные инвестиции приносят валюту, формируют занятость и являются примером для внутренних инвесторов.

Считаем, что политика заменяющего импорта и экспорт направленная политика никогда не могут быть альтернативными. Их можно применять одновременно. Другими словами, если ранее созданный сектор экспортирует продукцию, то сектор на этапе формирования начинают импортировать. Здесь главный вопрос выбор эффективного применения политики.

По технологическому уровню производства промышленную политику можно рассмотреть по следующим направлениям:

1. Политика экспериментального производства;

2. Политика серийного производства.

3. Политика массового производства.

Последняя четверть XX века и начало XX1 века характеризуется переходом развитых стран в постиндустриальный этап. Исторически, развитие промышленности берет свои истоки с конца XYIII века в Великобритании.

Развитие промышленности стало толчком развития капитализма. Исследование тенденций развития промышленности можно увидеть в теории «Длинные волны» Н.Кондратьева, который в период 30-70 лет исследовал изменения научно-технической революции.

Независимость страны наблюдается в постпромышленном этапе экономического развития. С конца 1980-х годов для постпромышленного уклада характерно развитие микроэлектроники, информационной технологии, биотехнологии, генной инжиниринга и др. Все это

дало возможность с помощью электронной сети транснациональных корпораций объединять фирмы, контролировать качество продукции, вложить инвестиции, доставить продукцию своевременно и качественно. Ясно, что каждый из этих укладов в своем развитии прошел несколько этапов и в развитии страны ему принадлежит своеобразная роль. Последующий уклад перенимая фундамент предыдущего уклада развивает производственные мощности и инфраструктуру.

Конкурентоспособность промышленности, его технологический уровень и эффективность определяется существующим производственным процессом и удельным весом технологических укладов в структуре выпущенной продукции. Этот уровень определяется не в мировом уровне, а в сравнении самыми лучшими мировыми опытами на мировом рынке. Сектор, выпускающий высокотехнологическую продукцию достигает дифференциальной научно-технической прибыли. Очевидно, что устаревшей технологией и продукцией не возможно достигнуть таких результатов.

Несмотря на то, что факторами глобальной интеграции являются технологический прогресс, снижение транспортных расходов, важной здесь является индивидуальность каждой страны к этому процессу. Участие развивающихся стран в процессе глобализации носит поверхностный характер. А развитые страны выступают в роли управляющего, диктующего и получают высокую прибыль. Для Азербайджана имеются широкие возможности участия в процессе глобализации. Несмотря на имеющиеся высокие потенциальные возможности, для правильной их реализации нужно выбрать эффективную промышленную политику. Практика показывает, что если вложенные инвестиции на человеческий капитал совместить импортом технологий можно продемонстрировать динамические изменения в экономическом развитии.

Считаем, что трансформационный период в странах модернизации промышленной политики должна занимать приоритетное место.В основе модернизации стоит то, что ранее малоразвитые страны изменением технологического уклада добились интенсивного экономического развития. После второй мировой войны опыт некоторых западно европейских и восточных стран доказали это. Такая стратегия модернизации подразумевает кооперацию производственных отраслей, определяющих направления развития производственных резервов.

В то же время такого рода модернизация не обходилась без инвестиций, финансовой помощи (план Маршалла) развитых стран. В свою очередь, это позволяет эффективной реализации финансовых, научных, социально-культурных резервов и их быстрой интеграции в мировую экономику.

В каждом технологическом укладе место стран оценивается по услугам, оказанным для формирования конкретного уклада. Надо отметить, что развитые страны производят и экспортируют наукоемкие, развивающиеся-трудоемкие товары. По известной теории Хекшер-Олина экспортеры трудоемких товаров импортируют капиталоемкие товары. Это характеризует торговые отношения развитых и развивающихся стран. Так, между промышленно развитыми странами в структуре производственных факторов большая разница не наблюдается.

Следует отметить, что такие страны как США, Германия, Англия, Япония, Франция являясь автором высокой технологии, которые характеризуют новейшие научно-технические достижения, производство новой продукции носит экспериментальный характер. Страны, в которых новшество быстро перенимается, здесь происходит серийное производство продукции. Такие страны как Сингапур, Южная Корея, Малайзия в последнее время в этой сфере достигли больших результатов. В то же время, развивающиеся страны занимаются экспортом сырья и материалов, массовым производством.

Отметим, что из экспериментального производства переход к массовому производству связан временным фактором. Правда заключается в том, что «господство технологий – господствует историей».

По охвату промышленная политика отражает составной элемент экономической политики, хотя промышленную политику можно классифицировать на макро и микро политику.

Макропромышленная политика являясь комплексом мер обуславливает развитие промышленности. Другими словами, она влияет на все рыночные субъекты, обеспечивает активизацию формирования экономической, правовой, институциональной, организационной сферы.

Отметим, что макроэкономическая политика создает равные условия для рыночных субъектов, она носит либеральный характер. Этот закон позволит государству создать порядок в рыночных структурах по налогам, финансам, таможенным режимам.

Микропромышленная политика носит селективный характер, которая связана конкретной сферой промышленности, различными предприятиями, отраслями, промышленностью региона. Здесь регулирующая функция государства, вмешательство государства в реальный сектор ярко проявляет себя. Вместе с этим селективное покровительство промышленности для формирования инфраструктуры и правовой среды рыночных структур соответствует оптимальным целям субъектов промышленной политики.

Активное макро и эффективная микро промышленная политика требует немедленного выполнения организационных и экономических условий. Так, при выдвижении какого-то предложения, следует оценить его не по конечным результатам в какой-то стране, в какое-то время, а в местных условиях, как подходит к конкретной отрасли. Считается необходимым применение селективной микро промышленной политики в странах, которых охватил кризис.

На наш взгляд, представленная схема дает ясную картину о формах промышленной политики.




Схема 1. Формы промышленной политики (составлена автором)

Отметим, что покровительство государством приоритетных промышленных секторов позволит возродить и оптимизировать возможности реального сектора экономики.

Ключевые слова: промышленная политика, общесистемный и селективный методы, относительные преимущества, свободная рыночная экономика, индустриализация

Использованная литература

1. Rodrik D. Industrial Policy for the Twenty-First Century. Harvard University, 2004 [Electronic resource]. URL:http://www. hks.harvard.edu/fs/drodrik/Research%20papers/UNIDOSep.pdf
2. Graham O.L., Jr. Losing Time: The industrial Policy Debate. Harvard University Press, 1994, 384 c. 18.
3. Glasstetter W. AllgemeineWirtschaftspolitik. Mannheim, 1992 (G, I) ГМ; Eucken W. Grundsatze der Wirtschaftspolitik. Tubingen, 1955. 6 Aufl. 1990 (GI.);
4. Булатов А.С. Экономика. М.: Эксмо, 2016
5. Смит А. Богатство народов. М.: Эксмо, 2016 https://publications.hse.ru/books/82221624
6. Ricardo D. / On the Principles of Political Economy and Taxation/1817/p/236-238

Gülnarə Hacıyeva

SƏNAYE SİYASƏTİNİN FORMALARI

Xülasə

Məqalədə klassik iqtisadiyyatın nümayəndələri olan A.Smit və D.Rikardonun sənaye siyasətinə baxışları təhlil edilmiş, müasir dövrün iqtisadçılarından D.Rodrik, O.Graham və başqalarının davamedici böhran şəraitində sənaye siyasətinin formaları ölkənin iqtisadi inkişafı baxımından araşdırılmış, sənaye siyasətinin formalarının sistemləşdirilmiş sxemi təklif edilmişdir.

Açar sözlər: sənaye siyasəti, sistemli və selektiv metodlar, müqayisəli üstünlüklər, azad bazar iqtisadiyyatı, sənayeləşmə

Gulnara Hajiyeva

FORMS OF INDUSTRIAL POLICY

Summary

The article analyzes the views of scientists of the classical economy, such as A.Smith and D.Ricardo on the industrial policy, contemporary economists D.Rodrik, O.Graham and others, in the context of the ongoing crisis, the forms of industrial policy are examined from the point of view of economic development of the country and proposed systematized scheme of industrial policy forms.

Keywords: industrial policy, systematic and selective methods, comparative advantages, free market economy, industrialization

UOT – 1.101

Söhrab Məhərrəmov
AMEA Fəlsəfə İnstitutu, fəl.ü.f.d.

MÜASIR İNTERNET KOMMUNİKASİYALARI

Məqalədə qeyd olunur ki, müasir dövrümüz informasiya texnologiyalarının və informasiya proseslərinin qloballaşmasının inkişafı etdiyi qlobal informasiya cəmiyyəti dövrüdür. Bu proseslərin əsas təzahürlərindən biri qlobal İnternet şəbəkəsinin yaranmasıdır. Qeyd edilir ki, İnternet rabitə və informatikada XX əsrin texniki uğurları, insanların qarşılıqlı fəaliyyətinin xüsusi virtual sahəsini – coğrafi sərhədlərin yoxluğu, obyektlərin, istifadəçilərin milli mənsubiyyətinin müəyyən edilməsinin çətinliyi və mövcud resurslara çıxışın anonimliyi kimi fərqləndirici əlamətləri olan informasiya-kommunikasiya məkanını formalaşdırır.

İnternet bizim həyatımıza təzəlikcə daxil olmasına rəğmən, artıq əhalinin bütün təbəqələri və bütün yaşdan olan insanlar arasında çox böyük populyarlıq qazanmışdır. İndi İnternet ən sürətli, etibarlı ünsiyyət və informasiya (insanlar arasında) mübadiləsi vasitəsidir. İnternetin köməyi ilə internet konfranslarda iştirak etmək, bütün dünyada əqidəaşlar və dostlar tapmaq, təhsil ilə məşğul olmaq imkanı yaranır ki, bu da XXI əsrdə yaşayan insan üçün çox vacibdir.

İnternet lazım olan bütün zəruri informasiya tapmağın mümkün olduğu informasiya dünyasıdır. İnternetdə istədiyin hər şeyi edə bilərsən: təhsil üçün informasiya tapmaq, kitab, məqalə oxumaq, filmlərə baxmaqdan tutmuş, lazım olan əşyalar sifariş etmək və s. mümkündür. İnternet müasir insanın istər professional fəaliyyətində, istərsə də gündəlik həyatında nəhəng imkanlar verməklə böyük rol oynayır. İnternet tək işdə kömək etməklə qalmır, eyni zamanda gündəlik həyata əhəmiyyətli dərəcədə təsir edir. Bundan başqa, online rejimində həyat mövcuddur. Online rejimində insanlarda onları maraqlandıran mövzular ilə ünsiyyətə girmək, təcrübə mübadiləsi aparmaq, məsləhət vermək, çətin anında insana dayaq durmaq, mütəxəssisə sual vermək və həmin andaca cavab almaq mümkündür. Hazırda, bizim müasir dünyamızda bir toxunuşla İnternetdə sizə lazım olan, sizi maraqlandıran bir çox şeyləri evdən çıxmadan, zaman itirmədən almaq mümkündür. İnternetin köməyi ilə sosial şəbəkələrdə köhnə tanışları tapmaqla yanaşı yeni tanışlıqlar qurmaq mümkündür. İnternet insanlara yeni ünsiyyət imkanları yaradır. Bu mövzu bu gün şübhəsiz olduqca aktualdır, çünki, İnternet bütün dünyada geniş yayılıb, o bizim sosial reallığı əks etdirir. Ümumdünya qlobal şəbəkənin cəmiyyətin inkişafında oynadığı rolu XIX əsrin ortalarında dəmir yolunun oynadığı rol ilə müqayisə etmək olar. İnformasiyanın ötürülməsi sahəsində misilsiz imkanlar açmaqla İnternet texnoloji və sosial inqilabların yeni mərhələsini yaratdı.

Hazırda İnternet - birliklər bütün cəmiyyətin həyatında, xüsusilə də elektron demokratiya şəraitində tədricən hiss ediləcək rol oynamağa başlayır. Birlik insanlar arasında ümumi olan əlaqələrin (ümumi məqsədlər, maraqlar, baxışlar, məşğulluq, hobbi, yaşayış yeri, cins, millət, problemlər, şərait) məcmuudur. Birliyin əsasını insanlar arasında ünsiyyət təşkil edir.

Hər keçən il İnternet bizim həyatımıza daha dərindən daxil olur. Bunun səbəbi onun ölkədə və xaricdə baş verən hadisələr barədə informasiya almaq, yenilikləri və hadisələri izləmək imkanının olmasıdır. Rabitə və informatika sahəsində XX əsrin texniki uğurları nəticəsində hazırda dünyada insanların qarşılıqlı fəaliyyətinin xüsusi virtual sahəsi – coğrafi sərhədlərin yoxluğu, obyektlərinin milli mənsubiyyətinin müəyyən edilməsinin çətinliyi və mövcud resurslara çıxışın anonim olması kimi fərqləndirici əlamətləri olan informasiya-kommunikasiya məkanı formalaşmışdır.

Bu məkanın formalaşmasının əsasını bu gün milyardlarla insanı birləşdirən qlobal kompüter şəbəkəsi olan İnternet təşkil edir. Bu insanların sayı günbəgün artır və çox yəqin ki, yaxın bir neçə ildə Yer kürəsi əhalisinin böyük əksəriyyətinin kompüter şəbəkəsinə daimi çıxışı olacaq.

Yüksək texnologiyalar sahəsində qazanılan uğurlar bunların gerçəkləşəcəyinə şübhə yeri qoymur. Belə ki, 2017-ci ilin may ayında Facebook-un bütün dünyanı İnternetlə təmin edəcək pilotsuz

təyyarəsi – dronun ABŞ-ın Arizona ştatında sınaq uçuşu uğurla başa çatıb. Facebook-un təsisçisi Mark Zukerberqin təşəbbüsü ilə buraxılan bu dronun adı Aquiladır. Şirkət bu dronun köməyi ilə İnternetə çıxışı olmayan əraziləri İnternetlə təmin edərək, əlavə 4 milyarda yaxın insanın qlobal şəbəkəyə çıxışına nail olmaq niyyətindədir. Mark Zukerberq öz Facebook səhifəsində yazır: "Aquila hazır olan kimi Günəş enerjisi ilə çalışan təyyarələr donanması dünyanın hər yerinə İnternet bağlantısı gətirəcək".

İnternetin gur inkişafı milyardlarla insanın həyat tərzini kardinal şəkildə dəyişir. İnternet şəbəkəsi intensiv templə inkişaf edir, istifadəçilərin sayı hər il durmadan artır. İnternetə çıxış getdikcə genişlənir və hər bir insana ona lazım olanda qoşulmaq imkanı verir.

Azərbaycanda İnternet mövcud olduğu qısa müddətdə bütün ölkəni bürümüşdür. Dünya İqtisadi Forumunun "Qlobal İnformasiya Texnologiyaları 2016" hesabatında "Şəbəkələşmə Hazırlığı İndeksi"-nə görə Azərbaycan əvvəlki mövqeyindən 4 pillə irəliləyərək dünyanın 139 ölkəsi içərisində 53-cü yerə yüksəlmişdir. Beynəlxalq Telekommunikasiya İttifaqının "İnformasiya cəmiyyətinin ölçülməsi 2015" hesabatında isə Azərbaycan "İKT İnkişaf İndeksi"-nə görə 167 ölkə arasında 67-ci yerdədir. İnternet praktik olaraq cəmiyyətin bütün sahələrinə daxil olmuşdur, həm də onun həyatımıza daxil olması XIX əsrin ikinci yarısı – XX əsrdə telefon, radio, televiziya kimi texniki kəşflərin kütləvi daxil olmasından daha sürətli baş verdi. Görünür İnternetə olan sosial tələb daha böyük olmuşdur.

Beləliklə, İnternet özü idarə edilən sosial sistem kimi inkişaf edir, bu zaman o, dünya haqda bilik əldə edilməsi mümkün olan informasiya resursu kimi sosiallaşma funksiyasını yerinə yetirir. Sosial struktur burada qarşılıqlı fəaliyyətdə olan real həyat trenajoru rolunu oynayır.

Bəzi tədqiqatçılar İnternetin yayılmasının sosial təcridə və dağınıqlığa səbəb olacağından rahatsız olurlar. Onlar iddia edirlər ki, evdə İnternetə çıxışın mümkün olması nəticəsində insanlar qohumlar və dostlarla "keyfiyyətli və maraqlı ünsiyyət"də daha az olurlar. İnsanlar arasında əlaqələr zəifləyir, şəxsi qarşılıqlı münasibətlər zərər çəkir, teatra getmək, mütaliə etmək kimi ənənəvi məşqulluq formaları unudulur. Bir tərəfdən İnternet bizə böyük imkanlar açır, digər tərəfdən İnternetin zərəri barədə bir çox diskussiyalar gedir.

İnternet kültürlər arası ünsiyyət məkanı olduğu üçün bu fenomenin yaradıcısı və həm də istifadəçisi kimi onun mərkəzində olan insan haqda elmlərin bütün kompleksinin diqqətini tələb edir. Sözsüz, antroposentrizm İnternet kommunikasiyanın spesifikasının öyrənilməsində ən vacib istiqamətlərdən biridir. İnternet – bir-biri ilə qarşılıqlı əlaqədə olan kompüterlər və kompüter şəbəkələrindən çox, bu mühitdə qarşılıqlı əlaqədə və fəal hərəkətdə olan, öz fəaliyyətlərinin məhsulları ilə - xəbərlər, veb-səhifələr, kataloqlar və məlumat arxivləri, naviqasiya marşrutları, kompüter virusları ilə birlikdə olan insanlardır.

İnternetin rəsmi yaranma tarixi 1969-cu il hesab edilir, bu hesabla Şəbəkə təxminən 48 il əvvəl "doğulub". O zamandan onun populyarlığı durmadan artır, elektron göndərişlərin ötürülməsi vasitəsi olan İnternet bu gün insanlar və ideyalarla dolu görüş yerinə, kiberməkana, məsafə anlayışı olmayan kommunikasiya, informasiya və əyləncə dünyasına çevrilmişdir. Belə qısa zamanda İnternet o qədər sürətlə inkişaf etmiş, sivilizasiya prosesinin gedişinə təsiri o qədər güclü olmuşdur ki, bu fenomeni sadə sözlərlə deyil, metaforalarla təsvir etməyə başlamışlar. İnterneti ümumdünya və ya qlobal Tor, "şəbəkə şəbəkəsi" və bəşəriyyətin dünyəvi supermagistralı adlandırmağa başladılar.

2005-ci ildə ABŞ-ın Massaçusets Texnoloji İnstitutunun son iki onillikdə bəşəriyyətin ən mühüm kəşflərindən ibarət tərtib etdikləri 25 top-siyahıda İnternet birinci, onun əlavəsi olan elektron poçt isə beşinci yeri tutmuşdu.

İstifadəçilərin ümumdünya şəbəkə strukturuna, "şəbəkə-şəbəkəsi" – İnternetə qoşulmasının inkişaf sürəti və ölçüsü təkcə informasiya cəmiyyətinin nəzəriyyəçi alimlərinin təxəyyülünü təəccübləndirmir. Belə ki, 2010-cu ilin dekabr ayınadək Google informasiya axtarış sistemi olan Google "İnternet" sözünü təxminən 1.840.000.000 veb səhifə içərisində "axtarmışdı", Şəbəkənin orta statistik auditoriyası 1.966.514.816 nəfər, Yer kürəsi əhalisinin təxminən 28,7 faizini təşkil etmişdir. Yer əhalisinin təxminən dörddə biri ən azı bu sözü tanıyırdı. İnternet hər il təxminən 18 faiz çoxalır. 2040-cı ilədək İnternet istifadəçilərinin 3 milyarda çatacağı gözlənilir.

Əgər İnternetin başlanğıcını 1969-cu ildə iki kompüterin şəbəkə kimi birləşdiyi vaxtdan hesablasaq rəqəmlər heyrətləndiricidir. Belə ki, ilk dəfə Filadelfiyada ümumdünya sərgisində nümayiş etdirilən telefon istifadəçilərinin sayının 50 milyon olması üçün 55 il lazım olmuşdu. Televiziyaya bu səviyyəyə çatmaq üçün 13 il lazım olmuşdusa, İnternet bu göstəriciyə 3 ilə nail olmuşdu.

Şəbəkə kontentinin həcminin artmasını təhlil etsək görərik ki, 2009-cu ildə İnternetdə 47 milyon yeni sayt yaranmışdı, 2009-cu ilin dekabr ayında artıq saytların ümumi sayı 234 milyona çatmışdı, onlardan 81,8 milyonu .COM domenində, 12,3 milyonu .NET domenində, 7,8 milyonu .ORG domenində, 76,3 miyonu isə yuxarı səviyyəli milli domenlərdə idi. 2009-cu ildə rəqəm dünyasının ölçüləri 800.000 netabayta yaxınlaşır. Bu rəqəmi lazer disklərin üst-üstə yığılması nəticəsində yaranan pilləkən kimi qrafiklə göstərsək bu pilləkənin hündürlüyü Yerdən Aya və geriyə qədər edər. 2010-cu ildə İnternet 12.000000 petabayt və ya 1.2 zetabayta qədər genişləndi. Şəbəkə bu sürətlə çoxalmaqda davam etsə onda bu rəqəm 2020-ci ildə indikindən 44 dəfə çox olacaq, bu halda lazer disklərin köməyi ilə qurulacaq pilləkənin uzunluğu Yerdən Marsa qədər məsafənin yarısı qədər olar.

Qeyd etmək lazımdır ki, Şəbəkənin sosiallaşması səviyyəsi XXI əsrdə geniş zolaqlı xətli İnternetin və veb 2.0 adlandırılan texnologiyanın kəşfi ilə bağlı əhəmiyyətli dərəcədə güclənir, bu zaman sürətli sindikasiya, klassifikasiya və qeyri-məhdud sayda istifadəçilərin istənilən sayda şəbəkə resurslarına kollektiv çıxışı real oldu. Məhz geniş zolaqlı İnternet texnologiyası (onsuz ikinci vebdən istifadə praktik olaraq mümkün deyil) Şəbəkə vasitəsilə reallaşan, istər sosial kommunikasiyanı, istərsə də insanların fəaliyyətinin taktika və strategiyasını sürətlə dəyişir.

Ölkədə geniş zolaqlı İnternetin inkişafının göstəriciləri sosial tədqiqatlar və İnternetin cəmiyyətə təsirinin qiymətləndirilməsi üçün çox vacibdir, çünki, məhz geniş zolaqlı İnternet məsələn, Şəbəkədə insanın sosiallaşmasının bu gün üçün ən güclü vasitəsi olan ikinci veb proqram texnologiyalarının inkişafına kömək edir. Veb 2.0 instrumentariyasının köməyi ilə hər bir iştirakçı, birincisi, İnternetdə olan informasiyanın passiv istifadəçisi kimi yox, kontent yaradıcısı olmaq imkanı qazanır, ikincisi, praktiki olaraq istənilən prezentasiya və kommunikativ veb-instrumentlərə (bloqlara, vikipediyalara, sosial şəbəkələrə, müxtəlif fayl dəyişdiricilərinə), təkcə qeyri-məhdud istifadəçilərlə əlaqəyə girməyə deyil, həm də istənilən virtual birlik yaratmağa, həmçinin Qlobal şəbəkədə istənilən lazımi material yerləşdirməyə və ya yaratmağa pulsuz çıxış əldə edir.

"İnsan-kompüter" qarşılıqlı münasibətlərinin prinsiplərindəki belə əsaslı, kardinal dəyişiklik, kommunikasiya fəaliyyətinin və formatının bəzi növlərinə gündəlik ünsiyyət vaxtı hamı üçün əlçatan olan sosial şəbəkə sahəsində sürətlə yayılaraq diskursun - siyasi və dinidən maarifləndirməyə, elmi və məişətə aid olanadək bütün növlərinə toxundu.

İnternet termininin yaranması tarixinə nəzər salsaq görərik ki, Amerika hərbi şəbəkəsi ARPANET-in zaman keçdikcə nəyə çevrildiyini başa düşmək üçün əsrin dörddə birindən çox zaman lazım gəlmişdi. Ona görə də "İnternet" termininin ilk dəqiq tərifinin müəyyən edilməsi Şəbəkənin mövcudluğunun 26-cı ilində, 1995-ci ilin oktyabr ayında ABŞ Federal Şəbəkə Şurasının bir sıra şəbəkə ekspertləti və İKT mütəxəssisləri ilə məsləhətləşmələrdən sonra baş verdi. Bu tərifdə deyilir: "İnternet – onunla İP-protokol ilə və ya onun perspektivli genişlənmiş formasına əsaslanan unitar ünvanlı məkanla məntiqi bağlı olan, qlobal informasiya sisteminin bir hissəsidir; Transmission Control Protokol/İnternet Protokol (TCP/İP) və ya onun genişləndirilmiş şəklindən və/və ya İP uyğun protokoldan istifadə etməklə kommunukasiyanı təmin edə bilir; kommunikasiyaya əsaslanan və onunla infrastrukturda, burada, müəyyən edilənlə, bağlı olan yüksək səviyyəli servis təqdim edir, istifadə edir və ya onu (hamı üçün və ya konfidensial olaraq) açıq edir" [3].

2001-ci ildə ABŞ internet qanunvericiliyində İnternetə belə bir tərif verilmişdir: "İnternet", avadanlıqlar və idarəedici proqram təminatı daxil olmaqla, qeyri-məhdud sayda kompüterin və müxtəlif telekommunikasiya hissələrinin bir-birinə birləşərək ümumdünya şəbəkəsinin yaradılmasının cəmini ifadə edir. Bu da öz növbəsində kabel və ya radio vasitəsilə informasiyanı istənilən şəkildə ötürmək üçün TCP/İP protokollarından (və ya onların hansısa əvvəlki və ya sonrakı versiyalarından) istifadə edir" [5].

Gətirdiyimiz nümunələrdən görünür ki, burda ilk növbədə Şəbəkənin texnoloji tərkib hissəsindən danışılır. Ancaq daha "humanitar" təriflər də mövcuddur. Sosial-fəlsəfi baxımdan İnternet, informasiya mübadiləsinin şəbəkə prinsiplərinə, kommunikasiyada qarşılıqlı fəaliyyətin interaktivliyinə, obyektiv reallığın modelləşdirilməsinin yeni üsullarına, informasiya axınının ötürülməsinin yeni texnologiyalarına və prinsipcə yeni texnologiya – fərdi kompüterlərə əsaslanan xüsusi fenomen hesab edilir.

Rus tədqiqatçısı A.V.Sokolov kommunikasiya nəzəriyyəsi baxımından İnternetin üç funksiyasından irəli gələn növbəti definisiyasını, tərifini irəli sürür. Beləliklə, İnternet multimediya xəbərlərini, məlumatlarını bütün dünyaya yaymağı təmin edən qlobal kommunikasiya kanalıdır (kommunikasiya-məkan funksiyası), o hamı üçün açıq olan depodur (kommunikasiya-zaman funksiyası), o, həmçinin şəxsiyyətin və sosial qrupların sosiallaşması və özünü realizəsinin köməkçi vasitəsidir (kommunikasiya-sosiallaşdırıcı funksiyası). A.V.Sokolov İnternetin funksiyalarından çıxış edərək bu terminə belə tərif verir: "İnternet – telekommunikasiya texnologiyalarından istifadə etməklə şəxsi və qrupların kommunikasiya tələbatlarını ödəməyə yönəlik qlobal sosial-kommunikasiya kompüter şəbəkəsidir" [8].

İnternet şəbəkəsinin böyüməsi və onun tədricən qlobal kommunikasiyanın vasitələrindən birinə çevrilməsi gedişində əhəmiyyətinə görə ilk yerlərdən birinə insanların sosiallaşmasına kömək edən və yeni sosial qrupların (virtual birliklərin) yaranmasına kömək edən birləşdirici xassəsi önə çıxır.

İnterneti fenomen kimi tədqiq edən işlərin, həm də onun əsasında yaranan kommunikativ məkanın nəzəri təhlili göstərdi ki, burada onun öyrənilməsinin bir neçə yanaşmasını qeyd etmək olar.

Birinci yanaşmada İnternet yeni sosial tədqiqat obyekti kimi nəzərdən keçirilir, bu istiqamətin əsas vəzifəsi Şəbəkənin inkişafının sosial proqnozlarının tərtib edilməsidir. Burada İnternet hər şeydən əvvəl informasiya deposu, hansısa dünyəvi ağıl, texnoloji frontir kimi başa düşülür. O, vahid informasiya məkanı kimi noosferanın müəyyən mənada maddiləşməsi kimi təsəvvür edilir. Bu zaman hesab edilir ki, İnternet inkişaf etdikcə texnologiyanın, biliyin və informasiyanın rolu artır, bu isə onun ictimai quruluşda dəyişilmələrin təşəbbüsçüsü olmasına səbəb olur. Bu yanaşmada informasiya və texnologiya yeni tip ictimai quruluşun müəyyənedici və sistemyaradan subyekti kimi çıxış edir (D.Bell, M.Porat, E.Toffler, T.Stouner, A.Runav, E.Putilova).

İkinci qrup tədqiqatçılar İnternet-texnologiyalara əsaslanan müasir cəmiyyətin şəbəkə təbiətini öyrənməklə məşğul olurlar. İctimai inkişafa aid proqnozların verildiyi birinci istiqamətdən fərqli olaraq, ikinci yanaşmada öyrənilən obyekt daha çox mövcud cəmiyyət olur, predmet qismində isə, əsas sosial institutların şəbəkə strukturuna çevrilməsi və cəmiyyətin sosial quruluşunda bu proseslərlə insiunasiya edilən dəyişilmələr öyrənilir.

Bu yanaşmanın paradiqmal çərçivəsində İnternet kommunikativ xassələr vasitəsilə müəyyən edilir: hər cür mürəkkəb şəbəkə əlaqələrinin realizasiya edilməsini mümkün etməsi İnternetin fərdi kommunikativ institut kimi fərqləndirici əlamətidir (M.Kastels, A.Nekless, A.Bikulov, A. Rodionov, A.Çistyakov, D.Kutyugin, T.Baljirova).

Üçüncü qrup tədqiqatlar virtuallaşma nəzəriyyəsində, ilk növbədə sosial virtuallaşmanın nəzəriyyəsi sahəsində cəmlənmişdir (A.Byul, M.Veynşteyn, D.İvanov, A.Kroker, M.Paetau). Burada İnternet virtual analoq və ya dünyanın obrazı kimi nəzərdən keçirilir. Məhz İnternet sosiallığın virtuallaşması mexanizminin işə düşdüyü universal kommunikativ məkandır. Bu yanaşma içərisində virtuallıq yeni kommunikasiya texnologiyalarının qaçılmaz sosial effektidir, daha doğrusu burada İnternet şəbəkə əlaqələrinin aydın göründüyü və hamı üçün əlçatan sosial fenomen kimi, virtual mühit kimi öyrənilir.

Sosial reallığın internet-texnologiyalar vasitəsilə virtuallaşması, onu ciddi şəkildə dəyişdirir və sonda onu yeni, əvvəllər mövcud olmayan reallığa çevirir.

İnternetin öyrənilməsi sahəsində dördüncü istiqamət müasir cəmiyyətin görünüşünün və başa düşülməsinin postmodernist konsepsiyalarına əsaslanır. Burada İnternet virtual aqora, postmodernin yarımçıq qalmış proyektlərindən biri kimi təsəvvür edilir. (Dj.Adams, Dj.Aytken, V.Emelin,

E.Voyskunskiy). Bəzi tədqiqatçılar qlobal şəbəkəni tez-tez metaforik olaraq kibermәkan adlandırılan hansısa elektron frontir kimi təsəvvür edirlər (Dj.Djons, S.Marşall, Q.Reynqolds).

Bu istiqamətin konseptual çərçivəsində İnternet fenomenini təsvir edərkən rizona (F.Qvattari), intertekstuallıq (Yu.Kristeva), xaosmos (Dj.Djoys), paratema (M.Fuko) kimi anlayışlardan istifadə edilir. İnternetin təsvir edilməsində bütün postmodernist yanaşmalarda giperbolizasiya, analogiya və metaforizasiya üsullarından istifadə edilir. Burada hesab edirlər ki, nəzəriyyəni qiymətləndirmək üçün meyar olaraq, onun həqiqətə tam uyğun olması deyil, səmərələliyi və sosial məkanda işləyən metaforanın gücü, onların izahedici gücü, həmçinin yeni yanaşmalar və məsələ qoyuluşu yaratmaq qabiliyyəti əsas götürülməlidir.

İnternetin və internet-texnologiyanın öyrənilməsində beşinci yanaşma İnternet şəbəkəsinin onun əsas tərkib hissəsi olduğu qlobal fövqəlcəmiyyətin tam yeni (əvvəllər mövcud olmayan) tipi ideyasına əsaslanır. Belə yanaşma genetik-funksional adlanır. Burada İnternet, informasiyanın, təhsilin və ekonomikanın, hərəkətin, fəaliyyətin və obrazların qloballaşmasını mümkün edən vasitə kimi çıxış edir. Bu istiqamətdə işləyən tədqiqatçılar iddia edirlər ki, İnternetsiz müasir cəmiyyətin qloballaşması praktiki olaraq qeyri-mümkün və qeyri-real olardı.

İnternet, onun bazasında yaranan yeni fövqəlcəmiyyətin vacib tərkib hissəsi olmaqla yanaşı, eyni zamanda müasir informasiya-kommunikasiya cəmiyyətinə qırılmaz şəkildə bağlıdır. Bu fövqəlcəmiyyət dünya məkanının getdikcə güclənən qloballaşması prosesində inkişafın qalan bütün sosial modellərini (postsənaye, informasiya-kommunikasiya, şəbəkə, virtual) özündə birləşdirir. Bu fövqəlcəmiyyətlə eyni vaxtda yaranan İnternet onun inkişafını və yayılmasını qlobal olaraq, bütün dünyada müşayiət edir. Bəzi tədqiqatçılar deyilənlərdən çıxış edərək, hesab edirlər ki, İnternet cəmiyyətin özünün onsuz mümkün olmadığı sistemyaradıcı əlamətidir.

İnternet genetik-funksional yanaşma çərçivəsində müəyyən tip cəmiyyətlərdə onun sosial funksiyalarının təhlili vasitəsilə öyrənilir. Eyni zamanda İnternet qrupla və şəxslərarası kommunikasiyanın effektini, səmərəsini, uzlaşmasını şərtləndirən dəqiq ifadə edilmiş spesifik xassələri, keyfiyyətləri və xarakteristikaları, sosial qarşılıqlı fəaliyyətin istər qlobal, istərsə də milli miqyasda təşkilinin effektli vasitəsi olan unikal hadisə kimi çıxış edir. Eyni vaxtda İnternetə digər yanaşmalar da mövcuddur.

Qeyd edilən fenomenin elmi öyrənilməsində iki qlobal istiqaməti qeyd etmək olar: ontoloji (bu istiqamətə görə İKT inkişafı xüsusi ontoloji reallığın formalaşmasına səbəb olur) və fenomenoloji (burada internet-reallığın ontoloji statusda olması nəzərdə tutulmur: hansısa digər mahiyyətdən törəyən fenomen hesab edilir). Ontoloji yanaşmaya görə İnternet, reallığın (virtual reallıq, sosial virtual reallıq) davamıdır və ya onun inikası, əksidir, bununla da varlığın poliontikliyini, həm də xüsusi, heç nə ilə müqayisə edilməyən reallıq baxımından qəbul edir.

Bununla yanaşı, varlığın xüsusi forması kimi İnternetin özünün məkan-zaman xarakteristikaları mövcuddur. Ancaq, bu yanaşma çərçivəsində internet-reallığın kriteriyaları, meyarları və internet-məkanda olan hadisələrin statusu haqdakı suallar hələlik cavabsız qalır.

Fenomenoloji yanaşmada hesab edilir ki, internet-reallıq başqa mahiyyətlərdən törəmədir. Burada İnternet varlığın keyfiyyətcə yeni səviyyəsi (vəziyyəti) kimi təzahür edən, buna uyğun şüurun yeni səviyyəsinə uyğun gələn hansısa bir kommunikativ mühit kimi araşdırılır. Bu zaman istər birinci, istərsə də ikinci yanaşmada İnternet insanı şəbəkədə əhatəyə alan kimi başa düşülür. İnternet varlığı bir sıra sistem xassəsinə malikdir: o, qlobaldır, vahiddir, fasiləsizdir, süni yaradılıb, qeyri-xətlidir, kollektiv paylanmış fəaliyyətin nəticəsidir, antroposentrikdir, burada məkan-zaman çərçivələri cilalanır və şəklini dəyişir.

Bununla yanaşı internet-studiyalarının inkişafının hazırkı anında hesab edilir ki, İnternetin humanitar araşdırılması fənlərarası yanaşma tələb edir, çünki, o ayrıca götürülmüş bir fənn çərçivəsində və ya fərdi yanaşmada adekvat öyrənilə bilməz. Həqiqətən, Şəbəkə həm məkanda paylanmış texniki obyektdir (bu onun coğrafiyası və ekonomikası haqda danışmağa imkan verir); gipermətn şəklində təşkil edilmiş mətndir (linqivistika, informatika və s. tərəfindən tədqiq edilən); fəal hərəkətdə olan insanların birliyidir, bu isə sosiologiyanın, psixologiyanın, siyasətin və ya pedaqoji təhlilin obyektidir; fəlsəfi dərk etmə tələb edən kompleks sistemdir; qlobal mənada texniki və sosial müqavi-

lələrin reallaşmasına özünə məxsus cəhddir (qloballaşmanın hüquqi və tarixi mövqedən analizi üçün predmet) və s.

Təbiidir ki, İnternetin humanitar tədqiqatlarında xüsusi diqqət onun "sosial" ölçülərinə - qarşılıqlı fəaliyyətin kültür, dil, psixoloji xüsusiyyətlərinə, virtual qrup və birliklərin fəaliyyətinin formalaşmasının və xarakteristikasının qanunauyğunluqlarına, şəxsin özünü ifadəsinin prinsiplərinə və virtual identikliyin dəyişilməsinə, sosial obyektlərin yaranması və qavranmasına, İnternet şəbəkəsində dərketmə və hər hansı digər fəaliyyətin həyata keçirilməsinin strategiyasına, virtual reallıqda qazanılmış vərdişlərin və bacarıqların real fəaliyyətə keçirilməsinin perspektivlərinə və bəzi digər problemlərə verilir.

Sözsüz ki, sosial funksiyaların həyata keçirilməsinin bütün bu müxtəlifliyi Şəbəkədə İnternetin qlobal sosial hadisə kimi sistemyaradıcı xarakteristikası olan dilin fəaliyyəti olmadan mümkün deyil.

Beləliklə, İnternetin kifayət qədər texnoloji olan tərifindən, sistemin özünün – dağınıq şəbəkələrin qlobal birliyinin yeni-yeni istifadəçilər aldığı gedişinin imkan verdiyi dərəcədə - İnternetin informasiya-kommunikasiya cəmiyyətinin inkişafının əsası olaraq əhəmiyyətinin artmasından, xüsusi informasiya mühiti, sosial kommunikativ məkan, "inkişafa gedən yolda səyləri birləşdirməyə imkan verən özünə məxsus ümumdünya forumu" olmasından daha tez-tez danışmağa başladılar. Eyni zamanda o, keçmişdə mövcud olmayan dilin reallaşması üçün yer kimi çıxış edir. İnternet haqda dünyada ən məşhur dərsliklərdən birinin müəllifi olan A.E.Kroll qeyd edir ki, əgər İnterneti bir sözlə ifadə etmək lazım gəlsə, bu söz "ünsiyyət" olar. "Hökumətin müdaxiləsi olmadan tək-tək insanlar və bütöv xalqlar arasında ünsiyyət" [6].

Məqalənin adında işlətdiyimiz kommunikasiya anlayışının elmi ədəbiyyatda bir neçə tərifi var. 2003-cü ildə çap edilmiş Böyük psixoloji lüğətdə qeyd edilir ki, kommunikasiya ingiliscə - communicate – məlumat vermək, ötürmək deməkdir. Müəlliflərin fikrinə görə, verbal kommunikasiya – dilin (dil kodu) köməyi ilə bəzi fikri məzmunun ötürüldüyü məqsədyönlü prosesdir. Bəzi müəlliflər dilin və nitqin kommunikativ funksiyasını onların əsas və birinci funksiyası hesab edirlər, bəzən isə bunun kommunikasiyanın vahid funksiyası olduğu iddia edilir. Qeyri-verbal kommunikasiya da mövcuddur, bu funksiya bir tərəfdən verbal kommunikasiyanı təkrarlaya və müdafiə edə bilir, digər tərəfdən hər cür psixi məzmunun (təkcə daxili – verbal olanı deyil, həm də obrazlı olanı, emosionalı, motivasiyalını) məqsədyönlü ötürülməsini təmin edir [1].

Vikipediyada kommunikasiya termini barədə belə yazılmışdır: kommunikasiya – (rabitə və əlaqə, ünsiyyət kimi) latın dilində "communicatio" – məlumat, ötürmə, və "communicare" ümumi etmək, söhbət etmək, əlaqələndirmək, ötürmək – tədqiqatlarda gündəlik insan fəaliyyətinin birliyini və varisliyini təmin edən əməliyyat sistemini göstərən termindir.

Kommunikasiya prosesi insan və cəmiyyətin həyatının əsaslarından biri kimi başa düşülür. Burada tədqiqatçılar həm kommunikasiya prosesindən, həm də onun nəticələrindən bəhs edirlər.

Belə bir fikir var ki, cəmiyyətin tarixi – onun kommunikasiyasının tarixidir. İlk baxışda bu fikir yanlış kimi görünür. Əgər tarixi xatırlasaq onda kommunikasiyanın sosiumun ilk təşkil forması, onun aləti və mövcud olmasının zəruri şərti olduğunu göstərən birbaşa qarşılıqlı əlaqəni görərik. Elə bir bioloji sistem yoxdur ki, onun kommunikativ prosesi bu və ya digər formada strukturlaşmasın. U.Eko yazır: "Kommunikasiya praktik fəaliyyətin bütün sahələrini o mənada əhatə edir ki, praktika özü – kültürü və deməli ictimai münasdibətləri yaradan qlobal kommunikasiyadır" [4].

Kommunikasiya geniş mənada – fərdlər arasında ümumi simvollar sistemi vasitəsi ilə informasiya mübadiləsidir. Kommunikasiya verbal və qeyri-verbal vasitələrlə həyata keçirilə bilir.

Qeyd etmək lazımdır ki, "İnternet" və "kommunikasiya" terminlərinin bir yerdə işlədilməsi özü mübahisə doğurur. Belə ki, İnternet sahə deməkdir, kommukikasiya özü isə bu sahənin mahiyyətini təşkil edir. Buna rəğmən bu anlayışların bu cür istifadəsinin qanunauyğunluğu onunla izah edilir ki, bu yaxınlaradək İnternetin əsas funksiyası informasiyanın alınması və saxlanması ilə bağlı idi, bu gün artıq belə deyil. İnternet yeni sosiokültür prosesləri stimullaşdırmaqla getdikcə daha çox öz üzərinə kommunikasiya kanalı rolunu götürür. İnternet müasir cəmiyyətin fəaliyyətinin bütün sahələrində getdikcə daha mühüm rol oynayan xüsusi ünsiyyət mühitinə çevrilir.

İnternet-kommunikasiya – müasir cəmiyyətin kifayət qədər yeni hadisəsidir. Bu günə qədər istər İnternet-kommunikasiyanın tərifində, istər Şəbəkədə insanın kommunikativ fəaliyyətinin təsvirində, istərsə də bu sahənin əsas anlayışı üçün termin seçməkdə belə vahid mövqe yoxdur. Bəzi müəlliflər onu kompüterli-vasitəli kommunikasiya, digərləri virtual diskurs adlandırırlar. Bəzi linqivistlər isə onu elektron ünsiyyət və ya kommunikasiya adlandırırlar.

Qeyd edək ki, terminoloji fərqlər bir o qədər də böyük deyildir. Adları çəkilən bir çox terminlər bir-birini əvəzləyən anlayışlar kimi istifadə edilirlər. Təsvir sahəsində elektron, virtual, rəqəmli, digital, şəbəkə, internet, kompüter vasitəli kimi sifət və isimlərdən istifadə edilir.

Diskurs termini kompüter-vasitəsilə ünsiyyətin daha fəal tərəfini öyrənən tədqiqatlarda çox işlənir, elektron kommunikasiya termini isə kommunikativ prosesə texnologiyanın təsiri və onun nəticələrinin aydınlaşdırılmasına həsr olunmuş tədqiqatlarda istifadə edilir. Tədqiqatçı L.Y.Şipitsina göstərir ki, kommunikasiya termini "ünsiyyətin (texniki) kanalı ilə birbaşa bağlıdır, sözsüz, yeni kommunikasiya mühitində ünsiyyətin öyrənilməsində əsas kimi daha uğurludur. Diskurs terminini kommunikantın konkret fəaliyyət sahəsindən söhbət gedəndə işlətmək olar, həm də ünsiyyətin kompüter vasitəsilə olması vacib deyil. Nəticədə kommunikasiyanın diskursun fərdi, elmi, işgüzar, tibbi və digər növlərinə xidmət edən şifahi, yazılı, çat, kompüter-vasitəli formalarından danışmağı təklif edirik" [9].

Ünsiyyət və kommunikasiya terminləri arasında fərqdən danışanda, qeyd edilir ki, onlardan birincisi əsasən şəxslər arası qarşılıqlı fəaliyyət xarakterində olması ilə seçilir, kommunikasiya termini isə cəmiyyətdə informasiya mübadiləsi prosesinin şərh edilməsi də daxil, daha geniş məna daşıyır. Bu iki termindən hansından daha çox istifadə edilməsi məsələsinə gəldikdə, buna tədqiqat aparılan fənnin sərhədləri, həmçinin bu iki termin arasında dəqiq sərhəd olmayan, təkcə communication termini olan ingilis dilində aparılan diskurs ciddi təsir edir. Bir fikrə görə kommunikasiya termini baza, əsas rolu oynayır (insanlar arasında məlumat mübadiləsi kimi ünsiyyət formasında baş verir).

"Ünsiyyət" və "kommunikasiya" anlayışlarının nisbəti məsələsində əks mövqe də mövcuddur. Bu yanaşmada ünsiyyət əsas anlayış hesab edilir, sonuncunun strukturunda isə kommunikasiya (informasiya mübadiləsi), interaksiya (qarşılıqlı fəaliyyətin və təsirin təşkili), persepsiya (hissi qəbul etmə qarşılıqlı anlaşmanın əsası kimi) fərqləndirilir. Burada kommunikasiya fərdi və ictimai əhəmiyyətli informasiya arasında vasitəçi rolu oynayır.

İnternet-kommunikasiyanın mürəkkəb və çox səviyyəli strukturunu, bu fenomeni təsvir etmək üçün müasir elmi ədəbiyyatda təqdim edilən çoxlu əlamətlər dəsti müəyyən edir. Texniki tərəqqinin məhsulu olan bu əlamətlərin bir çoxu rabitə kanalının təsviri ilə, onun elektron və ya rəqəmli siqnal ötürücüsü olması ilə bağlıdır.

İnternet-kommunikasiya mühitinin spesifikliyi, ünsiyyətin baş verdiyi şəraitin real ünsiyyət şəraitinə nisbətən ciddi şəkildə dəyişdiyini qeyd edən virtual xassəsinin olması ilə xarakterizə olunur.

Belə şərtlərə sensor təcrübənin məhdudluğunu, anonimliyi, fiziki yoxluğu aid etmək olar. Bu əlamətlər müəyyən mənada ünsiyyətin status, yaş, təhsil, maddi vəziyyət, fiziki və xarici göstəricilər, millilik və s. xarakteristikalara görə bərabərliyinə səbəb olur. Bu isə öz növbəsində ünsiyyəti formal olmaqdan qoruyur.

İstər sistemin özünə bütövlükdə, istərsə də burada yaranmış yarımsistemlərə xas olan bir texniki detal da var. İnformasiya mübadiləsi xarakterinə görə açıqdır. Bundan çıxış edərək İnternet-kommunikasiyanın bir əlamətini də qeyd etmək olar – bu sistemin açıq olmasıdır. İnternet-kommunikasiyanın texniki imkanlarına İnternet-kommunikasiyanın atribut imkanlarını genişləndirən və informasiyanın alınması və onun işlənməsi prosesini asanlaşdıran multimediallıq, resursların bölünmüş olması, mətnin generasiyasının avtomatlaşmış olması kimi əlamətləri aid etmək olar.

Ancaq, hər halda İnternet-kommunikasiyanın texniki tərəfi bu mürəkkəb sosial hadisənin bir hissəsini təşkil edir. Kateqorial əlamətlərin müəyyən edilməsi onun əsas əlamətini – dixotomikliyi nəzərə almadan mümkün deyil. Bir tərəfdən İnternet təmiz texniki mənşəlidir. Digər tərəfdən qeyd edə bilərik ki, onun yüklənməsi üçün lazım olan əsas kontenti işarə sistemi kimi dil formalaşdırır.

Bu baxımdan İnternet-kommunikasiya bir sıra istər ümumi, istərsə də spesifik əlamətlərlə xarakterizə edilir. Bunlara misal olaraq, özündə böyük həcmdə müxtəlif tip diskurs və nitq praktikasını birləşdirən polifonikliyi, kommunikasiyanın şifahi-yazılı xarakterini, kompüter mətnlərinin kreolizovanlığını; emosiyaların, mimikanın, "smayeklərin" köməyi ilə hissələrin ötürülməsini; spesifik kompüter etikasını; illokutivliyi və s. göstrərə bilərik.

Bu siyahını uzatmaq da olar, çünki, İnternet-kommunikasiya daim inkişaf edir və hazırda elmi maraqların mərkəzində durur. İnternet kontentinin və onun imkanlarının öyrənilməsinə müxtəlif yanaşmaların olması bu fenomenin yeni-yeni xassələrini və əlamətlərini üzə çıxarır. Qeyd etmək gərəkir ki, bütün bu xassələr bu və ya digər dərəcədə potensialdır. Yəni, onlar İnternet-kommunikasiyaya bütövlükdə xasdır, amma ayrıca götürülmüş obyektə tətbiqi isə məcburi deyil.

İnternet-kommunikasiyaya verilən təriflər içərisində tədqiqatçı İ.N.Rozinanın verdiyi tərif uğurlu sayıla bilər. Burada internet-kommunikasiya deyəndə fərqli mühitlərdə, kontekstlərdə və kültürlərdə biliklərin və qarşılıqlı başa düşülmənin formalaşması üçün insanların elektron məlumatlardan istifadə etməsi başa düşülür [7].

Digər tədqiqatçı S.V.Bondarenko internet-kommunikasiya və ya virtual ünsiyyət deyəndə kompüter vasitəsilə iki və ya daha çox şəxsin bir-birini görməmələri ilə xarakterizə edilən ünsiyyətini nəzərdə tutur [2]. Ancaq, digər tədqiqatçı E.İ.Qoroşko bu tərifi yarımçıq sayır, çünki, burada informasiya ötürülməsinin kanalı diqqətdən kənarda qalır və dəqiq deyil, belə ki, skayp-texnologiyasında kommunikantlar bir-birini görə bilir, məlumatın ötürmə forması isə heç də həmişə yazılı olmaya bilər.

Bu hadisənin ən son və dolğun tərifləridən biri rus tədqiqatçısı L.Y.Şipitsina tərəfindən təqdim edilib. L.Y.Şipitsina bütövlükdə kommunikasiya haqda olan təriflərə və kompüter-vasitəli kommunikasiyanın tərifinə əsaslanaraq hesab edirki, internet-kommunikasiya "kommunikasiya vasitələrinin inkişafında tarixi mərhələdən birini təmsil edir və vasitəsiz (şifahi) ünsiyyət ilə, kağız daşıyıcıları (əlyazması və çap, qeyri-periodik (kitab) və periodik (qəzet, jurnal)) vasitəsilə, həmçinin elektron cihazlar (faks, radio, televiziya) vasitəsilə baş verən ünsiyyətlə birlikdə mövcuddur" [9].

Hazırda bu tip kommunikasiyanın strukturlaşmış təsviri üçün bir neçə təsnifat bazası var, ancaq bu ünsiyyətdə iştirak edən insanların sayına əsaslanan təsnifat daha geniş yayılmışdır. Bundan asılı olaraq internet-ünsiyyətin aşağıdakı tipləri qeyd edilir:

- insandan – kompüterə;
- bir insandan – bir insana;
- çoxluqdan – bir insana;
- bir insandan – çoxluğa;
- çoxluqdan – çoxluğa [2].

Ancaq, digər təsnifatlar da mövcuddur. İnternet-kommunikasiyanın həyata keçirildiyi subyektlərin tipindən asılı olaraq belə təsnifatlar var:

- real subyektin real partnyorlarla ünsiyyəti (elektron poçt, xəbərlər qrupu, İCQ və digər internet-peydcəri, SMS – məlumatlar, diskussiya forumları, elektron göndərişlər və s.);
- real subyektin illüziyalı partnyor kimi subyektləşdirilmiş obyektlərlə ünsiyyəti (poçt robotları ilə qarşılıqlı fəaliyyət, kompüter oyunları, veb-saytlar və s.);
- təsəvvür edilən partnyorların ünsiyyəti (komputer intellektual agentlərin qarşılıqlı fəaliyyəti, DNS serverlərlə qarşılıqlı fəaliyyət və s.) [2, s.198].

Eyni zamanda buradakı internet-mühitdə kommunikativ qarşılıqlı fəaliyyətlər ən müxtəlif ölçülərə - kommunikasiya iştirakçılarının coğrafi arealına (lokal, şəbəkə, İnternet şəbəkə, ümumi istifadə üçün qlobal telekommunikasiya şəbəkəsinin milli seqmenti və s.); istifadə edilən kommunikasiya vasitəsinin tipinə; qarşılıqlı fəaliyyətin mövzusuna; informasiyanın xarakterinə (şəxsi, rəsmi, reklam və s.); müraciət formasına (fərdiləşmiş və ya şəxssizləşmiş); konfliktliliyin dərəcəsinə (konfliktli, konfliktsiz, bitərəf) və s. görə fərqləndirilir [2, s.187].

Qeyd etməliyik ki, şəxslərarası qarşılıqlı fəaliyyət birliklərində kommunikasiya, məlumatlara çıxışın ancaq göndərən və məhdud sayda aktorların çıxışının olduğu monoxronik rejimdə, həm də polixronik rejimdə həyata keçirilə bilir. Sonuncu halda məlumatlara çıxışı olan istifadəçilərin sayı

qeyri-məhdud olur və burada kommunikasiya vasitəsi kimi elektron bildirişlər lövhəsi, qeyd kitabları ola bilər.

Kommunikasiyanın bütün bu növləri birbaşa (şifahi), ənənəvi vasitələrin köməyi ilə (çap, radio, televiziya və s.) və ya kompüter vasitəsilə ola bilər. Qeyd etmək lazımdır ki, internet-kommunikasiyanın öyrənilməsi sahəsində olan işlərin təhlili göstərir ki, kommunikasiyanın bu forması üçün baza, əsas kimi qəbul edilmiş xarakteristika olaraq belə kateqoriyalar çıxış edir: mətnin elektron formasının mövcudluğu, gipertekstuallıq, multimediallıq, interaktivlik, sinxronluq/asinxronluq, kəmiyyətin variativliyi və kommunikantların eksplisirovanlığı.

Tədqiqatçılar internet-ünsiyyətin spesifikliyinə təsir edən bir sıra amillər qeyd edirlər.

Birincisi, İnternetin sosial mühitinin özünün müxtəlifliyi qlobal şəbəkədə insanın ünsiyyət üsullarına təsir etməyə bilməz.

İkincisi, İnternetin yaratdığı azadlıq illüziyası, ancaq bu illüziyalı azadlığın pozulması, iştirakçılar arasında bir-birini başa düşməmək və mənfi münasibət yaradan normalar külliyatı ilə nizamlana bilər.

Üçüncüsü, bu ünsiyyətin yüksək dərəcədə anonimliyi onun iştirakçılarının xarici görünüşlə, cinslə, yaşla və sosial vəziyyətlə bağlı bir çox kommunikativ maneələri aradan qaldırmağa imkan verir. Bu daha çox yaradıcı azadlıq, sərbəstlik verir, həmçinin adi ünsiyyətlə müqayisədə sosial distansiyanı ciddi şəkildə qısaldır.

Dördüncüsü, Şəbəkədə qeyri-verbal ünsiyyətin elementlərinin praktiki olmaması, yoxluğu İnternetdə dilin fəaliyyət göstərməsinin xüsusiyyətlərinə təsir edir, məhz ünsiyyətin bu tərəfini, xüsusilə də emosional səviyyədə nə isə başqa bir şeylə əvəz etmə və ya kəşf etmə ilə bağlı kompensator praktikasını inkişaf etdirir.

Beşincisi, Şəbəkədə kommunikasiyanın əsasən yazılı olması, kommunikasiyanın şifahi nitq üsuluna nisbətən yavaş olması, ünsiyyətin sürətini azaldır.

Altıncısı, bəzi tədqiqatçılar belə ünsiyyətin potensial olaraq konfliktliyin azalmasını və birbaşa əməkdaşlığa yönəlik daha çevik kommunikativ strategiyanın işlənməsinə, hazırlanmasına kömək edən tolerantlığını qeyd edirlər.

Yeddincisi, kommunikativ situasiyanın tamamlanmasının strategiyasının və ya ünsiyyətdə olduğun partnyorun obrazının yayılması, stereotiplərin və tapşırıqların təsirini gücləndirir, bu isə bütün kommunikasiya prosesinin bütövlükdə stereotiplik dərəcəsini potensial olaraq yüksəldə bilir.

Yuxarıda sadaladığımız xüsusiyyətlər İnternetin xüsusi unikal atmosferini yaradır və internet-addiksiya, virtual identikliyin dəyişilməsi və s. kimi fenomenlərin yaranmasına səbəb olur, bununla da İnternet şəbəkəsini XXI əsrin ən fantastik kommunikativ praktikasının və çağırışlarının reallaşmasını mümkün edən virtual aqorasına və eksperimental kommunikasiya meydançasına çevirir.

İnternetdə şəxslərarası qavrayış prosesinin getməsinin özünə məxsusluğu ona gətirib çıxarır ki, ərazidə çıxış və fiziki cəlbedicilik özünün nizamlayıcı rolunu itirir, ünsiyyət isə istiqamətlərin, meyillərin, əqidələrin və dəyərlərin oxşarlığı əsasında qurulur.

İnternet kommunikasiya və şəxsi-kommunikasiyanı bir yerdə vermək kimi unikal imkan yaradır: digərinə göndərilən mətn eyni vaxtda həm göndərən və həm də göndərilən üçün açıq olur. O şey ki, əvvəllər zamanda dağılırdı və buna uyğun olaraq rolların bölünməsini tələb edirdi, İnternetdə burda və indi reallaşır. Şəxsi-kommunikasiya istifadəçinin şəxsiyyət kimi formalaşmasının psixoloji şəraitini prinsipial şəkildə dəyişir.

Bununla birlikdə İnternet-məkanın yüksək dərəcədə anonimliyi və manipulyativliyi tədricən "sosial sərhədlərin" dəyişdirilməsinə gətirib çıxarır: publik olan – privat, lokal olan – qlobal, yad olan – doğma, qeyri-məhdud sayda insan üçün praktik olaraq şəxsi və sirli olan isə - ictimai və əlçatan olur.

İnternet məkanda sosial qarşılıqlı fəaliyyət prosesində aktorlar ümumi simvollardan istifadə edir və daima fəaliyyətin mənasını onun özü vasitəsilə interpretasiya (şərh) edirlər. Bu zaman insan-

lar Şəbəkədə kommunikativ qarşılıqlı fəaliyyət prosesində daha çox hansısa bir informasiyanı ötürməklə deyil, daha çox sosial əlaqələrin yaradılması və müdafiəsi ilə məşğul olurlar.

Qeyd etmək lazımdır ki, bu məkan insanlar tərəfindən xüsusi keyfiyyətə malik, özlərinin sosial, kültür və kommunikativ praktikaları ilə birlikdə yaradılmış müəyyən güc konstruksiyasını təmsil edərək, informasiya-kommunikasiya cəmiyyətinin mövcud olma formalarından biri kimi çıxış edir. Eyni vaxtda bu internet-məkan qlobal şəbəkədən istifadə edən insanların olduğu hansısa mediativ reallığı təmsil edir.

Qeyd edək ki, məhz İnternet, sosiallığın virtuallaşması mexanizminin işlədiyi, virtuallığın yeni kommunikativ texnologiyalarının, ilk növbədə İnternet şəbəkənin özünün qaçılmaz sosial effekti kimi çıxış etdiyi universal sosiokültür və kommunikativ məkandır.

Sosial reallığın internet-texnologiyalar vasitəsilə virtuallaşması onu ciddi şəkildə dəyişdirərək, nəticədə bu sosiallığı yeniləşdirir və əvvəllər mövcud olmayan reallığa çevirir.

Bu zaman, İnternet əsasında yaranan yeni virtual reallıq bir sıra xüsusiyyətlərlə xarakterizə edilə bilər: 1) digər reallıqla yaradılmış olması, yəni, virtual reallığı törədən hansısa bir reallıq həmişə mövcud olur; 2) aktual olması (virtual reallıq onu törədən reallıq fəal olduğu müddətdə, ancaq "burada" və "indi" mövcud olur); 3) avtonom olması (virtual reallıqda özünün zaman-məkan xarakteristikası, özünün həyat fəaliyyəti qanunları var, virtual reallıqda olan insan üçün verilməyən keçmiş və gələcək yoxdur); 4) interaktiv olması (virtual reallıq bütün digər reallıqlarla "ontoloji baxımdan müstəqil cisimdir"), 5) təsirin qeyri-maddiliyi və parametrlərin şərti olması (obyektlər sünidir və dəyişəndir); 6) həmçinin efemer olması (giriş və çıxışın sərbəstliyi mövcud olmanın kəsilməsinin və yenilənməsinin imkanının mümkünlüyünü təmin edir).

İnternetin inkişafı və onun dünya miqyasında yayılması ilə Şəbəkənin seqmentlərinin milli sərhədlərinin müəyyən edilməsi məsələsi aktuallaşır. Burada çoxlu problemlərlə üzləşirsən, çünki, virtual olanın sərhədlərini ölçmək, müəyyən etmək real olanın hüdudlarını müəyyən etməkdən xeyli çətindir. Şəbəkənin bəzi tədqiqatçıları (xüsusilə də humanitar bilik nümayəndələri) hesab edirlər ki, bu sahədəki tərifl ərdə və anlayışlarda böyük qeyri-dəqiqlik mövcuddur.

Hazırda Şəbəkədə milli seqmentlərin müəyyən edilməsinin bir neçə üsulu var: dil, texnoloji və inzibati.

Rus tədqiqatçılar "rus" İnternetini belə müəyyən edirlər:

- bütün rus dilli veb-saytlar;
- bütün rus dilli kommunikativ axınlar (elektron poçt da daxil);
- bütün URL domen .ru və ya .pf.;
- Rusiyada yaşayan bütün istifadəçilər; bütövlükdə bütün dünyada olan rus dilli istifadəçilər.

Bu tərifl ərin bəziləri rus dilli diasporanı da bura daxil edir, bəziləri isə daxil etmir. Ancaq Runetin sərhədlərini ciddi müəyyən etmək mümkün deyil. Hesab edilir ki, İnternet şəbəkəsinin humanitar tədqiqatlarında milli seqmentləri müəyyən etmək üçün ən məqsədəuyğun olanı dil-mərkəz əlamətidir, çünki, məhz dil İnternet şəbəkəsinin sosial məkan kimi sistemyaradan əlaməti rolunda çıxış edir.

Beləliklə, şəbəkənin milli seqmentinin təsviri zamanı tədqiqatın funksional vəzifələrindən asılı olaraq internet-məkanın seqmentləşməsi və milli bölmələrin ayrılmasında dil amilini qoymaq olar və bu zaman rus dilli İnternetdən (Runet), ukrayna dilli İnternetdən (Uanet) və ya ingilis dilli İnternetdən (İnet) danışmaq olar. "Mənim dilimin sərhəddi mənim dünyamın sərhəddidir".

Qlobal kommunikasiyalar dövrü olan bizim günlərdə internet-ünsiyyət ən populyardır. O, özündə kommunikasıyanın nitq təcrübəsinin, üsullarının və formatının böyük həcmdə müxtəlifliyini toplayır. Qlobal şəbəkənin ən böyük təsirini dəyişmə və ya qarşı qoyma sözləri ilə ifadə etmək olar. İstər kommunikasiya iştirakçılarına, istərsə də cəmiyyətə münasibətdə onun təsiri fəal, dəyişdirici xarakter daşıyır. Bu zaman virtual kommunikasıyanın təsirinin çoxalması onun sosial kommunika-

siyanın formalarından birinə çevrilməsinə gətirib çıxarır. Eyni vaxtda sosial kommunikasiya həm mahiyyətcə, həm də formaca daha çox virtual olur.

Bu vaxt internetin sosial kommunikativ rolu kifayət qədər çoxtərəflifir: O, insanlar arasında ünsiyyətdə üfiqi, horizantal əlaqələr yaratmağa imkan verir; Şəbəkədə olan informasiya könüllü təklif edilir, informasiya prosesinin iştirakçısı olmaq imkanı praktik olaraq hər bir insanda var, digər KİV-dən fərqli olaraq İnternet – hərtərəfli açıq ünsiyyət vasitəsidir.

Bir sıra tədqiqatçılar göstərirlər ki, İnternetdə yüngül sosiallıq adlandırılan yeni tip ünsiyyət formalaşır: insanlar arasında onları heç nəyə məcbur etməyən və heç bir nəticəsi olmayan xüsusi münasibət tipi formalaşır. Hesab edilir ki, bu ünsiyyət insanların qarşılıqlı fəaliyyətində konfliktliyi azaldır, çünki, şəxsi kontaktların azalması sosial sakitliyin artmasına, səbəb olur. Bu zaman burada şəbəkə insanların fiziki fəallığını zəiflədir, onlar bir-birinə daha az mane olurlar.

İnternetin kommunikativ servislərindən istifadənin motivlərinin öyrənilməsi göstərir ki, İnternetə kommunikativ alət kimi müraciət etməyin səbəbləri arasında olanlar bunlardır: həyatda ünsiyyətdən razı olmamaq, real sosial identiklikdən razı olmamaq və ondan xilas olmaq arzusu, həyatda hansısa səbəbdən həyata keçməyən bu və ya digər şəxsin, fərdin qabiliyyətlərinin reallaşması imkanları, emosiyaların yaşanması.

Sadaladığımız tələblərə münasibətdə istifadəçilər üçün İnternet dost mühitdir, çünki, burada olan ünsiyyət bir sıra xüsusi xarakteristikalara malikdir: nisbi anonimliyə rəğmən kütləvilik, maraqlara və dəyərlərə görə birləşməyin mümkünlüyü, özünü ifadə etmənin, qarşılıqlı fəaliyyətin və yarışma mühitinin təmin edilməsi – bütün bu keyfiyyətlər İnternet şəbəkəsinin kommunikativ mühitini unikal edir.

Şəbəkə inkişaf dərəcəsinə görə günümüzün elə bir hadisəsinə çevrilir ki, həyat XX əsrdə radiosuz, televiziyasız, telefonsuz təsəvvür edilə bilmədiyi kimi, XXI əsrdə də onsuz təsəvvür edilmir. Bəşəriyyətin keçmiş təcrübəsində analoqu olmayan sosial-kommunikativ məkan formalaşmağa başlayır. Getdikcə daha çox sayda sosial təcrübə İnternet şəbəkəsi məkanında hərəkət etməyə başlayır: hazırda kifayət qədər çox sayda insan üçün elektron hökumət, elektron təhsil və ya elektron bank terminləri adiləşir. İnternetdə praktik olaraq onlayna çıxışı olan kompüterin klaviaturasından ayrılmadan dua etmək, evlənmək, diplom almaq və sevdiyin əşyaya və ya sevdiyin liderə səs vermək mümkündür. İnternet XXI əsrin bütün qlobal sosial kommunikasiyaları üçün praktik olaraq unikal platformaya çevrilib.

Beləliklə, İnterneti virtual sosiallıq kimi təhlil edərkən, deyə bilərik ki, bu fenomen XXI əsrdə yaranan informasiya-kommunikasiya cəmiyyətinin sistemyaradan əlamətlərindən biri kimi çıxış edən kommunikativ sosio-kültür məkan yaradır. Kommunikativ mühit kimi çıxış edən bu sosio-kültür məkan qarşılıqlı münasibətlərin istifadəçilərin çıxışını, həm də onların qarşılıqlı münasibətlərinin çoxsaylı kontekstlərini nəzərə alan yeni paradiqmanın təzahürünü diktə edir.

İnternetin inkişafının çağdaş dövrünə münasibətdə interaksiya və kommunikasiyaya əsaslanan sosiokültür məkan əlamətləri qazanan texnoloji təhsilin təkamülündən danışmaq olar. Burada kommunikasiya və onun həyata keçirilməsi İnternet şəbəkəsində aparıcı rol oynayır. Elektron göndərişlərin vasitələri ilə ifadə edilən, baş verən verbal ünsiyyət, sosial reallıq kimi, İnternetin sistemyaradan əlaməti kimi çıxış edir.

Biz hesab edirik ki, İnternet fenomeninin və müasir cəmiyyətin ictimai quruluşunun tədqiq edilməsi sıx şəkildə çulğalaşacaq və bir-birini tamamlayacaq. Veb-texnologiyaların sosial təbiətinin öyrənilməsi o funksiyaların sosial təbiətini başa düşməyə imkan verir ki, bu texnologiyalar məhz həmin funksiyaların reallaşması üçün yaradılmışdır. Beləliklə, İnternet fenomenini başa düşmək və dərk etmək üçün sosial nəzəriyyələrdən, həm də müasirliyi başa düşmək və ona adekvat linqvistik nəzəriyyə yaratmaq üçün İnternetdən və veb-texnologiyaların sosial təbiətindən istifadə edə bilərik.

Açar sözlər: kompüter, internet, internet-kommunikasiya, internet kommunikativ məkan

İstifadə edilmiş ədəbiyyat

1. Большой психологический словарь. Под ред. Б.Г.Мещерякова, акад. В.П.Зинченко. М.: Прайм – ЕВРОЗНАК, 2003, 672 с.
2. Бондаренко С.В. Социальная структура виртуальных сетевых сообществ: дис. доктора социол. наук: 22.00.04. Ростов-на-Дону, 2004, 399 с.
3. Голышко А. Интернет: на пути к рождению // Радио, 2001, № 11, с.70-72
4. Еко У. Отсутсвующая структура. Введение в семиологию. перев. с итал. В.Г.Резник и А.Г. Погоняйло. СПб.: Симпозиум, 2004, 544 с.
5. İnternet Freeom and Broadband Deployment Act of 2001.
6. Кролл Э. Всё об Интернет. Киев: BHV, 1995, 234 с.
7. Розина И.Н. Педагогическая компьютерно-опосредованная коммуникация: теория и практика. М.: Логос, 2005, 437 с.
8. Соколов А.В. Общая теория социальной коммуникации. СПб.: Михайлов, 2002, 460 с.
9. Щипицина Л.Ю. Компьютерно-опосредованная коммуникация: Лингвистический аспект анализа. М.: КРАСАНД, 2010, 296 с.

Сохраб Магеррамов

СОВРЕМЕННЫЕ ИНТЕРНЕТ КОММУНИКАЦИИ

Резюме

В статье отмечается, что наше современный мир является глобальным информационным обществом где развивается глобализация информационных технологии и процессов. Одним из проявлений этих процессов является развития глобальной сети Интернета. Отмечается, что Интернет на базе технических достижений XX веках в области связи и информатики формирует виртуальные информационно-коммуникационные области сотрудничества людей без всяких географических границ, где невозможно определить национальную принадлежность пользователей, их объектов и обеспечивает анонимность доступа к информационным ресурсам.

Ключевые слова: компьютер, интернет, интернет-коммуникация, интернетно-коммуникативное пространство

Sohrab Maharramov

MODERN INTERNET COMMUNICATIONS

Summary

The article notes that our modern society is a global information society where develops globalism of information technologies and processes. One of the phenomena of these processes is the development of the global Internet. It is noted that the Internet, based on technical achievements in XX century in the field of communications and informatics, forms virtual information and communication fields between people without any geographical boundaries, where it is impossible to determine the nationality of users, their objects and provides anonymity of access to information resources.

Keywords: computer, internet, internet-communication, internet-communicative space

UOT – 338.012

Təranə Vəliyeva
Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası

MÜASİR İQTİSADİYYATDA İNFORMASİYA KOMMUNİKASİYA TEXNOLOGİYALARININ ROLU

Məqalədə müasir iqtisadiyyatda İKT-in rolu, iqtisadi proseslərin İKT-in tətbiqi ilə həyata keçirilməsi təhlil edilmişdir. Qeyd olunmuşdur ki, İKT iqtisadiyyatın qloballaşmasına, bəşəriyyətin yüksək artım tempinin təmin edilməsinə və müasir tələbatda rolunun yüksəlməsinə şərait yaradır. Məqalədə həmçinin o da göstərilmişdir ki, İKT istehsalın artırılması üçün informasiya sisteminin yaradılmasını təmin etməli, sahibkarlıq fəaliyyəti ilə bağlı müasir infrastrukturun inkişafına təkan verməli, bu sahəyə yerli və xarici investisiyalar cəlb edilməlidir.

XX əsrin sonlarından informasiyanın geniş miqyaslı mənimsənilməsi və istifadəsi informasiyalaşmış cəmiyyəti formalaşdırmışdır. İnformasiyalaşmış cəmiyyətdə insanın fiziki qabiliyyəti maşın və elektrik enerjisi ilə əvəz olunaraq emal prosesləri elmi yeniliklərin, innovasiyaların köməyi ilə həyata keçirilir, informasiyanın işlənməsinin əsas vasitələri kimi informasiya texnologiyalarından geniş istifadə edilir [1].

Cəmiyyətin qlobal informasiyalaşması müasir iqtisadiyyatın əsas əlamətlərindən biridir və dünyanın müxtəlif ölkələrində iqtisadiyyatın səviyyəsi İKT-nin tətbiqi səbəbindən müxtəlifdir. Yəni, əvvəlki iqtisadiyyatın inkişafının əsasını *torpaq, kapital-əmək* təşkil edirdisə, son dövrlərdə bu faktorlara *informasiya* da əlavə olunmuşdur. İKT verilənlərin toplanması, ötürülməsi, emalı üçün üsul və vasitələrdən istifadə etməklə informasiya məhsulunun alınması prosesidir. Onun yüksək inkişaf dərəcəsi, yeni texnologiyaların hərtərəfli tətbiqi yüksək nəticələrin əldə olunmasına şərait yaradır [1].

Hazırda bütün sahələrdə İKT-nin geniş tətbiq edilməsində və informasiya xidmətlərinin müasir tələblərə uyğun qurulmasında mühüm addımlar atılır. İnkişaf etmiş dünya ölkələrinin təcrübələrinə əsaslanaraq informasiya cəmiyyətinin müasir tələblərə uyğunlaşdırılması üçün qərarlar qəbul edilir, yeni sistem və fəaliyyət istiqamətləri müəyyənləşdirilir. İKT müxtəlif sahələrdə - dövlət və müəssisələrin idarəedilməsində, xammal və resurslardan istifadədə, istehsal olunmuş məhsulun reklamının təşkilində, məhsulun satılması, müəssisə daxili və ümumi sənəd dövriyyəsinin təşkilində, bank işində, maliyyə əməliyyatlarının aparılmasında aparıcı rol oynayır. İKT infrastrukturunun inkişafı eyni zamanda elektron-dövlət və hökumətin yaradılmasına, uçot və əlaqələrin elektron formalarının tənzimlənməsinə, təşkilati və texnoloji mexanizmin təminə, vətəndaşların dövlət və hökumət orqanları ilə birbaşa əlaqələrinin yaranmasına, bürokratik əngəllərin aradan qaldırılmasına, vətəndaşların dövlət idarəetməsində birbaşa iştirakına şərait yaradır. İKT mal və xidmətlər üzrə iqtisadi fəaliyyətlərin elektron ticarətinin, reklam və hərəkətinin, məhsulun bazardakı rəqabətə davamlılığının öyrənilməsinin, sifarişin qəbulunun, malın daşınması və çatdırılmasının, istehsalçı və istehlakçı arasında hesablaşmaların həyata keçirilməsinin təmin edilməsinə də zəmin yaradır [2].

İKT milli iqtisadiyyatlara və onları bütöv sistemlə əlaqələndirən beynəlxalq iqtisadi münasibətlərə (BİM) də nüfuz etməklə dünya iqtisadiyyatında əsaslı dönüş yaratmışdır. Dünya iqtisadiyyatı daim hərəkdə olan, inkişaf edən beynəlxalq əlaqələrə malik, bazar iqtisadiyyatının obyektiv qanunları əsasında fəaliyyət göstərən milli iqtisadiyyatların məcmusudur. Onun mühüm tərkib hissəsi beynəlxalq əmək bölgüsü, beynəlxalq valyuta və maliyyə münasibətləri əsasında təşəkkül tapan dünya bazarıdır. Dünya bazarı beynəlxalq iqtisadi mühitin olması, malların, xidmətlərin və istehsal amillərinin ölkələr arasında hərəkətinin artması mərhələsi kimi xaraktertizə edilir və aşağıdakı amillərlə müəyyən edilir:

- yüksək və sabit iqtisadi artım;
- iqtisadi fəaliyyət və əmək məhsuldarlığının artırılması sahəsində ölkələrin yaxınlaşması və birləşməsi;
- xarici ticarət siyasətinin liberallaşdırılması;
- intensiv elmi-texniki tərəqqi.

İqtisadi zonaların, texnoparkların, innovasiya mərkəzlərinin yaradılması üçün alim və mütəxəssislərin elmi-texniki potensialından səmərəli istifadə informasiya cəmiyyətinin əsasını təşkil edən biliklər iqtisadiyyatının formalaşmasına imkan yaradır. ABŞ-ın "CİSCO", "İntel", "Microsoft", İsveçin "Ericsson", Almaniyanın "Siemens", Çinin "Huawei" şirkəti Azərbaycanda yaradılan texnoparkların formalaşmasında fəal surətdə iştirak edirlər [2].

Müasir dövrdə iqtisadiyyatın qarşısında duran əsas vəzifə iqtisadi sistemin fəaliyyət mexanizmini aydınlaşdırmaqdır. Yəni, bazarda formalaşan və istehsalın bütün sahələrinə təsir göstərən iqtisadi qanunauyğunluqların aşkara çıxarılması və öyrənilməsidir. İqtisadiyyatın müxtəlif sahələrində aparılan islahatlar, dünyanın inkişaf etmiş ölkələrinin təcrübələrindən istifadə etməklə İKT-dən məqsədəuyğun şəkildə istifadə elektron idarəetmənin bərqərar olmasına və demokratik intellektual səviyyəsi yüksək cəmiyyətin qurulmasında mühüm addımdır. İnformasiya texnologiyalarının biznesə inteqrasiyası dünya bazarında məhsul və xidmətlərin istehsalçılarının imkanlarını genişləndirməklə istehlakçıların günü-gündən artan tələbatlarını təmin edir [4].

İnformasiya texnologiyalarından istifadənin və iqtisadi inkişafın səviyyəsindən asılı olaraq elektron ticarətin müxtəlif dünya ölkələrində inkişaf səviyyəsi fərqlidir. Bu sahədə lider ABŞ-dır və Avropa ABŞ-dan 2-3 il geri qalır. Elektron ticarət bir çox dünya ölkələrinin iqtisadiyyatının strukturunda köklü dəyişikliklərə və yeni iqtisadi inteqrasiyaya səbəb olmuşdur. Elektron ticarətdə İnternetdən istifadə xüsusi əhəmiyyətə malikdir. Belə ki, İnternet ölkələrin öz məhsul və xidmətləri ilə dünya bazarına çıxmalarına, malların böyük məsafələrə çatdırılmasına imkan verir. Elektron ticarətin və ya biznesin elektron variantda aparılması elektron sənəd dövriyyəsini və elektron ödəmələri birləşdirir. Elektron ticarət həm də tərəfdaşlıq əlaqələri bazasında mal və xidmətlərin mübadiləsini elektron kommunikasiya vasitələri ilə aparmağa imkan yaradır [4].

Dünya iqtisadiyyatında həyata keçirilən bir mexanizm də informasiya-marketinq şəbəkəsidir. Bu sistemin əsas vəzifəsi elektron imzaları təsdiq edən elektron mərkəzlərin və elektron ödəmə sistemlərinin təmin edilməsidir [5].

İKT iqtisadiyyata nüfuz etməklə onun qloballaşmasına, təsiredici faktorların yaranmasına, iqtisadiyyatın geniş müstəvini əhatə etməsinə səbəb olmuşdur. Bugünkü iqtisadiyyat İKT-nin təsiri nəticəsində informasiya əsaslı bazada inkişaf edir.



İqtisadiyyatda İKT-nin tətbiqi səmərəli, gəlir gətirən və yüksək artım tempini təmin edən bir texnologiya kimi özünəməxsus xüsusiyyətlərə malikdir. Bu xüsusiyyətlərə ölkənin, region və ya müəssisənin mövcud vəziyyətini nəzərə almaqla ayrı-ayrı göstəricilərə və aspektlərə görə qiymətləndirilmə, maliyyə əmsallarının hesablanması və müqayisəli qiymətləndirilməsi, əldə olunacaq gəlirlərin əvvəlcədən müəyyən olunması aid edilir. Bunlar da öz növbəsində ölkələrdə iqtisadi inkişafın İKT-dən asılılığının artması və müasir tələbatda bu sahənin aparıcı rolunun yüksəlməsi ilə izah edilir ki, İKT-nin istehsalında aparıcı mövqe tutan ölkələrdə bu inkişaf və təsir daha güclüdür. Bəzi ölkələrdə texnologiyaların istifadəsinin daha baha başa gəlməsi və xərclərin yüksəkliyi, iqtisadi inkişafın rolunun aşağı səviyyədə olması əsas diqqət çəkən faktorlardır. Bu səbəbdən İKT sahəsində çalışan mütəxəssislərin ixtisasları artırılır, proqram təminatı məhsullarının istehsalına xüsusi diqqət verilir [3].

Müasir tələbat və standartlara cavab verən İKT-dən istifadə dünya informasiya sisteminin lazımi məlumatlarının dəqiq, operativ və sürətlə əldə olunmasına şərait yaradır. İKT-nin təsiri ilə yanacaq-energetika, metallurgiya, kənd təsərrüfatı sahələrində məhsulların keyfiyyət və məhsuldarlığı

artır, qiymətlər tələbatın artırılması üçün aşağı salınır. Bu da ümumi istehsalat proqramına riayət etmək, plan və tapşırıqların yerinə yetirilməsinə nəzarət etməklə həyata keçirilir [4].

İqtisadiyyatda İKT-nın rolunun artırılması informasiya sistemlərinin yaradılması və onlardan istifadənin genişləndirilməsinə təsir etməklə yüksək nəticələrin əldə olunmasını tələb edir. Sənaye məhsullarının istehsalı, aqrar sahənin inkişafı, o cümlədən kənd təsərrüfatı məhsullarının, tərəvəz bitkilərinin yeni üsullarla istehsalı, istehsal olunmuş məhsulların saxlanması və qablaşdırılması, yeni toxum və becərmə texnologiyalarının işlənib hazırlanması İT-ların tətbiq olunması ilə müşayət olunur [5].

İKT-nin iqtisadi inkişafda rolunun dünya ölkələrində müxtəlifliyi bu texnologiyaların, texniki və proqram vasitələrinin fərqləri ilə şərtləndirilir. İKT-nin istehsalında aparıcı rola malik ölkələrdə bu inkişaf yuxarı səviyyədədir. Qərbi Avropa ölkələrində informasiya texnologiyaları bazarı Mərkəzi və Şərqi Avropa ölkələrinə nisbətən daha çox inkişaf etmişdir.

Dünya İT bazarında İT xidmətləri daha çox üstünlüyə malikdir və bu xidmətlər ümumi məhsulun 40%-ni təşkil edir. O cümlədən Qərbi Avropa ölkələrində İT xidmətləri 44%, Mərkəzi və Şərqi Avropa ölkələrində isə 24% təşkil edir. Bu ondan irəli gəlir ki, Mərkəzi və Şərqi Avropa ölkələrində İKT avadanlıqları üstünlük təşkil edir. İKT-nın proqram təminatı xarici ölkələrdə istehsal edilmiş və idxal olunan proqram vasitələri ilə ödənilir. Bu problemi həll etmək üçün xüsusi bacarığa malik intellektual səviyyəsi yüksək olan mütəxəssislərin və ixtisasçıların olması vacibdir.

Son dövrlərdə Avropa ölkələri ilə yanaşı Asiya ölkələrində (Çin, Hindistan), bir çox ərəb ölkələrində də İKT-nin inkişaf tempi yüksəlir. Eyni zamnda İKT sahəsində çalışan mütəxəssislərin və ixtisaslı kadrların sayı durmadan artır.

Bəşəriyyət qloballaşdıqca, insanların düşüncə tərzləri dəyişdikcə, elmi nailiyyətlər artdıqca, yeni-yeni informasiya-kommunikasiya texnologiyaları tətbiq olunduqca dünya iqtisadiyyatının tələbləri də dəyişir. İqtisadiyyatın inkişafı elm tutumlu məhsulların istehsalı ilə bağlı olduğundan, korporativ informasiya sistemləri yaradılır, İKT-nin iqtisadiyyatda tətbiqi investisiyaların cəlb edilməsinə gətirib çıxarır [3].

Dünya ölkələrinin inkişafında İKT-nin rolunun əhəmiyyəti ildən-ilə dəyişir. XXI əsrin əvvəllərindən başlayaraq yeni texnologiyaların tətbiqində, avadanlıqların, güclü proqram vasitələri və məhsullarının istehsalında müvəffəqiyyət əldə olunmuşdur. Bütün sahələrdə İKT-nin geniş tətbiq edilməsinə və informasiya xidmətlərinin müasir tələblərə uyğun qurulmasına diqqət artırılmışdır. İnkişaf etmiş dünya ölkələrinin təcrübələrindən yararlanaraq informasiya cəmiyyətinin tələbatlarının yerinə yetirilməsi, sahələrin ən müasir tələblərə uyğunlaşdırılması üçün qərarlar qəbul edilmişdir.

Bugünkü iqtisadiyyat İKT-nin təsiri və tətbiqi nəticəsində informasiya əsaslı bazada inkişaf etməyə başlamışdır. Müasir dünyanın inkişafında başlıca mövqe material dəyərlərin istehsalı və bölüşdürülməsi, informasiyanın yığılması, emalı və ötürülməsidir.

Müasir dövrdə İKT-nin tətbiqi hər bir müəssisə rəhbərinin qarşısında vəsaitlərin istehsalın artırılmasına və istənilən müəssisənin bazarda öz yerini saxlamaq üçün effektiv işləyən informasiya sisteminə malik olmasıdır. Azərbaycanda da innovasiyalı iqtisadiyyatın yaradılması, iqtisadiyyatda İKT-nin rolunun artırılması üçün çoxşaxəli tədbirlər həyata keçirilir. İKT sahəsi prioritet sahə kimi irəli sürülərək inkişaf etdirilməsi qarşıya ən ümdə məqsəd kimi qoyulub. Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi nəzdində İnformasiya Texnologiyalarının İnkişafı Dövlət Fondu İKT sahəsində dövlət siyasəti həyata keçirərək sahibkarlıq fəaliyyətini dəstəkləyir, müasir infrastrukturun inkişafına təkan verir, kiçik və orta sahibkarlıq subyektlərinə maliyyə dəstəyi göstərir, bu sahəyə yerli və xarici investisiyalar cəlb edir. Bu da İKT məhsullarının istehsalı və idxalını sürətləndirərək İKT məhsullarının istehsalını stimullaşdırır [3].

Son illərdə dünyanın ən yüksək iqtisadi artım tempinə malik ölkələrindən biri kimi Azərbaycan iqtisadi keyfiyyət baxımından yeni mərhələdədir. İKT-dən səmərəli istifadə üçün ardıcıl addımlar atılmış, bu istiqamət dövlət siyasətinin prioritetlərindən birinə çevrilmişdir. Ulu öndər Heydər Əliyevin rabitə və informasiya texnologiyaları sahəsində təməlini qoyduğu siyasətin əsas məqsədlərinə İKT sahəsində hüquqi əsasların yaradılması, insan amilinin inkişafı, vətəndaşların məlumat almaq, onu yaymaq və istifadə etmək hüquqlarının genişlənməsi, elektron hökumətin, elektron ticarətin formalaşması, ölkənin iqtisadi, sosial və intellektual potensialının möhkəmləndirilməsi, informasiya və biliklərə əsaslanan, rəqabətə davamlı iqtisadiyyatın qurulması kimi fundamental məsələlər

daxildir. Azərbaycanda güclü intellektual bazanın, müasir biliklərə əsaslanan yeni tipli iqtisadi sistemin formalaşdırılması, milli iqtisadiyyatın neft amilindən asılılığının azaldılması, gənc nəslin bilikli, savadlı olması, ən qabaqcıl texnologiyaların Azərbaycana gətirilməsi iqtisadiyyatın inkişafına təkan verir və ölkənin gələcəyi məhz iqtisadiyyatın inkişafı istiqamətində davam etdirilir.

Respublikada müasir informasiya və kommunikasiya infrastrukturunun yaradılması, fiziki və hüquqi şəxslərin məlumatlara, həmçinin dövlət, ictimai və sahə informasiya resurslarına çıxışının genişləndirilməsi, dövlət idarəçiliyinin bütün səviyyələrində İKT həllərinin tətbiqi, dövlət informasiya sistemlərinin formalaşdırılması və inkişaf etdirilməsi, dövlət orqanları arasında etibarlı və təhlükəsiz informasiya mübadiləsinin həyata keçirilməsi üçün servis şəbəkəsi inkişaf etdirilir.

Açar sözlər: informasiyalaşmış cəmiyyət, informasiya xidmətləri, İKT infrastrukturu, milli iqtisadiyyat, iqtisadi inkişaf

İstifadə edilmiş ədəbiyyat

1. Allahverdiyeva N., Namazov M. Kompüter və İnformasiya kommunikasiya texnologiyaları. Bakı: Ali Neft Məktəbi, 2012, 156 s.
2. Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair 2014-2020-ci illər üçün Milli Strategiya. Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 02 aprel tarixli Sərəncamı ilə təsdiq edilmişdir.
3. Dünya iqtisadiyyatının informasiya sistemləri. http://lib.bbu.edu.az/read.php?item_type=lecture&file_type=pdf&file=17
4. Əlizadə M.N., Musayev İ.K. İqtisadi informatika. Dərslik. Bakı: Kitab Yurdu.org, 2016, 334 s.
5. Verdiyeva G. İqtisadiyyat və idarəetmə (mühazirələr). Bakı: Kitab Yurdu.org, 2015, 134 s.

Тарана Велиева

РОЛЬ ИКТ В СОВРЕМЕННОЙ ЭКОНОМИКЕ

Резюме

В статье изучается роль икт в современной экономике, анализируется применение ИКТ в экономические процессы. Отмечается, что ИКТ создает условия для глобализации экономики, обеспечения высоких экономических темпов. Подчеркивается, что ИКТ должен обеспечить создание информационной системы для увеличения производства, дать толчок развитию инфраструктуры, привлечь местные и иностранные инвестиции в эту сферу.

Ключевые слова: информационное общество, информационные услуги, инфраструктура ИКТ, национальная экономика, экономическое развитие

Tarana Veliyeva

THE ROLE OF ICT IN MODERN ECONOMY

Summary

The article examines the role of ICT in modern society, analyzes application of ICT in economic processes. It is noted that ICT creates conditions for globalization of the economy, ensuring high economic rates. It is emphasized that ICT should ensure the creation of an information system for increasing production, give impetus to the development of infrastructure, attract local and foreign investments in this sphere.

Keywords: information society, information services, ICT infrastructure, national economy, economic development

UOT – 330.43

Müharib Zeynalov
Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası, i.ü.f.d., dosent

Daşqın Adgözəlov
Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası

EKONOMETRİK MODELLƏRİN TƏTBİQİ İLƏ İQTİSADİ İNKİŞAFIN PROQNOZLAŞDIRILMASI

Məqalədə ekonometrik modellərin köməyi və zaman sırasının ekstrapolyasiya yolu ilə iqtisadi inkişafın proqnozu verilmişdir. Belə ki, ekonometrik modellər vasitəsilə əvvəlcə Ümumi daxili məhsulun zamana görə dəyişməsinin nöqtəvi proqnozları hesablanıb, ona uyğun olaraq əhali gəlirlərinin planlaşdırma üfüqünün 2018-2022 zaman momentləri üçün proqnozları verilmişdir.

İqtisadiyyatın gələcək inkişafı planlaşdırma və proqnozlaşdırma vasitəsilə müəyyən edilir və istiqamətləndirilir. İqtisadiyyatın səmərəli idarə edilməsi məhsuldar qüvvələrin yüksək inkişafını təmin edir və onun sürətlə artması üçün şərait yaradır.

Bir sıra proqnozlaşdırma metodları vardır ki, onlarında köməyi ilə iqtisadi inkişafı proqnozlaşdırmaq mümkündür. Bu metodlara:

1. Evristik yanaşmalar;
2. Delfi metodu;
3. Trend metodu;
4. Rasional büdcə metodu;
5. Normativ yanaşmalar və digərləri aid edilə bilər.

Bu metodlarla yanaşı ekonometrik metodlar və modeller vasitəsi ilə iqtisadi inkişafı proqnozlaşdırmağa cəhd göstərəcəyik.

Elmi-konseptual yanaşma baxımından mövcud proqnozlaşdırma metodlarını aşağıdakı kimi qruplaşdırmaq olar:

- Keyfiyyət metodları;
- Kəmiyyət metodları.

Proqnozlaşdırmanın keyfiyyət metodlarına çox vaxt ekspert metodları da deyirlər. Bu metodların əsasını proqnozların verilməsində müvafiq sahənin mütəxəssislərin rəylərinə əsaslanaraq təşkil edilir. Proqnozlaşdırmanın kəmiyyət metodları isə vəziyyəti xarakterizə edən ədədi məlumat massivlərinin işlənməsinə əsaslanır. Proqnozlaşdırmanın kəmiyyət metodlarını iki qrupa ayırmaq olar:

- Səbəb-nəticə metodları;
- Zaman sırasının təhlili metodları.

Əgər keçmişdə baş verənlər gələcəyi qiymətləndirmək üçün kifayət qədər əsas verərsə, onda keçmişin meylinin aşkar edilməsi və bu meylin gələcəyə aid edilməsinin ən əlverişli yolu zaman sırasının təhlili yoludur.

Əgər indiki vəziyyət yalnız zamandan deyil, həm də bir çox başqa amillərdən asılıdırsa, onda proqnozlaşdırma üçün kauzel metodlardan istifadə edilir. Kazuel metodun əsasını prosesə təsir edən amillər arasındaki səbəb-nəticə əlaqələrinin riyazi təsvirini vermək iqtisadi sistemlərin gələcək vəziyyətlərinin proqnozlaşdırılmasında mühüm əhəmiyyət kəsb edən məqamlardan biri planlaşdırma ilə proqnozlaşdırmanın qarşılıqlı əlaqəsinin düzgün müəyyən edilməsidir. Bazar iqtisadiyyatı şəraitində plan dedikdə tədqiq edilən obyektin inkişaf modeli, qarşıya qoyulmuş məqsədə çatmağa xidmət edən tədbirlər sistemi başa düşülür [1, s.416-417].

Ümumi cəhətləri:

- Onlarda istifadə olunan informasiya qabaqlama xassəsinə malik olur və ümumi informasiya bazasında həyata keçirilir.

Fərqli cəhətləri:

- Proqnozlaşdırma tədqiqat, gələcəyi elmi cəhətdən təsvir etmək xarakteri daşıyırsa, plan-məqsədə əsaslanma xarakteri daşıyır;
- Proqnoz ehtimallı xarakter daşıyırsa, plan-normativ xarakter daşıyır;
- Proqnoz çox variantlı xarakter daşıyırsa, plan-bir qiymətli şəkildə müəyyən edilir və s.

Proqnozlaşdırmanın əsas funksiyaları:

- Gələcək haqqında fikir söyləmək funksiyası;
- Gələcəyi görmək funksiyası.

Birinci funksiya proqnozlaşdırmanin nəzəri-dərkedici aspekti ilə bağlı olub, iqtisadi sistemin mümkün və ya arzu olunan vəziyyətlərinin, alternativlərinin təsvirini nəzərdə tutursa, proqnozlaşdırmanın idarəedici aspekti ilə bağlı olan ikinci funksiya gələcək haqqında olan informasiyadan real davranışda istifadəni nəzərdə tutur.

İqtisadi sistemlər səviyyəsində proqnozlaşdırmanı zəruri edən əsas səbəb odur ki, bu sistemlər daima ətraf mühitin qeyri-müəyyənliyinin təsiri altındadır. Odur ki, idarəetmə strategiyaları hazırlayan zaman ətraf mühitin konkret vəziyyəti ilə bağlı olaraq daima bu şəraitdə adekvat olan informasiya bazasından istifadə edilməlidir [1, s.418].

Proqnozlaşdırma məhz bu istiqamətdə çıxış edərək qeyri-müəyyənliklərin doğurduğu risklərin azaldılması vasitəsi rolunu oynayır və iqtisadi sistemin tabe olduğu ətraf mühitin gözlənilən vəziyyətlərini qiymətləndirməyə imkan verir. Proqnozlaşdırma həm də qəbul edilən idarəetmə strategiyalarının yaxın gələcəkdə verəcəyi nəticələri qiymətləndirməyə xidmət edir.

İqtisadi sistemlərin proqnozlaşdırılması imkanları onunla bağlıdır ki, bu sistemlərin davranışı konkret iqtisadi qanunların və səbəb-nəticə əlaqələrinin fəaliyyəti müstəvisində baş verir. Bu qanunların əsas xüsusiyyəti odur ki, onların fəaliyyəti subyektiv faktorun - qərar qəbul edən şəxsin mövcudluğunu tələb etdiyi üçün dəyişənlər arasinda dəqiq aslılıqlara deyil, orta hesabla, ümumi şəkildə və yalnız kütləvi müşahidələr zamanı ödənən asılılıqlara əsaslanır. Beləliklə, təbiət elmlərinə aid olan qanunlara xas olan tam determiniklikdən fərqli olaraq iqtisadi qanunlar təsadüfiliklər müstəvisində reallaşırlar. Odur ki, iqtisadi sistemlər səviyyəsində gələcəyi dəqiq görmək sadəcə mümkün deyildir və iqtisadi prosesin inkişafının nə dərəcədə sabit axarda olmasından asılı olaraq proqnozun nə dərəcədə reallığa yaxın olmasını qiymətləndirmək lazımdır [2, s.211-213].

İqtisadi sistemlər səviyyəsində fəaliyyət göstərən iqtisadi qanunlara misal olaraq böyük ədədlər qanununu (iqtisadi sistemlərə xas olan kəmiyyət aslılıqları yalnız çoxsaylı müşahidələr nəticəsində aşkar təzahür edir), Valras qanununu (hər il ölkə üçün tələb edilən məhsulların dəyəri, bu ölkə içərisində satılan məhsulların dəyərinə bərabərdir), Keyns qanununu (gəlirlər artdıqca əhalinin istehlaka olan meylliliyi aşağı düşür), Engel qanununu (əhalinin gəlirləri artdıqca ayrı-ayrı nemətlərin istehlakı müxtəlif nisbətlərdə artır, daha doğrusu istehlaka çəkilən xərclərin artımı uzun müddət istifadə olunan məhsullara, əmanətlərə çəkilən xərclərin artımından daha zəif gedir), zəruri müxtəliflik qanununu (idarəedici sistemin müxtəlifliklərinin sayı idarə olunan obyektin müxtəlifliklərinin sayından az olmamalıdır) və s. göstərmək olar. İqtisadi sistemlərin proqnozlaşdırılması prosesində bu qanunların tələblərinin gözlənilməsi ilə yanaşı həm də onlara xas olan ətalətliliyi, yəni mövcud xüsusiyyətləri müəyyən dövr ərzində qoruyub saxlaması və dəyişikliklərə ani reaksiya verməməsini də nəzərə almaq lazımdır. Belə ki, ətalətliliyə nəzərən fərz edə bilərik ki, iqtisadi sistemə (t-1) zaman momentində xas olan dinamik xarakteristikaları proqnozlaşdırılan (t+1), (t+2), (t+3), … dövrlərə də şamil etmək olar.

İqtisadi sistemlərin proqnozlaşdırılmasının əsas prinsiplərinə aşağıdakıları aid etmək olar:

1. Sistemlilik prinsipi;
2. Əlaqələndirmə prinsipi;
3. Variantlılıq prinsipi;

4. Fasiləsizlik prinsipi;
5. Adekvatlılıq prinsipi.

Eyni zamanda proqnozlar üfüqünün uzunluğuna görə:
- operativ proqnozlara (1 aya qədər);
- qısa müddətli proqnozlara (1 ilə qədər);
- orta müddətli proqnozlara (5 ilə qədər);
- uzun müddətli proqnozlara (15 ilə qədər);
- uzaq müddətli proqnozlara (15 ildən yuxarı) bölünür.

Məlum olduğu kimi iqtisadi sistemin hər hansı bir göstəricisinin digər göstəricinin artan və ya azalan qiymətləri ardıcıllığından asılı olaraq nizamlanmış müşahidələri çoxluğuna ***dinamik sıra*** deyilir. Əgər dinamik sırada nizamlanma əlaməti olaraq zamandan istifadə olunmuşdursa, onda belə sıraya ***zaman sırası*** deyilir. Zaman sırası üçün proqnozlaşdırma üsulunun seçilməsi məlumatların dinamikası modelinin tipindən asılıdır.

Bu məqsədlə ekstrapolyasiya üsulundan da istifadə etmək olar.

Ekstrapolyasiya dedikdə, retrospektiv dövrdə proqnozlaşdırma obyektinin dinamikasının təhlilinə əsaslanan proqnozlaşdırma metodu başa düşülür. Ekstrapolyasiya metodu iqtisadi obyektin tədqiq edilən xarakteristikalarının dinamikasını əks etdirən funksiyanı təsvir etməyə imkan verir.

Burada funksiyanın seçilməsi prosesin dinamikasının tipindən asılıdır. Proqnoz üçün istifadə edilən funksiyalara aşağıdakılar aiddir:

1. Xətti funksiya: $y= a_0+a_1t$
2. İkinci tərtib parabola: $y= a_0+a_1t+a_2t^2$
3. Üçüncü Tərtib parabola: $y= a_0+a_1t+a_2t^2+a_3t^3$
4. Qüvvət funksiyası: $y=a_0t^{a_1}$
5. Eksponensial: $y=a_0e^{a_1t}$
6. Modifikasiya olunmuş eksponensial funksiya: $y=R- a_0e^{a_1t}$
7. Məntiqi (S şəkilli əyri) : $y=\frac{R}{1+a_1e^{-a_0t}}$
8. Hiperbola: $y=a_0+\frac{a_1}{c+t}$

İndi isə zaman sırasının ekstrapolyasiya yolu ilə iqtisadi inkişafın nöqtəvi proqnozların verilməsinə aid konkret misala baxaq [1, s.422].

Dinamik sıraların təhlili metodunu tətbiq etməklə 2018-2022-ci illəri əhatə edən proqnozlaşdırma üfüqü üçün respublika əhalisinin gəlirlərinin zaman faktorundan və ÜDM-dən asılı olaraq dəyişməsi proqnozunu verək.

Göstəricilər / **İllər (x1)**	**Əhali gəlirləri (y) (mln. manat)**	**ÜDM (x2) (mln. manat)**
2008	20735,4	40100
2009	22396,1	35000
2010	21103,6	47000
2011	20415,3	58000
2012	19673,6	59000
2013	23493,7	60000
2014	25678,3	59000
2015	18816,2	57000
2016	19918,9	60000
2017	20666,7	63000

Əlaqə tənliyi olaraq:

$Y=a_0+a_1x_1+a_2x_2$

Ən kiçik kvadratlar metodundan istifadə edərək aşağıdakı sistemin həlli nəticəsində a_0, a_1, a_2 əmsalları tapılır:

$$na_0+a_1\sum_{i=1}^{n}x_1+a_2\sum_{i=1}^{n}x_2=\sum_{i=1}^{n}y$$
$$a_0\sum_{i=1}^{n}x_1+a_1\sum_{i=1}^{n}x_1^2+a_2\sum_{i=1}^{n}x_1x_2=\sum_{i=1}^{n}yx_1$$
$$a_0\sum_{i=1}^{n}x_2+a_1\sum_{i=1}^{n}x_1x_2+a_2\sum_{i=1}^{n}x_2^2=\sum_{i=1}^{n}yx_2$$

Məlumatlardan istifadə edərək aşağıdakı sistem qurulmuşdur:

$10a_0+20125a_1+551100a_2=239700$

$20125a_1+4050156a_1+1790800a_2=79080015$

$551100a_0+7908095a_1+4330339049{,}98a_2=30371121000$

Sistemin həllində nəticəsində $a_0=980{,}1$; $a_1=201{,}04$; $a_2=0{,}25$.

$Y=980{,}1+201{,}04x_1+0{,}25x_2$

Buradan aydındır olur ki, ÜDM-in 1 mln. manat artması ilə əhalinin gəlirləri 0,25 mln. manat artır.

Korelyasiya əmsalının qiyməti isə $R_{yx_1x_2}\approx0{,}98$

Bu o deməkdir ki, əhalinin gəlirləri ilə ÜDM arasında çox sıx əlaqə vardır.

Aparılmış hesablamalar nəticəsində bu tənliyin əmsalları üçün aşağıdakı qiymətlər tapılmışdır:

$X_2=-4200{,}15+3700{,}10t$

Bu əlaqə tənliyinə görə 2018-2022-ci illər üçün ÜDM-nin zamana görə dəyişməsini nöqtəvi proqnozlarını hesablayaq

$X_2^{2018}=-4200{,}15+3700{,}10*19=66101{,}75$ mln. manat

$X_2^{2019}=-4200{,}15+3700{,}10*20=69801{,}85$ mln. manat

$X_2^{2020}=-4200{,}15+3700{,}10*21=73501{,}95$ mln. manat

$X_2^{2021}=-4200{,}15+3700{,}10*22=77202{,}05$ mln. manat

$X_2^{2022}=-4200{,}15+3700{,}10*23=80902{,}15$ mln. manat

Alınmış nöqtəvi proqnozlara görə əhalinin gəlirlərinin planlaşdırma üfüqünün 2018-2022 zaman momentləri üçün proqnozları hesablamaq üçün $Y=a_0+a_1t$ əlaqə tənliyindən istifadə edək.

Hesablamalar nəticəsində aşağıdakı tənlik alınmışdır

$Y=980{,}1+201{,}04*t$

$Y_{2018}=980{,}1+201{,}04*19+0{,}25*66101{,}75=21325{,}2935$ mln.manat

$Y_{2019}=980{,}1+201{,}04*20+0{,}25*69801{,}85=22451{,}3615$ mln.manat

$Y_{2020}=980{,}1+201{,}04*21+0{,}25*73501{,}95=23577{,}4275$ mln.manat

$Y_{2021}=980{,}1+201{,}04*22+0{,}25*77202{,}05=24703{,}4925$ mln.manat

$Y_{2022}=980{,}1+201{,}04*23+0{,}25*80902{,}15=25829{,}5575$ mln.manat

Buradan məlum olur ki, ÜDM-nin dəyişməsi meyilində kəskin dəyişikliklər baş verməzsə, əhali gəlirləri 2018-ci ildə 21325,2935 mln. manat, 2019-cu ildə 22451,3615 mln. manat, 2020-ci ildə 23577,4275 mln. manat, 2021-ci ildə 24703,4925 mln. manat, 2022-ci ildə 25829,5575 mln. manat olacağı proqnozlaşdırılır.

Nəticə etibarı ilə proqnozlaşdırma gələcəkdən xəbər vermək,gələcəyi görmək mənasını verməklə yanaşı analitik olaraq iqtisadi inkişafın proqnozlaşdırılması, proqnozlaşdırma üfüqü üçün

əhalinin gəlirlərinin zaman faktorundan və ümumi daxili məhsuldan asılı olaraq dəyişməsi üçün istifadə olunur.

Təkliflər:

1. Əhalinin gəlirlərinin artırılması üçün təbii olaraq ÜDM-a nəzər yetirmək lazımdır. Məntiqi nəticədə həyat səviyyəsi də əhalinin gəlirlərindən asılıdır. Əsas məqsəd isə ÜDM-nin çəkisinin artırılması ilə qeyri-neft sektorunun, prioritet sahələrin inkişafını stimullaşdırmaq lazımdır.
2. Proqnozlaşdırmanın istifadə imkanlarının genişləndirilməsi yəni qeyri-müəyyənliklərin doğurduğu risklərin azaldılması vasitəsi ilə rolu genişləndirilməlidir.
3. Proqnozlara daim diqqət yetirmək, proqnozlar tərtib edildikdə iqtisadi böhranlar, gözlənilən inflyasiya şəraiti, bazar konyukturası nəzərə almalıdır.

Açar sözlər: proqnozlaşdırma, ekstrapolyasiya, ekonometrik modellər, dinamik sıra, zaman sırası, əlaqə tənliyi

İstifadə edilmiş ədəbiyyat

1. Hacızalov Y.İ., Sadıqov Ş.M. İqtisadi sistemlərin riyazi modelləşdirilməsi. Bakı: İqtisad Universiteti nəşriyyatı, 2015, 418 s.
2. Hacızalov Y.İ., Zeynalov M.Y. İqtisadi kibernetika. Dərs vəsait. Bakı: İqtisad Universiteti nəşriyyatı, 2012, 324 s.

Мухариб Зейналов
Дашгын Адгёзялов

ПРОГНОЗИРОВАНИЕ ЭКОНОМИЧЕСКОГО РАЗВИТИЯ С ПРИМЕНЕНИЕМ ЭКОНОМЕТРИЧЕСКИХ МОДЕЛЕЙ

Резюме

В статье рассматриваются вопросы использования эконометрических методов в целях прогнозирования экономического развития. Даются прогнозы ВВП и доходов населения за период 2018-2022гг.

Ключевые слова: прогнозирование, экстраполяция, эконометрические модели, динамические ряды, временные ряды, уравнение связей

Muharib Zeynalov
Dashqin Adgozalov

FORECASTING OF ECONOMIC DEVELOPMENT WITH THE APPLICATION OF ECONOMETRIC MODELS

Summary

The article examines the use of econometric methods to forecast economic development. The forecasts of GDP and incomes of the population for the period 2018-2022 are given.

Keywords: forecasting, extrapolation, econometric models, dynamic series, time series, connection equation

"ƏMƏK və SOSİAL MÜNASİBƏTLƏR"

Elmi-praktiki jurnal

№ 1 (09), 2018

Redaktorlar:

Gülnarə Hacıyeva, Qızılgül Əlimirzəyeva

Kompüter tərtibatı:

Pərvanə Məcidova

Dizayn:

Mail Xəlilov

Yığılmağa verilib: 04.06.2018
Çapa imzalanıb: 09.07.2018
Format: 70x100 16/1
7.6 ş.ç.v
Tiraj: 100